**İRADƏ SARIYEVA**

# GÖZLƏ, GƏLƏCƏYƏM

***(sənədli povest)***

**Bakı - 2017**

RXK-29
AZ.2017
Seriya AV № 022049
A-049

Müəllif:
**İradə Sarıyeva**

Redaktoru:
**Zülfüqar Şahsevənli**

Layihənin rəhbəri:
**Nəzakət Məmmədova**

Rəyçi:
**Aydın Quliyev,**
**“Bakı-xəbər” qəzetinin baş redaktoru**

**İradə Sarıyeva, “Gözlə, gələcəyəm” (sənədli povest),** Respublika Xatirə Kitabı redaksiyası, Bakı ş., 2017, 160 səh. + 40 səh. şəkildəfərçə

Tanınmış publisist İradə Sarıyevanın «Gözlə, gələcəyəm» sənədli povestində 23 yaşında Vətən uğrunda şəhid olmuş xalqımızın cəsur oğlu, gizir, kəşfiyyatçı-snayper Aydın Əmirsoltan oğlu Abdullayevin keçdiyi şərəfli ömür yolundan söhbət açılır.

Son dərəcə təsirli səhnələrlə zəngin olan bu kitabı şəhidlərimizin müqəddəs ruhlarına yazılmış elegiyaya bənzətmək olar.

İnanırıq ki, nəsillərə nümunə olacaq şəhid Aydın Abdullayevin ömür yolundan bəhs edən bu kitabı oxucularımız maraqla qarşılayacaqlar.

© Respublika Xatirə Kitabı
redaksiyası, 2017

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Xatirə Kitabı Redaksiyası "Bakı-xəbər" qəzeti ilə birgə layihə əsasında «Şəhidlər ölməz, Vətən bölünməz» seriyasından bədii-publisistik kitabların nəşrinə başlayır. Vətənimizin bütövlüyü, bölünməzliyi, müqəddəs torpaqlarımızın – doğma Qarabağımızın erməni işğalından azad edilməsi uğrunda şəhid olmuş övladlarımızın keçdiyi şərəfli ömür yolunu əks etlirən bu kitablar onların xatirəsini yaşadan, ucaldan ən gözəl abidədir.

Respublika Xatirə Kitabı redaksiyasında nəşr olunacaq nəfis tərtibatlı, rəngli şəkillərlə, unudulmaz xatirələrlə süslənmiş bu kitabları respublikamızın tanınmış yazıçı və publisistləri qələmə alacaqlar.

«Şəhidlər ölməz, Vətən bölünməz» seriyasından çap edəcəyimiz kitablar hər bir məktəblinin, hər bir Azərbaycan gəncinin stolüstü kitabı olacaq. Redaksiyamız bu ümidlə uzun, çox uzun bir səfərə çıxır. Bu yol bizi yurdumuzun hər qarışında uyuyan şəhid oğullarımızın böyüyüb boya-başa çatdığı ünvanlara aparacaq.

Üz tutduğumuz ilk ünvan şəhid Aydın Abdullayevin ata ocağıdır.

***Nəzakət Məmmədova,***
*Respublika Xatirə Kitabı*
*redaksiyasının Baş redaktoru*

# «Gedirsən, tez qayıt gəl,
# Gözü yolda qalan var...»

Hər yazılan yazının öz taleyi var. Bu yazım qəfil gülləyə tuş gələn Vətən sevdalısı, Vətən məcnunu Aydının yazısıdı. Bax, bu anda övladının qanlı köynəyinə ağı deyən bir atanın, bir ananın günündəyəm. İstedadlı qələm dostum İradə Sarıyevanın köksündən vurulan yaralı bir durna harayına bənzəyən sətirlərinin arxasından Aydının Ay işığı çöhrəsini görürəm, pıçıltılarını eşidirəm elə bil.

Uşaqlıq illərim yadıma düşür, anamın nigaran, narahat səsi qulaqlarımda əks-səda verir: "Gedirsən, tez qayıt gəl... Qayıt gəl! Qayıt gəl!!!" Gözlərim yaşla dolur. Qeyri-iradi olaraq pıçıldayıram: «narahat olma, ana, narahat olma, indicə qayıdıram».

Aydın da son döyüşə gedəndə anasına, könül verdiyi Könülünə: «Qayıdacam!» – demişdi. Amma pusquda yatan namərd gülləsi son sözünü ürəyində, son arzusunu gözlərində qoydu onun. Bir cəsur, yenilməz, qəhrəman Vətən övladımız da beləcə şəhid oldu.

Aydının yazdığı miniatür biçimli şeirləri, soyuq səngərdə çəkdiyi şəkilləri, cizgiləri mənə tanış gəlir. Mən bu şeirləri, şəkilləri qırx il bundan əvvəl Sovet İttifaqı Qəhrəmanı, eloğlum Gəray Əsədovun məktublarında da görmüşdüm. Mən bu kövrək misraları, and kimi səslənən odlu-alovlu sözləri xalqımızın cəngavər oğlu, Şahsevən nəslinin qüruru, əfsanəvi qəhrəman Mübariz İbrahimovun məktublarından oxumuşdum. Vaxt, zaman fərqli olsa da bu qəhrəmanların hər üçü duyğu və düşüncələrində birləşirlər. Onları birləşdirən Vətən sevgisi, Azərbaycana – doğma yurda olan böyük məhəbbətdir. Mən qəhrəmanlığın sirrini, sehrini, fəlsəfəsini, şəhidliyin müqəddəsliyini bu sadə, səmimi, ürək kimi döyünən məktublarda, şeirlərdə tapmışdım.

Hər üçü də ürəyi bu yerlər, bu göylər, bu maviliklər kimi geniş olan kasıb bir ailənin balası… Kasıb bir ailənin balası, amma sevgili can Azərbaycanın qüruru, qalası. Mən hər üç qəhrəmanı böyüdən ataların, anaların bir-birinə necə bənzədiyinə heyrət edirəm. “Ot kökü üstə bitər”, “Qəhrəmanlıq südnən, sümüknən gələr” sözlərinin doğruluğunu, hikmətini sanki dərinliyinə qədər indi duyuram.

Aydını qəhrəman kimi böyüdən Əmirsoltan qardaşımı dinləyirəm. Səsi titrəyir. Gözlərindəki yaş şəhid balasına olan böyük sevgisidir. Aydının ən adi cizgilərini belə elə sevgiylə təsvir edir ki, heyrət edirəm. Əzbər dediyi şeirlərin istiliyi, hərarəti yeddi qatımdan keçir.

Övladı şəhid olan tanıdığım ataların, anaların hamısını belə gördüm. Mərd, məğrur, əyilməz, sinəsi dolu.

Təsəlli vermək istəyirəm. “Vətən sağ olsun”, – deyir. – Qardaş Türkiyədə şəhid adına, şəhid məqamına necə hörmət edirlər! Biz hələ çox şeyləri öyrənməliyik. İllər uzunu o hissləri, o duyğuları bizdə öldürüblər. Amma yanılıblar. Yanılıblar ki, damarlarımızda min illərdir yol gələn, qışqıran, fışqıran bir qeyrət, bir qan, bir can var.

Mən Aydınımla qürur duyuram, fəxr edirəm. Atalar oğulları böyütdüyü kimi oğullar da ataları böyüdür, ucaldır. Atalarının, analarının, torpağının, Vətəninin başını uca edənlər – şəhid olanlar Tanrı dərgahındadır!

Bu məğrur, bu qürurverici sözlərin qarşısında susmaq istəyirəm. Bu sükut Aydının, bütün şəhidlərimizin müqəddəs ruhunu, xatirəsini yad etməkdir. Bu sükut hər birimizin öz vicdanı qarşısında düşünüb-daşınmağımız üçün bir məqamdı.

Aydın bir nəğmə ömrü yaşadı. Sınmış, çiliklənmiş nəğmə ömrü deməyə dilim gəlmir heç. O nəğmə susmayacaq əbədi bir nəğmədi:

***Gedirsən, tez qayıt gəl,***
***Gözü yolda qalan var.***

Nə qədər gözü yolda qalanlarımız var, o nəğmə susmayacaq. Könülün könlündəki nisgilli haray kimi:

***Qayıt gözüm nuru, könlüm atəşi,***
***Qayıt sahmana sal bu kainatı.***

Əmirsoltan bəyə, Sevil xanıma belə qeyrətli, cəsur, qəhrəman oğul böyütdükləri üçün « Sağ olun!», – deyirəm. – Aydın indi bütün Türk dünyasının oğludur.

Şəhidlər ölməz, Vətən bölünməz!

İnsan özündən sonra nə qoyub gedir bu gəlimli-gedimli, son ucu ölümlü dünyada?! Beş-on kəlmə şehli söz, aylı bir nəğmə, heç vaxt saralmayacaq, solmayacaq, unudulmayacaq şərəfli bir ad.

23 il yaşadı Aydın bu dünyada. Sabah doğulacaq neçə-neçə Aydınlara yol göstərəcək dan ulduzuna, əbədiyyətə aparacaq yola, heç vaxt enməyəcək ay-ulduzlu bayrağa döndü.

"Şəhidlər ölməz", – deyirlər.

Bir qızın göz yaşlarında, bir atanın ahında, bir ananın naləsində, bir qardaşın nisgilində, bir körpənin ağlar dilində yaşayan Aydına nakam deməyə dilim gəlmir heç. Vətənləşən, sevgili Vətənin övladı kimi uca, əlçatmaz şəhidlik məqamına ucalanlara nakam sözü yaraşmır.

Neçə illər bundan öncə dünyadan vaxtsız-vədəsiz köçmüş oğlum Müşfiqə yazdığım yaralı misralar yadıma düşür:

***Bir alınmaz qalam oldun,***
***Məni məndən alan oldun,***
***Daha doğma balam oldun,***
***Müşfiq üz qoyduğu torpaq.***

Bu nisgilli, yaralı nəğməyə bənzər kitabı oxuyub sona çatarkən səni qoynuna alan torpağı elə sevdim, elə əzizlədim ki…

***Daha doğma balam oldun,***
***Aydın üz qoyduğu torpaq,***

– dedim.

***Zülfüqar ŞAHSEVƏNLİ***

# Şəhid gizir Aydın Abdullayevin yarımçıq ömrünün dastanı...

***Vətən gözdür, biz kirpik,***
***Gözümüzün keşiyini çəkirik.***

Kirpiklər çitəmə çəpər kimi, sal qaya kimi düşmən qarşısını kəsən oğullardır. Qanlı köynəklərini bayraq edən, ölümüylə ölümü ucaldan, ölümsüzlüyə, əbədiyyətə qovuşan oğullar!

Dərd heykəli qoyulsa, anaların yol çəkən gözlərinə heykəl qoyardım.

***Qara dərdim,***
***Ağ sərdim, qara dərdim.***
***Dağlarda qarmı qalar,***
***Söyləsəm qara dərdim.***

Aman Allah, bu bayatı harayı, bu bayatı naləsi analarımızın bəxtinə, taleyinə, qismətinə biçilib elə bil.

Bir evin gur işıgı, yaraşığı doğulmuşdu o da… Amma...

***Məni nə gözləyir,***
***Sevincmi, qəmmi,***
***Eh, bilirəmmi?***

– sualı yolunun üstündə dayanmışdı.

Adını Aydın qoymuşdular... Sabahın aydın, işıqlı, elcanlı, yurdcanlı bir övladı olacağına inanırdı ata-anası. Əksər hallarda ad insanın şəxsiyyəti ilə harmoniya təşkil edir, yəni insan öz adını doğruldur. Adını doğruldanlar o insanlardır ki, həyatda neçə il yaşamasından asılı olmayaraq, özlərindən sonra dərin izlər qoyub gedirlər, şəhid gizir Aydın Əmirsoltan oğlu Abdullayev kimi.

Nə zamanın küləkləri, nə də tufanları bu adı silə bilməyəcək. Vətən, torpaq yaddaşına yazılan adlar əbədi yaşayır. Şəhidlərin getdiyi yol mübarək yoldur. Onlar Tanrı tərəfindən seçilmiş insanlardır ki, alınlarına şərəfli ölüm yazılır. Şərəfli ölüm hər oğula nəsib olmur. Əlbəttə, övladı şəhid olan ata-ana ömrü boyu ağlayır, odsuz-ocaqsız alışıb yanır, amma bu göz yaşının içində, təbii, qürur hissləri də yox deyil. Hər bir şəhid ata-anası Vətən uğrunda canını fəda etmiş övladı ilə fəxr edir. Doğrudur, bunu dəhşətli sarsıntı ilə yaşayırlar, övlad itkisi onların həyatında acı rüzgar kimi əsir, dincliklərini, sevinclərini alıb aparır, bənövşə kimi boynubükük qalır, ancaq bununla belə, "Vətən sağ olsun!" deməyi bacarırlar. Qürurun, mərdliyin, dəyanətin, dözümün qarşısında baş əyirik şəhid anası, şəhid atası!

Şəhid gizir Aydın Abdullayev xalqımızın qəhrəman oğullarındandır. O çox az yaşadı, amma mənalı yaşadı, nümunə göstərdi – şəhidlik nümunəsi... Bəlkə də bilirdi ki, şəhidlik onun missiyasıdır. Əsgəri xidməti başa vurduqdan qısa müddət sonra yenidən Azərbaycan Silahlı Qüvvələrində xidmətə qayıtmışdı. Aydının ən böyük arzusu işğal altında olan torpaqlarımızın erməni tapdağından xilas olunmasında iştirak etmək, üçrəngli bayrağımızı irz-namusumuz olan torpaqlarımıza sancmaq idi. Xidmətdə çəkdirdiyi şəkillərin çoxunda Aydın Abdullayev Vətən bayrağına sarılıb. Sonra o bayraq şəhidin tabutuna çəkildi. Xalqımızın igid oğlu son mənzilə üçrəngli bayrağımızın ağuşunda yola salındı.

## *Gözlər oğul yolunda...*

Şəhid ailələrini ziyarət etmək, şəhidlərin keçdiyi ömür yolunu dastanlaşdırmaq, döyüş şücaətini yazıya çevirmək, təbliğ etmək qələm əhlinin borcudur. Şəhidlər öz canlarını qurban verməklə Vətənin borcundan çıxa bilirlər.

Oğul dərdi böyük dərddir. Amma Vətən dərdi, Vətən taleyi var ikən haqqımız varmı qəm dustağı olaq?!

Başın sağ olsun, Vətən! Nə qəmli, nə məğrur nida… Bəzən oğlu bu dünyadan vaxtsız-vədəsiz köçmüş anaları yuvası dağılmış bülbülə bənzətmişəm. Könlü isinməz, evi bumbuz soyuq, ürəkləri qan ağlayan analar…

***Ümidim yaralı bir quş,***
***Qolum-qanadım qırılmış.***
***Üşüyürəm, xəzəl olmuş***
***Yarpağı örtün üstümə.***

Amma şəhidlik Tanrı məqamıdı, yenilməzlik simvoludu. Şəhid anası olmaq hər kəsəmi nəsib olur?

Vətən uğrunda şəhid olmaq hər kəsinmi qismətidi? Sən bir evin oğlu ikən indi Vətənin – Böyük Azərbaycanın övladısan. Sən bir ocağın anası ikən indi bir ölkənin qüruru – Şəhid Anasısan!

Aydın işğal altında olan, üzünü görmədiyi, qoynunda gəzmədiyi Vətən torpağının həsrətində idi. Ana balasına, leylək yuvasına can atdığı kimi o da doğma yerləri azad etmək, boynubükük dağlarımıza, dili kilidlənmiş bulaqlarımıza qovuşmaq arzusundaydı. Qara niyyətli qarı düşmənin gülləsinə tuş gəldi. Şəhidlik məqamına ucaldı. Şəhidlik məqamı! Ondan o yana yol varmı?

Şəhid Aydın Abdullayevin vaxtilə yaşadığı Bakı şəhəri, Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsi, "V" massivi, ev 24, mənzil 33 ünvanı bu gün çoxlarının ziyarət yerinə çevrilib. Çünki zaman vardı ki, Aydın Abdullayev bir ailənin sevinci idi, lakin indi o, elin qürur, fəxr yeridir, ölümündən sonra ata ocağını ziyarət ünvanına çevirib. 33 saylı mənzilin qapısını həyəcansız döymək olmur. Qapının dəstəyinə əl vurarkən, sövq-təbii olaraq, canından bir gizilti keçir, ürəyində ağrı dillənir. İllah da biləndə ki, qapının arxasında səni bir cüt qaynayan bulağa bənzər ana gözləri gözləyir, onda tamam başqa əhvalda olursan... Kaş analar heç ağlamayaydı, heç bozlamayaydı, heç dərd-qəm çəkməyəydi. Şəhid anası, sənin qürurun, mərdliyin, dözümün hər kəsə nümunə olmalıdır. Çünki səni dərd məğlub etməli deyil. Adı Azərbaycanla bir olan oğul doğub ərsəyə çatdıran ana gərək sınmasın!

"Sil göz yaşlarını, şəhid anası!".

Aydın Abdullayevin anası Sevil xanım oğlunun şəhid olması xəbərini alandan sağalmaz xəstəliyə mübtəla olub. Həkimlər, loğmanlar ananın dərdinə çarə tapa bilmir. Hardan tapa bilsin də... Onun könlü oğlunu istəyir. Qardaşının adını qoyduğu oğlunu görmək istəyir yeni-

dən. Boynuna sarılıb "boyuna qurban, ağıllı balam" demək istəyir. Bu gün ana Aydının dərdini unuda bilmir, dərdli şeirlər, yaralı şeirlər onun ağrısına, nisgilinə təsəlli olur ancaq.

"Xatirə kitabı" redaksiyasının baş redaktoru, eyni zamanda da "Yada düşdü" jurnalının baş yazarı Nəzakət xanım Məmmədli Sevil ananın dərdinə şərik çıxır, bala dağına layla deyir. Bu qaibanə səs, avaz bütün şəhid analarına təsəllidi, gözaydınlığıdı:

## Sil göz yaşlarını, şəhid anası

***Köksündə ağrı var dağın, daşın da,***
***Qan izi buğlanır hər qarışında.***
***Oğlun heykəlləşib yurd yaddaşında,***
***Sil göz yaşlarını, şəhid anası.***

***Haqqın, həqiqətin sözü səndədir,***
***Sevgi ocağının közü səndədir***
***Millətin, Vətənin gözü səndədir,***
***Sil göz yaşlarını, şəhid anası.***

***Dözümün, təmkinin lap son həddisən,***
***Namusun, qeyrətin pak sərhəddisən.***
***Düşmən bizə baxır, əymə qəddi sən,***
***Sil göz yaşlarını, şəhid anası.***

Bu bir şəhid anasına gərək olan təsəllidir. Şəhid valideynlərinin qanadlandığı, ümidləndiyi təsəlli.

Analar təkcə öz ömürlərini yaşamırlar. Bir ömürdə neçə-neçə ömür yaşayırlar. Bizi dünyaya gətirən, gecələr yatmayan, laylaları ilə bizi uyudan, oxşamaları ilə bizi oxşayan, nazlamaları ilə bizi nazlayan, öygüləri ilə bizi ucaldan analar. Qolları yüyrük, dilləri yüyrək, əlləri pilə analar… Sən «dərdin, kədərin özündən belə balalarına səadət yaratmaq» istədin. Həqiqətən, cənnət sənin ayaqların altındadı, ana!

Deyirlər, Türkiyə Cümhuriyyətinin qurucusu Böyük Mustafa Kamal Atatürk anası ilə görüşərkən, dizlərini yerə qoyub onun əllərindən öpmək istəyərkən, anası oğlunu ayağa qaldırmış, «qoy mən sənin əllərindən öpüm, yavrum, – demişdir. – Mən səni dünyaya gə-

tirdim. Sən isə, Böyük Türkiyəmizi bizə bəxş etdin, milyonlara həyat verdin. Mən sənə minnətdaram, səninlə qürur duyuram, yavrum!».

Hər bir şəhid övladımız bir ocağın işığı, bir ananın sevimli yavrusu olub, amma sonra böyük Azərbaycanın – bütün anaların övladı, qüruru, and yerinə dönüb.

Gəlimli, gedimli, son ucu ölümlü dünyada şəhidlik zirvəsinə ucalmaq hər kəsəmi qismət olur?

Aydın Abdullayevin anası Sevil Məcnunqızı dərd heykəlidi. Gecələri yuxusuz, gündüzləri fikirli, dalğın keçirən dərd heykəli! Bəzən elə bilir ki, qapını döyən Aydındır, telefon zəng çalanda ona elə gəlir ki, Aydındır zəng vuran. Ana boylanır, ana narahatlıqla ailə üzvlərinin kədərli gözlərinə baxır, bəlkə balasından bir soraq verən tapıldı. Deyir ki, balamın şəhid olduğuna inanmıram, bəlkə nə vaxtsa qayıdıb gələcək. Sevil ana bizimlə söhbətində dedi ki, onun oğlu işğal altında olan torpaqlarımızı azad etmək üçün vəd vermişdi, torpaqlarımız işğaldan azad edilməyib, bəs Aydın nə tez şəhid oldu? Aydının adı çəkiləndə kövrəkdən kövrək olan, nanə yarpağı kimi əsən Sevil ana oğlunu bu gün də gözləyir. Gözləməsin neyləsin? Aydın kimi oğulun ölümünə kim inanar, kim? O da ola ana ürəyi. Qönçə ikən solan nə qədər arzuları var idi. Bu boynubükük evin daşında, divarında səsi qalıb Aydının. Qapıda soyumuş əl izləri, ağappaq vərəqlərdə donmuş sətirləri qalıb Aydının.

Çırağı keçmiş, anası ağlar qalmış, qara niyyətli, qara nəfəsli erməni neçə-neçə oğullarımızın arzularını gözlərində qoydu:

***Biri ev tikdirirdi, evi qaldı yarımçıq,***
***Biri öz balasını təzə nişanlamışdı,***
***Toyu qaldı yarımçıq!***
***Alışmadı şamları, gülmədi axşamları,***
***Qaldı, gözündə qaldı***
***Neçə-neçə insanın arzuları, kamları.***
***Taleyin qəsdinə bax!***
***Əziyyət verə-verə öldürür adamları!***
***Duyğular kövrəkləşir, könüllər sızlar olur,***
***Saçı yolan gəlinlər, ağlayan qızlar olur.***

Gözüyaşlı Sevil ana da ağlaya-ağlaya Aydından danışır, yana-yana danışır: "Aydın uşaqlıqdan ərköyün böyümüşdü. Evdə bir sözü iki olmazdı. Biz ona rəhmətə getmiş qardaşımın adını vermişdik. Qardaşım da nakam getmişdi, Aydın da nakam getdi. Aydın məktəbdə yaxşı oxuyurdu. Özü ilə bir sinifdə oxuyan qızların hamısının təəssübünü, qeyrətini çəkirdi. O imkan verməzdi ki, kimsə onunla bir sinifdə oxuyan qızlara artıq-əskik söz deyə. Dərsdən qayıdanda da qızların hamısını bir-bir evlərinə ötürüb sonra evə gələrdi. Deyirdim ki, Aydın, ana qurban, bəyəm sinfinizdə səndən başqa oğlan yoxdur o qızların qeyrətini çəkməyə?! Deyirdi ki, ana, onlar hamısı mənim bacılarımdır. Bütün müəllimləri Aydının oxumağından, tərbiyəsindən razı idi. Aydın görürdü ki, yaşlı bir qonşu əlində yük gəlir, ayaqyalın da olsa, qaçıb o adama kömək edər, onu evinə ötürüb geri qayıdardı. Bu uşaq sanki insanlara xeyirxahlıq etmək üçün doğulmuşdu. Hər bir insanın dadına çatmaq istəyirdi. Əsgərliyə gedib gələndən sonra yenidən orduya qayıtmaq istəyirdi. Getməməsi üçün ona çox yalvardım, ağladım. Dedi yox, gedəcəyəm, mən ora qayıtmalıyam. Aydının şəhidlik xəbəri gələndən indiyə qədər xəstəyəm. Həkimlər baş aça bilmir dərdimdən, xəstəxanalarda qalmışam. Oğul həsrəti məni bu vəziyyətə salıb".

## *"Aydın yaşda hamımızdan kiçik olsa da, bizə böyüklük edirdi..."*

Əmirsoltan dayı deyir ki, Aydın uşaqlıqdan vətənpərvər olub, həmişə fikri-zikri Vətənin müdafiəsində olub. Daha sonra bildirir ki, oğludur deyə tərifləmir. Həqiqət budur ki, Aydın uşaqlıqdan müdrik olub. Uşaqlarının ən kiçiyi olmasına baxmayaraq, o, qardaşları Nicat və Cavadın da məsləhət yerinə çevrilib: "Aydın uşaqlıqdan idmanla məşğul olurdu. Çox sağlam, eyni zamanda da məsuliyyətli bir gənc idi. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olmaq istəyirdi, lakin bu arzusuna çatmadı. Sonra sənədlərini Hərbi Akademiyaya göndərib, həkim komissiyasından keçdikdən sonra təlimlərə çağırılacağı günü səbirsizliklə gözlədi. Amma nədənsə

sənədlərini geri qaytardılar. Ruhdan düşmədi, hərbçi olmaq, bu sahəyə bağlanmaq onun ən böyük arzusu idi.

Aydın 2008-ci ildə əsgəri xidmətə getmişdi, 2010-cu ilin aprelində əsgərlikdən qayıtdı. Az keçmiş israr etdi ki, yenidən cəbhəyə qayıdıram. Mübariz İbrahimovun əfsanəvi qəhrəmanlığından sonra elə bil dəli-divanə olmuşdu. Onun haqqında yazıları, dərc olunmuş məktublarını oxuyur, çəkdiyi şəkillərə baxır, Vətən uğrunda əsgəri andını bizə göstərir, «Əsl qəhrəman bax, Mübariz kimi olmalıdır, – deyirdi. – Qarabağımızı cəsur, qorxubilməz oğullar xilas edə bilər ancaq, başqa yol yoxdur».

Kəşfiyyatçı idi balam. Suraxanı Rayon Hərbi Komissarlığına müraciət etdi, əvvəlcə onu kurs keçmək üçün təlim mərkəzinə göndərdilər. Kəşfiyyat-snayper hazırlığı keçdi və 6 aylıq təlimdən sonra onu cəbhənin qaynar nöqtələrindən olan Tərtər rayonunun Qapanlı kəndinə göndərdilər. Aydın burada Qapanlı camaatının həqiqətən də xətir-hörmətini qazanmışdı. Kənddə hər kəs onu doğma balası qədər sevirdi. Dilli-dilavərliyi, istiqanlı olması, cəsurluğu, simsarlığı, hər kəsə ürək-dirək verməsi, hamını ruhlandırması insanlar arasında inam yaradırdı.

Azərbaycan əsgəri kəndin sipəri, qalası idi. Ona görə də Qapanlı camaatı arxayın idi, işləyir, əkinə, biçinə gedir, toy edir, oğul evləndirir, qız köçürürdü. Qapanlılar bu gün də Aydını xatırlayır, ruhuna dualar oxuyur. Bu, bizim üçün böyük təsəllidir.

Aydın 2013-cü ilin 26 oktyabr tarixində Tərtərin Qapanlı kəndində şəhid olub. Erməni snayperi balamı alnından vurmuşdu. Hadisədən bir il əvvəl Aydın həyatını təhlükəyə ataraq igid döyüşçü Elməddin Cəfər oğlu Quliyevin meyitini ərazidən çıxarmışdı".

Bu barədə Elməddin Quliyevin atası Cəfər Quliyev yazır: "Hələ bir il əvvəl həmin ayın eyni günündə (2012-ci ilin 26 oktyabrında) düşmənin təmas xəttində minaya düşüb həlak olan övladımın (Quliyev Elməddin Cəfər oğlu) yanına ilk çatıb onu ərazidən çıxaran gizir Aydın Abdullayev olub".

Aydının qəhrəmanlığı bütün tərtərlilərə məlumdur və onlar Aydın və onun kimi oğullarla fəxr edirlər.

Əmirsoltan dayı Aydının xidməti xasiyyətnaməsini və ona aid olan bütün sənədləri göz bəbəyi kimi qoruyur. Balasının yadigarı olan bir cüt medal, saysız təşəkkürnamə, fəxri fərmanlar onun qubarlı ürəyinə su çiləyir.

2013-cü il 26 oktyabr tarixində şəhid olan Aydın Abdullayev 2012-ci ildə (28.12.2012) döyüş hazırlığında və hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə "Fəxri fərman"la mükafatlandırılıb, 2013-cü ildə (17.03.2013) yüksək hərbi intizamına, döyüş hazırlığı səviyyəsinə görə və həmçinin Novruz bayramı münasibətilə ona "Təşəkkür" elan edilib, Silahlı Qüvvələrin yaradılmasının 95-ci ildönümü münasibətilə döyüş hazırlığında və hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlər nəzərə alınaraq "Fəxri fərman" (26.06.2013), "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 95-ci ildönümü" (1918-2013) yubiley medalı ilə (24.06.2013) təltif edilib. Göstərdiyi döyüş şücaətinə görə isə vəfatından sonra III dərəcəli medalla təltif olunub. Hər iki medal Aydın Abdullayev şəhid olduqdan sonra ailəsinə təqdim edilib.

Aydın ailənin kiçik oğlu idi. Kiçik qardaş nağıllarda ən cəsur, ən ağıllı, ən hazırcavab qardaş olub həmişə. Almanı oğurlayan divlərlə döyüşən, Zümrüd quşunun qanadlarında zülmət dünyadan işıqlı dünyaya çıxan Məlikməmməd sevdiyi nağıl qəhrəmanlarından idi.

O, ailənin sevimlisi idi. Qardaşları, dostları, doğmaları Aydının xətrini çox istəyirdilər. Kövrək ürəyi vardı. Bir çiçəyin solmasına, bir budağın sınmasına dözə bilmirdi. Uşaqlıqdan özünü həyatın sərt sınaqlarına hazırlayan Aydın gözəl idmançı idi. Hər gün məşq edir, özünü həyatın çətin sınaqlarına hazırlayırdı. Ata-anasının başını uca etməyə çalışır, qardaşlarına dayaq olurdu. Gecə-gündüz mütaliə edir, vətənpərvərliklə bağlı verilişlərə baxır, istənilən mövzuda dostları ilə polemikaya girirdi. Vətən həqiqətən onun «Könlünün sevgili məhbubu» idi.

Aydının ortancıl qardaşı Cavad Abdullayev qardaşı haqqında danışarkən həm qəhərlənir, həm də qürurlanır. Deyir ki, Aydın dünyadan gənc ikən köçdü, ancaq onun qəhrəman kimi köçməsi böyük

fəxrdir: "Aydın 1990-cı il sentyabrın 29-da Şabranda anadan olub. Hələ məktəbə getməmişdən əvvəl atam onu idmana aparırdı, idmanı çox sevirdi. Yeni Günəşli qəsəbəsi Pərviz İsmayılov adına 278 saylı orta məktəbin 1-ci sinfinə gedib. Suraxanıda "Neftçi"nin bazasında cüdo ilə məşğul olub. Aydın idmana bağlı idi, həmişə öndə idi, bayraqdar olmağı çox sevirdi. O, Vətənə də, ailəsinə də ürəkdən bağlı idi. Aydın yaşda hamımızdan kiçik olsa da, bizə böyüklük edirdi, nəsihət verirdi. Hər çətinliyimizdə bizə dayaq olub, kömək edib. Qardaşım dünyadan nakam getdi, amma işıqlı xatirələr qalıb ondan. Bilirsiniz, o, sanki uşaqlıqdan özünü şəhidliyə hazırlayırdı. Aydın ömrünün 23-cü baharında əbədi olaraq Vətən torpağına qovuşdu. Bizi dünənə qədər idmançı Aydının qardaşı kimi tanıyırdılar, bu gün isə şəhid Aydının qardaşı kimi tanıyırlar".

## *Gözü yolda qalan var...*

Şəhid Aydın Abdullayevin gözü yolda, qulağı səsdə, ürəyi səksəkədə qalanı var bu gün. Könül hələ də nişanlısı gələn yollara göz dikir, hələ də ona elə gəlir ki, Aydını ondan qoparan fələk insafa gəlib yenidən onu geri qaytaracaq. Qəlbində qurduğu evciyi dağım-dağım olub. Gözləri ilə sığal çəkdiyi, pıçıltıları ilə süslədiyi, oxşadığı çiçəkləri gözüyaşlı qalıb Könülün. Yollara dikilib gözləri, uçub gedən buludlardan, əsən dərdli küləklərdən Aydınını soruşur. Boynubükük bənövşədi elə bil. Göz yaşları yanaqları boyu cığır açır:

***...Hamı çatdı vüsala***
***Mən səni gözləyirəm.***

Qardaşı Cavad deyir: "Aydın cəbhədə düşmənlə sinə-sinəyə dayandığı vaxtlar biz Bakıda toy tədarükü görürdük. Aydın ailəvi dostumuzun qızı ilə nişanlı idi. Onun toyuna hazırlaşırdıq. Mən artıq toy maşınını da danışmışdım. O şəhid olan gün ürəyim çox narahat idi... Evimizdə böyük həyəcan vardı, hamı nigaran idi. Yol üstə idim, ezamiyyətə gedirdim, ürəyim heç sözümə baxmırdı... Deme, həmin gün

Aydın şəhid olubmuş... Nişanlısı xəbəri çox ağır qarşıladı. Hələ də ailə həyatı qurmayıb.

Aydın artıq 4 ilə yaxındır şəhid olub. Biz onun ölümünə qətiyyən inanmırıq. Aydını Bakıda "Dədə Qorqud" qəbiristanlığında dəfn etmişik. Aydının qəhrəmanlığı böyükdür, yəni onların çoxu hərbi sirdir deyə açıqlamırıq. Onun göstərdiyi qəhrəmanlığı, kəşfiyyat xidmətini döyüş yoldaşları yaxşı xatırlayır".

## *Xatirəsi əbədiləşməyən şəhid...*

Vətən uğrunda şəhid olan hər bir övladımızın qəhrəmanlığı gənc nəsil üçün nümunədir. Vətən şəhidləri ilə ucadır, yenilməzdir. Biz bu torpaq uğrunda qanlı köynəklərini bayraq edən hər şəhidimizin adını uca tutmalı, xatirəsini əbədiləşdirməli, ünvanını, adını and yerinə çevirməliyik. Qardaş Türkiyənin öz şəhidinə, qazisinə verdiyi qiymət bizə görkdü, məktəbdi. Unutqanlıq min illər boyu xalqımıza faciələr, müsibətlər gətirib. Tarixin gerçəklərini, erməni zülmünü unutmaq yeni faciələrə yol açmaqdır. Hər şeyə bax bu gün, bu andaca başlamaq gərəkdir. Məmməd Araz nə gözəl deyib: «Bu günü olmayanın nə dünəni olubdu, nə sabahı olacaq».

Ailənin nisgili odur ki, hələ də Aydının adının əbədiləşdirilməsi üçün heç bir iş görülməyib. Şəhid atası dəfələrlə əlaqədar qurumlara müraciət etsə də, şəhidin adı əbədiləşdirilməyib. Vaxtilə yaşadığı binanın qarşısına şəhidin xatirə lövhəsi vurulub, şəhid atası dedi ki, bu onların yaxın ailə dostunun şəxsi vəsaiti hesabına başa gəlib... Çox arzu edərdik ki, şəhid Aydın Abdullayevin xatirəsinin əbədiləşdirilməsi istiqamətində işlər görülsün. Şəhid valideynlərinin bu gün ən böyük arzusu elə budur. Bu onlara təsəlli olardı heç olmasa.

Hər bir şəhid anası müqəddəs heykəldir, şəhid balasının xatirəsi yaşadıqca, ana da yaşayacaq. O, oğul dərdindən, oğul nisgilindən heykələ dönüb.

Şəhid harada uyuyursa, ora Vətənin ən müqəddəs bir parçasıdı. Lalə köynəkli şəhid məzarları hər birimizin ziyarət yeridir. Şəhidlər ölmür, Aydın kimi əbədi yaşayır. Əbədi həyatın, əbədi yaşamın mübarək, şəhidim!

Aydın kimi qəhrəman oğullarımızın ölümü hər bir Vətən övladı üçün çağırışdır. Çünki sabah gec ola bilər. Düşmənin ən böyük arzusu vaxtı uzatmaq, danışıqları pozmaqdı. Torpaqlarımızın əsirlikdə qalması isə şəhid ruhlarını incitməkdi.

***Bu gün gərək***
***Hər anımız,***
***Vətən! – desin.***
***Qılıncımız, qalxanımız***
***Vətən! – desin.***
***Təxminimiz, gümanımız***
***Vətən! – desin.***
***Ölənlərin əvəzinə***
***Qalanımız Vətən! – desin.***
***Vətən! – desin***
***Qəlbimizin hər duyğusu,***
***Hər vurğusu***
***Vətən! – desin.***

## *Aydın Abdullayevin müqəddəs şəhidlik yolu belə başladı...*

Vətən səninlə qürur duyur. Aydın! Sən Vətəni canınla, qanınla qorumusan, Vətənin köksünə atılan güllə sənin alnına dəyib. Düşmən gülləsinin önünə başını tutmusan, Aydın. Sən şəhid olmusan ki, Vətən yaşasın, ona atılan güllənin biri azalsın. Sənin Vətən nəğmən ayrı cür oxunurdu ürəyində, bu nəğmə bənzərsiz idi. Sən Vətəni ürəyinlə, ruhunla sevirdin, heç kəsi sevmədiyin kimi.

Vətən səni heç vaxt unutmayacaq, ona bəslədiyin təmənnasız sevgiyə görə. Niyə unutsun ki? Unudulmazlar unudulmur tarix boyu. Dünya tarixində minlərlə müharibə olub, saysız insan tələfatı baş verib, yaralananlar, evindən, elindən didərgin düşənlər olub. Dünya yaranandan beləcə keçib gün-güzəranı. O müharibələrdə xalqını, torpağını müdafiə edən oğul və qızlar heç vədə unudulmayıb. Onların adı

xalqın yaddaşında yaşayıb, nəsildən-nəslə müqəddəs əmanət kimi ötürülüb. Sənin də adın nəsillərin qürur yeri olacaq...

Şəkillər həyatın donmuş anlarıdı. O anın xoşbəxtliyi, kədəri, qəmi, Günəşi, rüzgarı, yağmuru sənin üz cizgilərindədi. Deyirlər, bəzən uzun illər keçəndən sonra belə, insanın şəklinə baxıb o anın əhval-ruhiyyəsini, portretini aydınlığı ilə canlandıran öncəgörənlər var. Bilmirəm, o şəkillərə baxıb bu balaca oğlanın gələcəkdə Vətən uğrunda qəhrəmanlıqla şəhid olacağını kimsə ağlına gətirə bilərdimi?

Şəkillərinə baxıram... Çox fikirli görünürsən. Sənin üzündə təbəssüm yoxdur, Aydın, dodaqların qətiyyətlə sıxılıb, baxışlarında hünər, qəhrəmanlıq, əzmkarlıq həkk olunub. Doğrudan da gözlər ürəyin və ruhun aynasıdır, şəhidim! Şəkillərdən baxan gözlərindən qayğı da oxunur, nigarançılıq da. Amma yenə də qətiyyətlə baxırsan. Vətənin işıqlı sabahı boylanır gözlərindən. Sən şəhid oldun və məzarın Vətənin köksündə qazıldı. Ana torpaq səni qoynuna aldı.

Dan üzüydü, ana torpaq qəmli türkü oxuyurdu – "laylay şəhidim, laylay" deyirdi... Ulduzlar bir-bir göy üzündə əriyib qeybə çəkilirdi. Günəş şəhid məzarını salamlamağa hazırlaşırdı. Aydın ana torpağın qucağına yenicə baş qoymuşdu. Ruhu elə rahat idi ki, sanki torpağın deyil, doğma anasının dizləri üstünə baş qoyub uyuyurdu. Evdə isə anası "balam" deyib nalə çəkirdi. Əlləri qoynunda öz-özünə ağı deyirdi:

***Ağacda xəzəl ağlar,***
***Dibində gözəl ağlar.***
***Səni bu yazıq canım***
***Sərgərdan gəzər ağlar.***

Bu dünyada gedənlərimizin qarşısında borcumuz çoxdur bizim. Ömrü yarıda qırılanların yarımçıq qalmış arzularını biz həyata keçirməliyik. Üstəlik, bu,Vətən dərdi olanda daha böyük məna kəsb edir. Amma hər zaman qövr edən, göyür-göyür göynəyən, qan verən sağalmaz yara ana ürəyidi. Sevil xanım da gecə-gündüz şəhid olmuş balasının ruhu ilə danışırdı. Deyirdi ki, oğlum, torpaq soyuqdur, xəstələnərsən ana qurban, evimizə qayıt. Ana xəyallarında Aydınla da-

nışır, onu dilə tuturdu ki, evə qayıtsın. Aydın isə əbədi evində, son mənzilində dərin yuxuya getmişdi. Oyanmırdı, oyanmayan bəxti kimi...

Sirr deyil ki, Vətən və millət yolunda öz istəyi ilə canından keçməyə razı olan insanların fəth etdiyi ən yüksək, şərəfli zirvə şəhidlikdir. Şəhid olmaq yenidən doğulmaq deməkdir. Oğullar şəhid olur, amma əbədi yaşamaq haqqı qazanır. Aydın Əmirsoltan oğlu Abdullayev kimi. Şəhid gizir Aydın Abdullayev gerçək bir qəhrəmandır. İndiyə qədər şəhid gizir haqqında çox yazılıb, çox fikirlər söylənib. Aydının qəhrəmanlıq tarixçəsi, kiçik ömründə yazdığı möhtəşəm qəhrəmanlıq salnaməsi bizə onun haqqında ətraflı məlumat verir...

Aydın Abdullayevin şərəfli ömür və döyüş yolunun izi ilə yeni bir yola çıxmışıq. Bu yol haqqın ətəyindən tutub irəliyə doğru addımlayanların yoludur. Bu yol qanını Vətən torpağına halal edən şəhidlərin getdiyi yoldur. Biz o yolun əbədi yolçularının izi ilə irəliləməyə çalışırıq. Şəhid Tanrının ən sevimli bəndəsidir. Şəhid qanı hara tökülərsə, ora müqəddəs sayılar. Tarix təkrar olunur deyirlər. Bu fikri irəli sürənlər haqsız deyil.

Bir vaxt ucsuz-bucaqsız ərazisi olan, sonralar tikə-tikə parçalanan, 86,6 min kv.km-lik bir qəfəsə sığınan, onun da 20 faizi işğal altında olan ana yurdumuz Azərbaycan bizə dədə-babalarımızın əmanətidir.

Hər qarışı qızıl külçəsi olan bu yurdda kimlərin gözü yoxdur. Bircə anlığına qonşularımızın kimlər olduğuna fikir versək, hər şey aydınlaşar.

Yurdu yaman gözlərdən qorumaq üçünsə döyüşən oğullar gərəkdi. Mübariz kimi, Aydın kimi cəsur oğullar…

Biz torpağımızla güclüyük. Azərbaycan da igid övladları ilə əyilməzdir:

***Ana qucağına bala sığınar,***
***Dağların döşünə qala sığınar.***
***Arılar pətəyə, bala sığınar,***
***Torpağım, mən sənə arxalanmışam.***

Bir dastan yazmaq istəyirik Vətənin cəsur oğullarından olan şəhid gizir Aydın Abdullayev haqqında. Qəhrəman Aydın, igid Aydın, qorxubilməz Aydın – 23 illik qısa ömür dastanının çox zəngin səhifələri

var. Sanki 23 il deyil, 230 il yaşamısan həyatda. Sənin izin hər yerdə var, Aydın. Səngərdə, idman arenasında, dostlarının, səni tanıyanların ürəyində. Hər kəsin qəlbində özündən sonra dərin izlər qoymusan. Səngər yoldaşların, əsgərlərin, qayğısına qaldığın insanlar səndən ağızdolusu danışır. Onları dinlədikcə, sənin obrazın canlanır gözlərimiz qarşısında.

Bir vaxtlar mərhum şairimiz Ələkbər Salahzadənin yazdığı bu misralar yadıma düşür:

***Mənim yaşım iyirmiki,***
***Mənim yaşım, danışmağa dəyərmi ki…***

Vaxtın, zamanın diktə etdiyi bu misralar bu gün bəlkə də başqa cür yazılardı.

Bu gün müstəqil Azərbaycan uğrunda şəhid olmuş yüzlərlə on doqquz, iyirmi, iyirmi bir, iyirmi iki yaşlı vətən oğulları var. Onlardan biri də iyirmi üç yaşlı cəsur kəşfiyyatçı Aydın Abdullayevdi.

Aydın Abdullayev az yaşayıb, ancaq mənalı yaşayıb. 23 yaşında həyatla vidalaşan Aydın düşmənlə üzbəüz mövqedə, səngərdə dayanıb həmişə. Düşməni göz açmağa qoymayan oğullardan biri olan Aydın Abdullayev qısa, lakin şərəfli ömrünün hər bir anını torpaqlarımızın müdafiəsinə həsr edib. Aydın deyirdi nə qədər ki, torpaqlarımız düşmən tapdağı altındadır, onun səngərdən evə qayıtmaq, ailəsində, ocağında rahat yaşamaq  haqqı yoxdur. O, ömrünün sonuna qədər verdiyi vədə xilaf çıxmadı... Aydın kimi sözübütöv oğullar hər zaman doğulmur təbii ki... O oğullar Tanrının sevib seçdiyi oğullardır. Uca Yaradanın dərgahına apardığı, ali mərtəbəyə yüksəltdiyi şəhidlərin hamısı say-seçmə oğullardır. Əlbəttə, şəhidlik adi ölüm deyil, Vətən, torpaq, böyük amallar uğrunda candan keçmək, özünü şüurlu şəkildə qurban vermək deməkdir.

İldırım qaya üstə ucalan nəhəng palıdları vurur həmişə. O da həmişə irəli can atdığı üçün köksü düşmən gülləsinə tuş gəldi.

"Ölüm əslində yoxluq və heçlik deyil. Əbədi diyara səfərdir", – deyirdi Aydın. İnanırdı ki, axirətdə də onun məqamı uca olacaq. Çünki

o, şəhid kimi cənnət qapısından içəri daxil olacaqdı. Aydının cənnətində özü kimi üzüağ, alnıaçıq bahadırlar bir də bu dünyaya qayıdacaqları günü gözləyirlər. Onlar Vətəni qorumaq üçün doğulanlar olduqlarına görə ana yurdun taleyindən narahatdırlar. Nə bilmək olar, bəlkə də bu şəhidlər sağlığında keçmişlərdə şəhid olan babalarının ruhunu daşıyırmış...

Aydın Abdullayev 1990-cı il sentyabrın 29-da Şabran rayonunda doğulub. Əmirsoltan dayı və Sevil ananın sonbeşiyi olan Aydın ərköyün böyüyüb. Üç qardaşın kiçiyi Aydın uşaqlıqdan qeyri-adi olub, yaşıdlarından fərqlənib, hətta xasiyyətcə, davranışına, qonum-qonşuya, ata-anaya isti münasibətinə görə qardaşlarından seçilib.

Aydın hamının sevimlisi olub. Saatlarla ulduzlu göylərə, ucsuz-bucaqsız çöllərə, maviliklərə baxmaqdan, düyməgözlü çiçəkləri öpüb-oxşamaqdan doymazdı. Təbiətin bu sirli-sehirli gözəllikləri önündə heyrətini gizlətməzdi. Ailədə onu "Akuş" deyə çağırırdılar. Sevil ana öz sonbeşiyinə həyatdan nakam köçən qardaşının adını vermişdi. Sevil ananın qardaşı 17 yaşında həyata "əlvida" demişdi. Oğlu Aydına da nakam ömür qismət oldu. O, dayısının yaşından cəmi beş il çox yaşadı. Aydın dünyadan qəhrəman kimi köçdü, şəhid kimi uğurlandı, əzizləndi, ana torpağa əmanət edildi.

Aydının uşaqlığı müharibə dövrünə düşmüşdü. O, müharibə uşağı idi. Müharibənin sazağını, ağrısını min dəfələrlə canında hiss etmişdi. Onların da həyətinə erməni zülmünə məruz qalan qaçqın yaşıdları gəlmişdi, məktəblərində yurd-yuvasından perik salınmış uşaqlar oxuyurdu. Hər dəfə o uşaqlarla üz-üzə gələndə "bircə tez böyüsəydim, Qarabağdan erməniləri qovub çıxarardım", – deyirdi.

Aydın mübaribə uşağı idi. Bütün müharibə uşaqları kimi, o da əzmli, qorxmaz, cəsarətli böyüyürdü. Böyüyürdü ki, düşmənin nəfəsini kəssin.

O, müharibənin boz üzünü, gətirdiyi fəlakəti, ağrı-acını, insanlara çəkdirdiyi məşəqqətləri dərindən anlayırdı. Bilirdi ki, müharibə ağrı deməkdir, acı çəkmək, acı çəkdirmək deməkdir, ayrılıq, göz yaşı deməkdir, amma müharibənin olması labüddür. Çünki torpaqlarımızın 20 faizdən artıq hissəsi düşmən tapdağındadır və o torpaqlar işğaldan azad edilməlidir.

Təbiət vurğunu, gözəllik aşiqi Aydının köksündə vətən eşqi ilə döyünən bir ürək vardı.Vətənlə bağlı çox şeirləri əzbər bilirdi:

***Mən Vətənə Sabiri***
***Doğan qeyrət deyirəm.***

– misrasını çox sevirdi.

Sonralar yaşıdları arasında döyüşə ən çox can atan da Aydın idi.

Uşaqlıqdan atası Əmirsoltan dayı Aydını idmana aparıb. O, idmanla məşğul olub. Bu da onun gələcək taleyində mühüm rol oynayıb. Aydının idmanla məşğul olması onda həm mənəvi, həm də fiziki cəhətdən böyük üstünlüklər formalaşdırıb. İdmana böyük həvəs göstərən qəhrəmanımız karate, boks, cüdo, qaydasız döyüş kimi idman növləri ilə məşğul olub və yarışlardan medalla, tərifnamə ilə qayıdıb evə. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, olimpiya oyunlarında qazandıqları uğurlar, bayrağımızın ucaldılması, himnimizin səsləndirilməsi Aydının qəlbini qürurla doldururdu. O, bu idmançılara həsəd aparır, «vətənin başını belə ucaldarlar», – deyirdi. Övladlarının yarışlardan qalib kimi qayıtdığını görən Əmirsoltan dayı və Sevil ananın sevinci yerə-göyə sığmayıb. Aydın həmişə onların iftixarı olub. Ailəsi uşaqlıqdan onunla fəxr edib.

Aydın Abdullayev Suraxanı rayonundakı 278 saylı orta məktəbin məzunu oldu. Atası Əmirsoltan dayı Aydından danışarkən göz yaşını gizlədə bilmir. Hər dəfə Aydının adı çəkilərkən qəhərlənir. Deyir ki, oğlu ilə fəxr edir, amma onun fiziki yoxluğuna ürəyi heç cür tab gətirmir. Əmirsoltan dayı oğlu haqqında fəxrlə, qürurla danışır. Bəzən həyəcandan xatirələri yadından çıxarır, özünü toplayandan sonra isə sözünə davam edir. Bütün söhbətlərimizi göz yaşı müşayiət edir. Adam ataların ağlamağına heç cür dözə bilmir. Atalar ağlayanda sanki həyat dayanır... Neynəsin, ata ürəyidi. Boyunu oxşadığı, uğurları ilə fərəhləndiyi, öyündüyü sevimli balası haqqında keçmiş zamanda danışmaq, xatirələri çözələmək ona ağır gəlir. Qəhərdən səsinin boğazında düyün düşməsi bu dərdin nə qədər ağır, yanğılı olmasından xəbər verir. Amma o bu dərdə mərdliklə tab gətirir, «Vətən sağ olsun», – deyir. Əmirsoltan dayı deyir ki, Aydın uşaqlıqdan cəsur olub.

Özündən böyük qardaşları Nicat və Cavadla güləşərdi və onların kürəyini yerə vurardı. Aydın məktəbi 4-5 qiymətlərlə oxuyub, həmişə nümunəvi şagird olub və müəllimlərinə, sinif yoldaşlarına, dostlarına hədsiz dərəcədə diqqət göstərib. Ona görə də hər kəs Aydının xatirəsini əziz tutur, onun dünyadan vaxtsız köçməsinə yanırlar. Əlbəttə, ailəsi də, qohumları da, dostları da onunla təsəlli tapır ki, Aydın Abdullayev şəhid olub.

Aydın həmişə öz arzularına qovuşmağa can atırdı. O qədər qətiyyətli idi ki, heç kəs onun addımlarının qarşısına sədd çəkə bilmirdi.

Həyatını bütövlükdə idmana bağlamaq istəyirdi. Bu məqsədlə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına sənəd versə də, onun bu cəhdi uğursuz olur. Bu ona pis təsir etsə də, özünü sındırmır və hərbçi olmaq haqda fikirləşir. Alın yazısını pozmaq mümkün deyil. Uşaqlıqdan cəld, hərəkətli, nizam-intizamlı, sözübütöv, məqsədyönlü olan Aydının hərbçi olmaq istəyi ailəsi tərəfindən müsbət qarşılanır. Çünki onların yaxın qohumları arasında hərbçilər, ictimai xadimlər, Azərbaycanın ərazi bütövlüyünün qorunmasında əməyi olan insanlar az olmayıb.

Azərbaycan İdman Akademiyasına qəbul oluna bilməyən Aydın sənədlərini Hərbi Akademiyaya göndərir. O, tibbi komissiyadan keçir, lakin ona təlimə göndəriləcəyi barədə vəd verilsə də, səbəbsiz olaraq sənədləri özünə qaytarılır. Əmirsoltan dayı bu barədə belə danışır: "Getdik akademiyaya. Orada müavin zabit bizə dedi ki, hər il bizə Naxçıvanski adına Hərbi Liseyin məzunları ilə yanaşı, institutdan da məzunlar gəlir, bu dəfə institutdan kəsilmiş və akademiyaya qəbul olunan məzunların balları daha yüksəkdir. Dedim ki, oğlumun hərbə həvəsi var, idmançıdır, xeyli nailiyyət əldə edib, medallar qazanıb, onu götürün. Elə valideynlər olur ki, gəlib xahiş edir, hərbi məktəbdə oxuyan oğlunu ikinci-üçüncü kursdan çıxarmaq istəyir, o cür uşaqların yerinə götürün. Dedi ki, olmaz, bizə belə göstəriş verilib".

Hərbi təhsil almaq məsələsində qarşısına çıxan çətinliklər Aydının hərbə olan marağını azaltmır, əksinə, o bu məsələdə daha da qətiyyətli olduğunu ortaya qoyur.

Hərbçi olmaq xüsusi səriştə, dözümlülük, cəsarət, vətənpərvərlik tələb edir. Sən hər an ölüb-öldürməyə hazır olmalısan. Qarşındakı düşməndir. Körpələrimizi süngüyə keçirən, qocalarımızı tonqala atan, cavanlarımızın başını kəsən, türk övladına bəşəriyyətin görmədiyi ən ağır işgəncəni verən qaniçən erməni. Sən bunu duymalı, bütün vücudunla yaşamalısan. Əlin tətikdə əsməməlidir, düşmənə nifrətin, qəzəbin aşıb-daşmalıdır. Yanındakı yaralının yarasını sarımalı, ona ürək-dirək verməlisən. Ölən döyüşçü dostunu düşmən əlində qoymamalısan. Bütün bunlar səndən böyük  psixoloji hazırlıq tələb edir. Aydın bütün bu sınaqlara özünü hazırlamışdı.

Qeydiyyatda olduğu Suraxanı Rayon Hərbi Komissarlığına gəlib əsgərliyə getmək üçün könüllü ərizə verir və Aydını əsgərliyə aparırlar. 2008-ci ildə hərbi xidmətə gedir, Gəncədəki "N" saylı hərbi hissədə xidmət edir. 2010-cu ilin aprelində həqiqi hərbi xidmətini başa vurub evə qayıdan Aydın heç cür rahatlıq tapmırdı, yenidən hərbi xidmətə qayıtmaq haqqında düşünürdü. Onun bu fikri ailəsi tərəfindən razılıqla qarşılanmırdı. Sevil ana ona yalvar-yaxar edirdi ki, getməsin. Amma Aydın fikrində qəti idi və var qüvvəsi ilə düşmənlə üzbəüz mövqelərimizə can atırdı.

2010-cu ilin yayında Tərtərin Çaylı kəndi istiqamətində düşmənlə təmas xəttində baş verən hadisə isə onun həyatını əməlli-başlı dəyişdi və o, cəbhəyə getməklə bağlı qəti qərarını verdi. Onun fikrinə təkan verən hadisə ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı verilmiş Mübariz İbrahimovun şücaəti idi. O eşidəndə ki, Azərbaycan Ordusunun giziri Mübariz İbrahimov düşmənə qan uddurub, ürəyi köksünə sığmadı. "Mən də Mübariz İbrahimov kimi olmalıyam", – dedi.

Bütün qəhrəmanlar bir-birinə bənzəyir, sanki hamısını bir ana dünyaya gətirib. Hamısının həyat yolu bir-birinə elə bənzəyir ki, adam təəccüblənir. Elə bil Tanrı hamısını eyni gündə yaradıb. Əslində, əməl qohumluğu qan qohumluğu qədər doğmadır.

Bəzən biz ideallaşdırdığımız qəhrəmanları ya kitablarda ya da çox-çox uzaqlarda axtarırıq. O qəhrəmanların bizim hər gün gördüyümüz, salamlaşdığımız yeniyetmələr arasında olduğuna inanmırıq. Bunlar

bizim övladlarımızdır. Mübariz İbrahimovun əfsanəvi qəhrəmanlığı, hətta düşmənlərimizi belə heyrətə gətirmiş, qardaş Türkiyədə, ermənilərin himayəçisi Rusiyada, ABŞ-da onun haqqında böyük yazılar yazılmış, film çəkilmişdir.

Əmirsoltan dayı danışır: "Mübariz İbrahimovun qəhrəmanlığı bütün ölkədə yayılmağa başlayanda, bütün ölkə bundan danışırdı. Mübarizin qəhrəmanlığı Aydına çox böyük təsir etdi. Qərara aldı ki, orduda xidmət etsin, zabit olsun". Beləliklə, Aydın ailəsindən xəbərsiz sənədlərini Suraxanı Rayon Hərbi Komissarlığına verir. Təlim mərkəzlərindən birinə göndərilən Aydın burada kəşfiyyatçı-snayper hazırlığı keçir. Altı aylıq təlimdən sonra onu kəşfiyyatçı-snayper kimi qaynar nöqtələrdən birinə – düşmənlə təmas xəttində yerləşən Tərtərin Qapanlı kəndinə göndərirlər. Abdullayevlər ailəsinin qaynar səngər həyatı başlayır. Təlatümlü, təhlükəli cəbhə xəttində qəhrəmanımız düşmənə qarşı barışmaz mövqedə dayanır. Hər anı təhlükə, atəş səsləri, düşmən pusqusu – bütün bunlar hərbçi Aydın Abdullayevi ayıq-sayıq olmağa səsləyir, ona tapşırılan işi yüksək səviyyədə yerinə yetirməyə həvəsləndirirdi. Aydın kəşfiyyatçı idi və gecəsini gündüzünə qatıb düşmənin mövqelərini öyrənir, onun hiylə və məkrini zamanında ifşa etməyi bacarırdı. Aydın snayper-kəşfiyyatçı kimi ən çətin tapşırıqları yerinə yetirirdi. Burda, ön döyüş səngərində sayıqlığı bircə an da olsun itirmək olmazdı. Aydın bunları yaxşı bilirdi. Düşmənə qarşı amansız olan Aydın Abdullayev günahsız insanların qisasını mənfur düşməndən almaq üçün fürsət gözləyirdi. Hər an əmrə müntəzir hərbçi kimi komandirlərin tapşırıqlarını yerinə yetirən bu cəsur oğlan heç bir çətinlikdən qorxmurdu. Əksinə, düşünürdü ki, aldığı hər bir çətin tapşırıq onun üçün bir sınaqdır. O bu imtahandan üzüağ çıxmağa çalışırdı. Hər tapşırığı uğurla yerinə yetirməsi rəhbərlik tərəfindən razılıqla qarşılanırdı. Bu, Aydında arxayınçılıq yaratmırdı. Onu düşmənə qarşı daha ayıq-sayıq olmağa, düşmənin planlarından xəbər tutmağa, onun istənilən hədəfini zərərsizləşdirməyə, hərbin sirlərinə yiyələnməyə sövq edirdi... Aydın 2010-cu ildən şəhid olan günə qədər sədaqətlə Vətənin keşiyində dayandı. Cəsur Vətən oğlunun həyat hekayəti qısa olsa da hər səhifəsində unudulmaz anları yaşadır. O, bu qısa, kəsə ömründə heç vaxt sönməyən bir od, unudulmayacaq bir ad yadigar qoyub

getdi. Bu ömrü yazılacaq, amma son nöqtəsi qoyulmayacaq kitaba bənzətmək olar. Ömürlərdə yaşayacaq şəhid Aydın ömrü. Mən şəhid ömrünü Günəş ömrünə bənzədirəm. Günəş hər səhər doğulduğu kimi şəhidlərimiz də hər gün yenidən bu dünyaya gəlirlər.

## *Çiçəklərin çəkir gözü intizar...*

Havadan payız qoxusu gəlirdi. Havanı ciyərlərinə çəkib göy üzünə baxdı. Səmanın bir tərəfinə qıpqırmızı ləkə düşmüşdü. Elə bil göyün o üzünə qan çilənmişdi. Sanki göylərdə də müharibə gedirdi, orada da işğalçılar vardı. Aydın qardaşı Cavadla arasındakı telefon söhbətini xatırladıqca, qardaşının narahat siması gözləri önündən çəkilmirdi. Heç anası ilə söhbəti də onu rahat buraxmırdı. Oğlunun səngərdə, düşmənlə üzbəüz dayanması ananın gecəsi ilə gündüzünü bir-birinə qatmışdı.Yollarına göz dikən bir cüt baxış da ona rahatlıq vermirdi. Nişanlısının gözləri ulduz olub göylərdə bərq vururdu. Bu dan ulduzu onun bəxti, qismətiydi. Milyon ulduzun içindən seçmişdi onu. O ilahi pıçıltını təkcə özü eşidirdi: “Səni hər gün gözləyirəm, Aydın!”.

***Alagözlüm səndən ayrı gecələr***
***Bir il kimi uzun olur neyləyim?***
***Bağçamızda qızılgüllər hər səhər***
***Tezdən açır, vaxtsız solur neyləyim?***

***Nərgizlərin gözü yaşla dolanda,***
***Bənövşələr baxıb qəmgin olanda,***
***Qərənfilin gözü yolda qalanda***
***Yasəmənlər saçın yolur neyləyim?***

***Çiçəklərin çəkir gözü intizar***
***Ayrılıqdan betər dünyada nə var?***
***Yaz axşamı səni bil ki, bu Nigar***
***Həzin-həzin yada salır neyləyim?***

Bu həzin nəğməni dinlədikcə qəlbində titrək duyğular baş qaldırırdı. Qızılgül ləçəyinə bənzəyən dodaqlarından qopan sözlər Aydının

qulaqlarında cingildədikcə, gözləri dolub-boşalırdı. Xəyalında gah anasının, gah da gözü yolda qalan sevgilisinin yanına gedir, onlara mütləq geri qayıdacağını vəd edirdi...

"Mütləq qayıdacağam. Amma torpaqlarımız işğaldan azad olunduqdan sonra", – deyə Aydın öz-özünə pıçıldadı. Səngər yoldaşları onun mətin, mərd, əyilməz olduğunu yaxşı bilirdilər. Odur ki, ona artıq sual vermədilər. Hiss etdilər ki, Aydının özü səngərdə olsa da, fikri Bakıdadır...

...Aydın əsgəri xidmətdən evə qayıdanda ana sevinirdi ki, bu oğlunun da əl-ayağını bir yerə yığacaq. Aydının ailə, ev-eşik sahibi olmasını çox istəyirdi ana. Qardaşının adını verdiyi ciyərparasının gələcəyi ilə bağlı şirin xəyallar qururdu tez-tez. Aydın əsgərlikdən gəldikdən sonra çox dəyişmişdi. Xarakteri daha da ciddiləşmişdi. Ana hər gün görürdü ki, oğlu fikirli, qayğılı gəzib-dolaşır. Amma onun ürəyindən keçənləri oxuya bilmirdi. Bilmirdi ki, Aydının ürəyində yalnız bir arzu var – səngərə qayıtmaq. "Müharibə bitəndən sonra qayıdacağam evə. Məni belə tezliklə gözləməyin. Mən Vətəni qorumağa, düşməndən qisas almağa gedirəm. Heç cür sakitlik tapa bilmirəm. Bakıda qalsam, özümü heç vaxt bağışlaya bilmərəm". O, ailəsinə yazdığı məktubda belə deyirdi. Ailəsi bu məktubdan çox sonralar xəbər tutdu. Çünki Aydın məktubu yazsa da, onu uzun müddət köynəyinin döş cibində pünhan saxladı. Bilmirdi ki, içində kök salan arzunu ailəsinə necə desin. Anası bu xəbəri necə qarşılayacaq? Bir neçə gün Aydın cəbhəyə qayıtmaq qərarı ilə bağlı heç kəsə bir söz demədi. Fikirləşirdi ki, bəlkə qardaşı Cavada açsın ürəyini. Aydın xeyli tərəddüddən sonra evdə ikisindən başqa kimsənin olmadığını görüb ürəkləndi:

– Cavad, yadındadır biz uşaq olanda atam bizi qaçqınlar yaşayan yerlərə aparırdı. Gedəndə ən çox da məni götürürdü özü ilə. Orada qoca baba vardı, o, erməni vəhşiliyindən danışırdı. Deyirdi ki, ermənilər Qarabağı oda qalayıb, qocaya, qadına, uşağa rəhm etməyib.

– Hə, hamısı yadımdadır. Aydın, birdən-birə bu sənin ağlına hardan gəldi?

– Heç ağlımdan çıxıb ki, ağlıma da gələ... Həmişə onların üz cizgiləri gözümün qarşısında olub. Əsgərlikdə olanda az qala bir neçə dəfə

düşmən tərəfə keçib erməniləri o dünyaya göndərmək istəmişəm. Mən cəbhəyə getmək istəyirəm, Cavad. Fikrim qətidir. Bu barədə çox düşünüb götür-qoy etdim, sonda yəqin etdim ki, mənim evim bura yox, səngərdir.

Cavad qardaşının xasiyyətinə bələd olmasına baxmayaraq, onu fikrindən döndərməyə çalışdı, lakin Aydını dediyindən döndərə bilmədi. Qardaşlar arasında söhbət çox gərgin keçdi. Cavad həyəcanlı idi. Düşünürdü ki, Aydının düşmənlə burun-buruna olan əraziyə getməsi valideynləri tərəfindən yaxşı qarşılanmaz. Anasının Aydına necə bağlı olduğunu yaxşı bilirdi Cavad. Bilirdi ki, Aydın getsə, anasının dincliyini də özü ilə aparacaq.

Aydın hərbi komissarlığa gedib könüllü cəbhəyə getmək istədiyini və müraciətinin müsbət qəbul edildiyini hələ ki, yalnız Cavada demişdi. Cavadın ondan xəbərsiz valideynlərinə bir söz deyəcəyinə inanmırdı. Aydın uşaqlıqdan arzularının ardınca getməyə öyrəşmişdi. Ailənin sonbeşiyi və ərköyünü olan Aydının istəyinə heç vaxt ailədə "yox" deyilməmişdi. Amma «bu xına o xınadan» deyildi, o bilə-bilə özünü şəhidliyə aparırdı. Hətta evdə deyirdi ki, mən qəhrəman olacağam, şəhidliyə hazıram. Əslində, ürəyində yaşadıqlarını dilə gətirirdi.

Qəlbində Qarabağ həsrəti var idi. Bu yerlərdə doğulmasa da elə bil ürəyinin bir parçasıydı Qarabağ. Xocalı müsibətini əks etdirən Çingiz Mustafayevin çəkdiyi o dəhşətli kadrlara dəfələrlə baxmışdı. Damarlarında qanı donmuşdu. İçindəki intiqam harayı yuxusunu ərşə çəkmişdi. Aydın kimi qeyrətli vətən oğullarının qətiyyəti, qərarı, hirsi, qəzəbi, intiqamı damarlarında çağlayır. Qarabağsız zillət çəkən, ölüb-dirilən insanların ağrısı, dərdi ona əzab verirdi: «Vətən torpaqları işğal altındaykən bizim yaşamağa haqqımız varmı? Azərbaycanın başının tacı, üzüyünün qaşı Şuşa gözüyaşlıykən bizim toy etməyə haqqımız çatırmı?».

Aydın səngərdə bunları düşünür, qərarında haqlı olduğunu ürəyindən keçirirdi. Könüllü olaraq cəbhəyə qayıtmaq istəyini atasına deyəndə Əmirsoltan kişinin rəngi duruldu. Elə bil kişini Şahdağın zirvəsinə qaldırıb qoydular. Oğlunun qeyrətli olduğunu əvvəlcədən bilirdi. Ət yeyən quş dimdiyindən bəllidir. Aydın uşaqlıqdan vətənsevər idi. Ata oğlunun xasiyyətinə bələd olduğundan, ona əlavə sual verməк istəmədi. Onu başdan-ayağa süzüb:

– Bəs niyə mən indi bilirəm? Gərək əvvəlcədən deyəydin, səninlə hərbi komissarlığa mən də gedərdim. Səninlə fəxr edirəm, oğlum, bilirdim ki, sən Vətəni qorumağa hazırsan.

Atasını çox sevirdi Aydın. Uşaqlıqdan atası ilə ürək dostu idi. Heç nəyi ondan gizlətmirdi. Əmirsoltan kişi oğlunun qeyrəti, qorxmazlığı ilə öyünürdü. Ürəyində düşünürdü ki, onun oğlu elə belə də olmalıdır. Aydının vətənpərvər kimi yetişməsində o özü böyük tərbiyə məktəbi idi.

Bizim xalqımızın yazılmamış ailə qanunları var. İllər keçsə də bu daşlaşmış qanunların bircə nöqtəsi, vergülü belə pozulmayıb. Böyüklərin yanında qürrələnmək, valideyn xeyir-duası almadan evlənmək, ağsaqqal yanında artıq-əskik danışmaq, icazəsiz oturmaq, süfrəyə ilk əl uzatmaq «qadağası» əslində, az qala genetik kodumuza çevrilmişdir.

Abdullayevlər ailəsində də bu qanunlar yaşayırdı. Ata, ana, ağsaqqal, ağbirçək övladların qibləsi, and yeri, başının tacıydı. Ona görə də ocağın xeyir-bərəkəti var idi, tüstüsü düz çıxırdı. Bu ailədə hamının qibtə edəcəyi bir səmimiyyət, ülfət, mehribanlıq hökm sürürdü.

Aydın atasının onun seçiminə hörmətlə yanaşdığını görüb ürəkləndi:

– Ata, mən uşaq olanda sən ermənilərin bizim torpaqları işğal etməsindən, ocaqlarımızı kor qoymasından, amansız olmalarından danışırdın. Uşaq vaxtı düşünürdüm ki, böyüyəndə mütləq zabit olacağam və düşmənə qarşı mübarizə aparacağam.  Kəşfiyyatçı olmaq istəyirəm. Əsgərlikdə də kəşfiyyata maraq göstərirdim. İlan ulduz görməsə ölməz. Ermənilərə həddini göstərməliyik.

Ata oğlunu dinlədikcə, ürəyi köksünə sığmırdı. Hərdən ona elə gəlirdi ki, Aydın artıq cəbhədədir və torpaqlarımız işğaldan azad edilib, oğlu da həmişə özü ilə gəzdirdiyi üçrəngli bayrağımızı Şuşaya, Xankəndinə sancıb. Atanın könlündən nələr keçmirdi, nələr...

Aydına sınayıcı nəzərlərlə baxıb:

– Oğlum, hamı bilir ki, bizim övladlarımız cəsurdur, qorxmazdır. Sən də uşaqlıqdan cəsarətlisən, hünərlisən. Ancaq insan kimisə öldürmək, anasını ağlar qoymaq, ocağını söndürmək üçün doğulmayıb. Ermənilər yer üzünün əhrimənidirlər, doğulan övladlarını da fəlakətə sürükləyirlər.

Bəxtiyar Vahabzadə nə gözəl deyib:

***Qorxuram dünyada bir zaman gələ,***
***İnsanlar yaşaya insanlıq ölə.***

Atasının sözlərindən Aydın alışdı, sifətindəki təbəssüm dondu. Üzü ciddiləşdi, sərtləşdi. Həmişə valideynləri ilə pərdə saxlayan Aydın bu dəfə səsini bir az yüksəltdi:

– Ata, sən özün demirdinmi ki, ermənilər bizim qocalara, uşaqlara, qadınlara divan tutub. Bəs onların qisası yerdə qalsın? Onlar hər gün mülki əhali yaşayan ərazilərimizi snayper atəşinə tutur, nə qədər insan həlak olur. Onların qanını kim alacaq? Düşmənlə öz anladığı dildə danışmaq lazımdır... Başqa cür onu başa salmaq mümkün deyil...

...Aydın üç il əvvəl atası ilə aralarında olan o ağrılı söhbəti xatırlayıb ürəyindən keçirdi ki, görəsən ata-anam necədir?

Anasının ondan nigaran qaldığını bilirdi. Evdə ancaq anası onun cəbhəyə getməsinə qarşı çıxmışdı. Xəyal Aydını yenə evlərinə – anası ilə unudulmaz söhbətə qaytardı:

– Aydın, sən mənim həm qardaşımsan, həm oğlum. Bilirsən ki, narahatam. Ermənilər gündə atır, qorxuram başına bir iş gələ. Xəstə anana yazığın gəlsin. Səninlə bağlı o qədər arzularım var ki... Qardaşımın toyunu görmədik, sənin toyunu görmək istəyirəm. Bacıların da həmçinin.

Aydın anasına da, xalasına da bacı deyə müraciət edirdi. Uşaqlıqdan dili belə öyrəşmişdi. Anası çox yalvardı, oğlu inadından dönmədi.

– Qorxma, mənə heç nə olmaz. Mən getməliyəm. Vətənə söz vermişəm. Söz verirəm gedib sağ-salamat qayıdacağam. Mən gələnə kimi özünə yaxşı bax...

Aydını yolundan döndərməkmi olardı. Valideynlərinin bir sözünü iki eləməyən bu məğrur oğlanı yalnız vətən andından döndərmək olmazdı. Bu andı ancaq ölüm poza bilərdi. Ürəyinin səsi idi. Bu qaibanə səs onu çağırırdı. Qulaqlarında əks-səda kimi səslənən o səsin işığına uçurdu Aydın. O, Qarabağın pərvanəsiydi. Pərvanə işığa can atdığı kimi o da özünü oda-alova atırdı. Əslində vətən uğrunda döyüşə atılmaq ana-bacı qeyrəti çəkmək, vətən, yurd qeyrəti çəkmək idi.

Aydın anası ilə söhbətini xatırladıqca, ürəyindən anasını bir daha görmək keçirdi. Anasını görmək, qucaqlayıb bağrına basmaq istəyirdi. Üzünü anasının dizinə söykəyib "az qalıb, çox az qalıb, səni tezliklə Şuşaya aparacağam" demək istəyirdi. Sonra da körpə uşaq kimi mışıl-mışıl yatmaq keçirdi ürəyindən. Xəyalları haçalanmışdı. Gah Vətənin müdafiəsi haqqında düşünür, gah ata-anası, gah da arzularının şahzadəsi, gözü yolda qalan Könülü fikirləşirdi. Könül könlünə düşən gündən Aydını ovsunlamışdı. Sadə gözəlliyi ilə nişanlısının ürəyini fəth edən Könül Bakıda onun yolunu gözləyirdi. Aydın düşünürdü ki, hər şeydən öncə Vətəndir. Vətən torpaqları azad olunmasa, ailələr dinc, firavan, xoşbəxt yaşaya bilməyəcək. Dostları ilə söhbət zamanı deyirdi ki, yaxşı, hamımız gedib oturaq evimizdə, ailəmizdə. Onda həyat yoldaşımızın, nişanlımızın, övladımızın üzünə necə baxacağıq? Vətənin qisasını almalıyıq ki, gecələr evimizdə rahat yataq, ailəmizin gözünün içinə dik baxaq. Aydında olan qeyrət, hünər, cəsarət əsgərlərinin, gizir yoldaşlarının da ürəyində ocaq qalayırdı. Onlar Aydından çox şey öyrənirdilər.

Qəhrəmanımızın uzun zamanlar ürəyində gəzdirdiyi bir istək də vardı – düşmən arxasına keçmək. Düşmənə sarsıdıcı zərbə vurmaq! Aydın bu haqda düşünürdü. Hər səhər yuxudan erkən oyanır, öhdəsinə düşən işləri layiqincə yerinə yetirirdi.

Hər açılan səhərə ümid kimi baxırdı. Hər gün dan yerinə baxıb içində danışırdı: "Tanrı, hər gün yeni bir yola çıxırıq. Bu yol sənin ətəyindən tutub irəliyə doğru addımlayanların yoludur. Sən bizə imkan ver ki, Vətən torpağına göz dikən yağının gözünə mil çəkək. Qanım torpağıma halaldır".

Aydın hər gün ulu Tanrısı ilə danışır, qanını Vətən torpağına qatmağı ürəkdən arzulayırdı.

Qəhrəmanımız yoldaşları ilə tez-tez söhbət edir, gənc əsgərlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına çalışırdı. O özü bir nümunə idi. Əsgərləri də ona bənzəməyə çalışırdılar.

Şəhid olmaqdan çox danışırdı. Əsgərlərə deyirdi ki, biz o yolun əbədi yolçularından olmalıyıq. Biz Vətən uğrunda ölməliyk ki, bizdən sonra yeni-yeni qəhrəmanlar doğulsun.

Aman Allah, gənc yaşında arzu-kamı gözündəykən bu işıqlı dünyadan necə əl çəkmək olar? O ki çox sevdiyi Müşfiqin bu şeirini yana-yana oxuyurdu:

***Ah, mən günü-gündən bu gözəlləşən***
***İşıqlı dünyadan necə əl çəkim?***
***Bu yerlə çarpışan, göylə əlləşən***
***Dostdan, aşinadan necə əl çəkim?***

Türk əsgərinin: « Şəhidlər ölməz, vətən bölünməz!» nidasını ürəyinə yazmışdı.

Aydının qəfil yadına tarix müəlliminin şəhidlər, şəhidlik məqamı haqqında dedikləri düşdü. Müəllim üzünü 11-ci sinif şagirdlərinə tutaraq:

– Əlbəttə, şəhid Tanrının ən sevimli bəndəsidir. Şəhid qanı hara tökülərsə, ora müqəddəs sayılar. Tarix təkrar olunur deyirlər. Bu fikri irəli sürənlər haqsız deyil.

Azərbaycan gözəl diyardır. Yeraltı və yerüstü sərvətləri, qeyri-adi dərəcədə füsunkar təbiəti, dəyanətli, hünərli insanları Vətənimizi bütün dünyada məşhur edib. "Gözələ göz dikən çox olar" deyib babalarımız. Azərbaycan adlı qədim məmləkətin düşmənləri həmişə əli tətikdə mürgüləyib ki, fürsət düşən kimi yurdumuzu yağmalasın. Vətənin igid oğulları da heç vaxt yağıya macal verməyib, torpaqlarımızı qoruyublar. Qəhrəmanlıq bugünkü nəslə babalarımızın əmanətidir. Qəhrəman keçmişi olmayan xalqın bu gün öz içində qəhrəman aramağa haqqı çatmır. Bizim xalqımız isə ta qədimdən üzü bəri tariximizə böyük qəhrəmanlıq səhifələri yazıb. Azərbaycan torpağı, Azərbaycan xalqı tarixin müxtəlif dönəmlərində sınaq qarşısında qalıb, lakin sınaqdan həmişə mətanətlə çıxıb. Əlbəttə, həmişə sınaq meydanında imtahan olur. Bizi bu ağır imtahanlardan xalqımızın mərd oğul və qızları qalib çıxarır. Onlar torpaq uğrunda şəhid olurlar ki, Vətənin, xalqın qəddi əyilməsin. Düşmən qarşısında əyilməyən oğulların başı Vətən torpağı və üçrəngli bayrağımız qarşısında əyilir ancaq. Unutdum, bir də ana dizinə baş qoyanda başlarını əyirlər.

Müəlliminin nə qədər haqlı olduğunu ürəyində təsdiqləyən Aydın fikirləşirdi ki, hər bir Azərbaycan oğlu Vətənin sınağından çıxmalıdır.

Aydın səngərdə düşmənlə üzbəüz dayanıb ondan necə intiqam almaq barədə düşünürdü. O deyirdi ki, Bakıdakılar məndən nigaran qalmamalıdır. Mən təkcə ata-anamın yox, həm də bu Vətənin oğluyam...

Aydın bu sevgili vətənin cəsur bir əsgəriydi. «İnsan bu qədər qanları, ölümləri görərkən qorxuların üstündən xətt çəkir», – deyirdi. Döyüşçü dostunun meyitini minalanmış yerdən götürərkən də, qorxunu tapdayıb keçmişdi. Bəli, ölməzliyə qovuşmaq, əfsanəyə dönmək anların, dəqiqələrin hökmüdür. Bunu isə yalnız Vətənə böyük sevgisi olanlar edirlər.

***İnsan insan olur öz hünəriylə,***
***Millət millət olur xeyri, şəriylə.***
***Torpağın bağrına cəsədləriylə***
***Azadlıq toxumun əkdi şəhidlər,***

– deyən qüdrətli şairimiz Bəxtiyar Vahabzadə elə Aydın kimi cəsur, yenilməz oğullarımızı vəsf etmişdi.

Yuxusu ərşə çəkilmişdi ananın. Beynindəki dolaşıq fikirlər, gecə gördüyü qəribə yuxu ona rahatlıq vermirdi. Heç canı cahana sığışmırdı, quş kimi özünü bu divardan o divara vururdu. Ağlına çox şey gəlirdi. Qorxurdu ki, ağlına gələnlər başına gəlsin. Qorxurdu, çox qorxurdu ana. Müharibə olmasa da, düşmən hər gün ərazilərimizi gülləyə tuturdu, hər an təxribat törədirdi, hər dəqiqə öz xislətini göstərirdi. Ana cəbhədəki gizir oğlundan narahat idi. Ürəyində özözü ilə danışırdı. Heç kəsi narahat edib sümüyünə səksəkə salmaq istəmirdi ana. Onsuz da özü səksəkə içində çırpınırdı. Elə bil qəfəsə salınmış bülbül idi.

Hara getsin, kimə desin dərdini? İçində elə bir hiss vardı ki, sanki indi kimsə qapını döyüb bəd xəbər verəcək. Qulağı qapıda idi. Ana elə bil dəyirman daşının arasında əzilirdi.

Payızın toy-büsatlı çağı idi. Elə Aydın özü də bu payız günündə toy havasında idi. Gözlərindən öpüb ayrıldığı nişanlısı yolunu gözləyirdi. Axşam da yollara baxırdı, səhər də. Yollar da ki, insaf nədir bilmir. Yollar üzür adamın ürəyini. Özü də elə üzür ki, lap saplağından...

Qızılı payızın rəngləri, gözəlliyi adamı heyrətə gətirirdi. Elə bil möcüzəli bir əl ilahi fırçasıyla yarpaqlara min bir rəng çəkmişdi. Göy üzündən qırmızı-qırmızı buludlar ötüb keçirdi. Bu gözəllik səltənətinin qoynunda ölümmü yada düşürdü? Yox, ana ürəyi səksəkə içində idi. Ürəyinə nəsə dammışdı. «Aman Allah, belə də ürəyə dammaq olar?».

Abdullayevlər ailəsində gizli bir həyəcan dolaşırdı. Hamı səbəbsiz yerə fikirli, dalğın idi. Hər kəs narahat idi, hamı bir-birinin üzünə baxıb susurdu. Sükut isə adamın bağrını yarırdı. Ananın ürəyində nigarançılıq vardı. O nigarançılıq qəlbini məngənə kimi sıxırdı, bilmirdi canını hara qoysun. Elə hey "ürəyim köksümə sığmır", – deyə haray çəkirdi. «Dilim-ağzım qurusun, vallah, balamın başında bir iş var», – deyirdi.

…Tərtərdə isə bir şəhid Vətən torpağını əbədi olaraq qucaqlamışdı. Hər bir Vətən oğlu istəyər ki, son nəfəsdə ana bildiyi torpağı qucaqlayıb bağrına bassın. Tərtərdə alnını torpağa söykəyib əbədi yuxuya gedən şəhid Abdullayevlər ailəsinin sonbeşiyi idi. Hələ də anası sonbeşiyinin boyunu oxşayırdı xəyallarında. Sonbeşiyi isə alnından aldığı snayper yarası ilə torpağa sığınmışdı. Ölüm – bu qoca kaftar dizin-dizin bu qapıya, bu ocağa tərəf sürünürdü. Toy evi vay evinə dönəcəkdi.

Adam indinin özündə belə bu səhnəni düşünəndə havalanmaq istəyir. Aydın elə bil öz doğmamdı, öz balamdı. Onun faciəsi, vaxtsız ölümü mənim də ürəyimi parça-parça edir.

Bakıda ana hey ölçüb-biçir, gah oğlunu bəy paltarında görür, gah da gəlinini gəlinlikdə... Oğlunun alnından öpürdü, oğlunun alnı isə düşmən snayperinə tuş gəlmişdi. Birdən anaya elə gəldi ki, ağzında qan tamı var, qan dadır ağzı... Gecə yuxu görmüşdü. Fikrində yuxusunu çözələyirdi. Gördüyü yuxunu gah xeyrə yozurdu, gah da şərə. Fikir əlində əsir-yesir qalmışdı ana. Hara gedəydi, dərdini kimə deyəydi, oğlanlarınamı, ərinəmi, gəlinlərinəmi? Hamı toy havasında idi. Vay havasına köklənməmişdi heç kəs. Bircə ananın içində anlaşılmaz, qarışıq duyğular vardı. Anlaya bilmirdi ki, nə baş verir. Ananın beynində bir uğultu vardı, səssiz bir uğultu...

Toy havası…Bəs vay havası varmı? Mən o havanı toy günü oğlu ölmüş anaların şırımlanmış üzlərində görmüşdüm. Ataların qol götürüb dəlicəsinə oynamağında, «bala, hey!!!» harayında görmüşdüm.

İlahi, mənim xalqımın toyu da, vayı da bənzərsizdi. Nə boyda sevgimiz, kədərimiz var. Yox, bizi gözə gətirdilər. Bu qədər gözəllikləri olan xalqı göz çatladar ancaq. Qara niyyətli, qara nəfəsli qarı düşmənin qılıncdan iti nəfsi, tökülmüş gözü.

## *"Ot kökü üstə bitər"*

Əvvəl gözünə işıq düşdü. Ona elə gəldi ki, bütün dünya işıqlanıb.

– Nə işıqdır bu belə? – deyib özünə sual verdi. Yuxu ilə reallığın arasında qalmışdı. Nə edəcəyini bilmirdi. Birdən hansısa bir qüvvə ona "nə yatmısan, dur", – dedi. Əl havasına telefonu axtardı ki, saata baxsın. Telefonu tapa bilmirdi. Narahat oldu. Gecənin bir yarısı üzünə düşən bu işıq nə idi belə? Düşdüyü vəziyyəti mənalandırmağa çalışdı. Bir şey anlamadı. Ayağa durdu, pəncərəyə yaxınlaşdı. Pərdəni çəkib çölə baxdı. Ətrafda heç kəs gözə dəymirdi. Qəfil gözü səmaya sataşdı. Göy üzündə bir çəngə qara bulud görünürdü. Bulud onların yaşadığı binanın üstünə tərəf sürünürdü. Buluda baxa-baxa hiss etdi ki, ürəyi sıxılır. Elə bil o bulud onun ürəyinə çökmüşdü. Ata için-için, yana-yana ağlayırdı. İnsafsız bulud da ki, axıb gedirdi. Bir yerdə dayanmırdı ki, ata ürəyi bir az sakitləşsin, toxtasın. O, göz yaşını sel kimi axıdırdı. Atalar ağlayırsa, Yer üzü tar-mardı deməli. Bu hönkürtü üzü üstə düşüb qalmış qaraca daşı da, göy üzündən uçub gedən qərib quşu da ağladacaq. Ataların ağlamağına dözmək çətindir, çox çətin. Ağlından oğlu keçdi. Sinəsini düşmənə sipər edən oğlunun başına bir iş gələ bilərdimi?

– Aydının başında qaranlıq var nədir? – ata öz-özünə danışdı.

Əslində, son günlər cəbhədə baş verən hadisələrin hər addımda oğlu üçün böyük təhlükə yaratdığını yaxşı anlayırdı Əmirsoltan kişi. Onu da yaxşı bilirdi ki, oğlu ürəklidir, düşmənə qarşı barışmazdır, o heç nədən çəkinmədən düşmən üzərinə gedə bilər. Aydınsa təhlükənin özəyində olmağı sevirdi. O həmişə atasına deyirdi:

– Ay ata, nə qədər düşmən var, təhlükə qaçılmazdır. Sən bilirsən ki, mən düşməndən qorxmuram. Erməni qorxağın biridir. Onların nəinki əsgərləri, hətta zabitləri belə bizim sıravi əsgərlərdən qorxurlar,

üzbəüz döyüşməkdən qaçırlar. Tülkü kimi gizlənib atırlar. Onlarda o cəsarət hardadır ki, bizimlə üz-üzə gəlsin. Sən narahat olma, biz onları öz yuvasına qədər qovacağıq. Əgər yuvalarını tapa bilsələr...

Aydın sonuncu cümləni sevinc və qürur hissi ilə deyirdi. Oğlunun düşmənə öldürücü zərbələr vurduğunu ata yaxşı bilirdi. Ancaq ermənin tülkü kimi gizlənib bizim şir ürəkli oğullarımızı vurmasından da qorxurdu ata. Oxuduğu kitablardan, eşitdiyi söhbətlərdən də erməni xəyanətini bilirdi. Rus generalı G.Mayevskinin əsrin əvvəllərində söylədiyi bu sözlərdə böyük həqiqət var idi: «Balkan yarımadasından çıxmış bir çox qəhrəmanların adı bizə bəllidir. Bəs ermənilərin xalq qəhrəmanları barəsində bir şey eşidən olubmu? Onların azadlıq uğrundakı mübarizlərinin adları harada həkk edilib? Heç yerdə. Niyə? Çünki ermənilərin «qəhrəmanları» həmişə öz xalqlarının xilaskarlarından daha çox cəlladı olublar. Erməni bandaları bir qayda olaraq qarmaqarışıqlıq salır, arvad-uşağı qılıncdan keçirir, sonra isə qaçıb gizlənirdilər».

Budur ermənilərin tülkü sifəti, tülkü xisləti.

Aydın atasına tez-tez zəng vurur, baş verənlərlə bağlı danışırdı. Əmirsoltan kişi yaxşı bilirdi ki, Aydın cəbhə bölgəsində baş verən döyüş zamanı düşmənin bir neçə canlı qüvvəsini və texnikasını məhv edib. Ata oğlunun fədakarlığı haqda düşündükcə, göz yaşları qurudu. Özünə toxtaqlıq verdi. Qısa zaman ərzində baş verənləri yuxu kimi mənalandırdı. Ürəyində oğluna və cəbhə bölgəsində Vətənin keşiyini çəkən oğullara dua oxudu, Tanrıdan onlara sağlıq arzuladı. Atası Aydın haqqında düşünəndə həmişə qürurlanırdı. Elə bilirdi ki, oğlu yenilməzdir.

Əmirsoltan kişinin fikri oğlunun yanında idi. Bir an da olsa Aydın yadından çıxmırdı.

– Səhər açılsın, uşağa zəng vurum, görüm salamatçılıqdırmı? – deyə ürəyindən keçirdi.

Əmirsoltan kişi Aydının qorxmazlığı haqqında dostları arasında az qala əfsanəyə çevrilən bir hadisəni xatırladı. Aydın üçillik cəbhə həyatında oddan-alovdan, ən ağır sınaqlardan, təhlükələrdən adlamışdı. Elə 2012-ci ilin oktyabrında oğlunun göstərdiyi fədakarlıq insanlıq tarixinə qızıl hərflərlə yazılmalıdır.

Aydın Tərtər rayonunun Qapanlı kəndində xidmət edirdi. Qapanlılar onu öz doğmalarından seçmir, özlərinə ən əziz adam bilirdilər. Aydının bir hərəkəti onu Qapanlı camaatının gözündə daha da ucaltdı. Onlar gizirin yaxşılığını heç vədə unutmayacaqdılar.

İgidlik, cəsurluq südlə, sümüklə gəlir. Aydına da bu mərdlik, kişilik dədə-babalarından gəlmişdi.

2012-ci ilin soyuq payız günündə, daha dəqiq desək, oktyabrın 26-da bir hadisə baş vermişdi. Qapanlı kəndinin sakini Elməddin Quliyev təmas xəttində minaya düşərək həlak olmuşdu. Heç kəs Elməddinin meyitini hadisə baş verən ərazidən çıxarmağa ürək etmirdi. Əlbəttə, ora yaxınlaşmaq həyatını itirmək demək idi. Meyiti oradan götürmək istəyən insan gərək ölümü gözü qarşısına alaydı. Aydın ölümün gözünün içinə dik baxıb irəliyə doğru hərəkət etdi. Əsgərləri, zabit və gizirlər: "Aydın, geri qayıt, ora getmək olmaz. Həlak olarsan!" desələr də o, yolundan dönmədi. Elməddinin nəşini götürüb geri qayıdan Aydın doğma qardaşını itiribmiş kimi hönkürdü. Elməddinin bədəni ələ gələsi deyildi. Mina ayağını biçmişdi, hər tərəf onun qanına bələnmişdi. Atası Aydının keçən il ona danışdığı bu hadisədən xeyli təsirlənmişdi. Oğlunun bu cəsarəti, dönməzliyi, vətənə olan sevgisi və sədaqəti qəlbini fərəh hissi ilə doldurmuşdu.

Oğlunu yaxşı tanıdığı üçün narahat idi, ürəyinə xal düşmüşdü. İynənin gözündən belə keçən Aydın üçün narahat idi Əmirsoltan kişi. İlan gülləyə atılan təki, Aydının yanar oda atılmağa, düşmənini hər an məhv etməyə hazır olduğunu bildiyi üçün narahat idi. Həyəcandan üz-gözü səyriyirdi. Vaxtın necə keçdiyini hiss etməyən Əmirsoltan kişi səhəri dirigözlü açmışdı.

Evdə dərin səssizlik hökm sürürdü. Dan yeri ağarırdı. Əmirsoltan kişi havanın işığına telefonunu tapdı, düz gözünün qarşısında imiş, amma o bunu görə bilməyib. Kişi saata baxdı, hələ tez idi.

Əmirsoltan kişi yenə də xəyala daldı. Aydının uşaqlığı, yeniyetməliyi kino lenti kimi bir-bir gözləri qarşısından keçirdi, onunla aralarında baş verən məhrəm söhbətləri yenidən yaddaşında canlandırmağa çalışdı.

Qəribə uşaqdı Aydın. Hər şeyi öyrənməyə cəhd edirdi:

– Bu çiçəyin adı niyə zəngçiçəyidi?

– Meh əsəndə sırğaları zəng çalır elə bil.

– Bəs küsdümgülü?

– Onu da küsdürəndə ləçəkləri yığılır, dodaqları büzülür. Lap sənin kimi.

– Ata, küləklərin evi olur?

– Küləklərin evi dərələrdi, dağlardı, oğlum.

Aydının sualları bitib-tükənməzdi. Bəzən yuxuda da sayıqlayardı. Körpə olmasına baxmayaraq nə qədər nağıllar, tapmacalar, düzgülər, sanamalar, yanıltmaclar, laylalar bilirdi. Hətta, bir dəfə bir ağbirçək bu dilli-dilavər oğlana baxıb: «onun barmağını sındırın, vallah, göz dəyəcək ona», – demişdi.

Bir az böyüyən kimi sualları da böyüdü Aydının. Atasına xalqımızın keçmiş tarixi, qəhrəmanları, mənsub olduğu nəsil şəcərəsi haqqında suallar verir və hamısına da dolğun cavab istəyirdi.

– Ata, sənin babaların kim olub? Onlar nə ilə məşğul olub?

Əmirsoltan kişi oğluna ulu babaları haqqında danışırdı.

Aydın gözlərini yumub xəyala dalır, özünü keçmişdə hiss edir, qəhrəmanlıq göstərir, dizi aynalı pəhləvanlarla güləşir, şər üzərində qələbə qazanırdı.

– Ata, danış, nə olar?

Əmirsoltan kişi tarixin o üzündə qalan hadisələri, atasından eşitdiyi əhvalatları nağıl edirdi oğluna.

– Oğul, bizim babalarımız igid, qorxmaz adamlar olub. Onların dizini yerə gətirmək hər pəhləvanın işi olmayıb. Şabran həmişə öz igid oğulları, düşmən bağrını dələn ərənləri ilə şöhrətlənib. Ata-baba yurdumuz Zeyvə kəndinin  də tarixi qədimdir. Bilirsən ki, kəndimiz dağlar qoynunda yerləşir, füsunkar təbiəti insanlarının ömrünü uzadır. Oğul, qocalarımız, aqil insanlarımız danışırdı ki, bu yerlər Şeşparə mahalının ən qədim məkanlarından olub, hətta bu kəndin salınması tarixinin VII əsrin sonlarına təsadüf etdiyi bildirilir. Pirnəzir Baba piri kəndimiz haqqında böyük məlumat verir. Bizim nəsil Sultan Əhmədli adlanır. Zeyvədə qədimdən kök salan nəslimiz burada ad-san qazanıb, hörmət-izzət sahibi olub. Sultan Əhməd bir el pəhləvanı olub və onun şöhrəti ətraf mahallara yayılıb. O, meydana çıxanda çox az adam ürək edib onunla qurşaq tutarmış. Belə eşitmişəm ki, o vaxt güləşənlər üçün

ayrıca süfrə açılar, üstünə bəzəkli xonçalar, nəmərlər qoyulardı. Bunlar isə həmişə babamıza qismət olardı. O qədər güclü idi ki, Qubadan, Bakıdan, digər yerlərdən onun sorağına Şabrana gələn adı bəlli pəhləvanları da məğlub etmişdi babam. Babamız haqqında xalq arasında bir rəvayət də yaşayır. Bir gün Sultan Əhməd öz kəndlərindən Dəvəçibazara satmaq üçün camış gönü aparırmış. Yolda acır və bir kənara çəkilib çörək yeməyə başlayır. Bu vaxt yoldan tanımadığı cüssəli bir adam keçirmiş, o, babamı görüb ona yaxınlaşır. Salam-kəlamdan sonra babam qonağın hardan gəlib, hara getdiyini soruşur. Qonaq:

– Mən Sultan Əhmədlə güləşmək üçün Zeyvə kəndinə gedirəm, – deyir. – Mənə o kəndin yolunu göstər, gedim Sultan Əhmədin kürəyini yerə vurum.

Babam bığaltı gülümsünüb bu yolçuya – qəribə Zeyvə kəndinin yolunu göstərir. Amma qonağa bir kəlmə söz də deyir:

– Qardaş, gəl ora getmə, Sultan Əhməd səni camış gönü kimi parçalar.

Deyilənə görə, baltanın kəsə bilmədiyi camış gönü babamın əlində ovxalanıb pul-pul olurmuş. Qərib qonaq mətləbi anlayır, üzünü babama tutaraq:

– Bilirəm, Sultan Əhməd sənsən, gəl bu gündən dost-qardaş olaq.

Onlar duz-çörək kəsib qardaş-dost olacaqlarına əhd-peyman edirlər və bu dostluğu uzun illər davam etdirirlər.

Babam ailə həyatı qurandan sonra güzəranını mal-qara saxlamaqla, əkin-biçinlə keçirib, ailəsini dolandırıb. Dan sökülləndə yerindən durar, əməklə məşğul olarmış. O, Allaha bağlı, halal, yaxşılıq edən, əlindən pislik, mərdiməzarlıq gəlməyən bir insan olub. Peyğəmbərin buyurduqlarına, müqəddəs Qurana sidq-ürəkdən inanır, əməl edirdi. Sultan Əhməd babamızın ömür-gün yoldaşı seçdiyi Əlivə nənəmiz də halal ocaqdan çıxmışdı. Ər-arvad əl-ələ verib doqquz övlad böyüdüb pərvazlandırıblar. Onlardan beşi oğlan, dördü qız olub. Sənin baban, mənim atam Bəhram kişi Sultan Əhmədin üçüncü oğludur. Aydın, bala, bizim tayfamız, şəcərəmiz həmişə biləyi güclü, qolu qüvvətli, dizi taqətli, ürəyi təpərli oğullar yetişdirib. Sən də böyü, babaların kimi pəhləvan ol, el təəssübü çək, ad-san qazan. Ağac öz kökündən heç vaxt iraq düşməz, öz kökü üstə bitər, böyüyər, yarpaqlanar, çiçək açar, bar

verər. İnsan da ağac kimidir. Kökə bağlıdır. Kökünü tanımayan kişi qəhrəman ola bilməz, oğlum. Çalış nəslinin adını uca tutasan:

***Gedər qazan qarası,***
***Getməz üzün qarası.***

Sənin atdığın hər addım həm nəslinin, həm də səni böyüdən, tərbiyə verən ocağın adına yazılır, oğlum, çalış söz qəhrəmanı yox, iş, əməl qəhrəmanı olasan. Elə vətənimizin 1988-ci ildən bəri çəkdikləri sənə ən yaxşı dərs olmalıdır. Oxu, öyrən və hər şeyi öz gözlərinlə gör.

Ananı unutma! Onun sizin üstünüzdə haqq-sayı, əziyyəti böyükdü. Unutma ki, o, həm də səninlə nəfəs alır. Sən həm də onun nakam qardaşının yarımçıq qalmış arzularını yaşatmalısan. Sən halal bir nəslin övladısan. Bu halallığı heç vaxt unutma, mənim ağıllı balam.

Atası danışdıqca, Aydın onun sözlərinə diqqətlə qulaq asır, danışılanları bir-bir yaddaş sandıqçasına yığırdı. Aydın babalarının yolu ilə gedəcəyini düşünürdü. Atası həm də ona Azərbaycanın xalq qəhrəmanlarından, qəhrəmanlıq tariximizdən, İkinci Dünya müharibəsi qəhrəmanlarından, Qarabağın azadlığı uğrunda canını fəda edən oğul və qızlarımızdan, onların vətənpərvərliyindən danışırdı, Aydın qəhrəmanlıqla bağlı söhbətləri eşitməkdən doymurdu. Özünü el igidlərinə bənzədən Aydın yuxularında da onları görürdü.

Atası Aydının uşaqlığının hər kiçik fraqmentini belə xatırlayır, yada salırdı. Ata düşünürdü ki, üç oğlundan niyə Aydını daha çox istəyir, nə üçün Aydın haqqında daha çox düşünür?

– Aydın cəbhədədir, Nicatla Cavad isə yanımdadır. Həm də Aydın evimizin sonbeşiyidir axı.

Əmirsoltan kişi oğlunun ağır təbiətindən, bəzən ağsaqqalyana hərəkətindən gizli qürur hissi keçirirdi. Bəzən ona elə gəlirdi ki, Aydın yüz yaşlı qocadır. Çünki oğlunda müdriklik görürdü ata.

Bir dəfə Aydın atasına zəng edib hansısa bir məsələ ilə bağlı məsləhət istəyibmiş.

– Oğlum, mən sənə nə məsləhət verə bilərəm ki? Sən məndən də ağıllısan, özün qərar verməyi bacarırsan. Bu gün mənim sənin məsləhətinə ehtiyacım var, oğlum, – demişdi.

Əmirsoltan kişi heç Aydını bu qədər xatırlamamışdı ömründə. Bir ay əvvəl gəlib nişanında iştirak edib geri qayıtmışdı.

– Heç yadımdan çıxmaz, Aydın istədiyi qızı evlərinə yola salarkən onu düz darvazanın qarşısına qədər ötürmüşdü. Qızın atası bayıra çıxıb Aydınla görüşmüş, onu evə dəvət etmişdi. Aydının nişanlısının valideynləri ilə biz əvvəldən ailəvi dost idik. Qızın atası buna görə Aydını evə çağırmışdı. Aydın kişidən üzr istəyib, kənara çəkilib mənə zəng vurmuşdu:

– Ata, məni evə dəvət edirlər, gedim-getməyim?

– Ay oğul, özün bilərsən, mən sənə nə məsləhət verə bilərəm? – deyə ona cavab vermişdim.

Aydın gəlib qızın atası ilə sağollaşıb və utana-utana demişdi:

– Dayı, bağışla məni, böyüklərim bu darvazadan içəri keçməmiş, addım ata bilmərəm. Ağsaqqalım gəlsin, sonra mən də gələrəm.

Aydın belə oğul idi, böyüyün-kiçiyin yerini bilən. Mən bəzən heyrət edirdim, yaşının bu çağlarında onda bir ağsaqqal təmkini vardı. Ciddiliyi, ağırlığı, ağayanalığı ilə qardaşlarından seçilirdi.

Əmirsoltan kişi fikrində Aydınla danışır, onun hərəkətlərini göz önünə gətirir, təsəlli tapırdı. Amma yenə ürəyində narahatlıq vardı. Ürəyini sıxan nigarançılığı qovmağa çalışırdı. Ancaq bacarmırdı. Evdəkiləri oyatmamaq üçün ayağının ucunda var-gəl edirdi. Bəziləri onu qardaşlarının böyüyü hesab edirdi. Aydın isə böyük-kiçik yeri bilən idi. Qardaşlarını çox istəyirdi. Onların məsləhətlərinə həmişə hörmətlə yanaşırdı. Mehribanlığı həmişə qoruyurdu. "Mehribanlıq olmayan evdə xeyir-bərəkət olmaz", – deyirdi. Bunu dostları, yaxınları da yaxşı bildiyindən Aydına xətir-hörmətlə yanaşırdı. Çoxu Aydından məsləhət də alırdı. Aydın da dost köməyini əsirgəməzdi.

Ata oğlunun bir ay əvvəl cəbhədə keçirdiyi ad gününü xatırladı. Sentyabrın 29-u Aydının ad günü idi. Anası biş-düşlə məşğul olur, müxtəlif naz-nemətlər hazırlayırdı ki, onu cəbhəyə, Aydına göndərsin. Bu istəyini Aydına deyəndə o buna etiraz etdi:

– Gəlmək lazım deyil. Özü də mən ezamiyyətdəyəm, yerimdə deyiləm. Gəlib məni harada tapacaqsınız?..

Əmirsoltan kişi oğlu ilə telefonla danışıb Nicatla Cavadın cəbhə bölgəsinə getməsi üçün ondan birtəhər razılıq aldı. Amma Aydın eşidəndə ki, anası, qayınanası da onun yanına gəlmək istəyir:

– Ata, arvadın cəbhə bölgəsində nə işi... Yaxşı kişinin dalınca arvad gəlməz, – deyib birbaşa atasının sözünü kəsmişdi.

Cavadla Nicat Aydına baş çəkib gəldikdən sonra ata onlardan Aydının vəziyyətini soruşdu:

– Akuş (evdə Aydını belə çağırırdılar) necədir, canı-başı yaxşıdırmı?

Nicatdan əvvəl Cavad dilləndi:

– Lap əladır, ata, salam söylədi. Dedi ki, məndən nigaran qalmayın. Hər şey qaydasındadır.

Nicat söhbətə müdaxilə etdi:

– Ata, maşallah, Aydının dostları arasında çox yaxşı hörməti var, hamı onu öz qardaşı kimi sevir. Mən qardaşımla fəxr edirəm.

Böyük və ortancıl qardaşın kiçik qardaşları haqda belə sevgiylə danışmaları Əmirsoltan kişini çox sevindirdi. Övladlarını həmişə belə mehriban görmək istəyirdi. Həmişə söhbət zamanı övladlarına: «Ailə balaca bir dövlətdir, - deyirdi. – Öz sirri, öz siyasəti, öz qanunları. Nümunəvi ailələrin çox olması cəmiyyətin xeyrinədir».

## *Qara xəbər*

“Yaxşı oğul düşmən qarşısında çəpərdir”, – deyə ürəyindən keçirdi ata. Cavadla Nicatın cəbhə bölgəsindən gətirdiyi xəbərlər onun qırışığını əməlli-başlı açmışdı. Aydın oğlanlarının ikisindən də kiçik olmasına baxmayaraq, qardaşlarının fəxri idi, bu, atanı daha da qürurlandırırdı.

Aydın bir dəfə məzuniyyətə gəlmişdi. Amma yaman narahat idi. Əsgərlərini qoyub gəlmişdi. Yarı canı onların yanındaydı. Gənc əsgərlər cəsur kəşfiyyatçı Aydının yanında özlərini çox inamlı hiss edirdilər. Onun əsl hərbçi nizam-intizamı, qətiyyəti, cəsurluğu hər bir gənc əsgər üçün nümunə idi.

– Ata, getmək istəyirəm, məzuniyyətim nə vaxt başa çatacaq? – deyirdi.

O, məzuniyyətdə olanda da tez-tez əsgərlərlə söhbət edirdi. Əsgərlər ona deyirdi ki, ermənilər tez-tez atır, hədəf gənc əsgərlərimizdi.

...Qardaşınız Vətəni lap çox sevir. Aydın elə yaxşı edib hərbi seçdi. O, hərbi seçməsəydi, indi Allah bilir hansı işlə məşğul olacaqdı. Yox, inanmıram, o özünə yaraşmayan işin qulpundan yapışmazdı, harda olsaydı başımızı ucaldardı. Onsuz da bizim qohum-əqrəba arasında hərbə könül verənlər az olmayıb, Aydın da onların yolu ilə getdi. Uğuru xeyir olsun!

Ata xəyalında danışırdı, Aydını gah Cavadla, gah Nicatla müqayisə edir, gah da xalqımızın qəhrəmanlarına bənzədirdi onu.

Əmirsoltan kişini xəyalların qoynundan südsatan arvadın həyəti başına götürən səsi ayırdı. Südsatan xalanı həyətdə az qala hamı tanıyırdı, o da bütün sakinlərin adını əzbər bilirdi.

Əmirsoltan kişi tələsik çölə çıxdı ki, süd alsın. Nəvəsi mağaza südünü xoşlamırdı. Həyətə çıxanda blokun qarşısında xeyli adam gördü. Onlar südçü xalanın başına toplaşıb alış-veriş edirdilər. Bir az aralıda körpə pişik balaları bir-birilə oynayır, ac olduqlarından, südçüyə tərəf baxıb miyoldayırdılar. Əmirsoltan kişinin ürəyi pilə kimi yumşaq idi. Pişik balalarının səsinə dözməyib südçüdən bir dolça süd aldı və ağzı üstə çönən dəmir konserv qutusunu əlinə götürüb onu südlə doldurdu. Pişik balaları bir-birinə aman vermədən südü acgözlüklə içməyə başladılar. Qonşular Əmirsoltan kişini ürəyiyumşaq, mehriban, ipək xasiyyətli, camaatın xeyir-şərinə yarayan bir insan kimi tanıyırdılar. Uzun illər mənzil-istismar sahəsində işləyən Əmirsoltan kişidən hələ bir nəfər də olsun inciməmişdi. Onun ailəsi də, balaları da məhəllədə sakit, qanacaqlı, nümunəvi insanlar kimi tanınırdı. Aydın isə bütün qonşuların sevimlisi idi.

Əmirsolan kişi üzünü südsatan arvada tutaraq:

– Sən Allah, mən oldum-olmadım, hər səhər bu pişik balalarına süd ver, hesabla, pulunu verəcəyəm. Yazıqdırlar, üzü qışa gedir, ölməsinlər. Onlar da canlıdır, onları da Allah yaradıb. Qoy qarınları doysun, balama dua oxusunlar. Ağsaqqal babalardan, nənələrdən eşitmişdi ki, dilsiz-ağızsız heyvanların duası insanların duasından tez çatır Allaha.

Əmirsoltan kişi bloka girəndə gördü ki, yad bir adam onların blokunda dolaşır. Elə bil ki, kimisə axtarırdı. Bu həndəvərdə indiyədək belə bir adam görməmişdi. Əmirsoltan kişi tanımadığı adama salam verdi.

– Bura adamına oxşamırsınız. Deyəsən kimisə axtarırsınız?

Kişi başı ilə salamı alıb bir söz demədən blokdan çıxdı. Bu mənzərə Əmirsoltan kişiyə qəribə gəldi, ürəyinə xal saldı. Bu adam niyə dillənmədi? Sözlü adama oxşayırdı. Amma danışmadı. Niyə? Nə üçün? İçindən elə bil duz kisəsi asılmışdı, onu aşağı çəkirdi. Fikirli-fikirli evə girdi.

Ürəyində bayaq gördüklərini götür-qoy etdi. Gəlini səhər yeməyini hazırlayıb süfrə açmışdı.

– Ata, gəl çay-çörəyini ye. İşə gedəcəksən, – deyə ailənin başçısını çağırdı. Əmirsoltan kişinin əlləri toz-torpaq olmuşdu bayaq. Yuyunub süfrə başında əyləşdi. Səhər yeməyini könülsüz yedi. Gəlinindən balaca nəvəsini soruşdu.

– Hələ yatır, – deyə gəlini cavab verdi.

Əmirsoltan kişi həyat yoldaşının oyanıb-oyanmadığını da gəlinindən soruşdu. Gəlin:

– Sevil anam oyanıb, mətbəxdədir, – dedi.

Sevil xanım həyat yoldaşının səsini eşidib otağa girdi. Onun rəngi-ruhu nə isə kişinin xoşuna gəlmədi.

– Ay Sevil, birtəhərsən, – deyə ondan soruşdu.

– Nə isə heç yaxşı deyiləm. Ürəyim elə sıxılır , heç olmayan kimi. Yuxuda görmüşəm ki, bir qara atlı, əli qılınclı kişi Aydını atının tərkinə alıb qaranlıq tunelə tərəf çapır. Mən də ayaqyalın, başıaçıq, qan-tər içində onun ardınca qaçıram. Nə illah elədim çata bilmədim. Kişi Aydını qaranlıq tunelə apardı. Sonra da gördüm ki, tuneldən bir dəstə adam çıxıb bizə sarı gəlir, amma Aydını özləri ilə gətirmirlər. Uşağımdan elə nigaranam ki... Üstəlik, Cavad da yola çıxır.

– Ay gəlin, ay qızım, Cavadın pal-paltarını hazırlamısanmı?

Gəlin başı ilə "hə" işarəsi verdi.

Əmirsoltan kişi üzünü arvadına tutub:

– Cavad ezamiyyətdən elə dünən gəlmədi ki? İndi hara gedir?

– Yenidən rayona göndərirlər, deyirlər ki, sənin getməyin lazımdır. Hələ indi yox, axşamüstü yola çıxacaq, qatarla gedib gələcək. Üçgünlük səfərdi də.

Bilmirəm niyə uşaqlar bir yana gedəndə ürəyim bərk narahat olur. Deyirəm hamısı ətrafımda olsun. Məndən olsaydı, heç birini gözümdən kənara buraxmazdım. Aydın cəbhədə, Cavad yol üstə, Nicat da ki, öz evində.

Əmirsoltan kişi arvadına təsəlli verdi:

– Ay arvad, təki canları sağ olsun. Allaha şükür, ağıllı, tərbiyəli, böyük-kiçik yeri bilən övladlarımız var, nəyin dərdini çəkirsən?

Əmirsoltan kişi arvadı ilə sağollaşıb işə getdi. Yolboyu səhər blokda gördüyü kişi haqqında düşündü: “Görəsən kim idi o? Niyə mənə elə diqqətlə baxırdı, nə üçün bir kəlmə belə danışmadı?”

Sevil ana əri gedəndən sonra özünü daha da narahat hiss etdi. Gəlini ona dərman verdi ki, bəlkə sakitləşə. Amma o, gəlinə:

– Ürəyim sıxılır, ay qızım, Cavadı oyat, – dedi.

Cavad anasının yanında dayanıb ona təsəlli verirdi:

– Ay ana, Allaha şükür, nə olub ki, hamımız sağ-salamatıq. Aydının da yanından bir neçə həftədi gəlmişik. Dünən də danışdıq, bu gün də danışacağam. Özüm çox zəng vurmuram ki, birdən ona mane olaram. O, kəşfiyyatçıdır, hər an vətənin keşiyində ayıq-sayıq dayanmalıdır. Hər dəqiqə zəng vurub "səndən nigaranıq" deyə bilmərik ki… Maşallah, Aydın çox qoçaqdır, vətənpərvərdir. Aydın yanlarında olmayanda döyüş yoldaşları onun haqqında elə heyranlıqla, elə maraqla danışırdılar ki, heyrətlə onlara qulaq asırdıq. Döyüş dostları danışırdı ki, Aydın silahını sıfırlayır, diqqətini toplayır, saatlarla səngərdə uzanır."Boş-boşuna yerə uzanma, dur ayağa" deyən olanda da qardaşım onlara:

– Sakit olun, mən kəşfiyyatçıyam, – deyə cavab verir.

Ana, döyüş dostları danışır ki, bəzən Aydınla zarafat edib:

– Adam nə qədər postda olar? – deyirik.

– Nədən qorxursunuz? Qorxan adamın hərbidə nə işi? Uzaqbaşı ölümdür, – deyə Aydın onların cavabını verir.

– Aydın çox ürəklidir, ana. Dünən Aydınla bilirsən nədən danışdıq?

– Nədən? – deyə ana soruşdu.

– Toyundan. Dedi ki, Cavad, sən nə lazımdırsa, hamısını təşkil et, restoranı danış, gəlin maşını seç, qonaqların siyahısını tut, Allah qoysa borcundan çıxaram.

Dedim ki, nə borc. Qardaş deyilik, nə lazımdır hamısını canla-başla edəcəyəm, ürəyini buz kimi saxla. Bir neçə maşına baxmışam, amma hələ seçməmişəm.

Ana, gərək maşın da, restoran da, çalğıçılar da Aydının ürəyincə olsun. Qardaşıma onun adına layiq toy etməliyik.

Cavadla Aydının xasiyyəti yaxşı tuturdu. Ona görə də həmişə Cavada ərk edirdi.

–Yəqin əsgər, döyüşçü dostları da toyda iştirak edəcəklər.

– Kaş ki, hamısı gələydi, Aydını tək qoymayaydılır. Bir neçə saatlıq da olsa güllə səsindən, səngər nəmişliyindən uzaq olaydılar.

– Çağıracam, hamısını çağıracam. Qoy Aydının toyu hamısının yaddaşında xoş xatirə kimi qalsın.

Cavad danışdıqca, anasının ürəyi sakitləşir, göz qapaqları yumulurdu. Cavadın özünün də içində narahatlıq vardı. Əslində, heç ezamiyyətə getmək istəmirdi. Az qala işlədiyi idarəyə zəng vurub ora getməkdən imtina etdiyini demək istəyirdi. Amma özünü toparlayıb səfərə hazırlaşmağa başladı...

Axşamüstü idi. Abdullayevlər ailəsinin qonşuluğunda toy vardı. Əmirsoltan kişi toyda iştirak etmək üçün işdən icazə alıb evə tez gəlmişdi.

Arvadının halı yenə pis idi.

– Ay arvad, özünü ələ al, sənə nə olub?

Ana nigaran-nigaran ərinə tərəf baxmadan gözünü naməlum nöqtəyə zillədi:

– Cavad gedir rayona, Aydın da cəbhədə, ikisindən də nigaran qalıram.

Əmirsoltan kişi arvadının sözünü yarımçıq kəsdi:

– Sən Allah bəsdir. Özünü ələ al. Dur, hazırlaş toya gedək.

Sevil ana:

– Yox, mən getmirəm, özün get, evdən çölə çıxmaq istəmirəm heç. Ürəyimi elə bil tutub sıxırlar. Bu gün mənə noolub görəsən? Canımda bir qara-qorxu var. Allah axırın xeyir eləsin, dilim-ağzım qurusun, bu yuxu heç fikrimdən çıxmır. Bircə Aydın salamat olsun. Mirmövsüm ağanın ocağını ziyarət edəcəm, nəzir verəcəm.

Əmirsoltan kişi arvadı ilə danışa-danışa hamam otağına keçdi, yuyunub çıxdı. Yenicə köynəyini əyninə keçirmək istəyirdi ki, evlərinin qapısı zərblə döyüldü. Qapını döyən adam bir saniyə dayanmırdı, elə hey qapını döyəcləyirdi. Axşamüstü qapının belə döyülməsindən Əmirsoltan kişinin dalağı sancdı: "Bu zaman kim olar belə? Bəs qapını niyə belə döyür görəsən? Elə bil ki, adam yox, qara bir qüvvə döyür qapımızı".

Qapını açanda qarşısında cüssəli bir polis serjantı gördü.

Sanki serjantın ağzına qaynar südlüaş tökmüşdülər, sözləri elə ütələk deyirdi ki, Əmirsoltan kişi onun nə dediyini kəsdirə bilmirdi. Handan-hana polis danışığını düzəltdi:

– Oğlunuzu burada dəfn edəcəksiniz, yoxsa rayona aparacaqsınız? Oğlunuzun meyitini harada dəfn edəcəksiniz, ay dayı?

– Nə oğul, nə meyit, sən nə danışırsan, ay bala, səni bura kim göndərib, bəlkə ünvanı səhv salıbsan?

– Yox, səhv salmamışam, bura Aydın Əmirsoltan oğlu Abdullayevin yaşadığı mənzil deyil?

– Aydın mənim oğlumdur. Onun başında nə iş var, qurbanın olum bala, bir söz desənə?!

Polis serjantı ataya qara xəbəri verən kimi də yoxa çıxdı. Atanın son sözləri cavabsız qaldı. Qapını zərbə ilə döyən polisin qəfil gəlişi atanın dünyasını alt-üst etdi, belini sındırdı. Yerindəcə donub qaldı, polisin çatdırdığı acı xəbər ananın qulağına çatar-çatmaz, o, tirtap yerə yıxıldı. Əmirsoltan kişi qapıdan aralanıb hönkürtü içində arvadına dərman verdi. Qəfil xəbərdən özünü itirmiş, karıxıb qalmışdı. Polisin ardınca bayıra çıxdı, blokun qabağında heç kəs gözə dəymirdi. Yenidən evə qayıtdı ki, görsün həyat yoldaşının halı özünə gəlibmi?

Aydın şəhid olmuşdu. Üstəlik, xəbərin ailəyə qəfil çatdırılması böyük sarsıntı yaratmışdı. Nə edəcəklərini bilmirdilər. Xəbər Cavada

da çatdı. Yaxşı ki, hələ qatar yola düşməmişdi... Cəbhənin Tərtər istiqamətində düşmənlə təmas xəttində atəşkəsin pozulması nəticəsində Aydın Abdullayev şəhidliyə qovuşmuşdu. Televiziyada Aydın Abdullayevin şəhid olması ilə bağlı yayılan xəbər ildırım sürəti ilə bütün Azərbaycana yayıldı. Bir neçə saniyə içərisində bütün ölkə xəbər tutdu ki, təmas xəttində atışma olub, gizir Aydın Abdullayev snayperlə düşmən tərəfindən vurulub.

Gənc yaşında torpağa qismət olan Aydın dünyadan qəhrəman kimi getdi. Aydının cənazəsi Bakıya gətiriləndə bərk yağış yağırdı. Sanki Aydının şəhidliyinə göz yaşı axıdırdı buludlar. Aydının nəşini Bakıda ağlayan göylər yağışla qarşıladı. El çıxdı şəhid tabutunun qarşısına, rayon rəhbərliyi, hərbçi yoldaşları gəldi Aydınla vidalaşmağa.

Aydın üçrəngli bayrağımızı çox sevirdi. Onu həmişə qoynunda gizlədirdi. Onun tabutu çox sevdiyi və özü ilə cəbhəyə apardığı üçrəngli, Ay-ulduzlu Azərbaycan bayrağına bükülmüşdü. O, son mənzilə də üçrəngli bayraq sevgisinə, müqəddəsliyinə bükülüb getdi...

Ana fəryad qoparırdı. Xalaları ah-nalə çəkirdi. Heç kəs onları ovuda bilmirdi, heç kim onlara təsəlli vermək gücündə deyildi.

– Aydın, niyə məni yandırdın, bala, niyə yaralı ürəyimə bir yara da sən vurdun, oğul? Mən sənə bəy otağı hazırlayırdım, gəlin gözləyirdim, belimi qıran oğlum! Bir aydan sonra sən bəylik taxtına oturacaqdın, oğlum! Bəylik gərdəyi qaraya bürünən balam vay! Deyirdin ki, ay bacı, (Aydın anasına və xalalarına bacı deyirdi) qəhrəman kimi gələcəyəm evə, özü də həmişəlik. O bayrağı Şuşaya sancmalıydın axı, ay oğul, niyə o bayraq sənin tabutuna sarıldı. Tabutun da bayraqdan ayrı düşmədi. Yandım oğul, yaman yandım...

***Bala vay,***
***Anan ölsün, bala, vay.***
***Bülbültək yuva qurdum,***
***Uçurtmadım bala, vay.***

***Ozan ağlar,***
***Dərdimi yazan ağlar.***
***Burda bir igid ölub,***
***Qəbrini qazan ağlar.***

***Analar yanar ağlar,***
***Tellərin sanar ağlar.***
***Dönər göy göyərçinə,***
***Yollara qonar ağlar.***

Hansı yola qonub gözləyim səni, oğul? Tərtərəmi gedim, Bakıdamı axtarım? Ay qızlar, mənim başıma bu nə qar idi yağdı belə? Balama toy edəcəkdim, toy! Qardaşımın toyunu görmədim, Aydınımın toyunu görəydim, barı!

***Oğul, ürəyim şan-şandı,***
***Ağ saçlarım pərişandı.***
***Sinəm qəmlərə nişandı***
***Fələk oxunu atalı...***

Ananın naləsi ürəkləri dağlayırdı. Ana oğlunun nəşindən ayrılmaq istəmirdi. Elə hey deyirdi ki, məni də oğlumla dəfn edin...

Sevil ananın fəryadı göydə qanad çalan quşları da saxlayırdı, yerlərin, göylərin bağrını şan-şan edirdi. Ana şəhid balasının tabutundan qopmaq istəmirdi. Ona qoşulub el də ağlayırdı qəhrəman balasına.

***Balamın iyirmiüç yaşı,***
***Yandı ürəyim başı.***
***Fələk bir dağ çəkdi ki,***
***Kəsilməz gözüm yaşı.***

***Şəhid anasıyam mən,***
***Oda yanasıyam mən.***
***Ölüm harda gizlənib,***
***Günü sanasıyam mən.***

Aydın Abdullayevin yas mərasimi şəhidin adına layiq keçirildi. Şəhid qardaşı ilə vida mərasimində Cavad özünü saxlaya bilməyib hönkürdü. Danışmaq istəyirdi, amma göz yaşı aman vermirdi. Səsi titrəyə-titrəyə qardaşının qədəm qoyduğu mübarək məqamdan danışdı:

– Əziz qardaşım Aydın, mən səninlə fəxr edirəm. Atamız-anamız, qohumlarımız səninlə qürur duyur. Fəxr edirəm ki, sən hələ sağlığında düşməndən intiqam ala bildin. Sonuncu dəfə sənin yaxın dostunla da-

nışdım. O dedi ki, Aydın həmişə bizə deyirdi: "Gün gələcək siz mənimlə fəxr edəcəksiniz. Mən şəhid, qəhrəman olacam. Vaxt gələcək, deyəcəksiniz ki, Aydın mənim döyüş dostum, komandirim olub".

Aydın, qardaşım, sən haqlısan, bu gün hamı səninlə fəxr edir. Sən yurdunu, vətənini necə də sevirdin. Hər an Ali Baş Komandanın əmrini gözləyirdin. Qürurla: «Mən əsgərəm, mən vətənimə xidmət edirəm»,– deyirdin. Mən indi bildim ki, qəhrəman olmaq, şəhidlik məqamına ucalmaq hər kəsə qismət deyilmiş. Tanrı o mərtəbəyə layiq olanları ucaldır.

Sən vətənimizin, yurdumuzun, nəslimizin, sənə süd vermiş anamızın, öyüd-nəsihət, tərbiyə vermiş atamızın, doğmalarının, dostlarının başını uca elədin. Şərəflə yaşadın, şərəflə ucaldın! Öldün demirəm. «Şəhidlər ölməz, vətən bölünməz», – deyə Cavad sözünü hönkürtü ilə bitirdi.

Aydının tabutunu böyük təntənə ilə Suraxanı rayonundakı Dədə Qorqud qəbiristanlığına gətirdilər. Dəfn ediləndə yer-göy göz yaşı ələyirdi. Bir oğul da Vətən torpağına qovuşdu. Qovuşdu ki, Vətən torpağı bir ovuc artsın, şərəflənsin.

Aydın əbədiyyət evindədir. Atası, anası, qardaşları, yaxınları, dostları Aydının məzarını müqəddəs ziyarətgaha çevirib.

Əmirsoltan kişi oğlunun şəhid olmasını həyat yoldaşından fərqli olaraq daha toxtaqlıqla qəbul edib, arvadına tez-tez təsəlli verir:

– Sevil, Aydına elə tərbiyə verdik ki, o, əsl kişi kimi yaşadı, kişi kimi şəhid oldu. Bəs belə oğullar şəhid olmasa, vətəni kim qoruyar?! Sən başını dik tut, şəhid anasısan axı. Bizim nəsil həmişə başı dik yaşayıb. Aydını vətənə bağışladıq. Vətən də Aydını əbədi yaşadacaq.

Əri danışdıqca, Sevil ana onun üzünə qüssəli-qüssəli baxıb dərindən köks ötürürdü. O bilmirdi ki, Əmirsoltan özünü onun yanında tox tutsa da, gizlin-gizlin ağlayır, çöldə-bayırda xəlvət yer tapan kimi gözünün yaşına dəm verir. Abdullayevlər ailəsinin ağsaqqalı ailənin içində ağlamırdı ki, birdən evdəkilər tamamilə ruhdan düşər, bədbinləşər, dərdə təslim olarlar. Həyat davam edirdi. Özünü tox tutub hər kəsə təsəlli verirdi. Ağsaqqalın bir missiyası da budur...

## *Baş ucaldar mərd oğul*

Ana əli qoynunda gözlərini naməlum nöqtəyə zilləmişdi. İçində ağrı-acı, qəlbində dağa dönən oğul həsrətinə göz yaşı tökürdü. Qonum-qonşu, qohum-əqrəba ananın başına toplaşıb ona təsəlli verirdilər. Ancaq heç kəs ananın fikrini dağıda bilmirdi. Beynindəki acı duyğular, oğluna görə keçirdiyi iztirablar ananı bu aləmdən qoparmışdı. O, sanki reallıqla yuxu arasında çırpınırdı.

Yaz gəlmişdi, təbiət üzə gülürdü. Dünya təzədən doğulurdu. Ağacların puçur-puçur tumurcuqları düymə-düymə çiçəklərə dönürdü. Çayların, bulaqların dilinin kilidi açılmışdı, coşur, çağlayırdı. Ana ürəyi isə ağlayırdı. Elə Aydın da bahar yaşındaydı.

Ömrünün gülli-çiçəkli yazını yaşayırdı. Bəs niyə qara torpağa qismət oldu? Ananın qəlbində qışın oğlan çağı idi. Yazı qarşılamaq istəmirdi. Heç ovqatı yaz üstə deyildi. Bayırda xoş yaz havası vardı. Bakı aprelin son günlərini yaşayırdı. 28 aprel günü idi. Sevil ana dörd il idi ki, ad günündə Aydından təbrik almırdı. Dörd il idi ki, ana təbrikə gələnləri soyuq qarşılayır, göz yaşı ilə yola salırdı.

– Aydın kimi oğlu şəhid olan ana ad günü keçirərmi? Məni təbrik etməyin, – deyirdi hamıya.

Əslində, heç kəs istəmirdi ki, ananın ürəyinə toxunsun, ona görə də onun sözündən incimirdilər.

Ananın çiynində dünya boyda oğul dərdi vardı. Bəzən ona elə gəlirdi ki, bu yaz günündə də səngərdə soyuqdur. Qəlbindən oğlunun səngərdəki dostları keçirdi. Sevil ananın ürəyi sızıldayırdı. Canına yayılan soyuqdan yumaq kimi büzüşürdü. Ona elə gəlirdi ki, əsgərlər səngərdə üşüyür.

Bir neçə ay əvvələ qədər ananın oğlu da səngərlərdə keşik çəkirdi. Oğlu səngərdə yuxusuz qalanda, gecələr ananın da yuxusu ərşə çəkilərdi. İlan vuran yatardı, ancaq Sevil ana gözlərini yummazdı. Oğlu şəhid olandan indiyə qədər düz-əməlli yuxu yatmırdı. Ona elə gəlirdi ki, yatsa, birdən oğlu gələr, o oyanana qədər çıxıb gedər. Oğlunun şəhid olmasına inanmırdı ana. Yatmış, əbədi yuxuya getmiş Aydınını

görmüşdü. Ancaq yenə hey deyirdi ki, balam qayıdacaq, geri dönəcək. Həyat yoldaşı, balaları, gəlinləri yalvarırdı ki, heç olmasa bir-iki saat yatsın, o etiraz edirdi:

– Yox, yatmıram, birdən Aydın gələr, mənə deməzsiniz. Çıxıb gedər, balamı görə bilmərəm.

Evdəkilər Sevil ananı inandırmağa çalışırdılar ki, Aydın daha gəlməyəcək, o şəhid olub. Amma ana bir çox hallarda oğlunun qayıdacağını israr edir, onun xəyalı ilə danışır, şəkillərinə giley-güzar edirdi. Son vaxtlar tamamilə dəyişmişdi. Özünə qapanan ana xəyallarında oğlu ilə ünsiyyət qurar, gündəlik baş verənləri ona danışardı. Hərdən ana elə bilirdi ki, oğlunun şəkli canlıdır.

– Gəldinmi, balam, niyə kefsizsən? Yemək yeyirsənmi?

Ananın Aydının şəkilləri qarşısında dayanıb onun surətinə müxtəlif suallar verməsi evdə hamını narahat edirdi. Uzun söhbətdən sonra ananı oğlunun şəhid, özünün isə şəhid anası olduğuna inandırdılar. Yenə də ananın ürəyində şübhə vardı – birdən balası sağ olar deyə...

Bir vaxt vətən yolunda şəhid olmuş gənc Ülvi Bünyadzadənin doğmaları da onun ölümünə inanmırdılar. Onun yazdığı şeiri bibisi Almaz xanım köksünə sıxıb dərdli-dərdli ağlayardı: «Yox, Ülvi ölməyib, Ülvi qayıdacaq, söz verib, qayıdacaq!».

***...Bir ocağın ətrafında***
***Mənə ehsan paylasınlar.***
***Qoy lap məni bəxtsiz deyib***
***Bənzətsinlər bir yazığa.***
***Ancaq gözlə, gəlməliyəm***
***Bir ölümün acığına.***

Aydın da Ülvi yaşında idi. O da mütləq qayıdacağına söz vermişdi. Gözü yolda qalanı var idi, toy-düyünü çalınmamışdı.

Sevil ana hər gün xəyallarında Aydınla danışır, onun səsini eşidirdi. Ana oğlunu xəyalına gətirib xatırladıqca, oğlunun işıqlı siması gözləri qarşısında canlanırdı. Ananın yadına 2010-cu ildə baş verən bir hadisə düşdü. Aydın əsgəri xidmətini başa vurub evə qayıtdıqdan bir neçə ay sonra yenidən cəbhəyə qayıdarkən, anasına boks əlcəklərini etibar et-

mişdi. Aydın boks əlcəklərini anasına vermişdi ki, o qayıdana qədər heç kəsə verməyib saxlasın. Bilirdi ki, əlcəyi ortalıqda qalsa, kimsə götürüb aparacaq. Aydın əlcəklərini çox sevirdi, çünki bu əlcəklər ona yaddaqalan qələbələr qazandırmışdı.

Ana əlcəkləri əzizləyə-əzizləyə saxlayırdı. Balası müharibə bitəndən sonra evə qayıdacaq, boks əlcəklərini taxıb yenidən idman meydanına atılacaqdı. Ana çox istəyirdi ki, Aydın idmanda böyük uğurlar qazansın. Onsuz da Aydının idmana kifayət qədər marağı vardı. Ancaq cəbhədəki vəziyyət ona imkan vermədi ki, idmançı kimi özünü ən böyük yarışlarda təsdiqləsin.

Ana oğlundan nişanə qalan bir cüt boks əlcəyini sinəsinə sıxıb qoxladı, göz yaşı onu boğdu, için-için hıçqırdı. Əlcəkdən Aydının əllərinin qoxusu, ətri gəlirdi. Ananın halı xarab oldu. Evdə çalışırdılar ki, Aydının əşyalarını anadan gizlətsinlər. Çünki şəhid oğlunun əşyasını, şəklini görəndə halı pisləşirdi.

Sevil ana hər dəfə oğlunun qəbri üstə gedəndə Tanrıya yalvarırdı ki, onu da oğlunun yanına aparsın. Məzarlıqda o qədər ağlayırdı ki, ailə üzvləri onu oğlunun qəbrindən güclə qoparırdılar.

Ana ağır xəstəliyə tutulmuşdu. Buna baxmayaraq, hey həyat yoldaşı Əmirsoltan kişiyə deyirdi:

– Qoy ayağa qalxım, Tərtərə apararsan məni. Qapanlıya gedib oğlumun şəhid olduğu yeri görmək istəyirəm.

Əslində, ana Qapanlıya ona görə getmək istəyirdi ki, oğlunun qanı tökülən torpağa üz qoyub ağlasın, sızlasın, balasının iyini son dəfə köksünə sıxdığı bir parça torpaqdan alsın. Oğlunun üzü üstə düşdüyü o bir parça torpaq indi ananın doğma balası olmuşdu.

Əmirsoltan kişi arvadına söz verirdi:

– Müalicəni bitir, sonra aparacağam səni.

Əmirsoltan kişi yaxşı bilirdi ki, arvadını sağaltmaq mümkün deyil. Çünki həkimlər onu sağalda bilmirdi. Hər kəs deyirdi ki, oğlunun ölümündən acı sarsıntı keçirib, ona görə belədir.

Sevil ana oğlu ilə son görüşünü həmişə xatırlayır, o səhnəni gözü qarşısına gətirəndə bərk sarsılırdı. Sarsıntı keçirməsinə baxmayaraq, oğlunu evdən cəbhəyə yola salarkən, ana-bala arasında baş verən dialoqu hər dəfə ərinə təkrar edirdi:

– Ay kişi, balam gedəndə heç qoymaq istəmirdim. Dedim ki, Aydın, getmə də, nə olar, bala. Dedi ki, vətənin bu dar günündə evdə otura bilərəmmi? Aydını elə çox istəyirəm ki, ondan ötrü burnumun ucu göynəyir. Kaş tezliklə balamı görə biləydim.

Əmirsoltan kişi ruhdan düşən arvadının sözünü yarımçıq kəsərək:

– Ay arvad, dayan görüm, nə ölmək, nə Aydına qovuşmaq? Özünü həlak etmə, bu, oğlumuzun ruhunu narahat edər. Aydın xalqın qəhrəmanıdır. Az ağla, az sızla, Allaha xoş gəlməz. Şəhidlik yolunu Aydın özü seçib. O, indi Tanrı dərgahındadır.

Sevil ana ərinin sözlərindən birtəhər olurdu. İçində fikirləşirdi ki, kişi niyə qoymur ağlayım balamı?!

Bilirdi ki, ağlamaqla balasını geri qaytarmaq mümkün deyil, amma yandığından göz yaşı axıdırdı.

–Aydınım sonuncu dəfə əllərini dodaqlarına aparıb mənə öpüş göndərdi. Yadına gəlir, ay kişi, 2013-cü ilin 7 avqust günündə balamızı yola salanda çox narahat olduq ikimiz də. Səninlə mən onu avtovağzaldan yola saldıq. Aydın ağladığımı görüb hirsləndi:

– Bir də qoymayacağam məni ötürməyə gələsən, evdə qalarsan. Niyə ağlayırsan axı, gedirəm, yenə qayıdacağam. Mən hərbçiyəm, gedirəm Vətəni qorumağa.

İlahi, kaş ki, bu «son» sözü vida, ayrılıq olmayaydı. Hər kəsin qəlbində doğmalarının, nakam, vaxtsız-vədəsiz dünyadan köçənlərinin son sözü, son baxışı, retuşsuz son ağ-qara şəkli var. Bu şəkil, bu donmuş an ölüncəyədək sənin qəlbindədir.

Sevil ana da  oğlu ilə son görüşünü xatırlayırdı, yanıb külə dönürdü. Bu səhnəni dəfələrlə xəyalında canlandıraraq vaysınıb ağlamışdı. Oğlu ilə son görüşünü ərinin də yadına salırdı:

– Sonuncu dəfə o, Tərtərə gedəndə qardaşları da, sən də onu yola salmağa düşdünüz, bu dəfə tərslikdən mən düşmədim həyətə, balkondan baxırdım. Su atmaq istəyirdim arxasınca. Balamın arxasınca su atdım ki, sağ gedib salamat qayıtsın, amma salamat qayıtmadı. Qonşumuzun oğlu səni qoymayıb özü getdi Aydını yola salmağa. Aydın arxaya boylanıb əlini dodağına bir də aparıb mənə öpüş göndərdi. Can balam, can! Bilsəydim ayrılıq var, səni doyunca qucaqlayardım, bilsəydim ölüm var, səni gizlədərdim ki, əcəl tapıb apara bilməsin.

Aydın sonuncu dəfə məzuniyyətə gələndə ən çox sevdiyi xörəkləri bişirdim ki, balam çoxdandır o yeməkləri dada bilmir. Hər dəfə cəbhəyə qayıdanda hazırladığım dadlı yeməkləri aparırdı ki, əsgərləri ilə bərabər yesin.

Aydın son tikəsini bölən idi, heç kəsdən varını əsirgəmirdi. O qədər əliaçıq, könlü tox idi ki... Düşmənə amansız idi, dosta açıqürəkli. Heç yadımdan çıxmaz, Aydının bir əsgəri vardı, bir az kasıb ailədən idi, arxasınca gəlib-gedəni yox idi. Valideyn nə etsin, yol uzaq, pul yox, pulsuzluq da adamın üzünü övlad yanında qara edir. Aydın bir gün mənə dedi ki, bacı, bir əsgərim var, yanına gəlib-gedəni yoxdu, ona sovqat hazırla, gedəndə aparım ki, uşaqlar elə bilsin onun da dalınca gələni var, kimsəsiz deyil. Qoy əsgərlər arasında pis olmasın. Aydının belə açıq ürəyi vardı. Hər şeyi dərindən düşünürdü. Bir dəfə də məzuniyyətdə olanda xalası onun üçün şorqoğal bişirmişdi. Yadına gəlir, həmin gün hava necə qarışıq idi, bilmirdin soyuqdur, ya isti. Xalası Aydını görəndə sevindi. Dedi ki, Aydın, sənə halva da bişirmişəm. Aydın halvanı çox sevirdi. Bacımın süfrəsində halvanı görən Aydın dedi ki, xala, bu halva azdır. Çox çal, əsgərlərim ölür halva üçün. Gedib bir kilo yağ aldı. Dedi ki, ana, ona toxunma ha, əsgərlərindi. Balam öz əli ilə öz halvasını apardı... Bundan böyük dərdmi olar? Halvasını aparıb orada özünə ehsan verdi elə bil...

Ananı yandıran o idi ki, Aydınla bağlı bütün arzuları puç oldu, murazı gözündə qaldı. Aydın ailədə pərdəli dolanırdı. Ata-ananın yerini bilir, böyük-kiçiyə hörmətlə yanaşırdı. Ona görə də hamının yanında xətri əziz idi. Ana həmişə evdə deyirdi ki, Aydın üçün kimin qızına elçi getsə, düşünmədən qızı ona verəcəklər. Bir gün ana gördü gəlinlər qumru quşları kimi baş-başa verib pıçıldaşırlar. O nə qədər çalışdısa, gəlinlərin ondan xəlvət nə danışdığını kəsdirə bilmədi.

Bir gün böyük gəlin ona yaxınlaşıb:

– Ana, sənə bir söz demək istəyirəm.

Sevil ana əslində, bu söhbəti çoxdan gözləyirdi.

– Çəkinmə, de görüm nə deyirsən, dərdin ürəyimə.

– Ana, Aydın toy məclislərinin birində bir qız görüb, könlü yaman tutub onu. Deyir ki, dünya dağılsa da, o qızı alacam.

Ana qızın kimliyi, hansı ailədən olması, onlara münasib olub-olmaması ilə maraqlandı. Onun kimliyini biləndə gözünə işıq gəldi, üzü nurlandı, az qaldı qanadlanıb uçsun.

– Ay gəlin, səni xeyirxəbər olasan, muştuluğun məndə, qızım. Könlün nə istəyir de, alım sənin üçün. Elə günü sabah gedərəm elçiliyə.

Əslində, ana elçiliyə tələsmirdi. Evin böyüyü ilə də danışıb, məsləhətləşib onun razılığını almalı idi. Aydının özü də anasına bu barədə bir söz deməli idi. Az keçmiş Aydın özü anasına zəng etdi:

– Bacı (Aydın anasına bacı deyirdi), qızın ad günüdür, bəlkə hazırlaşıb bir onlara gedəsiniz...

– Ciddi sözündü? Birdən zarafat edərsən ha, camaatın qızının adı çıxar.

– Yox, nə danışırsan, ciddi sözümdür. Gedin, atasından razılıq alın.

– Nə deyirəm, ay oğul, Allah sizi xoşbəxt etsin!

Sevil ana bu xoş xatirəni yada saldıqca, gözünün qarşısına oğlunun ömrü qısa olan xoşbəxt günləri gəlirdi.

Sevil ana xatırladı ki, Aydının qardaşları onun məclisinə yaxşı tədarük gördülər. Xalası Aydının nişanlısına brilyant qaşlı  üzük aldı. İyunun 30-da el adəti ilə Aydının sevdiyi qızgilə getdilər. Bu gəliş hər iki ailənin ürəyincə oldu. Bu, Aydının sevgilisinə böyük ad günü sürprizi idi. Özü səngərdə, ürəyi burda.

Elçilik mərasimi haqqında oğluna o, məzuniyyətə gələndə danışdı. Aydın ata-anasına, qardaşlarına, qohumlarına, xoşbəxtliyinə sevinənlərə minnətdarlıq etdi. İnsanların bir-birinə yardımçı, simsar olmalarına çox sevindi.

Ana Aydın haqqında düşünür, onun qısa, lakin mənalı həyatını göz önünə gətirir, balasının yarımçıq qalan arzularını yada salıb yanırdı. Arabir özlüyündə təsəlli də tapırdı ki, oğlu xalq, vətən yolunda canından keçib.

Gözləri yol çəkirdi. Gözləri önündə oğlunun xəyalı canlanırdı, heç vaxt bu dünyaya bir də gəlməyəcək oğlunun...

Qapanlı camaatı güllə səsinə yatıb oyanmağa çoxdan adət etmişdi. Hər gün güllə yağışı altında gündəlik güzəranları ilə məşğul olan qapanlılar sinəsini erməni gülləsinə sipər edən Vətən oğullarının qeyrə-

tinə sığınıb yaşayırdı. Ermənilər bu kəndi atəş altında saxlayırdılar. Kənd əhalisi mənfur düşmənin hədəsinə əhəmiyyət vermir, iriçaplı silahlarından da qorxmurdu. Qəhrəman qapanlılar beləcə adi cəbhə günlərini yaşayırdılar.

Cəfər kişi adəti üzrə səhər yuxudan erkən oyanmışdı. Ermənilər gecədən səhərəcən atəşi dayandırmadığından, kişi heç düz-əməlli yuxusunu da almamışdı. Sübh tezdən əlini alnına dayayıb göylərə baxdı. Göyün bir üzü tamamilə qızarmışdı. Cəfər kişi lap uşaqlıqdan qocalardan eşitmişdi ki, əgər göyün bir tərəfində qırmızı ləkələr varsa, demək, hardasa nahaq qan tökülüb. Babaların hikmətli sözünə haqq qazandıran Cəfər kişi öz-özünə pıçıldadı:

– Qurban olum, ay Allah, bəs hər gün nahaq qan tökülmürmü torpağımıza? Ermənilər hər gün oğullarımızı qanına qəltan etmirmi, İlahi? Hər gün atışma, hər gün şəhid, hər gün anaların fəryadı ərşə bülənd olmurmu?

Həyat yoldaşı təndirə od salmışdı, çörək yapmağa hazırlaşırdı. Onun gözü alovlanan təndirə sataşanda sanki təndirdən bir çınqı sıçrayıb kişinin içinə düşdü, onu yaman yandırdı bu od.

– Ay arvad, ürəyim yaman yanır, mənə bir dolça su versənə.

Cəfər kişinin həyat yoldaşı gedib ərinə su gətirdi.

– Nə yaman fikir edirsən, nə olub? Ermənidənmi qorxursan, ay kişi? Heç gör qəhrəman balalarımız imkan verərmi erməni Qapanlıya ayaq bassın. Çörəyi təndirə yapım, isti-isti əsgərlərə apar, qoy yesinlər. Təndir çörəyinin dadı başqadır. Bu gün həm də bayramdır.

Cəfər kişi razılıq əlaməti olaraq başını tərpətdi.

Payızın təbiətdə hökmranlıq etdiyi çağ idi. Qapanlılar Qurban bayramına hazırlaşırdı. Cəfər kişinin həyətini təndir çörəyinin ətri başına götürmüşdü. Kişi gözləyirdi ki, arvadı bağlama hazırlayıb ona versin. Lakin elə bir hadisə baş verdi ki, kişi yerindəcə donub qaldı. Bayramı da unutdu, təndir çörəyini də. Bir dəstə adam onların evinə sarı gəlirdi.

– Bu camaat biz tərəfə niyə gəlir görəsən? – deyə arvadı yerində quruyub qalmış ərinə tərəf baxıb dilləndi.

Kişi onun sözlərini cavabsız qoydu və gözünü camaata sarı zillədi. Camaatın arasında əsgərlər də vardı. Hamı hüzn içində idi. Ata əs-

gərlərin qucağında oğlu Elməddini qan içində görəndə hönkürtü çəkdi. Arvadı saçlarını yola-yola hövlnak meyitə sarı qaçdı. Cəfər kişi üz-gözünü cırıb qana bələmiş arvadının səsinə sanki yuxudan ayıldı.

– Can bala, hey! Elməddinim heyyy!!!

Ana fəryadına ata fəryadı da qarışdı. Bütün kənd Cəfər kişinin həyətinə toplaşmışdı. Hamı ağlayırdı.

Cəfər kişinin həyat yoldaşı, şəhid Elməddinin anası elə nalə çəkirdi ki, yer-göy lərzəyə gəlirdi.

– Bayramımız qara gəldi, ay oğul, yaralı canına canım qurban, ay bala, – deyib nalə çəkən ananın çiyninə bir əl toxundu. Bu, gözü ağlamaqdan qızarıb şişmiş, əlləri əsəbdən, acıdan titrəyən gizir Aydının əli idi. Aydın şəhid anasının çiyinlərini qucaqlayıb yanağından sel kimi axan yaşı silirdi. Özü də anaya qoşulub ağlayırdı. Hərbçi olduğunu unutmuşdu sanki. Aydın doğma qardaşını itirmişdi elə bil:

– Ağlama, ana, ağlama, gözlərinə qurban, ürəyinə qurban! Elməddin mənə doğma qardaş kimidir. Elməddin şəhid oldu. Mən onun meyitini düşmənə vermədim, ana, minaların üstü ilə yeriyib şəhidimi qucağımda gətirdim. Elməddin şəhid oldu, o şəhid olan anda sənin yüzlərlə Elməddinin doğuldu, ana. Mən söz verirəm ki, sona qədər sənə oğulluq edəcəyəm, bircə sən ağlayıb sızıldama. Elməddinin qisasını alacağam. Sənin ağ saçlarına, ana məhəbbətinə, ismətinə, uca adına and içirəm, anam mənim! Elməddinin qanı yerdə qalmayacaq.

Ana əbədi yuxuya getmiş balasını oxşayırdı, ana sonuncu dəfə öpürdü balasını.

– Ay oğul, yaraladın məni. Qızılgülləri soldurdu ölümün. Ananın dərdi az idimi, bir dərd də sən verdin mənə, ay Elməddin?

Ananın ürəyi qüssədən partlayırdı. Dözə bilmirdi balasının müsibətinə. Cəfər kişinin beli sınmışdı sanki. Kişi matdım-matdım camaatın üzünə baxıb dilsiz baxışları ilə sual edirdi: "Mənim balama nə olub? Hansı namərd onu vurub? Onun minalanmış ərazidə nə işi vardı? Onun meyitini oradan kim çıxardı? Balan ölsün, erməni! Yurdun viran qalsın, erməni! Evində bayquş ulasın, erməni!".

Kənd camaatı bilmirdi ki, ona nə desin, necə təsəlli versin. Ağsaqqallardan biri irəli yeriyib Cəfər kişiyə başsağlığı verdi:

– Cəfər kişi, oğlun şəhid olub, başımız sağ olsun. Şəhid elindir, xalqındır. Şükür Allaha ki, Aydın balamız onun meyitinin düşmən əlinə keçməsinə imkan vermədi. Deyirlər ki, özünü təhlükəyə atıb, minalanmış ərazidən Elməddinin nəşini o götürüb. Sağ olsun, anasının südü, atasının əməyi, Vətən çörəyi halalı olsun!

Ağsaqqalın təsəllisindən sonra Cəfər kişi azca toxtadı, Aydına tərəf döndü, qarşısında qarabuğdayı, məğrur, igid bir oğlan gördü. Aydın çox gənc idi. Eynən oğluna bənzəyirdi. "Bütün qəhrəmanlar bir-birinə bənzəyir", – deyə ürəyindən keçirdi.

Aydın kişinin baxışlarında qürur, əzmkarlıq gördü. Düşündü ki, şəhid atası belə olar.

Cəfər kişi Aydının boynunu qucaqladı:

– Çox sağ ol, oğlum, igidlik göstəribsən. Sən bu gündən həm mənim, həm də bütün Tərtərin, Qapanlının oğlusan. Sənin kimi oğullar torpaqlarımızı, qız-gəlinin namusunu qoruyursa, bizim xalqa zaval yoxdur.

Elməddinin dəfn mərasimində Aydın da iştirak etdi, əsgərlər də. Şəhidi ehtiramla torpağa tapşırdılar.

Elməddingilin evi camaatın ziyarət yerinə çevrildi. Hamı ata-anaya təsəlli verir, ağrılarını yüngülləşdirməyə çalışırdı. El ağbirçəklərindən biri şəhid anasının yarasını bir bayatı ilə sarımaq istədi:

***Mərd atadan mərd oğul,***
***Yada ağa, mərdə qul.***
***Qorxaq töhmət gətirər,***
***Baş ucaldar mərd oğul.***

– Sənin oğlun şəhid olub, qızım, başını uca tut, qəm eləmə, inşallah, Aydın kimi oğullar ermənilərin anasını ağlar qoyar, özünü tox tut, – deyə ağbirçək dil-ağız etdi.

Hamı evinə dağılışdı. Elməddingilin evi suyu qurumuş dəyirmana bənzəyirdi. Bir yanda ana şəhid oğlunun paltarlarını qucaqlayıb hönkürür, o biri tərəfdə isə ata dərddən-ələmdən susur, korun-korun yanırdı...

Günlər keçirdi, həftələr bir-birini əvəz edir, aylar bir-birini qarşılayıb yola salırdı.

Qapanlı camaatı öz işində-gücündə idi. Yenə ermənilər müxtəlif çaplı silahlardan atəş açır, camaatın əkin-biçininə, mal-qarasına ziyan vururdu. Ordumuz böyük mətanətlə düşmən atəşinə cavab verir, onu yerindəcə susdururdu. Qəhrəman zabit və əsgərlərimiz erməni məkri, hiyləsi, topu-tüfəngi qarşısında aciz qalmırdı. Elə bir gün yox idi ki, ermənilər Qapanlını və ətraf kəndləri atəşə tutmasın. Hər gün hərbçilərimiz şəhid olurdu.

Oktyabrın 26-sı idi. Həmin gün Cəfər kişinin şəhid oğlu Elməddinin il mərasimi idi. Kənd camaatı yas mərasimində iştirak etmək üçün onlara toplaşmışdı. Cəfər kişi Aydını gözləyirdi. Çünki Aydın ona söz vermişdi ki, icazə alıb il mərasimində iştirak edəcək. Günortadan xeyli keçməsinə baxmayaraq, Aydın gözə dəymirdi. Kişi yaman narahat oldu. "Aydından çıxmayan iş, o nə əcəb gəlməyib? O heç vaxt vədinə xilaf çıxmazdı axı", – deyə öz-özünə sual verdi.

Yas mərasimindən camaat hələ dağılışmamışdı, qara xəbər ildırım sürəti ilə bütün Qapanlıya və ətraf kəndlərə yayıldı, Aydın şəhid olmuşdu. Dünya Cəfər kişinin başına fırlandı.

– Necə yəni Aydın şəhid olub?

O, bu acı xəbərdən çox sarsılmışdı. Cəfər kişi heç kəsə fikir vermədən birbaşa hadisə yerinə getdi. Artıq Aydın həyatda yox idi.

Dağ boyda oğul əbədi yuxuya getmişdi. Bütün kənd, bütün tərtərlilər bu igid, qəhrəman kəşfiyyatçının ölümünə vaysınırdı. Əsgərlər, zabitlər hüzn içində idilər. Heç kəs Aydının ölümünə inanmırdı. O, düşmənin qəfil gülləsinə tuş gəlmişdi.

2013-cü ilin oktyabrı özü ilə kədər, qüssə, dərd, ələm gətirmişdi. Qapanlı anaları Aydına yas tutub ağı deyirdilər. Sanki onlar öz doğma balalarını itirmişdilər. Aydının şəhid olması xəbəri Elməddinin anasının da canına od saldı. Yazıq arvadın öz dərdi azmış kimi, bir yandan da Aydının dərdi onun qəlbini parçalamışdı.

Aydının nəşini Bakıya yola salmaq lazım idi. Şəhid olması cəbhə xəttində, Qapanlıda və ətraf kəndlərdə də böyük ağrı-acı ilə qarşılandı. Aydın təkcə Əmirsoltan kişinin və Sevil ananın oğlu deyildi, o həm də tərtərlilərin oğlu idi.

Onun nəşini Bakıya yola salanda qapanlılar şəhidə ehtiram əlaməti olaraq yol boyu düzülüb qəhrəman Aydınla vidalaşırdı. Onlar Aydından çox yaxşılıqlar görmüşdülər. Aydın onlar üçün doğma idi, özü də

çox doğma. 23 yaşlı gizir kənd camaatı ilə həmişə ünsiyyət saxlayırdı. Bəzən tay-tuşları ona zarafatla: “Aydın, nişanlanmağa vaxt tapdın da! Kaş səni burada evləndirəydik, müharibə bitəndən sonra da Qapanlıda həmişəlik yurd-yuva salaydın, sənə ev də tikərdik”.

Artıq bu söhbətlər xatirəyə çevrilmişdi. Camaat əsgərlərə və yüksək çinli zabitlərə qoşulub Aydının nəşini Bakıya yola salırdı. Cəfər kişi də camaatın arasında idi. Hamıdan çox ağlayan da o idi.

– Əziz balam, Aydın, şəhidliyin, uca məqamın mübarək olsun! Sən bu torpağı canın qədər sevirdin, anan qədər əzizləyirdin.

Aydın şəhid olduqdan sonra Cəfər kişi özünə yer tapa bilmirdi. Aydının ailəsi ilə tanışlığı yox idi. Ancaq Aydının ata-anasının Bakıda yaşadıqlarını bilirdi. Onların çəkdikləri ağrını canında, qanında hiss edirdi. O yaxşı bilirdi Əmirsoltan kişi və Sevil ana nələr çəkir.

***Necə dağlar,***
***Görünür necə dağlar?***
***Balası ölən bilər,***
***Yaş gözü necə dağlar.***

Cəfər kişi Aydının valideynlərinin vəziyyətini göz önünə gətirəndə ürəyində bu bayatı səslənirdi.

O çox istəyirdi ki, Aydının ata-anası ilə tanış olsun, onlara oğullarının şücaəti, qəhrəmanlığı haqqında danışsın.

Aydın şəhid olduqdan xeyli müddət sonra Əmirsoltan dayı kənd sakinlərindən birinin bələdçiliyi ilə Qapanlıya getdi. Əlbəttə, ata üçün oğlunun ayağı dəyən, nəfəsi, ruhu dolaşan bir kəndə getməkdən kədərli, nisgilli nə ola bilərdi ki... O, qanadı qırılmış quş idi elə bil. Aydınsız bu yerləri dolaşırdı. Aydının xidmət etdiyi hərbi hissəyə getdi, komandiri, gizir yoldaşları, əsgərlərlə görüşdü, söhbət etdi. Oğlunun qəhrəmanlığı, şücaəti haqqında eşitdiyi hər bir söz, cümlə atanın ürəyini dağa döndərdi. O, hərbi hissədə olarkən ağladı da, ordumuza baxıb fəxr də etdi ki, oğlunun qisası yerdə qalmayacaq, bu oğullar qaniçən namərd düşməndən qisas alacaq. Qisas qiyamətə qalmayacaq. Bunu əsgərlərin inamlı, qətiyyətli baxışları deyirdi.

Əmirsoltan kişi hərbi hissədən ayrıldıqdan sonra xahiş etdi ki, onu Elməddingilə aparsınlar. O, Elməddinin ailəsinə başsağlığı vermək istəyirdi. Əmirsoltan kişi Cəfər kişinin həyətinə girəndə qapının ağzında

onu ev sahibi qarşıladı. O, Cəfər kişiyə kimliyini deyəndə kişi şəhid atasının boynunu qucaqladı. Gözləri yaşardı. Həyətin bir tərəfində alüminium teştdə yun yuyan arvadı səslədi:

– Ay arvad, gör bizə kim gəlib?! Aydının atası.

Cəfər kişinin arvadı tələsik əlini yundan çəkib kranda yudu və qaça-qaça özünü Əmirsoltan kişinin üstünə atdı.

– Ay qardaş, xoş gəlmisən, – deyib Əmirsoltan kişinin əlini öpmək istədi. Əmirsoltan kişi imkan vermədi ki, şəhid anası onun əlini öpsün, özü əyilib ananın əlini öpdü.

– Şəhid analarının əli öpülməyə layiqdir, bacı.

Onlar xeyli söhbət etdilər. Əmirsoltan kişi Bakıya qayıdanda Cəfər kişi ona dedi:

– Mən Aydınla bağlı ürəyimdəkilərin hamısını dilə gətirə bilmədim. Bütün deyəcəklərimi sizə məktub vasitəsilə göndərəcəyəm.

Onlar sağollaşdılar. Əmirsoltan kişi Bakıya böyük ruh yüksəkliyi ilə qayıtdı. Cəfər kişi isə Qapanlıda, öz kəndində qaldı. O hər gün Əmirsoltan kişiyə məktub yazmaq haqqında fikirləşirdi. Onları eyni tale, oxşar dərd birləşdirirdi. Hər iki atanın belini oğul möhnəti əymişdi, hər iki atanın oğlu Vətən uğrunda şəhid olmuşdu.

Cəfər kişi müəllim idi. Həyatını təlim-tərbiyə işinə, təhsilə həsr etmişdi. Dünyagörmüş, ağır, sanballı, el içində hörməti olan bir kişi idi. Fikirləşdi ki, Abdullayevlər ailəsinin dar günündə yazacağı məktub onlara təsəlli ola bilər.

Bəzən bir parça kağız da adama təsəlli olur, səni əyilməyə, sınmağa qoymur. İnsan illər uzunu sinəsində duz kisəsi kimi gəzdirdiyi dərdini ağ vərəqlərə pıçıldayır.

Məktub yazmaq mədəniyyəti. Bu, insandan səriştə, zövq, ürək, kövrəklik, sadəlik tələb edir. Bəzən adi bir insanın səmimiyyət dolu məktubu səni düşüncələrə qərq edir. Səni içəridən dalğalandıran, ürəyinin qapılarını taybatay açan, həyat iksiri verən bu sətirlər yaşamağa, yaratmağa, sınmamağa çağırır.

Cəfər müəllim də özündə güc, qüvvə tapıb Aydının atası Əmirsoltan Abdullayevə məktub yazdı. Şəhid atası məktubun bir nüsxəsini Bakıya, bir nüsxəsini isə yerli "Yeni Tərtər" qəzetinə göndərdi.

Şəhid atasından şəhid atasına ünvanlanan məktubda Cəfər Quliyev Əmirsoltan Abdullayevə göz yaşı ilə yazırdı:

"Yaşadığımız narahat dünyadan rahat mənzilə yola saldığımız, ayrılığına əbədi yanacağımız, şəhidlik adına yüksələn yüzlərlə Vətən oğulları sırasında yer tutanlardan biri də Abdullayev Aydın Əmirsoltan oğludur.

Doğulduğu gündə deyirlər insanın alın yazısı yazılır. O yazı ki, onu yazan bir dəfə yazar və heç zaman pozulmaz!

Yayın şiddətli isti günlərindən biri idi. Qapımı bir ata döydü, tanımadığım bir şəxs. Alnından oxudum ki, bu şəhid atasıdır. Övladını mənə nişan verdi, tanıdım. Oğlu 2013-cü il oktyabrın 26-da şəhid olmuş Aydın Abdullayev idi.

Tanıdım ona görə ki, Aydın yaşadığımız Tərtər rayonunun Qapanlı kəndində xidmət edirdi. Hələ bir il əvvəl həmin ayın eyni günündə (2012-ci ilin 26 oktyabrında) düşmənlə təmas xəttində minaya düşüb həlak olan övladımın (Quliyev Elməddin Cəfər oğlu) yanına ilk çatıb, onu ərazidən çıxaran gizir Aydın Abdullayev olub.

Dünyam yenidən uçdu bu atanı görəndə, onun dərdini bilməyənlərə bu adi hal ola bilər, mənə yox. Mən onda dedim:

– Ata, qüvvətli ol, dözüm tap özündə. Çünki qarşında dayanan da şəhid atasıdır.

Əmirsoltan qardaş şəhidin anasının (ailəsinin) ağır vəziyyətdə olduğunu deyəndə, mən öz həyat yoldaşımı çağırıb ona göstərdim. Ondan ayrılanda söz verdim ki, Aydın haqqında mən də nəsə yazacağam.

Qarabağ müharibəsi xalqımıza çox yaralar vurdu. Ata, ana, oğul, qız itirənlərimiz çox oldu. Ancaq bunlardan da ağır bir itkimiz var, Əmirsoltan kişi. Bu, torpaq itkisidir, Qarabağ itkisidir. Qədim türk dastanlarından yadımda bir deyim qalıb, onu yazacağam:

***Torpaq ot bitirdi,***
***At otu yeyib böyüdü.***
***Ana oğul doğdu,***
***Onu qundaqlayıb böyütdü".***

## *Bir il də sənsiz keçdi*

Yağışlı payız günlərindən biri idi. Leysan yağışın altında başı üzərində çətir tutmuş adamlar sağa-sola qaçırdılar. Hamı canını yağışdan qurtarmağa çalışırdı. Həftənin şənbə günü olduğundan, Əmirsoltan kişi adəti üzrə şəhid oğlunun məzarını ziyarət etmək üçün Dədə Qorqud qəbiristanlığına getmək istəyirdi. Amma yağış macal vermirdi ki, kişi evdən bayıra çıxsın. Hər həftə məzarlığa gedir, Aydının qəbrinin üstünü silir, təmizləyir, soluxmuş gülləri tər qərənfillərlə əvəz edirdi. Aydının məzarı yol qırağında idi. Torpaq yolla o yan-bu yana şütüyən maşınların təkərindən qopan toz-torpaq məzar daşına çökürdü. Ata da ona görə tez-tez yolunu məzarlıqdan salır və oğlunun qəbir daşını təmizləyirdi.

Aydının şəhid olmasından bir il ötürdü. Oğul itkisi ata və ananın qəlbinə heç vaxt silinməyəcək kədər gətirmişdi. Harada dərdli adam vardısa, Aydının ata-anası həmin adamın dərdinə şərik olurdu.

Ata fikirli-fikirli pəncərədən bayıra baxır, səbirsizliklə yağışın kəsməsyini gözləyirdi. Axır vaxtlar yaman hövsələsiz olmuşdu Əmirsoltan kişi.

Üzünü oğlu Nicata tutdu:

– Ay oğul, bu yağış niyə kəsmək bilmir görəsən? Gecədən bəri yağır. Yağış kəssəydi, qardaşının qəbri üstə gedərdik.

Nicat hövsələsi daralmış atasının sözünə yumşaq cavab axtardı. O nə qədər çalışdısa, atasını ovuda biləcək bir söz tapa bilmədi. Ata-oğul sakitcə çölə baxmağa başladılar.

Payız yağışı öz işində idi, kəsmək bilmirdi ki, bilmirdi.

Nicat atasının hirsdən qaralmış sifətinə baxaraq dilləndi:

– Ata, hövsələli ol, yəqin sabah yağış yağmaz, bazar günü gedərik. Onsuz da hər həftə gedirik də. Mən də istəyirəm bu gün gedək, amma yağış aman vermir axı.

Ata yaxşı anlayırdı ki, təbiətlə höcətləşmək olmaz. Yağış yağmalıdırsa, yağacaq, Günəş çıxmalıdırsa, çıxacaq.

Nicat qardaşının il mərasimindən söz saldı.

– Ata, Aydının ildönümünə nə qalıb ki, gərək hazırlığımızı görək.

Əmirsoltan kişi:

– Hə, az qalıb. Suraxanı Rayon İcra Hakimiyyətindən zəng vurmuşdular. Dedilər ki, nə lazımdırsa, hamısına kömək edəcəyik. Sağ olsun icra başçısı, Aydının yas mərasimində əvvəldən axıra qədər iştirak etdi, köməklik göstərdi, balamın şəhid adına layiq dəfn edilməsinə dair göstəriş verdi, özü də yanımızda oldu. Keçən dəfə rayondan gələndə evə dəymədən, maşını birbaşa qəbiristanlığa sürdürdüm. Neçə gün idi ki, balamın məzarına dəymirdim. Elə bilirəm ki, bir həftə Aydının qəbri üstə getməsəm, o məndən inciyər. Qəbir üstə gedəndə gördüm ki, şəhid dəfn edirlər. Dəfndə icra başçısı da iştirak edirdi. Sonra təklif etdi ki, Aydının da məzarını ziyarət edək. Nümayəndələrlə gəlib qardaşının məzarını ziyarət etdilər, mollaya Quran oxutdular. Orada da vəziyyətimizlə maraqlandı. Dedi ki, Əmirsoltan kişi, nə lazımdır edəcəyik. Sənin oğlun qəhrəmandır, başını dik tut.

Aydınım hamının ürəyində özünə yer tutub, bala, Allah ona rəhmət eləsin!

Aydın şəhid olanda dövlət onun xatirəsini əziz tutdu, oğul. Millət vəkili Aydın Mirzəzadə gəlmişdi yas mərasiminə, yadındadırmı?

– Bəli, ata, yadımdadır. Çox sadə insandır. Bizim rayonun deputatı olmasa da, gəlib qardaşımın ruhuna ehtiram göstərdi.

– Hə, evimizə gəldi, dedi ki, Əmirsoltan kişi, sizin oğlunuz Vətən yolunda şəhid olub, başınız sağ olsun. Onunla təsəlli tapıram ki, Aydını hamı xatırlayır.

Mən özüm 1993-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüyəm. Həmişə dövlətimizə, dövlətçiliyimizə, Vətənimizə bağlı olmuşam. Allah ürəyimə görə qarşıma çıxarıb həmişə. Üç oğlumdan birini Vətənə fəda etmişəm.

Yağış yağmaqda davam edirdi. Ata ilə oğul Aydın barədə danışırdılar. Onların söhbətinə atanın mobil telefonuna gələn zəng son qoydu.

Aydının hərbi hissəsindən zəng vurmuşdular. Əmirsoltan kişiyə zəng vuranlar Aydının gizir yoldaşları və əsgərləri idi. Onlar il mərasimində iştirak etmək üçün Bakıya gəlmək istədiklərini bildirdilər. Ata onlara:

– Gəlin balalarım, gözüm üstündə yeriniz var. Sağ olun ki, Aydınımı unutmursunuz.

Sonra üzünü Nicata tutaraq:

– Aydın 23 il yaşadı, amma özündən sonra böyük iz qoyub getdi. Qardaşınızın yolunu sizin övladlarınız davam etdirməlidir. Övladlarınızı elə tərbiyə edin ki, Aydın kimi böyüsünlər.

– Baş üstə, ata, onsuz da nəinki bizim uşaqlarımız, hətta qohum və qonşunun uşaqları da böyüyəndə Aydın kimi olacaqlarını deyirlər.

Həmin gün Nicat atasını qəbir üstünə apara bilmədi.

Aydının il mərasimi idi, Suraxanı rayon rəsmiləri, bələdiyyə nümayəndələri, hərbi komissarlığın işçiləri, şəhidin xidmət etdiyi hərbi hissədən gələn qonaqlar, qohum-əqrəba, qonşular – hamı Əmirsoltan kişigilin həyətinə toplaşmışdı. Atanın şəhid oğluna göstərilən ehtiramdan ürəyi açılırdı. Onsuz da Aydını el sevirdi, bu təmənnasız sevgi atanı qürurlandırırdı.

Müdafiə Nazirliyindən Əmirsoltan kişiyə gələn zəng atanı daha da qanadlandırdı. Nazirlikdən zəng vuran adam:

- Sizin oğlunuz şəhid gizir Aydın Abdullayevi dövlətimiz unutmur. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə Tərtər istiqamətində düşmənlə təmas xəttində atəşkəsin pozulması nəticəsində şəhid olan gizir Aydın Abdullayev ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib. Oğlunuzun ölümündən sonra təltif edildiyi medal sizə təqdim ediləcək. Medalın təqdimetmə mərasiminə gedən Əmirsoltan kişinin çıxışı hamını kövrəltdi:

– Övlad itkisi nə qədər ağır olsa da, oğlumun şəhid olmasından qürur hissi keçirirəm. Həmçinin onun xatirəsinə göstərdiyi diqqətə görə ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürümü bildirirəm. Bu medalı evdə Aydının anası intizarla gözləyir. Elə bilirəm ki, oğlumu yenidən mənə qaytardınız. Aydın hələ əsgəri xidmətdə olduğu dövrdə bir sıra fəxri fərmanlar alıb. Onunla bağlı bizə çoxlu təşəkkürnamələr, məktublar gəlib. Oğlum Aydın Vətəni canından da artıq sevirdi. O şəhid oldu. Vətən sağ olsun!

Əmirsoltan kişi medalı aldıqdan sonra bir dəstə qərənfil alıb oğlunun məzarı üstünə getdi. Onun məzarının üstündə tər qızılgüllər vardı. Kimsə ondan əvvəl Aydının məzarına baş çəkibmiş. Bu, atanı heyrətləndirmədi, çünki dəfələrlə bunun şahidi olmuşdu. Aydının sinif yoldaşları, idmançı dostları onun məzarını tez-tez ziyarət edirdilər. Atanın gözlərini yaş örtmüşdü, ətrafı görə bilmirdi. Bir az toxtayandan sonra gözü qızılgüllərin altına sərilmiş üçrəngli Azərbaycan bayrağına sataşdı. Bayrağın yanında bir zərf də vardı.

Ata elə təəccüblənmişdi ki, oğlu ilə "salamlaşmağı, onu aldığı medal münasibətilə təbrik etməyi" tamamilə unutmuşdu. “Bu bayrağı kim bura qoyub, bu nə məktubdur görəsən, onu kim yazıb?” – deyə fikirləşdi.

Ata əli titrəyə-titrəyə qızılgülləri qaldırıb bayrağı və zərfi götürdü. Müqəddəs bayrağımızı üç dəfə öpüb gözünün üstünə qoydu. Sonra zərfi açmağa tələsdi...

Gözəl xətlə yazılan kiçik məktub atanı əməlli-başlı həyəcanlandırdı. Məktubda imza yox idi. Ata məktubu oxumağa başladı: “Əzizim Aydın, sən şəhid olandan sonra özümə yer tapa bilmirəm. Neçə dəfə sənin məzarın üstünə gəlmək istəmişəm, amma ürək etməmişəm. Bu da sənin ölümünə heç vaxt inanmamağımla bağlıdır. Sən sonuncu yarışda mənə bayraq vermişdin ki, məndən xatirə saxla. O bayrağı neçə illərdir  qoruyuram. İndi isə bayrağı sənin məzarın üzərinə qoydum. Çünki sən bayrağımız, torpağımız uğrunda şəhid olmusan. Allah sənə rəhmət eləsin! Şəhidlər ölmür, sənin yerin ürəyimizdədir”.

Əmirsoltan kişi imzasız məktubu və bayrağı evə gətirdi. Kişi bilmirdi sevinsin, yoxsa kədərlənsin. İmzasız məktub onu özündən alıb aparmışdı.

O, uzun müddət bu məktub haqqında düşündü. Günlərin birində kişiyə məlum oldu ki, bu məktubu Aydınla eyni komandada məşq edən qızlardan biri yazıbmış. Ata o qızı çox axtardı. Amma ondan soraq verən olmadı...

Bir gün Abdullayevlər ailəsinin qapısı döyüldü. Evin ortancıl oğlu Cavad qapını açanda qarşısında bir neçə gənc oğlan gördü. Onlar Cavaddan buranın Aydıngilin evi olub-olmadığını soruşdular. Cavad mehribanlıqla gələnləri evə dəvət etdi:

– Bəli, Aydıngilin evidir, buyurun evə.

Hərbi geyimli gənclər evə daxil oldular. Sevil ana gələnlərin kimliyi ilə maraqlandı.

– Ana, deyəsən Aydının hərbi hissədəki dostlarıdır.

Ana xəstə olduğundan, çətinliklə ayağa dururdu. Özünü tarazlayıb birtəhər ayağa durdu ki, qonaqları qarşılasın. Gənclər ananın ayağa durmasına macal verməyib onun əllərini öpdülər.

Özünü baş gizir Tariyel Əmiraslanov kimi təqdim edən oğlan ana ilə üzbəüz oturdu. O biri gənclər də yerbəyer oldular. Ailənin gəlini çay-çörək hazırlamaq üçün mətbəxə keçdi.

Hamı donub qalmışdı. Heç kəs danışmaq istəmirdi. Qonaq otağının divarından Aydının böyük portreti asılmışdı. Gözlər şəhidin portretinə dikilmişdi. Sükutu Tariyel pozdu:

– Bakıya gəlmişdik, anamızı ziyarət etməyi özümüzə borc bildik. Aydın həmişə deyirdi ki, sizi Bakıya evimizə qonaq aparacağam, sonra da baba yurdum Dəvəçiyə gedərik. Amma onun sağlığında sizə gəlmək bizə nəsib olmadı.

Aydının şəhid olduğuna hələ də inanmaq istəmirəm. Çünki Aydın öz çevikliyi, bacarığı, qəhrəmanlığı ilə hamımızdan fərqlənirdi. Biz onunla bir yerdə xidmət etmişik. Ana, Aydın ermənilərə dağ çəkirdi. Vallah, onlar Aydının adını eşidəndə özlərini itirirdilər. Bəzən elə olurdu ki, postda azacıq mürgüləyirdi. Niyə aşağı düşmədiyini soruşanda isə deyirdi ki, niyə aşağı düşməliyəm ki? Ermənilər dəfələrlə onu vurmağa çalışsalar da, heç vaxt buna nail ola bilmirdilər. Çünki o elə bil anadan olandan hərb üçün doğulmuşdu. Axırıncı atışma zamanı durmadan mövqe dəyişdirir, atəş açırdı. Bəlkə də tək özü döyüşsəydi, onu vura bilməzdilər. Amma o həm də yoldaşlarını qoruyurdu axı. İnana bilmədik ki, onu vurublar. Nəinki biz, hətta yer də, göy də inana bilmirdi ki, o şəhid olub.

Cavad söhbətə müdaxilə etdi:

– Mən sonuncu dəfə yaxın dostuyla danışdım. Aydın həmişə sizə – döyüş dostlarına deyirmiş ki, siz mənimlə fəxr edəcəksiniz. Mən şəhid qəhrəman olacağam. Vaxt gələcək, deyəcəksiniz ki, Aydın mənim döyüşçü dostum, komandirim olub.

– Doğrudur, – deyə Tariyel Cavadın sözünə qüvvət verdi.

– Bilirsiniz, Aydına ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal veriblər? – deyə Cavad Aydının dostlarından soruşdu.

– Bəli, – deyə onlar bir ağızdan cavab verdilər.

– Aydının medalını atama təqdim edəndə Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik İslam Gəncəliyev qardaşımla bağlı çox yaxşı çıxış edib. O deyib ki, Vətəni Vətənin adına layiq səviyyədə sevmək hər kəsə nəsib olmur. Gizir Aydın Abdullayev belə bir sevgi ilə yaşadı, belə bir sevgi ilə xidmət etdi və belə bir sevgi ilə şəhid oldu.

Gələnlərdən biri, Aydının keçmiş əsgəri Ağa Əşrəfov da söhbətə qoşuldu:

– Mən Tərtərdə Aydının tabeliyində xidmət etmişəm. O, biz əsgərlərə təkcə komandir yox, həm də qardaş, dost olub. Bizə hər zaman mənəvi dəstək olur, lazım olanda məsləhətlərini verirdi. Bir tikəmiz də olanda onu əsgərlər arasında bərabər bölürdü. Hətta hərbi xidmətimi başa vurandan sonra da əlaqə saxlayır, zəngləşirdik. Onun şəhid olma xəbərini eşidəndə inana bilmədim. Dostlara dedim ki, dəqiqləşdirin, bəlkə səhvdir. Ancaq doğruymuş. Allah rəhmət eləsin!

Qonaqların söhbətinə göz yaşı içində qulaq asan Sevil ana həyəcanını gizlədə bilmirdi. Nə qədər istəyirdi ki, toxtasın, alınmırdı ki, alınmırdı.

– Balalarım, mən Aydının ətrini sizdən alıram. Sağ olun ki, Aydının anasını yada salırsınız.

Aydının keçmiş əsgəri Fərahim Əsədov anaya yaxınlaşıb onun ağ saçlarından öpdü.

– Ana, Aydın sənin oğlun, bizim də böyük qardaşımız idi. Aydına böyük qardaşım kimi yanaşırdım həmişə. O hər zaman əsgərlərə düzgün yol göstərirdi. Onun komandirliyilə əsgərlikdə bayramlarımız da fərqli idi. Özümüzü evdəki kimi hiss edirdik. Əsgərliyimizi qurtarandan sonra evə valideynlərə zəng vurub gözaydınlığı da verdi. Onunla fəxr edirik, – deyə Fərahim anaya təsəlli verməyə çalışdı.

Fərahimin sözündən sonra ananın daha da kövrəldiyini görən Tariyel üzünü anaya tutaraq:

– Mən öz anama demişdim ki, şəhid olsam ağlama. Ana, Aydın sənin ağlamağını istəməzdi heç vaxt. Çünki o sizə ayrı cür bağlı idi. Xahiş edirəm, ağlamayın. Döyüş yoldaşı olmuşuq Aydınla, pis və yaxşı günlərimiz çox olub. Mən iki-üç il onunla birgə Vətənə xidmət etmişəm. Aydın gənc olmasına baxmayaraq, elə xidmət etdi ki, onun xidmətində heç kəs bir nöqsan tapa bilmədi. Hərbi hissəmiz fəxr edir ki, gizir Aydın Abdullayevlə birgə xidmət edib. O, dəfələrlə erməni silahlı birləşmələrinin atəşkəsi pozması zamanı verilən tapşırıqları layiqincə yerinə yetirib, düşmən əsgərlərini zərərsizləşdirib. O, sadə, cəsur, mərd oğlan idi. Xidmət zamanı idmanla məşğul olurdu, özü üçün turnik də düzəltmişdi. Şəhid olandan sonra biz onun idman ləvazimatını, qantellərini sizə təhvil vermişik. Xidmət etdiyimiz hərbi hissədə göyərçinləri vardı, Aydın onlara qulluq edirdi. İndi də həmin göyərçinlər Aydının xidmət etdiyi hissədən ayrılmır, hara uçsalar da, yenə Aydının qoyduğu yerə qayıdırlar. İndi əsgərlər onları yemləyirlər. Aydın Vətən uğrunda şəhid olub. O, həmişə döyüş yoldaşlarının, əsgər dostlarının qəlbində yaşayacaq.

Aydından danışmaqla söhbət bitmək bilmirdi. Cavad qonaqları süfrəyə dəvət etdi:

– Buyurun, həm bir tikə çörək kəsək, həm də söhbətimizi davam etdirək.

Aydının dostları əvvəlcə ananı süfrəyə əyləşdirdilər, sonra özləri oturdular. Yemək bitib süfrəyə çay gələndən sonra Aydının döyüş yoldaşı gizir Səncər İslamov ayağa durdu, gəlib düz şəhid dostunun şəkli qarşısında dayandı. Gözündən yaş sel kimi axırdı. Dəsmalını çıxarıb gözlərini sildi:

– Aydın, səni unuda bilmərik, qardaş, unutmuruq da. Sən vətənpərvər bir gənc kimi qaldın yaddaşlarda. Sənin torpaqlarımız uğrunda şəhid olmağın, qəhrəmanlığın gəncliyimizə bir nümunədir. Sən ciddi, nizam-intizamlı hərbçi idin. Hər zaman çalışqanlıq nümayiş etdirirdin. Səni həmişə hərbi biliklər maraqlandırırdı və ona görə də döyüş taktikalarını mükəmməl şəkildə mənimsəməyə çalışırdın. Aydın, sən erməni snayperinə tuş gəldin, sən şəhid olanda biz bu xəbərə inanmadıq.

Səncər sanki Aydının şəkli qarşısında hesabat verirdi. O qədər həyəcanlı idi ki, bunu sözlə çatdırmaq çətindir.

Gələn qonaqlardan biri – Aydının tərtərli adaşı da Tərtər camaatının Aydını həmişə xatırladığını deyirdi.

Ana sakit-sakit göz yaşı axıdırdı. Aydın Sevil ananın əllərindən tutub:

– Ana, sənin oğluna bütün Tərtər qəhrəman oğul deyir. Mən Tərtərdə yaşayıram. Bizim hərbçi dostlarımız vardı. Aydınla da rayonumuzda hərbi xidmətə başladığı dövrdən dostlaşdıq. O elə bir oğlan idi ki, tanışlığımız tezliklə dostluğa çevrildi. Mənim üçün çox kədərlidir. Mən bu qapıya gəlmək istəmirdim. Aydın kimi dostu itirmək çox ağırdır. Ancaq təsəllimiz budur ki, o, Vətən uğrunda şəhid olub.

Aydının dostları xeyli söhbət etdikdən sonra axşamtərəfi çıxıb getdilər. Onların gəlişi Abdullayevlər ailəsinə yeni nəfəs gətirmişdi. Aydının pak, təmiz, qızılgül kimi təravətli xatirələri ailədə hamının ürəyinə bahar havası kimi doldu. Gizir şəhid Aydın Abdullayev hər kəsin yaddaşında bahar nəfəsli, Vətənin igid bir oğlu kimi yaşayırdı...

## *Şəhid Aydın Abdullayevin adının əbədiləşdirilməsi zamanın tələbinə çevrilir...*

Həftələr, aylar gəlib keçirdi. Qaynar qazan kimi qaynayan şəhərimizdə çox şeylər dəyişmişdi. Bircə Abdullayevlər ailəsində hər şey köhnə qaydasında idi. Onlar üçün bahar da, qış da, payız da, yay da qüssə gətirirdi. Evdə hara baxırdılarsa, gözlərinin önündə Aydının surəti canlanırdı. Sevil ana da, Əmirsoltan kişi də tamamilə sevinməyi unutmuşdu. Onlara elə gəlirdi ki, bütün günlər, həftələr, aylar, hətta illər də bir-birinə bənzəyir.

Hər şey gözlərinə boz rəngdə görünürdü. Ata-ana oğullarının adının əbədiləşdirilməməsindən narahatlıq keçirirdi. Ata tərtərlilərdən müntəzəm olaraq məktub alırdı. Göz yaşı ilə yazdıqları məktublarda ataya təsəlli verirdi sədaqətli Tərtər camaatı. Yazırdılar ki, Aydın təkcə Abdullayevlər ailəsindən yox, Tərtər elindən gedib... Ata məktubları Sevil anaya da oxuyurdu. Nə yazıq ki, məktublar anaya təsəlli ola bilmirdi...

Aydının qəhrəmanlıqla şəhid olduğu Tərtərin Qapanlı kəndinin sakinləri Abdullayevlər ailəsinin nigarançılığına şərik olur, şəhid gizirin

adının əbədiləşdirilməsinə nail olmaq üçün müxtəlif ünvanlara məktub göndərirdilər. Aydın qapanlılar üçün doğma övlad qədər əziz idi. Onlar hətta istəyirdilər ki, Tərtərdə də Aydının adına küçə olsun. Aydının xidmət etdiyi hərbi hissənin rəhbərliyi də onun qəhrəmanlığının yaddaşlarda əbədi həkk edilməsi üçün çalışırdı.

Payızın son ayı idi. Qış hələ gəlməsə də, nəfəsi hiss olunurdu. Axşamlar şaxta adamı qılınc kimi kəsirdi. Dağlardan əsən soyuq rüzgar Qapanlı camaatının canında gəzişirdi. Bir tərəfdən ermənilərin başlarına yağdırdığı od-alov, o biri tərəfdən payızın soyuq üzü camaatın güzəranına, əhvalına əməlli-başlı pis təsir göstərirdi. Çünki erməni yaraqlılarının hər gün atəş açması nəticəsində dinc sakinlər həlak olur, mal-qaraya ziyan dəyir, camaat bağ-bostanının məhsulunu toplaya bilmirdi. Toplayan da ruzisini ağız dadı ilə yemirdi. Soyuq gecələrdə iki-üç ailə bir yerə yığışıb gündəlik vəziyyətdən, ermənilərin törətdiyi vəhşiliklərdən danışır, düşmənlərin yolunu kəsmək haqqında fikirləşirdilər.

Kənd sakinləri bir yerə yığışanda söz-sözü çəkir, Qapanlının müdafiəsi uğrunda şəhid olan Vətən oğulları xatırlanırdı. Kişili-qadınlı hamı bir ağızdan şəhid gizir Aydın Abdullayevi xatırlayır, onun ruhuna dualar oxuyurdular. Kənd ağsaqqalı Cəfər Quliyev sakinlərlə söhbət zamanı Aydının hələ də adının əbədiləşdirilmədiyini yanğı ilə dilə gətirdi:

– Ay camaat, Aydın qapanlıların doğma balası kimi idi. O, bizi qorumaq məqsədilə cəbhəyə gəlmişdi. Böyük şücaət göstərib qəhrəmanlıqla şəhid oldu. Ancaq hələ də onun adı əbədiləşdirilməyib. Mənə belə gəlir ki, Aydını yaxından tanıyan, onun qəhrəmanlığına, cəsarətinə, hünərinə bələd olan insanlar kimi bəzi qurumlara müraciət ünvanlayaq. O oğlanla duz-çörək kəsmişik, ağrıyan yerimizə həmişə dərman olub Aydın. Harada dara düşmüşüksə, dadımıza yetib. Biz müraciət etsək, yəqin ki, onun adını Bakıda, Tərtərdə küçəyə, parka, məktəbə verərlər. Aydının yaşadığı binanın qarşısında onun xatirə lövhəsi vurulub. Bu azdır. Bilirsiniz, Bakıda Abdullayevlər ailəsinin yaşadığı Günəşli qəsəbəsində əli xalq qanına batan bəzi bolşeviklərin adına küçələr var. O küçələrdən birinə Aydının adı verilməlidir. Atası

ilə dəfələrlə danışmışam. O, mənə böyük bir siyahı verdi. O siyahıda kimlərin adı yoxdur, mən deyim siz bilin: Çaparidze küçəsi, Oktyabrın 40 illiyi küçəsi, 1-ci zavod döngəsi, Qəzənfər Musabəyov küçəsi, Məşədi Əzizbəyov küçəsi, Şəfəq küçəsi, Məktəbli küçəsi, Park küçəsi, Transport küçəsi, 1 may küçəsi, II mədən küçəsi, Zeytun küçəsi adlı ünvanlar var Yeni Günəşlidə. Xalqımızın qatili olan insanların adları niyə yaşamalıdır? O küçələrə Aydın kimi el qəhrəmanlarının, Vətən oğullarının adı verilməlidir.

Kənd sakinləri Cəfər müəllimlə həmrəy olduqlarını bildirib qərara gəldilər ki, Bakıya, rəsmi dairələrə məktubla müraciət etsinlər.

Qapanlılar Azərbaycan Respublikasının müdafiə naziri Zakir Həsənova və Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubova məktub yazdılar.

**Qapanlıların məktubundan:**

"Bizim bölgədə şəhid olmuş gizir Aydın Abdullayevi ola bilsin ki, kənddə şəxsən kimsə tanımasın, amma onun adı Qapanlı kəndində dillər əzbəri olmuşdu. Elə indi də onun əziz xatirəsi qəlblərdə yaşayır. O, çox ünsiyyətcil oğlan idi. Cəsur kəşfiyyatçı idi. Biz daim onun igidlikləri ilə fəxr edirik.

İstərdik ki, xatirəsi əbədi yaşasın. Xahiş edirik ki, onun ailəsinin yaşadığı Bakının Yeni Günəşli qəsəbəsindəki "V" yaşayış sahəsinə şəhid gizir Abdullayev Aydın Əmirsoltan oğlunun adının verilməsinə köməklik göstərəsiniz".

Tərtər şəhərinin sakinləri də Aydının adının əbədiləşdirilməsinin tərəfdarı idilər. Şəhərin Ədalət Paşayev küçəsinin sakinləri adından Bəxtilə Səlim qızı Əliyeva Azərbaycan Respublikasının müdafiə naziri Zakir Həsənova və Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubova məktub ünvanladı.

**Bəxtilə xanım yazırdı:** "Tərtər şəhəri Ədalət Paşayev küçəsinin sakiniyəm. Bu müraciətlə Sizdən çox xahiş edirəm ki, Tərtər rayonu Qapanlı kəndində hərbi xidmət zamanı igidliklə şəhid olmuş Bakı şəhər sakini Abdullayev Aydın Əmirsoltan oğlunun xatirəsini əbədiləşdirmək üçün onun ailəsinin yaşadığı Bakıdakı Yeni Günəşli qəsəbəsindəki "V" yaşayış sahəsinə şəhid gizir Aydın Abdullayevin adının

verilməsinə köməklik göstərəsiniz. Hər bir tərtərli kimi mən də fəxr edirəm, qürur hissi keçirirəm ki, Aydın Abdullayev kimi qeyrətli, Milli Qəhrəman adına layiq gənclərimiz var.

"Vətən sağ olsun!" – deyirik".

2015-ci ilin 12 noyabr tarixində yazılmışdı bu məktub. Tərtər şəhər sakinləri Aydının adının əbədiləşdiriləcəyi günü intizarla gözləyirlər.

Tərtər şəhəri, Z.Əhmədova küçəsi 23 ünvanında yaşayan Azərbaycan Mətbuat Şurasının üzvü Svetlana Bağırova 16.10.2015-ci il tarixində Azərbaycan Respublikasının müdafiə naziri Zakir Həsənova və Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubova yazdığı məktubda da Aydının adının əbədiləşdirilməsini xahiş edirdi.

**Svetlana xanımın məktubundan:**

"Bu günlərdə şəhid Aydın Abdullayevin qəhrəmancasına həlak olmasının 2 ili tamam olacaq. O, bizim bölgədə – Tərtərin cəbhəyanı kəndi olan Qapanlıda xidmət edirdi. 2 il keçməsinə baxmayaraq, həm döyüş dostları, həm də kənd camaatı onun şücaətini unutmur, haqqında həm qürur hissi, həm də ürək ağrısı ilə danışırlar.

Yaşının az olmasına baxmayaraq, hətta özündən böyüklər belə Aydını özlərinin böyük qardaşı hesab edirdilər. Onun postundan quş da keçə bilməzdi. Özü də ayıq-sayıq idi, əsgərlərdən də bunu tələb edirdi.

Xahiş edirik ki, onun ailəsinin yaşadığı Bakıdakı Yeni Günəşli qəsəbəsindəki "V" yaşayış sahəsinə şəhid Aydın Abdullayevin adının verilməsinə köməklik göstərəsiniz".

"N" saylı hərbi hissənin zabiti Vaqif Adamov 15.10.2015-ci ildə Azərbaycan Respublikasının müdafiə naziri Zakir Həsənova və Baş nazirin birinci müavini Yaqub Eyyubova ünvanladığı müraciətdə şəhid gizirin qəhrəmanlığından danışır. Zabit yazır: "Şəhid Aydın Abdullayevlə eyni hərbi hissədə xidmət etmişik. Biz onu həm komandir, həm də böyük qardaş kimi çox sevirdik. O, dəfələrlə düşmənin canlı qüvvəsini və hərbi texnikasını məhv etmişdi. 2013-cü il oktyabr ayının 26-da o, düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Biz hesab edirik ki, Aydın ən şərəfli, ən yüksək adlara layiqdir. O, Bakının Yeni Günəşli qəsəbəsində yaşayırdı. Çox xahiş edirik ki, onun adının yaşadığı küçəyə verilməsinə köməklik göstərəsiniz".

Tərtər rayonunun Ağkənd, Qaradağlı, Qapanlı kənd sakinlərindən eyni ünvana bir neçə məktub göndərildi.

Bu məktubların hər birində cəsur Azərbaycan oğlunun mərdliklə, rəşadətlə düşmənə qarşı apardığı mübarizə əks olunur, onun qəhrəmanlığı ilə öyünülürdü.

Onlar məktubun bir surətini də Abdullayevlər ailəsinə göndərmişdilər. Aydının ata-anası bu məktublara baxıb oğullarının Tərtər camaatının qəlbində qoyduğu izlə fəxr edirdilər. Atanın özü də oğlunun adının əbədiləşdirilməsi üçün dəfələrlə müraciət etmişdi. Hər dəfə ona: "Darıxma, Əmirsoltan dayı, Aydının adını mütləq əbədiləşdirəcəyik. Azərbaycan dövləti heç bir şəhidinin xatirəsinə biganə qalmayıb, qalmır da. Biz tərtərlilərin yazdıqları isti, hərarətli məktublardan oxuyuruq ki, sizin oğlunuz düşmənə aman verməyib, böyük qəhrəmanlıq göstərib. Sizin yaşadığınız binaya Aydının xatirə lövhəsi vurulub, sağlıq olsun, xatirəsi daha yüksək səviyyədə əbədiləşdiriləcək", – bildirilirdi.

Ata ümidlə gözləyir. Elin hörmətini qazanan, el yolunda canını fəda edən sonbeşiyinin adına küçə veriləcəyi günün uzaqda olmadığına inanır. Ata yaxşı bilir ki, dövlət şəhidlərə, şəhid ailələrinə xüsusi hörmət və qayğı ilə yanaşır. İndiyə qədər onlarla şəhidin adı məktəbə, parka, küçəyə, prospektə verilmişdir. Şəhidlik zirvəsini fəth edənlər dövlətin və xalqın ehtiram göstərdiyi insanlardır.

Ananın gözləri yol çəkirdi elə bil. Ürəyindən keçdi ki, xəstəlik macal versəydi, Şabrana, qayınatasının yurdu Zeyvə kəndinə gedərdi. Elə hey fikri orada idi. Ana özünü ovudurdu ki, bəlkə Zeyvəyə getsə, orada Aydınla qarşılaşa bilər. Ana Aydının yoxluğuna gah inanırdı, gah inanmırdı. Birdən ona elə gəlirdi ki, qəfil muştuluqçu gəlib: “Sevil ana, muştuluğumu ver, Aydın gəlir”, - deyəcək.

Evdə heç kəs olmayanda ana Aydının şəkillərini evin hər yerinə düzür, geyimlərini sandıqdan çıxarıb qoxlayırdı. O, oğlunun gah geyimi, gah da şəkilləri ilə danışır, şəkilləri qucaqlayıb saatlarla susurdu. Susduqca özünə qapılır, tamamilə başqa bir dünyaya, aləmə gedib çıxırdı.

Ana Zeyvəyə getmək istəyirdi. Arzusunuərinə deyəndə Əmirsoltan kişi:

– Bir az düzəl, gedərik. Bir az da havalar qızsın, oralar dağ yeridir, sənə soyuq olar. Hələ görək tərtərlilərin Aydının adının əbədiləşdirilməsi ilə bağlı müraciətlərinin taleyi necə olacaq? Bircə biz sağ ikən balamızın adı əbədiləşsəydi... Sevil, bizim yaşadığımız "V" yaşayış sahəsinə Aydının adı verilsəydi, dərdim olmazdı. Fəxr edərdim ki, oğlumun adını daşıyan ünvanda yaşayıram. Bu mənim ömrümü uzadardı, elə sənin də ağrıların səngiyərdi, yaralı ürəyinin qanı dayanardı, ay Sevil. Sən Aydını igid, qorxmaz böyütdün. Görürsən, Tərtər camaatı nələr yazır Aydından? Aydın yalançı, fırıldaqçı olsaydı, heç camaat, el onu yada salardı?!

Babam Sultan Əhməd, atam Bəhram kişi Şabranın adlı-sanlı pəhləvanlarından olub. Aydın da onlara çəkdi. Niyə deyirlər "əslində olan dırnağında bildirər". Aydın pəhləvan babalarının kökü üstə, izi üstə ucaldı. Aydın Tərtərə gedəndə bir əlcə uşaq idi. 20-21 yaşı vardı, amma gör el ondan nələr danışır. Bircə balamın adı əbədiləşdirilsəydi, ölməzdik...

Onsuz da oğul dərdi qəddimizi əyib kamana döndərib...

Əmirsoltan kişi danışdıqca Sevil ana göz yaşı axıdırdı. Kişi arvadının göz yaşına dözə bilmirdi. Sevil ana ağlayanda o elə bilirdi ki, bütün dünya ağlayır, yer-göy göz yaşı tökür. Sevil ana ağlayanda Əmirsoltan kişi onu kiridə, ovuda bilmirdi. Ana qəlbini ancaq bala ovuda bilir. Bunu ağsaqqal yaxşı bilirdi. Odur ki, belə olanda arvadını otaqda tək qoyub o biri otağa keçirdi ki, ağlayıb ürəyini sakitləşdirsin.

Ana qollarını sinəsinə çarpazlayıb içində sızıldayırdı:

***Ay doğdu üzə düşdü,***
***Sürmələr gözə düşdü.***
***Heç ayrılıq yox idi,***
***Ayrılıq bizə düşdü.***

Hər qapı döyüləndə ana "Aydın" deyirdi, Əmirsoltan kişi isə:

– A bala, görün gələn poçtalyondur? Mənə məktub gətirməlidir. Hər dəfə poçta gedirəm ki, dövlət idarələrinə məktub yazmışam, onun cavabı hələ gəlməyib? Deyirlər ki, məktub olsa, poçtalyon gətirəcək...

## *Aydın doğmalarının silinməz xatirəsində belə yaşayır...*

Öz-özünə fikirləşirdi ki, deyirlər, zaman çox yaraları sağaldır, ancaq bizim yaramızı sağaltmır. Sanki o yaramızı görmür. "Təbib qarşı gəlsə, sağalar yara". Dərdimizə heç bir təbib dərman tapa bilmədi.

– Şükür Allahın məsləhətinə, – deyə Nicat kövrəldi.

Yazın son ayı olmasına baxmayaraq, hələ də hava oynayırdı. Təbiətdə gah günəş yeri-göyü yandırır, gah da soyuq at oynadırdı. Qardaşı Aydın haqqında düşünürdü həmişə. Elə bir gün yox idi ki, Nicat Aydını xatırlamasın, onun xatirəsi ilə baş-başa qalmasın. Aydın anadan mərd doğulmuşdu. Mərdi isə zamanə həmişə yetirmir. Bunu Nicat yaxşı bilirdi. Qardaşında elə xüsusiyyətlər vardı ki, onu başqasında görə bilmirdi.

Aydın uşaqlıqdan nahaq işi götürmürdü, harada haqsızlıq görsəydi, bundan çox narahat olurdu. Aydın, tanıdı-tanımadı, bütün insanları müdafiə edirdi. Hətta şəhərdə görəndə ki, bir oğlan hansısa bir qıza sataşır, söz atır, dərhal işə qarışır, tanımadığı qızı müdafiə edirdi. Aydının o qədər belə davaları olmuşdu ki... Aydın həmişə deyirdi ki, kişi mərd, sözübütöv olmalıdır. Nümunə ola bilməyən kişi nə cəmiyyətə, nə də ailəsinə gərəkdir. Nicat Aydının mərdlik keyfiyyətlərini xatırladıqca, qardaşının necə böyük ürək sahibi olduğundan qürur hissi keçirirdi. Aydın kiçik qardaş olmasına baxmayaraq, həmişə onlara dayaq olurdu. Onun dostları da hamının dostlarından seçilirdi. O, dünyasında əyri, nadürüst adamla dostluq etməzdi. Hey deyirdi ki, keçmə namərd körpüsündən, qoy aparsın sel səni, yatma tülkü kölgəsində, qoy yesin aslan səni. Minillərin sınağından üzüağ keçən bu atalar sözü Aydının dilindən düşməzdi. Qardaşı 23 illik həyatını kişi kimi yaşadı, amma namərd gülləsindən həyatdan köçdü.

– Kaş Aydın namərd gülləsinin vurduğu yaradan ölməyəydi. O, namərdlər dünyasına qarşı həmişə mübarizə aparırdı. Aydın əsl igid idi. Atalar yaxşı deyib ki, igid ölər, adı qalar, müxənnətin nəyi qalar?

Nicat danışdıqca, həyat yoldaşı Səlihə və uşaqları ona qulaq asır,

sual verməyə ürək etmirdilər. Çünki Nicat öz aləmində Aydınla baş-başa idi.

Həmişə babaları Bəhram kişi deyirmiş ki, oğul, igidin yaraşığı sınaqdır, insan sınaqdan çıxandan sonra igid adını qazana bilər. Rəhmətlik Bəhram baba igidliyi ilə bütün Şabran elində, ətraf bölgələrdə ad-san qazanmışdı. Köklü bir ağacın budaqları idi Nicat, Cavad və Aydın.

"İgid odur atdan düşə atlana, igid odur hər cəfaya qatlana".

Bu sınanmış kəlamı da Bəhram baba tez-tez işlədərmiş.

Nicatın Aydına bağlılığı ancaq bir genetik bağlılıq deyildi, onların mənəvi-ruhi bağlılıqları da vardı. O, Aydının uşaqlığını tez-tez xatırlayırdı. Aydın uşaqlıqdan ötkəm, çılğın, ərköyün, sözgötürməz idi. Böyüklərin sözünə baxardı, kiçiklərə sevgi bəsləyərdi, amma haqsızlığı götürə bilmirdi heç vaxt. Bəzən Nicata elə gəlirdi ki Aydın elə uşaq qalıb, heç böyüməyib. Evin böyük uşağı idi Nicat. Ona görə də Aydınla aralarında xeyli yaş fərqi vardı.

İllər bir göz qırpımında keçmişdi. Kiçik qardaşı böyüyüb ərsəyə çatmışdı, əsgərliyə gedib gəlmişdi. Sonra da könüllü olaraq kəşfiyyatçılıq kursuna daxil olub oranı bitirdikdən sonra Tərtərdə Vətənin təəssübünü çəkdi, sonda isə şəhid oldu. Nicat qardaşı haqqında düşündükcə, ürəyi paralanırdı. Aydın həyatdan doymadı getdi.

***Həyat, sən nə şirinsən,***
***Kim səndən doydu getdi?***

Nicat fikirləşirdi ki, qardaşı 23 illik ömrünü o qədər dolğun, mənalı keçirib ki, əbədi yaşayacaq. Özünə qəribə bir təsəlli verdi:

– Aydın heç vaxt qocalmayacaq, həmişə gənc qalacaq, lap yaşıdları qoca baba olanda da qardaşım cavan olacaq.

Nicat bir qədər azdanışan idi. Odur ki, çox vaxt müsahib kimi diqqəti çəkmirdi. Əslində isə, bütün sakit təbiətli insanlar kimi, Nicatın da danışmağa sözü çox idi, ürəyi sözlə, xatirə ilə aşıb-daşırdı. Aydın elə bir qardaş idi ki, onun hər sözü-söhbəti bir dastan, bir roman idi. Nicat düşünürdü ki, qardaşının kəşfiyyatçı olması onun bitkin xasiyyətinin göstəricisidir. Aydın uşaqlıqdan sirr saxlayan idi. Çöldə-ba-

yırda uşaqlarla dalaşsa da, döysə də, döyülsə də, heç vaxt bunu böyük qardaşlarına deməz, haqq-hesabı özü çürüdərdi. Uşaqlıqdan onun xasiyyəti bütöv formalaşmışdı. Sirr verməyi qətiyyən sevmirdi Aydın. Qardaşlarına, ata-anasına sirr verməyən adam düşmənə sirr verərdimi heç?! Nicat qardaşı haqqında düşünəndə yadına o qədər maraqlı hadisələr düşürdü ki, bilmirdi hansını danışsın. Uşaqlarına Aydın haqqında çox danışırdı Nicat, onlar elə bilirdilər ki, əmiləri nə vaxtsa gəlib bu əhvalatları onlara özü danışacaq.

– Ata, əmim nə vaxt gələcək? – deyə Nicatın böyük qızı soruşdu.

Uşağın qəfil verdiyi sual Nicatı xeyli susmağa məcbur etdi. Ona nə cavab verəcəyini götür-qoy elədi. Handan-hana dilləndi:

– O uzaqdadır, bizim yaşadığımız yerdə yaşamır, sən böyüyəndə əminin harada olduğunu biləcəksən.

Nicat üç uşaq atası idi. Qızları Leyli, Mehri, 2 yaşlı oğlu Nihat atanın şadlığı, sevinci olsa da, onun fikri həmişə Aydının yanında idi. Çünki Aydının vaxtsız vəfatı hamı kimi onu da yandırıb-yaxırdı.

Böyük qızı Leyli qəfil atasına sual verdi:

– Ata, Aydın əmimin adı çəkiləndə nənəm nə üçün çox ağlayır?

Nicatı fikir götürdü. O necə izah etsin ki, Leyli başa düşsün.

– Qızım, sənin əmin qəhrəman olub. O, torpaqlarımız uğrunda şəhid olub. Nənən əminin şəhid olmasına dözə bilmir. Valideynlər istəyir ki, övladları sağ-salamat olsun.

– Ata, bir az əmimdən danış bizə.

– Aydın uşaqlıqdan çox ağıllı idi. Həmişə yaşıdlarından fərqlənirdi. Həm çox çevik idi, həm ciddi, həm də zəkalı. O, heç vaxt tədbirsiz iş görmürdü. Bir iş görəndə mütləq düşünüb-daşınır, sonra qərar verirdi. Ağzından çiy söz çıxarmazdı. Ata-anamızın sonbeşiyi olmasına baxmayaraq, hamı onun sözünə hörmətlə yanaşardı. Məhəllə cavanları bizi daha çox Aydına görə tanıyır, ona görə hörmət bəsləyirdi. Əmin olduqca mehriban, qayğıkeş idi. Valideynlərimizə çox bağlı idi. Çalışırdı ki, onlara daha çox diqqət yetirsin, evdə heç bir narahatlıq olmasın. Hətta 14-15 yaşı olanda dərsdən sonra işləyib evə qazanc gətirirdi ki, ailənin yükü yüngülləşsin. Evdə heç kəsin qəlbinə dəyməz, hamı ilə xoş davranardı. Meyxananı çox sevirdi. Ən çox sevdiyi meyxanaçı

Rəşad Dağlı idi. Rəşadın bütün meyxanalarına qulaq asardı. Televiziyada verilən meyxana yarışlarına çox maraqla azarkeşlik edirdi. O, düz danışmağı sevir, verdiyi sözün üstündə durur, hamıdan da onu tələb edirdi. Sizin ananıza əsl qardaş münasibəti bəsləyirdi. Gəlin bacılarına həmişə nəvazişlə, qardaş qayğısı ilə yanaşırdı. Sizdən ötrü də canından keçməyə hazır idi. Sizi o qədər istəyirdi ki, sözlə deyə bilmirəm. Məhəllədə böyükdən tutmuş, kiçiyə qədər hamı Aydının xətrini çox istəyirdi. Çünki bacardığı hər işdə qonşuların əlindən tuturdu. Sizin əminiz belə oğlan idi. Heyif ki, tez getdi. Amma təsəllimiz o olmalıdır ki, Aydın yaddaşlarda qəhrəman kimi qaldı. O, şəhid oldu, sinəmizə dağ çəkdi, amma o dağın zirvəsinə öz adını işıqlı sözlərlə yazdı. Vətən sağ olsun, qızım, Aydın Vətənin balasıdır. O, təkcə sənin əmin deyil, bütün uşaqların əmisidir.

Leyli atasını dinlədikcə, üzü rəngdən-rəngə düşür, gah sevinir, gah kədərlənir, gah da qürurlanırdı.

– Ata, müəlliməm bizə şəhidlərdən inşa yazmağı tapşırıb. Onda mən sənin sözlərini dəftərimə köçürüb müəlliməmə verərəm ki, öz əmimin qəhrəmanlığından yazmışam.

– Lap yaxşı, qızım, onda babanı da danışdır, onun da əminlə bağlı deyəcəyi sözlər var.

– Ata, fəxr edirəm ki, qəhrəman Aydın Abdullayev mənim əmimdir.

Nicat Aydından 8 yaş böyük idi. Suraxanı rayonu 278 saylı məktəbdə oxumuşdu. Ondan sonra qardaşları Cavad və Aydın da həmin məktəbin məzunları olmuşdu. Nicat İnşaat və Memarlıq Universitetinin su və qaz təchizatı fakültəsini bitirmişdi. İxtisasca mühəndis idi. Əmirsoltan kişi və Sevil ana mümkün qədər balalarına ali təhsil vermək üçün çalışmışdılar.

Nicat Aydının uşaqlıqda və yeniyetməlikdə gəzdiyi hər bir küçəni, yeri qarış-qarış gəzir və hər yerdə qardaşının izini axtarırdı. Günlərin birində yolu Aydının illər əvvəl məşq etdiyi və dəfələrlə fərqləndiyi idman klubuna düşdü.

Aydın müxtəlif idman növləri ilə məşğul olmuşdu. Son illər sərbəst güləşə də maraq göstərirdi. Bu sahədə təcrübəsini təkmilləşdirmək üçün Eldar Məmmədovun klubuna gedirdi.

Nicat kluba daxil olanda qəribə hisslər keçirdi. Bir vaxtlar qardaşı bu pilləkənləri qalxmışdı, məşq zalında Aydının nəfəsi, ruhu dolaşırdı.

Nicat zala daxil olanda qızğın məşq gedirdi. Müəllim Nicatı görüb uşaqları dayandırdı.

– Buyurun, eşidirəm, qardaş.

– Salam. Mən Aydın Abdullayevin qardaşıyam, adım Nicatdır. Yaxınlıqdan keçirdim, ayağım məni bura gətirdi.

– Çox sağ olun ki, bizi yada salmısınız. Allah Aydına rəhmət eləsin. Mən onu uşaqlıqdan tanıyırdım, idmana böyük maraq göstərirdi. Uşaqlara tez-tez Aydından danışıram. Deyirəm ki, Aydına bənzəməyə çalışın, çünki Aydın təkcə idmançı olmayıb, o, həm də qəhrəman idi. Aydın hələ uşaqlıqdan öz yaşıdlarından seçilirdi. Döyüş ruhlu gənc idi, yarışlarda fərqlənirdi. Həmişə bayraqdarımız Aydın olurdu. O, bayrağımızı qürurla qaldırırdı. Bəzən məşq zamanı mənə də kömək edirdi, idmana yeni gələn uşaqlara yol göstərirdi. Uşaqların hamısı ona qulaq asırdı. Aydın çox nizam-intizamlı, dürüst oğlan idi. Məşqə həvəslə gəlirdi həmişə, bir dəfə də olsun onu həvəssiz görmədim. Aydın heç vaxt məğlub olmağı sevmirdi, həmişə qalib olurdu. Liderlik ona çox yaraşırdı. Aydın inadkarlıqla, əzmlə qələbədən-qələbəyə doğru gedirdi. Onun gözəl xüsusiyyətlərindən biri də o idi ki, qətiyyən rəqibdən qorxmazdı, qırğı kimi rəqibin üstünü alırdı. Aydın yarışlara həvəslə qatılırdı. O, çox vətənpərvər, ailəsinə bağlı bir gənc idi. Həmişə deyirdi ki, beynəlxalq idman yarışlarına qatılıb Azərbaycanın üçrəngli bayrağını göylərə qaldıracaq. Mən Aydının himnimizi necə qürurla oxuduğunun şahidi olmuşam. O, dövlət rəmzlərimizi Vətən torpağı qədər çox sevirdi. O bu sevgi naminə də şəhid oldu. Onun şəhid olduğunu eşidəndə çox pis oldum. Amma təsəllim o oldu ki, Aydın şəhidlik məqamına yetişdi. Aydının sıramızda olmaması mənə də, idmançı dostlarına da çox pis təsir edir. Bizim hədəflərimiz böyük idi. Biz hər il Aydının doğum günündə onun xatirəsinə sərbəst güləş yarışı təşkil edirik. Qalibləri Aydın Abdullayevin adına təsis etdiyimiz mükafatla təltif edirik. Allah Aydına rəhmət eləsin!

Nicat qardaşı haqqında eşitdiyi isti, səmimi sözlərdən təsirləndi, ürəyi kövrəldi. Bir az məşqə baxdıqdan sonra evə qayıtdı. Xeyli yüngülləşmişdi:

–Adına qurban, qardaş, adın hər yerdə hörmətlə çəkilir, – deyə pıçıldadı.

## *Aydından yadigar qalan gündəlikdən xatirələr...*

“Əsgər vurulanda yox, unudulanda ölür!”, – bu fikir təkrar-təkrar beynində dolaşırdı. Yaşının az olmasına baxmayaraq, onun ağzından çıxan sözlərin çoxu dostlarının, əsgər yoldaşlarının dilində zərb-məsələ çevrilmişdi. "Əsgər vurulanda yox, unudulanda ölür" fikri də əsgər yoldaşı İlkinin ömrü boyu unuda bilməyəcəyi bir məsəl idi. İlkin Aydını düşünəndə ilk yadına düşən bu söz olurdu...

Abdullayevlər ailəsinə barıt qoxulu səngərdən bir məktub gəlmişdi. Hərbi hissələrdən birində xidmət edən bir gizir yazmışdı məktubu. Ata məktubu tutiyə kimi gözlərinə tutmuşdu, elə bilirdi ki, bu məktubda ürəyinin dərmanı gizlənib. O, məktubu açmağa tələsmirdi. Məktubu yazan gizir vaxtilə Aydının əsgər yoldaşı olmuşdu. "N" saylı hərbi hissədə birgə xidmət etmişdilər. Aydının şəhid olduğunu məzuniyyətdə olanda eşitmişdi İlkin. Evdə divana uzanıb televizora baxırdı. Gündüz xəbərlərində Milli Ordunun Tərtərdəki "N" saylı hərbi hissəsinin bir gizirinin şəhid olduğu haqqında tez-tez informasiya verilirdi. Əvvəlcə şəhidin adına, soyadına fikir vermədi. Birdən Aydının adını qulağı aldı. Dəli kimi divandan sıçrayıb düz televizorun qarşısına qaçdı. Ekrandakı şəkilə lap yaxından baxdı:

– Ay aman, Aydın, sən nə etdin? Niyə belə oldu, qardaş?

Əli ilə saçlarını çəngələdi İlkin. Təsadüfən televizorda eşitdiyi bu xəbər onun dünyasını alt-üst etdi, beynini qarışdırdı. Onlar Seyfəli poliqonunda hərbi təlim zamanı mərc gəlmişdilər. Aydınla bağlı yaşanan hər bir dəqiqə kino lenti kimi İlkinin gözləri qarşısında canlandı. İlkinə elə gəldi ki, Seyfəlidədir, Aydın da yanında. Onlar tez-tez güləşirdilər, gah İlkin Aydını yıxırdı, gah da Aydın İlkini, ancaq bir-birinin məğlub olmağını qətiyyən istəmirdilər. Bir dəfə onlar mərc gəldilər, bütün əsgər və zabitlər dostların mərcinə şahidlik etdi.

– Bilirsən də, qaqa, Şuşaya bayrağı mən sancacağam, – deyə Aydın üzünü dostuna tərəf çevirdi.

– Canın üçün, qaqa, imkan vermərəm sənə, özüm sancacağam, – dedi İlkin.

Aydın təslim olmaq istəmirdi. Nə üçün olmalıydı ki? Çünki Şuşaya üçrəngli bayrağımızı sancmaq onun arzusu idi. Həm də bayrağımızı həmişə ürəyinin üstündə, qoynunda gəzdirirdi.

– İlkin, sən bayraq dalınca qaçana qədər mən bayrağı qoynumdan çıxarıb asacağam. Mən paxıl deyiləm, qardaş, bayrağı birgə asarıq, həm sən deyən olar, həm də mən deyən. Nə deyirsən?

– Gəl, mərc gələk uşaqların yanında. Kim uduzsa, buradakı uşaqların hamısını yığıb qonaqlıq verəcək!

– Məni qonaqlıqla qorxudursan? Allah qoysa, torpaqlarımızın azad edilməsi əməliyyatlarına başlananda mən öz gücümü sənə göstərərəm.

Aydının bu sözü dostunun ürəyini açdı. Onlar qucaqlaşdılar.

– Sözümüz sözdü ha, – deyə Aydın dostunu dümsüklədi...

Hamı gülüşdü. Əslində, torpaqlarımızın düşmən tapdağından azad ediləcəyinə hamı inanırdı. Əsgər və zabitlər, bir nəfər kimi, bu mübarək əməliyyatda canla-başla iştirak etməyə, fərqlənməyə hazır idi. Təbii, hamısının da ürəyindən Şuşaya, Xankəndinə, digər torpaqlarımıza bayraq sancmaq keçirdi.

Aydın şəhid olmuşdu. İlkin heç vaxt Aydının şəhid olacağını xəyalına belə gətirməmişdi. O, civə kimi qaynayırdı, güllə ona necə dəyə bilərdi? İlkin fikirləşirdi ki, yəqin düşmən onu yatdığı yerdə vurub. Sonra öz-özünə:

– Aydın heç vaxt postda yatmaz. Bəs necə olub ki, düşmən vurub onu? Bəlkə düşmən arxasına keçibmiş Aydın. Elə hey deyirdi ki, imkan olan kimi düşmən arxasına keçib onları məhv edəcəyəm. Arada məktublaşırdıq, deyirdi ki, qaqa, ermənilərin başına oyun açırıq.

Sonra eşitdi ki, Aydını snayper düz alnından vurub. Sızıldadı İlkin.

– Qardaş, sənin alnın açıq, üzün ağ olub həmişə, alnından öpüb böyüklərimiz sənin. O güllə nə idi alnına dəydi?

İlkin Aydının dəfnində iştirak edə bilməsə də, yas mərasiminə gəldi. Özünü elə pis hiss edirdi ki, heç olmayan kimi. Ona elə gəldi ki, zaman dayanıb, saatlar yatıb, insanlar hərəkət etmir, yollar bağlanıb. Çox qəribə hisslər keçirirdi. Bədəni büsbütün süstləşmişdi. Aydının şəhid olması ona çox pis təsir etmişdi. O, hərbi hissəyə qayıdanda

rəngi soluxmuşdu, heç səhhəti də qaydasında deyildi. Aydının Tərtər istiqamətində şəhid olduğunu, onun yas mərasimində iştirak etdiyini əsgər və zabitlərə danışanda hamısı çox pis oldu. Əsgərlərin çoxu Aydını yaxından tanımasalar da, hərbi hissədə onun haqqında dolaşan əfsanələri çox eşitmişdilər. Onu tanıyanlar da, tanımayanlar da Aydının şəhid olması xəbərini ürək ağrısı ilə qarşıladılar.

– Aydının arzuları çox idi, həddən artıq çox. O, qalib olmaq istəyirdi. Aydın ən qaynar nöqtələrdə olmağı xoşlayırdı...

Hərbi hissədə İlkin hamının gözünə çox kefsiz görünürdü. Dost itkisi onu ağrıdırdı. Gecədən xeyli keçməsinə baxmayaraq, İlkinin gözünə yuxu getmirdi. Əsgər vaxtlarında belə hallar tez-tez olurdu. Çünki gecələr Aydınla xısın-xısın danışır, bəzən məktub yazır, bəzən də gündəlik baş verənləri, arzu və istəklərini cib dəftərçəsinə köçürürdülər. Əl fənərinin işığında yazdıqları hər bir cümlə, hər bir söz onlara sevinc bəxş edirdi.

Aydını xatırlayan İlkin onun ailəsinə məktub yazmaq istədi. Özündə məktub yazmağa böyük ehtiyac duyan İlkin Aydınlı günləri göz yaşı içində göz önünə gətirə-gətirə yazırdı. İlkinin məktubundan:

“Tale elə gətirdi ki, biz Aydınla eyni hərbi hissədə qulluq etməli olduq. İlk baxışdan zəhmli görünən Aydının ipək kimi ürəyi vardı. Sizin oğlunuz anadan cəsur doğulmuşdu. Əsgəri xidmətdə olduğumuz müddətdə o hər kəs üçün gerçək bir nümunə ola bildi. Aydın qaynar nöqtələri, təhlükəli yerləri çox sevirdi. O, İsveç-alman yazıçısı, şairi, rəssamı, Nobel mükafatçısı Herman Hessenin maraqlı bir fikrini tez-tez xatırlayırdı: "Təhlükəsiz yola ancaq zəif insanları göndərirlər". O, güclü idi və təhlükəli yollarla getməyi sevirdi. Aydın ömrünü hərbə bağlamaq istəyirdi, mən də onun kimi bu niyyətdə idim. Amma Aydın deyirdi ki, mən cəbhə bölgəsində xidmət etmək istəyirəm. Atalar demişkən, niyyətin hara, mənzilin ora. Aydın cəbhə bölgəsində gizir kimi xidmət edib Vətənə öz borcunu ləyaqətlə, şərəflə qaytardı.

Aydın əsgərlikdə olarkən hər gecə kiçik dəftərçəsinə nə isə yazırdı. Amma yazdığını mənə göstərmirdi. Bir dəfə Aydından xəbərsiz onun cib dəftərçəsini ələ keçirdim. Orada maraqlı bir fikir vardı. Aydın ya-

zırdı ki, əsgər vurulanda yox, unudulanda ölür! Bu söz məni özümdən alıb apardı. Dostum necə də dərin düşünə bilirdi... Onun ağlı hamımıza gərək olurdu. Nə olsa, tez onunla məsləhətləşirdik. Aydın əsl qəhrəman idi. O, Şuşaya bayrağımızı sanca bilmədi, əcəl Aydına macal vermədi. Sizə söz verirəm ki, o bayrağı Aydının adından Şuşaya mən sancacağam və həmin yeri hər il pir kimi ziyarət edəcəyəm".

Abdullayevlər ailəsində İlkinin məktubu əl-əl gəzirdi. Hər kəs o məktuba toxunmaq istəyirdi. Məktub Aydının əsgərlik yoldaşından gəlmişdi.

Ata məktubu səliqə ilə qatlayıb Aydının şəkillərinin arasına qoydu. Şəkillər olan siyirmədə Aydının əsgərlikdə yazdığı kiçik dəftərçə də vardı. Amma nədənsə indiyə qədər onun bu kiçik dəftərini vərəqləməmişdilər.

Aydının əsgərlik gündəliyinin üzü cırılmışdı. Əsgərlikdən gələndən sonra gündəliyini bir tərəfə atmışdı. O bilmirdi ki, gün gələcək onun dəst-xətti ilə yazılmış adicə bir söz də ailəsi üçün qızıldan qiymətli olacaq. Aydın səliqə ilə yazmışdı gündəliyini. Hər söz, hər şeir Aydının ətrini verirdi. Onun kiçik ürəyində anaya, Vətənə nə qədər böyük sevgi vardı, İlahi!

Aydın hələ əsgərlikdə olanda Vətən üçün canını fəda etməyə hər an hazır idi.

**Aydının gündəliyindən:**

***Onsuz da ölümdü dünyanın sonu,***
***Hər kəs dadlı şərbət içdi həyatdan.***
***Mən ölsəm qəbrimə yazarsız bunu,***
***On səkkiz yaşında bir cavan oğlan***
***On qram güllədən köçdü həyatdan.***

Aydının üzü cırılmış gündəliyini evdə müqəddəs kitab kimi öpüb göz üstə qoyurdular. Nakam oğlanın çiçək açmamış arzularının tərcümanı idi gündəlik. Gündəlikdə onun əlinin hərarəti, könlünün Vətən sevgisi canlanır, ürəyi döyünürdü. Aydın çox mətin, mətin olduğu qədər də duyğusal bir gənc idi. Xalası gündəliyi vərəqlədikcə, gözünün yaşını sel kimi axıdırdı:

***Ağlama sevgilim, islanar yaylıq,***
***Mən əsgər gedirəm on səkkiz aylıq.***
***Əgər unutmayıb gözləsən məni,***
***Mən də unutmaram, sevgilim, səni.***
***İlyarım səfərdən qayıdan zaman***
***Hər yazı qütbtək saralan gördüm.***
***Dünyalar qədər sevdiyim qızın***
***Yanında körpəsin ağlayan gördüm.***

Gündəlikdən bu şeiri oxuyanda Aydının xalası daha möhkəm hönkürdü:

– Can ay Aydın, can balam, sənin özünə də, sevginə də, nakam taleyinə də qurban. Ay ürəyimi dağlayan oğul, sən əsgərlikdə olanda ölüm haqqında fikirləşirdin? Bir parça uşaq idin Aydınım, sən nə bilirdin ölüm nədir? Deyirdin ki, bacı, darıxma, müharibə qurtarsın, evə qayıdacağam, sənin qulluğunda duracağam. Harda qaldı verdiyin o söz?

Aydının gündəliyini vərəqlədikcə, sanki xalasının barmaqları od tutub yanırdı. Hər söz, hər hərf bir köz parçası idi. Aydının şeirlərini xalası göz yaşı içində oxuyurdu.

***Kim açmaq istəsə bu bloknotu,***
***Bilsin ki, burada bir ürək yatır.***
***Astaca çevirin vərəqlərini,***
***Burda nakam arzu, bir istək yatır.***

Aydının əsgərlik illərindən qalan bir parça gündəlik hamını yandırıb-yaxırdı.

***Dekabrın altısını salmışam yola,***
***O qara gözlərə yaş dola-dola.***
***Ay ana, sən Allah az boylan yola.***
***Dünyada hər kəsdən əzizdir ana,***
***Ürəyi bir dərin dənizdir ana.***
***İnan ki, Günəştək güləcəm, ana,***
***Darıxma, tezliklə gələcəm, ana.***

Aydın əsgərlikdə olanda ev üçün çox darıxırdı. Bu onun gündəliyində də dərin izlər buraxmışdı. Anasını daha çox istəyirdi. Bilirdi ki, anası günləri sayır. Aydın da təqvimdə günləri xətləyirdi. Gündəliyində ən çox anasından yazmışdı Aydın. Aydın hər cümləni yazanda anasını düşünürdü:

***Ananın qədrini bilməyən oğul***
***Əsgərlik məqamı çatanda bilər.***
***Ana əllərinin hərarətini***
***Soyuqda oturub donanda bilər.***

***Uşaq vaxtı incitmişəm mən səni,***
***Yazdığım şeirə bağışla məni.***
***İndi də həsrətəm gözəl laylana,***
***Ehtiyac duyuram sənin qayğına.***
***Böyüdüb göndərdin Vətən yoluna,***
***Gözün yollar çəkir, əsgər anası.***

Aydının gündəliyinə hamı sehrli bir aləm kimi baxırdı. Aydının kiçik dəftərçəyə köçürdüyü hisslərini əzizləri öz ürəyində yaşayırdı. Cavadla Nicat Aydının gündəliyini vərəqləyirdi.

***Aydın yazırdı:*** *"Bu gün fevralın 19-dur. Seyfəli poliqonundayıq. Akopda lomkaçılıqdır".*

Nicat üzünü Cavada tutaraq:

– Aydın nə üçün belə yazıb görəsən?

– Yəqin onlara istirahət verilibmiş, ona görə belə deyir. İstirahətdənsə təlim olmasını istəyirdi Aydın.

– Axı o, bir yerdə dayanıb durmağı sevmirdi. Elə hey istəyirdi ki, hərəkətdə olsun, – dedi Nicat.

– Nicat, bax, Aydın əsgər yeməkxanasında əsgərə verilən qidanın da siyahısını verib. Gör nə qədər diqqətli imiş ki, heç nə gözündən, fikrindən yayınmayıb.

Qardaşları Aydının gündəliyini vərəqləyirdi:

***Əlinizi çiynimə qoyanda***
***Ürəyim açılır həmin o anda.***
***Düşünüb səhvlərimi salıram yada,***
***Sizin üçün darıxıram, qardaşlar!***

*Qardaşlarım dayağımdır hər zaman.*
*Ayrılıq ağrısı ağırdır yaman.*
*Görməsin yolunuz nə çən, nə duman,*
*Sizin üçün darıxıram, qardaşlar!*

*Atam əvəzisiz ikiniz mənə,*
*Könlüm könlünüzdə qıza, isinə.*
*Siz çatasınız müdam xoş günə,*
*Sizin üçün darıxıram, qardaşlar!*

Nicatla Cavad qardaşlarının yazdığı şeirdən kövrəldilər: "Ay Allah, gör böyük ürəkli Aydın onları nə qədər sevirmiş!".

– Aydın qayğıkeş olsa da, bizə sevgisini elə də hiss etdirmirdi. Bəzən mənə elə gəlirdi ki, Aydın bizi o qədər də çox istəmir. Amma yanılmışam. Qardaşım bizi dünyalar qədər sevirmiş, – deyə Nicat qəhərlənə-qəhərlənə dilləndi.

– Yox, Aydın bizi həmişə çox istəyib. Sadəcə, əvvəl uşaq idi, ərköyünlük edirdi. Amma əsgərlik məktəbi, evdən uzaqda olmaq onun bütün duyğularını açıb.

*İnsanı insandan ayıran dünya,*
*Mən də ilyarımlıq ayrıldım səndən.*
*Həyatı hərbidə öyrədən dostum,*
*Dostluq nə deməkdir, öyrəndim səndən.*
*Dost sözünün mənasını tapıb öyrənsən,*
*Dostluq nə olduğunu yaxşı bilərsən.*

Aydın əsgərlikdə olanda dostlarını da çox düşünürdü. Bakıda qoyub getdiyi dostlarının bir neçəsi də onun kimi əsgər idi. Arada məktublaşıb xəbərləşirdilər də. Aydın axır vaxtlar hərbi qulluqdan ayrılmaq istəmirdi. Elə bağlanmışdı ki, hərbiyə. Bircə anasından nigaran idi, bilirdi ki, anası onu gözündən kənara qoymaq istəməyəcək. Əsgərlikdə olmağına güclə dözür anası.

Aydının gündəliyində "Bağışla, ana" adlı kiçik bir şeir də qardaşlarının diqqətindən yayınmadı:

*Övladın nazını çəkdin hər zaman,*
*Biz sənə dərd deyil, kaş sevinc verək.*
*Qədrini vaxtında bilə bilmədim,*
*Qədrini biləydim uşaqkən gərək,*
*Bağışla, ay ana, bağışla məni.*

*Ayrılıq gülləsi taparsa məni,*
*Bu geniş dünyadan çıxarsa məni,*
*Tutub səhralara aparsa məni,*
*Bağışla, ay ana, bağışla məni.*

*Vətənin borcunu verib gələcəm,*
*Mən sənin yanına qayıdacağam.*
*Öpüb əllərini, ayaqlarını,*
*Ay ana, laylanı dinləyəcəyəm.*

Aydının şeirləri öz ömrü kimi qırıq-qırıq, parça-parça idi. O, şeirdən çox duyğu və həyəcanla yazılan yazıya bənzəyirdi. Aydının anasına yazdığı şeirlər gözü yolda qalan anaya təsəlli ola bilirdimi?

Cavadı bu sual düşündürürdü. Aydının şairliyindən xəbərləri yox idi. Amma, görünür, o ürəyində gəzdirdiyi ana sevgisini şeirə çevirməklə, anadan halallıq almaq istəyirdi. Ana isə haqqını ona çoxdan halal etmişdi...

## *Aydının yarımçıq qalan arzuları və babanı dünyadan köçürən nəvə nisgili...*

Aydın şəhid olandan sonra Məcnun kişi canını qoymağa yer axtarırdı. Dərdi o qədər böyük idi ki, yerə-göyə sığmırdı. İxtiyar yaşında günü ağlamaqla keçirdi kişinin. Heç ağlına da gəlməzdi ki, nə vaxtsa şəhid nəvəsinin tabutunu qucaqlayacaq. Baba Aydının yoxluğunu düşündükcə, dəli olmaq dərəcəsinə çatırdı. Nəvəsinin həyatda olmamasını qəbul edə bilmirdi. Qisas hissi babanın səbr-qərarını əlindən almışdı. Elə hey fikirləşirdi ki, əlinə silah götürüb bu yaşında ermənilərin üstünə getsin. O bunda çox israrlı idi. Amma qızları, kürəkəni,

nəvələri onu bu işdən çəkindirirdi. Bütün yaşlı qocalar kimi, o da əllərini ümidsizcəsinə dizlərinə çırpıb vaysınırdı:

– Ölüm mənim idi, ay oğul, niyə Əzrayıl səni apardı? Günümü görüb, dövranımı sürmüşəm. Kim tanıtdı sənin yaxanı o xainə? Hərdən zəng edirdi ki, baba, necəsən? Bağa yaxşı bax, ağaclar quruması, çiçəklər solmasın. Deyirdim, ay oğul, xətircəm ol, hər şey yerindədir, bircə sən yoxsan, sağlıq olsun, tezliklə gələrsən, evinə yiyəlik edərsən. Qismət olmadı balama ev-eşiyi. Bu evin sahibi Aydın olmalı idi. Çünki o mənim nakam balamın adını daşıyırdı. Nəvəmin də ömrü oğlumun ömrü kimi qısa oldu. Gözümü sənə dikmişdim, Aydın, deyirdim ki, məni çiynində son mənzilimə sən yola salacaqsan. Amma Allah sənin ölümünü mənə göstərdi, sinəmə çalın-çarpaz dağ çəkdi fələk.

Babanın ağlamağı qızlarına, nəvələrinə çox pis təsir etdi.

– Aydın axırıncı dəfə Yaşmaya gələndə həyətimizdən bir qucaq çiçək yığıb nişanlısına apardı. Çiçəklərin hər biri bir rəngdə idi. Mən həmişə gülləri yığıb qız-gəlinə hədiyyə verirdim. Deyirdilər ki, çox sağ ol, Məcnun baba, Aydının sağ olsun, hərbi xidmətdən sağ-salamat ev-eşiyinə qayıtsın, toyunu görəsən. Ona o qədər dua edirdilər ki, balalarım, gərək Aydından güllə yan ötəydi. Amma ötmədi. Mən Aydınsız yaşaya bilmərəm, bala, heç yaşamağa üzüm də gəlmir. İki Aydınım qara torpağın altında yatır, amma mən yaşayıram hələ.

Baba Aydını uşaqlıqdan nəvəsi yox, oğlu hesab edirdi. O, Aydınla nəfəs alırdı. Həyatını Aydına bağlamışdı Məcnun kişi.

Məcnun kişi keçmiş Dəvəçi, indiki Şabran rayonunun Nohurlar kəndində doğulub boya-başa çatmışdı. Məcnun ailənin tək uşağı idi. Xudaverdi kişi Məcnunu elə tərbiyə etmişdi ki, oğlu böyüklə böyük, kiçiklə kiçik idi. Məcnun böyüyəndən sonra rayon mərkəzinə köçür, burada dəmir yolunda işləməyə başlayır. Həyat dolu, xeyirsevər gənclərdən idi Məcnun. Diribaşlığı, tərbiyəsi ilə dostları arasında böyük hörmət qazanan Məcnun Leyli xanımla ailə qurur. Leyli də ki, Şabranın adlı-sanlı nəsillərindən birinin övladı idi. Leylinin babası erməni zülmünə, bolşevik işğalına qarşı əlində silah mübarizə aparmışdı. Leyli xanımın babası Əfəndizadə Həmdulla Əfəndi İsmayıl oğlu 1888-

ci ildə Qələgah kəndində anadan olub. O öz zəmanəsinin böyük din xadimi Əbdülvəhab Əfəndinin nəvəsi idi. Həmdulla Əfəndi ilk təhsilini mollaxanada alıb. Sonra Quba mədrəsəsində təhsilini davam etdirib, buradan isə 2 sinifli rus məktəbinə keçərək oranı 1906-cı ildə bitirib. Ərəb, fars, türk və rus dillərini mükəmməl bilib, o bölgənin açıqgözlü, uzaqgörən ziyalılarından biri kimi tanınıb. O, Quba qəza polisinin rəisi Əli bəy Zizinski, pristav Mahmud bəy, qəza rəisi Səlim bəy, bir müddət sonra Azərbaycana rəhbərlik edən Mircəfər Bağırovla dostluq edib. 1918-ci ilin dəhşətli mart günlərində ermənilər Quba, Xaçmaz ərazisinə soxularaq adamları qırıb bu yurdu xarabaya çevirəndə Həmdulla Əfəndi xalqı ayağa qaldırıb, dostu qaçaq Mailin dəstəsi ilə birləşərək erməni quldurlarını oradan qovublar. O dövrdə baş verən siyasi hadisələrin bir çoxunda yaxından iştirak edən, "İttihad" partiyasının fəal üzvlərindən olan Həmdulla Əfəndi 1918-ci il dekabr ayının 7-də Azərbaycan Demokratik Respublikasının ilk parlamentinə üzv seçilib. 1920-ci ilin aprelində Rusiya bolşeviklərini və onların istilaçı ordusunu Azərbaycana gətirən XI Ordunun zirehli qatarı rayonumuzun ərazisindən keçərkən Həmdulla Əfəndi elin cəsur oğullarını başına toplayaraq, rus ordusunun qabağını kəsib. Onlarla açıq mübarizəyə girişib, lakin qüvvələr qeyri-bərabər olduğundan, bu fədakar dəstə geri çəkilməyə məcbur olub.

Həmdulla Əfəndi çox xeyirxah, müdrik, kasıblara əl tutan, elin qeyrətini çəkən bir şəxsiyyət kimi şöhrət qazanıb. Nəcib əməllərinə görə camaat ona böyük ehtiram bəsləyib. Lakin Sovet hökumətinin amansız repressiyası Həmdulla Əfəndidən də yan keçməyib. O, 1928-ci ildə həbs olunaraq uzaq Sibirə sürgün edilib. Bununla kifayətlənməyən sovet hökumətinin məmurları Həmdulla Əfəndinin qohum-qardaşından da əl çəkməyib. 1930-cu ildə bu ailə elliklə Naxçıvana sürgün olunub. Qeyrət və igidlik nümunəsi olan bir ömür sürmüş Həmdulla Əfəndi özündən sonra gələn nəsillərin yaddaşında silinməz iz qoyub (Sitat Nizami Rəhmanlının "Çıraqqala yurdunun övladları" kitabından götürülüb).

Aydının ana nənəsi xəttinin belə bir mötəbər kişiyə gedib çıxması ailə üçün həqiqətən də qürurvericidir.

Məcnun yaxşı bilirdi ki, Leyli hansı kişinin kökünə bağlıdır və Leyli xanım son nəfəsinə qədər baba adına ləkə salmadı, gözəl övladlar ərsəyə gətirdi. Leyli və Məcnunun məhəbbəti evliliklə nəticələndi. Ər-arvad əl-ələ verib kərpic kəsib ev tikiblər. Onların izdivacından Sevil, Esmira və Aydın doğulub. Leyli xanım dünyasını erkən dəyişib. Üç övladı həyat yoldaşına əmanət qalıb. İş belə gətirib ki, Leyli xanımın 40-ı çıxmamış Aydını cərəyan vurur, o rəhmətə gedir. Hadisə baş verən gün Leyli xanımın cüməaxşamı mərasimi idi. Camaat Məcnun kişinin həyətinə toplaşmışdı. Bu zaman işıq sönür. İşıqçının gec gəldiyini görən 16 yaşlı Aydın hövsələsizlik edərək işıq dirəyinə qalxır və elə oradaca cərəyan onun həyatına son qoyur. Aydının vəfatı ailənin hələ qanı qurumamış yarasının üstünə daha dərin yara vurur. Ata tək oğul övladını, Esmira və Sevil isə yeganə qardaşlarını itirir. Məcnun kişi iki qızla qalır. Qızlar ərsəyə çatıb hərəsi bir evin çırağını yandırır. Məcnun kişinin qızı Sevil  Əmirsoltan adlı oğlanla evlənir. Əmirsoltanın istiqanlılığı, qayğıkeşliyi, ailəcanlılığı Məcnun kişinin oğul yarasının üstündən sığal çəkirdi. O, Əmirsoltanın timsalında özünə oğul tapmışdı elə bil.

– Əmirsoltan, sən o qədər yaxşı oğlansan ki, elə bilirəm doğma balamsan. Sən mənim qızıma yaxşı baxırsan, bu da mənim ürəyimi açır, sevinirəm. Tanrı sənə heç vaxt neynəyim, necə eləyim dedirtməsin, oğul, – deyə, Məcnun kişi Əmirsoltana üz tuturdu.

Bunlar ailənin həmişə xatırladığı hadisələrdir. Bəzən xatirələr elə şirin olur ki, acısı da adam üçün əziz görünür.

Məcnun kişi arvadının vaxtsız vəfatından sonra Yaşmaya köçür və dəmiryol stansiyasında işini davam etdirir.

Aydının babasının Yaşmadakı evinin geniş həyəti, yaxşı bağı-bağatı vardı. Öz zəhməti hesabına bağ salmışdı. Babanın bağında hər cür meyvə ağacı vardı. Onun evi hərbi hissəyə yaxın olduğundan, meyvələr yetişən kimi əsgərlərə pay aparırdılar. Aydın uşaq olanda babası onun əlindən tutub əsgər dostlarının yanına aparırdı. Aydın onların geyiminə, papağına maraqla baxırdı. Babasına deyirdi ki, böyüyəndə o da əsgər paltarı geyib onlar kimi olacaq.

Babası həmişə Aydından:

– Balam, böyüyəndə kim olacaqsan? Yəqin mənim kimi dəmiryolçu olarsan.

– Yox, ay baba, əsgər olacağam, özümün də avtomatım olacaq.

Əslində, baba Aydını elə hərbçi görmək istəyirdi.

Nəvəsi şəhid olandan sonra baba evinin yaxınlığındakı hərbi hissəyə daha sıx-sıx gedir və əsgərlərə bağındakı meyvələrdən sovqat aparırdı ki, əsgərlər yeyib Aydına rəhmət oxusun.

Baba sonuncu dəfə əsgərlərin yanına gedəndə onun üzü solğunlaşmışdı, heç dizində də əməlli-başlı təpər yox idi. Əsgərlər babanı dövrəyə alıb ona təsəlli verirdilər:

– Ay baba, bizim komandirlər Aydını yaxşı tanıyırdı. O, Gəncədə hərbi xidmətdə olanda bizim hərbi hissəyə təlimə göndərilmişdi. Yadına gəlir?

– Niyə gəlmir, ay bala. O vaxt hərbi hissələrə gedib xüsusi təyinatlı ordu hissələrinə əsgərlər cəlb edirdilər. Buradan Gəncəyə gedib oradan da əsgər gətirmək istəyirdilər. Onlar orada olanda Aydın turnikdə məşq edirmiş, elə onu oradan seçib Yaşmaya gətirmişdilər. Mən də istəyirdim ki, o elə burada qalıb xidmət etsin ki, axşam-səhər balamı görə bilim. Aydının burada bir dostu vardı, o oğlan da Zeyvədən idi, Aydının kəndindən. O oğlan indi haralardadır? Aydın o vaxt burada xüsusi təyinatlıların təlimində olanda tanış olmuşdular. Aydın atasına zəng vurub Zeyvədən bir əsgərlə təlimdə olduğunu demişdi.

Onlar burada qardaşlaşmışdılar, söz vermişdilər ki, dostluqları əbədi olacaq. Aydın onda Babəklə mərcləşmişdi.

– Nəyə görə, baba? – deyə əsgərlər bir ağızdan soruşdu.

– Aydın özü kimi güclü, cəsarətli, təpərli oğlan görəndə həmişə onunla prinsipial bir məsələ üstündə mərcə girirdi. Uşaqlıqdan belə idi. Qələbə qazanmağı, qalib olmağı sevirdi balam. Babək demişdi ki, Aydın, Şuşaya bayrağı mən sancacağam. Aydın da demişdi özüm sancacağam. Beləcə mərcə girmişdilər. Amma balama qismət olmadı bu gün. Murazı gözündə getdi balam.

Əsgərlərdən biri babaya Babək haqqında məlumat verdi:

– Babək Abidov da igid oğlandır, baba, o indi gizir kimi cəbhə bölgəsində xidmət edir.

– Allah işini avand etsin, bala, hamınızı Tanrıya əmanət edirəm. Haqq-salamınızı, mehr-məhəbbətinizi mənə halal edin. Yəni ömrüm Aydının ilinə qədər vəfa etməz.

Baba hərbçilərlə halallaşıb evə qayıtdı. Aydının ili tamam olandan sonra baba da dünyadan köçünü çəkib getdi. Ümidi, muradı saydığı Aydından sonra onun da dünyadan köçməsi Sevil xanımın dərdinin üstünə bir dərd də gətirdi.

Aydın şəhid olandan 3 il sonra isə Babək qəhrəmancasına şəhidlik zirvəsinə qovuşdu. Cəsur, igid, vətənpərvər oğlan olan Babək Abidov 2016-cı ildə baş verən şanlı aprel döyüşlərində düşmən təxribatının qarşısını alarkən böyük şücaət göstərərək həlak oldu. Bu xəbər Aydının ailəsinə çatanda onlar çox məyus oldular. Sevil ana, Əmirsoltan kişi zeyvəli balası Babəkin şəhid olmasına valideynləri qədər yanıb, göz yaşı axıtdılar. Onlar həmişə deyirdilər ki, Aydın şəhid olsa da, onun arzularını hərbçi dostları yaşadır. Aydın kimi Babəkin də arzusu Şuşaya bayraq sancmaq idi.

– Ah arzular, arzular, sən hər bir insanın ürəyindən keçirsən, amma çox az adam sənin vüsalına yetir, – deyə Əmirsoltan kişi pıçıldadı.

O, dərindən köks ötürüb əlinin dalı ilə gözlərinin yaşını sildi. İçində bir ümid göyərdi anındaca:

– Ordumuzda yeni əsgərlər, gizirlər var, olacaq da. Əminəm ki, Aydının, Babəkin yerinə onlar bayrağımızı Şuşaya sancıb, şəhid ata-analarının əlindən tutub o yerləri ziyarət etməyə aparacaq, – deyib, əl uzadıb arvadının yaşlı gözlərini sildi...  Ağlayan ürəyini köynəyinin altında bərk-bərk gizlədib arvadına ümid verdi...

## *Aydın Abdullayevin müəllimlərinin yaddaşında yaşayan əziz xatirələri...*

Yeknəsəq, darıxdırıcı payız günləri başlamışdı. Başı göylərə dəyən gəlin çinarlar əlini qoynuna qoyub saralıb xəzələ dönən yarpaqlarının ardınca boylanırdı. Onlar da ağacların balalarıdır axı. Yarpaqlar sel kimi torpağa axıb tökülürdü. Ağaclar da, daşlar da, küçələr də fikirli idi, sanki hamısının canını qara qayğı almışdı. Şəhərdə nə isə anlaşıl-

maz bir ab-hava vardı. Yağışlı-yağmurlu oktyabr özü ilə bolluca qüssə gətirmişdi. Şəhərin canında qəribə bir süstlük vardı.

Suraxanı rayonu şəhid Pərviz İsmayılov adına 278 saylı tam orta məktəbdə adi dərs günlərindən biri idi. Məktəbin ibtidai sinif müəlliməsi Sücaət Dəmirova balaca şagirdlərinə dərs izah edirdi. Amma fikri nədənsə çox dağınıq idi. Arabir pəncərədən bayıra baxırdı. Ürəyi elə döyünürdü ki, elə bil içində atlı çapar vardı. Dərsi saxlayıb bir stəkan su içdi ki, bəlkə özünə gələ. Müəllimənin yaratdığı fasilədən istifadə edən balacalar səs-küy salmağa başladılar. Müəllim uşaqları sakitləşdirib dərsini davam etdirdi. Ancaq heç cür daxilində yaranan təlatümün, kədərin səbəbini anlaya bilmirdi: “Görəsən niyə belə oldum? Heç belə olmamışdım”, - deyə, öz-özünə sual verdi.

Məktəbin direktoru Məlahət müəllimə adəti üzrə dəhlizə çıxıb siniflərə baş çəkir, davamiyyətlə maraqlanırdı. Direktor Sücaət müəllimənin sinfinə daxil oldu. Şagirdlər onu görəndə bir nəfər kimi ayağa qalxdılar. Direktor şagirdlərə:

– Uşaqlar, əyləşin! Sücaət müəllimə, bağışlayın, mane oldum, sizə sözüm vardı.

– Buyurun, Məlahət müəllimə!

– Siz bu həftə vətənpərvərlik mövzusunda açıq dərs keçə bilərsinizmi? Vaxtınız varmı? Ən təcrübəli, savadlı ibtidai sinif müəllimlərimizdənsiniz. Sizə güvənirəm.

Sücaət müəllimə razılıq əlaməti olaraq başını tərpətdi.

– Onda sizin açıq dərsi həftənin cümə gününə salaq.

– Olar, niyə olmur. Mən hazır, şagirdlər də həmçinin.

Direktor Sücaət müəllimənin hazırlığına, savadına, çətin vəziyyətlərdən çıxmaq qabiliyyətinə yaxından bələd olduğuna görə, açıq dərsi onun sinfinə salmışdı. Sinifdən çıxıb kabinetinə sarı gedərkən qapının ağzında xadiməni ağlayan gördü. Təəccübləndi. O, bayaq xadiməni burada yeri silən görmüşdü, görəsən nə olub ki, ağlayır.

– Nə olub, niyə ağlayırsan?

Xadimə direktorun səsini eşidib daha bərkdən hönkürdü.

Direktor çaşbaş vəziyyətdə ağlayan xadiməyə baxırdı. Handan-hana xadimə sakitləşib sual dolu baxışlarını ona dikən direktorun üzünə baxdı:

– Bizim məktəbin məzunlarından biri də şəhid olub, Məlahət müəllimə.

– Nə danışırsan? Kimdir şəhid olan?

– Aydın Abdullayev, atası Əmirsoltan kişi "JEK"də işləyirdi. Bilmirəm o oğlan yadınızdadırmı?

– Kim dedi şəhid olduğunu?

– Meyitini indi gətiriblər, hamı onların həyətinə axışır, camaat danışır ki, erməni snayperlə düz alnından vurub. Can balam, can. Bilirsiniz necə yaxşı uşaq idi, heç adamı incitməzdi, başqa uşaqlar kimi nalayiq hərəkətlər etməzdi. Tərbiyəli, qanacaqlı şagird idi Aydın. Pərvizdən sonra Aydının şəhid olması məktəbimiz üçün ağır xəbərdir.

Direktorun gözləri yaşla dolmuşdu, o da ana idi, o da itkini canıqanı ilə hiss edirdi.

– Çox pis xəbər oldu. Aydın Sücaət müəllimənin şagirdi olub. Bu xəbər ona dəhşətli dərəcədə pis təsir edəcək. Çünki o, Aydını çox istəyirdi və onun cəbhə bölgəsində xidmət etməsi ilə fəxr edirdi. Aydın məzuniyyətdə olanda həmişə məktəbimizə gəlirdi.

Məlahət müəllimə kabinetinə getməyib, geriyə, Sücaət müəllimənin sinfinə qayıtdı. Direktorun geri qayıtdığını görən müəllimə onun qabağına yeridi. Məlahət müəllimənin üzündəki kədəri, gözündəki yaşı görüb təəccübləndi:

– Nə olub Məlahət müəllimə, niyə ağlayırsınız? Olmaya uşaqlara bir şey olub?

– Bəli, sənə pis xəbərim var, Sücaət müəllimə, hazır olun.

Direktorun sözü müəlliməni özündən aldı, rəngi sapsarı saraldı.

– Nə olub, gizlətməyin, nə olar?

– Sənin dərs dediyin, yazıb-oxumaq öyrətdiyin Aydın Abdullayev şəhid olub. Sücaət müəllimə, Vətən sağ olsun!

Aydının şəhid olmaq xəbərini eşidən Sücaət müəllimə, sözün əsl mənasında, balasını itirmiş ana kimi hönkürdü. Əlbəttə, hər bir müəllim üçün şagirdi onun doğma övladı kimidir.

– Heyif, Aydın, səndən çox heyif. Sən şəhid olası oğlan deyildin, zəfər qazanacaq oğul idin. Deyirdi ki, müəllimə, siz arxayın olun, bizim əsgərlər ermənilərin lazımi dərəcədə dərsini verir, sadəcə, biz qəhrəmanlığımızı çox dilə-dişə salmırıq.

Aydın danışırdı ki, dəfələrlə o da, başqa gizirlər də, onların əsgərləri də ermənilərin canlı qüvvəsini məhv edib, texniki qurğularını sıradan çıxarıblar. Aydın çox cəsur oğlan idi, ata-anası ona çox yaxşı tərbiyə vermişdi. O həm də güclü idmançı idi, o qədər medalı vardı ki. Bəzən deyirdim ki, Aydın, bu qədər medalı neynəyirsən? Deyirdi ki, müəllimə, yığıb muzeyə verəcəyəm. Gülüşürdük. Aydın çox ağıllı, zəkalı, tərbiyəli bir uşaq idi. İbtidai sinifdə oxuduğu illərdə də ağlına, fərasətinə görə hamıdan seçilirdi. Aydın heç vaxt məni yormazdı. Çox ağıllı gözləri vardı. O gözlərdən onun işıqlı gələcəyi boylanırdı. Pərviz də ağıllı uşaq idi. Qəribədir, bütün qəhrəmanların taleyi, həyatı, məktəbə, ata-anaya münasibəti eyni cür olur. Pərviz şəhid oldu, indi məktəbimiz onun adını daşıyır, indi də Aydının şəhidlik xəbəri yayılıb. Allah hər ikisinə rəhmət eləsin!

Sücaət müəllimənin qan-yaşla dolan gözləri şagirdlərin nəzərindən yayınmadı. Üçüncü sinif şagirdləri onu sual atəşinə tutdular.

– Müəllimə, niyə ağlayırsınız?

– Keçmiş şagirdim şəhid olub.

– Adı nə idi?

– Aydın. Aydın işıq kimi hər tərəfə nur saçan oğul idi. Həm yaxşı oxuyurdu, həm tərbiyəli idi, həm də idmanla məşğul olurdu. Siz də böyüyəndə Aydın kimi ağıllı, tərbiyəli olun.

Uşaqlar müəlliməyə söz verdilər ki, yaxşı oxuyacaqlar...

Dərs bitəndən sonra məktəb rəhbərliyi və bütün müəllimlər Aydının yas mərasimində iştirak etmək üçün Əmirsoltan kişinin evinə getdilər. Həyətdə yas çadırı qurulmuşdu. Havanın yağışlı, soyuq olması adamların əhvalını daha da pisləşdirirdi. Aydının dəfn mərasimində böyük izdiham yaşandı. Bütün Suraxanı rayonu, demək olar ki, orada idi. Hər kəs şəhidə ehtiramını bildirir, onun qəhrəmanlığı ilə öyünür, ruhuna dualar oxuyurdular.

Yas məclisinə gələn müəllimlər Aydının anasının, xalasının, gəlinlərinin, doğmalarının hansı hallara düşdüyünün şahidi oldular. Məktəb direktoru Məlahət müəllimə göz yaşı içində anaya təsəlli verir, şəhidliyin uca məqam olduğunu, şəhidlərin ölməz olduğunu deyirdi.

– Biz oğullarımızı ona görə dünyaya gətirib böyüdürük ki, onlar sabah bizim arxa-dayağımız olsunlar, Vətənin dar günündə əlinə silah götürüb düşməni susdura bilsinlər. Sevil xanım, sizin oğlunuz şəhidlik köynəyini hərbi paltarının altından geyib Vətənin müdafiəsinə qalxıb. O, düşmənə baş əymədi, əksinə, düşməni məhv etdi. Aydın 7 erməni hərbçisi öldürüb, onların zirehli texnikasını məhv edib, kəşfiyyatçı kimi erməni məkrini, planını ifşa edib. Aydının yas məclisində iştirak edən bacılar, xanımlar, keçmiş şagirdimizin şəhid olması xəbəri bu gün məni, Sücaət müəlliməni, bir sözlə, bizim məktəbin kollektivini yandırdı, hamı heyifsiləndi ki, belə igid bir oğlan qara torpağın altında yatacaq. Şəhidlər ölməz, Vətən bölünməz, analar, bacılar. Allah bütün şəhidlərə rəhmət eləsin!

Aydının dəfn mərasimi şəhidin adına layiq keçirildi. Əlbəttə, hamı 23 yaşlı Aydının şəhid olmasından sarsılmışdı. Şəhid son mənzilə yola salınandan sonra hər kəs bir az oturub ata-anaya, qardaşlara təsəlli verib evlərinə dağılışdı. Məktəbin kollektivi də yas yerini tərk etdi.

Aydının şəhid olmasına ən çox yananlardan biri olan Sücaət müəllimə heç cür özünə gələ bilmirdi. Şəhid şagirdinin nakam taleyi, nişanlısının acı fəryadı, anasının ah-naləsi müəllimənin qulaqlarından getmirdi. Ananın tükürpədən səsi hələ də müəllimənin qulaqlarında idi.

Evə gələndə bu gün yaşadıqları dəhşəti bütün təfərrüatına qədər göz önündə canlandırır, ağlayır, heyifsilənir, Aydının anasının vəziyyətini gözləri qarşısına gətirib aciz-aciz əllərini dizlərinə çırpırdı. Axı Aydının anasını sakitləşdirmək mümkün deyildi. Sücaət müəllimə qəti fikrə gəldi:

– Bu həftə açıq dərsi Aydına həsr edəcəyəm, hamımızın yaxından tanıdığımız balamızdır.

Nəhayət cümə günü yetişdi. Sücaət müəllimənin sinfində açıq dərs keçirildi. Uşaqların fəallığı, özünün hazırlığı imkan verdi ki, dərs yüksək səviyyədə keçsin.

Mövzu vətənpərvərliklə bağlı olduğu üçün, uşaqlar olduqca fəal iştirak edir və fikir bildirirdilər. Dərsin sonuna yaxın məktəb direktoru danışmaq üçün ayağa durdu və açıq dərsin gedişatından, şagirdlərin

cavabından, müəllimənin savadından danışdı. Sözü çox uzatmayıb Aydın Abdullayevlə bağlı xatirələrə keçid aldı:

– Mən Aydının valideynlərini 30 ildir tanıyıram. Çünki Abdullayevlər ailəsinin hər üç övladı bizim məktəbdə təhsil alıb. Nicat da, Cavad da, Aydın da çox tərbiyəli, sağlam ruhlu, çalışqan şagirdlər olub. Həm davranışlarında, həm də oxumaqlarında hamıdan seçiliblər. Əmirsoltan kişi də, Sevil xanım da daim məktəblə əlaqə saxlayır, övladlarının dərsləri, davranışları ilə maraqlanırdılar. Əmirsoltan kişi məktəbimizin ictimai işlərində də yaxından iştirak edib. Ona görə də hər kəs bu ailəyə həmişə hörmətlə yanaşıb. Rəhmətlik Aydın məktəbimizin gözü, qaymağı olan şagirdlərdən biri idi. O, möhkəm xarakteri, xeyirxahlığı, böyük-kiçik yeri bilməsi, müəllimlərinə, şagirdlərə, dostlarına münasibəti ilə nümunə olub. Aydın həmişə haqqın tərəfində idi. Abdullayevlər ailəsinin sonbeşiyi qeyrətli, təəssübkeş, vətənpərvər bir uşaq idi. O, əsasən yuxarı sinif şagirdləri ilə yoldaşlıq edərdi, hamı bir nəfər kimi onun xətrini çox istəyirdi. Hansı dostu dara düşsə, Aydın mütləq onun dadına yetirdi, dostunu çətinlikdən qurtarırdı. Aydın cəsur oğlan idi. Arzu edirəm ki, mənim balalarım, siz də Aydın kimi qorxmaz olasınız. Aydın balamız Vətənimizi düşməndən qorumaq üçün kişi kimi cəbhə bölgəsinə getdi, burada xidmət etdi və şücaətlər göstərdi. O, şəhid olsa da, izləri yaşayır. Təsəllimiz odur ki, Aydın kimi qəhrəmanlar ölmür, onlar şəhid olmaqla yenidən dünyaya gəlirlər. Şəhid valideynlərinə demək istəyirəm ki, başınızı dik tutun, buna sizin haqqınız çatır.

Aydının vaxtilə təhsil aldığı məktəbdə 1750 şagird təhsil alırdı. Şagirdlərin hər biri Pərvizlə Aydını özləri üçün örnək hesab edirdilər.

Aydının şəhid olmasından dörd il ötürdü. Hər bayramda, Aydının ad günü və xatirə günlərində məktəb kollektivi şəhid gizirin xatirəsini əziz tutur, tədbirlər keçirir, şagirdlər şəhidlərə aid şeirlər söyləyirdilər.

Vaxtilə təhsil aldığı doğma məktəbdə Aydının adını hər kəs böyük ehtiramla çəkirdi. Aydının şəkli məktəbin dəhlizindən asılmışdı, məktəbə gələn hər bir şagird, valideyn şəhidin şəkli qarşısına keçir, onun ruhunu anırdı.

Oktyabr Abdullayevlər ailəsinə kədər, qüssə, bir də qiyamətə qədər davam edən ayrılıq gətirmişdi. Bu ayrılıq müəllimləri də, Aydının ailəsini də hədsiz dərəcədə kədərləndirsə də, onlar Aydın Abdullayevin canını Vətən yolunda qurban verməsindən fəxr hissi keçirirdilər.

Sücaət müəllimə Aydının şəkli qarşısında dayanmışdı. Tənəffüs olduğundan, məktəbin bəzi müəllimləri onun başına toplaşmışdı.

– Hər kəs dünyadan köçür, amma kim necə köçür, əsas məsələ budur. Aydın sadə bir ailədə doğuldu, ancaq dünyadan qəhrəman kimi köçdü, – deyib, Sücaət müəllimə titrək əlləri ilə keçmiş şagirdinin şəklini sığalladı. Müəllimə göz yaşlarını boğmağa çalışsa da, yaş yanaqları aşağı axmağa başladı. Küçədə göydən leysan ələnirdi...

## *Aydınlı və Aydınsız günlərin xatirələri...*

Yağış asfaltı yuyub güzgüyə döndərmişdi. Günəş asfaltda bərq vururdu. Leysandan sonra gün yaman qızmışdı, hər yanı yandırıb yaxırdı. Qızmar yay günlərindən biri idi. Aydının vəfatından aylar ötmüşdü. Bir yandan dəhşətli isti, bir yandan da halının üzgünlüyü Könülü əldən salmışdı. Hər dəfə ona elə gəlirdi ki, axşam yatıb səhər oyanacaq ki, Aydının şəhid olduğu yalandır, vahiməli yuxudan başqa bir şey deyil.

Hər gün bu xəyalla baş-başa qalırdı qız. Könül hər gün yol gözləyirdi, həsrət dağının zirvələrinə çıxıb o gedən yollara boylanırdı. Deyirdi ki, bəlkə qayıdar. Aydını insafsız əcəl elə aparmayıb ki, bir də Könülə geri qaytarsın. Könül Aydınsız özünü sudan ayrı düşmüş balıq kimi hiss edirdi. Hər gün Aydınsızlıqla mübarizə aparırdı. Amma bu mübarizədə əliyalın idi qız. Əzrayıl Aydını onun əlindən almaqla artıq öz gücünü ona göstərmişdi. Aydından sonra anası Pəri xanımın vəfatı qızı əməlli-başlı sarsıtmışdı. Könül iki qəbiristanlıq arasında qalmışdı. Bir gün anasının, bir gün də Aydının qəbri üstə gedirdi. Onlar ayrı-ayrı qəbiristanlıqda dəfn edildiyindən, Könül hər gün yollarda qalmışdı. Özü də qəbir üstə gedəndə heç kəsi özü ilə götürməzdi, rəfiqələri, qohumları yalvarırdı ki:

– Könül, tək getmə, nə zaman getsən, lap hər gün istəsən səninlə gedərik, bircə ora tək getmə.

Heç kimi eşitmək istəmirdi Könül. Elə öz bildiyini edirdi. Hər dəfə Aydının qəbrini ziyarətə gedəndə yanıb külə dönürdü. Nişanlısının qəbri üstə saatlarla göz yaşı tökən Könül heç cür təsəlli tapa bilmirdi. Yer ona darlıq edirdi.

Üzünü Aydının baş daşına söykəyib hönkürən Könülün könlü doğrudan da pərişan idi:

***Üzümü qoyduğum torpaq soyuqdur,***
***Başımı qoyduğum məzarın kimi.***
***Könlümdə bir çiçək bitirdi ömrün,***
***Çiçəklik görmədim gülzarın kimi.***

***Ayrılıq bir soyuq yel idi əsdi,***
***Hicran qanadlanıb yolları kəsdi.***
***Aydınım da şəhidliyə tələsdi,***
***Səfər görməmişdim güzarın kimi.***

Aydın haqqında danışmağa Könülün o qədər sözü vardı ki... Amma göz yaşından aman yox idi ki, dillənsin. Könül dəfələrlə tək-tənha Aydının qəbri üstə gedəndə Sevil xanım, Əmirsoltan kişi qızı yoldan geri qaytarıb:

– Ay qızım, tək getmə qəbiristanlığa, nə vaxt getmək istəsən gəl birgə gedək, – deyə onu dilə tuturdular. Ata-ana istəmirdi ki, Könül özünü üzüb qəbiristanlıq yollarında qalsın.

Amma Könül inad göstərirdi:

– Mən Aydının qəbri üstünə getməsəm ölərəm. Nə olar yolumu kəsməyin. Onun məzarını ziyarət etməsəm özümü çox pis hiss edərəm. Gedib orada Aydınla görüşüb danışıram. O qədər gözəl arzularımız var ki...

Sonra isə Könül hönkürüb ağlayır, üzünü Sevil anaya tutaraq:

– Mənim günahım nə idi, ana? Niyə mən bu qədər əzab çəkməliyəm? Mənim Aydınımı niyə cəbhə bölgəsinə göndərdin, niyə qoydun getməyə? Mənim bağrım çatlayır, ana, sən Aydını yolundan saxlaya bilərdin, – deyə Könül üzünü Sevil anaya tuturdu.

Sevil ana qızın suallarından dərin sarsıntı keçirirdi. Onsuz da Aydının şəhid olması onun sağlamlığında dərin izlər buraxmışdı. Aydının vəfatından sonra ana parkinson xəstəliyinə düçar olmuşdu. Sevil ana birdən-birə elə qocalmışdı ki, elə bil bir neçə il əvvəlki şən, deyib-gülən, "a bəxtəvər qayınana" mahnısına oynayan o deyildi. Aydın onun qəddini əyib, özünü də sağalmaz xəstəliyə mübtəla etmişdi. Bir yandan da qızın sualları ananın vəziyyətini daha da ağırlaşdırırdı. Könülün sualları çox amansız idi ana üçün. Ana bala itkisinə hamıdan çox yanır. Əlbəttə, su nə bilər od nə çəkir... Ananın onsuz da bağrı köz-köz idi. Bir yandan da Könülün leysana dönən göz yaşları ananın rahatlığını, yuxusunu əlindən almışdı.

Könül Aydının məzarı başına tək gedəndə onunla danışa bilir, günlərlə davam edən susqunluğuna ara verirdi.

***Güllü yastığımı göz yaşım yuyur,***
***Fikirli gəzirəm hər yerdə sənsiz.***
***Nə bir əmanətin qaldı yanımda,***
***Ölmürəm, dözürəm hər dərdə sənsiz.***

Könül bu şeiri deyəndə elə hönkürdü ki, yaxınlığa qonan göyərçinlər, küknar ağacının budağında cikkildəşən bir cüt qumru havaya qalxdı. Könül nişanlısının məzarı başında gözü doyanacan ağlayıb sonra payi-piyada yolu əlinə alıb gəlirdi,  xeyli piyada gəlib yolu yarılayandan sonra isə avtobusa minirdi. Fikri dağınıq, halı xarab, saçları pərişan, gözləri yaşlı idi. Könül evə qayıdanda yolda keçmiş sinif yoldaşına rast gəldi. Qız Könülü solğun görüb kefsizləşdi:

– Hardan gəlirsən, Könül, niyə belə kədərlisən?

– Hardan gələcəyəm, nişanlımın məzarı üstündən.

– Ay qız, hər gün yollarda qalıbsan, ayda bir dəfə get. Yazıqsan, özünü üzmə.

Könül ona məsləhət verən rəfiqəsinin sözünü yarımçıq kəsdi:

– O, mənim üçün ölməyib. Mən onu həmişə gözləyəcəyəm, gəlməsə də...

Könül sözünü tələsik deyib qızdan uzaqlaşdı. O hələ də gözləyir, nişanlısının gəlməyəcəyini bilə-bilə. O, nişanlısı ilə fəxr edir.

Könül hər dəfə qəbir üstündən evə qayıdanda gördüklərini, keçirdiyi hissləri, yaşadıqlarını "Aydınlı və Aydınsız günlər" adlı gündəliyinə qeyd edirdi. Bu gündəlikdə elə sirli, mübhəm duyğular var idi ki...

Könül adəti üzrə bu dəfə də gündəliyini siyirmədən götürüb yazı masasının arxasına keçdi. Gündəliyin hər səhifəsindən Aydın boylanırdı sanki...

Könül yazmağa başladı: "Aydın sonuncu dəfə zəng edəndə "gələn ay toyumuzu edərik", – demişdi. Sevincim yerə-göyə sığmırdı. Yeni nişanlanmışdıq, ölüm girdi aramıza.

Aydınım, səni hər gün elə arzulayıram ki... Sən atamın yanına elçilərini göndərəndə sevincimin hədd-hüdudu yox idi. Gecəm-gündüzüm sevinc içində keçirdi. Mən də ailə həyatı quracaqdım, mənim də isti yuvam olacaqdı, heç olmasa gözüm yollardan yığışacaqdı. Ata-anamın nəvəsi olacaqdı. Sən harada olsaydın, mən də orada olacaqdım... Yox, sən məni cəbhə bölgəsinə aparmaq istəmirdin. Heç ad günündə icazə vermədin ki, gedib səni orada təbrik edim. Toy günümüz yaxınlaşdıqca, həyəcanım daha da artırdı. Aydın, sən məndən də çox səbirsizləşirdin. Toyumuzun yüksək səviyyədə keçməsini istəyirdin. Artıq hər şey həll olunmuşdu, bircə sənin gəlişindən başqa. Sən gəlmədin, heç vaxt dönmədin geriyə. Əhdinə vəfasız oldun... Yollara çox baxdım, lap çox. Yollar səni apardığı kimi geri qaytara bilmədi. Tabutun gəldi o yolla geri. Daha baxmıram yollara, indi ürəyimə baxıram. Sən çoxdandır ürəyimdəsən. Ürəyimi hamıdan gizlədirəm, çünki istəmirəm ki, insanlar sevgimə şərik olsun. Hər gün səninlə danışıram, deyirsən yollara baxma. Mən də yollara yox, ürəyimə baxıram daha. Sən gedəndə "bu əlcəkləri yaxşı saxla", – deyib boks əlcəklərini mənə əmanət etmişdin. Söz vermişdin ki, müharibə bitəndən sonra yenidən idmana qayıdacaqsan. Deyirdin ki, Könül, səni də idmana aparacağam. Mən də zarafatla deyirdim ki, Aydın, idmana apar, sonra da hərbiyə yazdır. Mənim hərbiyə marağım var idi əslində. Səninlə arzularımız çox idi, lap çox. Hər dəfə cürbəcür xəyallar qururduq. Həmişə deyirdin ki, bizim bir çətən uşağımız olacaq, mən çox uşaq istəyirəm. Dəhşətə gəlirdim ki, bu qədər uşağı neynəyirik? Sən çox ürəyiaçıq, səmimi oğlan idin, Aydınım. Mən sənə həmişə ürəkdən bağlı olmuşam".

Könül ata-ananın gözünün ağı-qarası yeganə övladı idi. Sevgi içində bəslənmişdi, nazı naz kimi çəkilmişdi həmişə. Bir sözü iki olmazdı evdə. Ərköyün idi. Bu xasiyyəti onunla tanış olana qədər davam etdi. Onlar ilk baxışdan sevdilər bir-birini, nişanlandılar. Ərköyün qız yol gözləyən, qulağı telefon zəngində olan nişanlı qıza çevrildi. Bir az fikirli, bir az qayğılı göründü. Onun qayğılı, fikirli dolaşması, hər gün yollara baxması ata-anasını çox üzürdü. Könül hər gün Aydının yolunu gözləyirdi. Heç vaxt telefonu məşğul etməzdi. Evdə ata-anasına:

– İki-üç dəqiqə danışdınız bəsinizdir. Birdən Aydın zəng vurar. Onun vaxtı hardadır ki, saatlarla telefonu əlinə götürüb zəng vursun, – deyirdi.

Könül Aydına məftun olmuşdu. Nişanlısının xasiyyəti, ağır təbiəti, ona diqqətli olması, nazını çəkməsi Könülü fərəhləndirirdi. Onsuz da binadan-başdan Könül nazı çəkilməyə öyrəşmişdi. Aydının da ona sonsuz qayğısı qızın həyatında yeni səhifə açmışdı. Bu səhifənin müəllifi Aydın idi. Vaxt olmuşdu ki, Aydın Bakıda olanda gecə saat 12-nin tamamında nişanlısına çiçək aparmışdı:

– Gecən xeyir, qara qız.

Aydın Könülü cırnatmaq üçün ona qara qız deyirdi.

– Gecən xeyir.

– Aç qapını.

– Nə?

– Həyət darvazanızın ağzındayam. Taksi ilə gəlmişəm, saat 12-yə az qalıb, tez aç qapını.

Könül tələsik qapıya cumub darvazanın qapısını açmışdı. Qarşısında qucağında bir dəstə çiçək tutan nişanlısını görüb yaman həyəcanlanmışdı Könül.

– Sabah Tərtərə qayıtmalıyam, səhər erkən yola düşəcəyəm. Ona görə gecə gəldim ki, səninlə sağollaşım. Bu sənin gülün, Könülüm, qəlbim də ki, çoxdan səndədir. Mən gedirəm, Könülüm, sağlıq olsun, tezliklə görüşərik, – deyib nişanlısı ilə vidalaşdı. Taksi səhərdən bəri onu gözləyirdi.

Könül titrək barmaqlarını yanağına aparıb gözlərindən yuvarlanan yaşları silməyə çalışdı. Yaş hara quruyurdu ki? Elə bil bahar buludu

Könülün gözlərinə köçmüşdü. Qapı ağzında qucağında çiçək qızının heykələ döndüyünü görən ana həyəcanla onu səslədi:

– Ay bala, gecənin bu vaxtı darvazanın yanında nə edirsən? Bayaq kiminlə danışırdın? O gülü kim gətirib?

Könül muncuq kimi ard-arda düzülən sözlərdən hansı birinə cavab verəcəyini bilmirdi.

– Könül, səninlə deyiləm? Saatdan xəbərin var?

– Ay ana, Aydın gəlmişdi, sabah tezdən Tərtərə qayıdır. Gülü də o gətirib.

– Bəs niyə evə dəvət edib bir stəkan çay vermədin, birdən aclığı olardı uşağın.

– Vallah, ana, heç imkan vermədi ki, bir kəlmə danışam, tez sağollaşıb getdi, taksi şoferi gözləmək istəmirdi.

Könül otağına keçib gülü güldana qoydu. Qızılgüllər elə gözəl idi ki, qız onun gözəlliyinə baxmaqdan doymurdu. Nişanlısı zövqlü oğlan idi. Həmişə ona hər şeyin gözünü alırdı. Aydının aldığı hədiyyələr çox seçilirdi.

Könül heç cürə yata bilmirdi. Sabah nişanlısının Tərtərə qayıtması xəbəri qızın yuxusunu ərşə çəkmişdi. Canında qəribə bir qorxu vardı. Fikirləşirdi ki, Allah eləməsin, nişanlısının başına bir iş gələr, ondan sonra yaşamaz Könül. Qız nişanlısını yaxşı tanıyırdı, bilirdi ki, bir erməni yox, min erməni də olsa, Aydının gözünü qorxuda, yolundan döndərə bilməz. Səngər soyuq olanda qəlbinin dərinliyində gizlətdiyi, pünhanladığı sevgisinin oduna qızınırdı Aydın. Bunu özü demişdi pıçıltı ilə Könülə.

Qəfil gələn telefon zəngi onun fikrini yarımçıq qırdı. Zəng vuran nişanlısı idi.

– Könülüm, artıq evə çatmışam. Narahat olma, hər şey yaxşı olacaq. Allah qoysa tezliklə qayıdacağam.

Onlar bir neçə gün əvvəl nişanlanmışdılar. Könülün anası Pəri xanım qızına dedi:

– Aydın rəfiqəmin oğludur deyə demirəm, o çox ləyaqətli oğlandır. Qızım, elə oğlanın yolunu əbədi olaraq gözləməyə dəyər.

– Ay ana, Aydın tez qayıdacaq. Gələn ay toyumuzdur axı. Bilirəm ki, məndən çox o narahatdır.

Ana qızının Aydına ürəkdən bağlı olduğunu yaxşı bilirdi. Qızının gözünün yollardan yığışması, nişanlısının sağ-salamat ocağına qayıtmasını ana uca Yaradandan təmənna etdi...

Əslində, Könül inanırdı ki, Aydın sağ-salamat geri dönəcək. Onu şəhid kimi tabutda təsəvvür edə bilmirdi. Deyirdi ki, Aydın əgər "qayıdacağam" deyibsə, mütləq qayıdacaq.

***Kim küsüb, kim gedib qapını çırpıb,***
***Qırılıb könlümün aynası, Tanrı!***
***Mən nələr çəkirəm özün bilirsən,***
***Nə çəkir şəhidin anası, Tanrı?!***

***Aydın baş tacıdır məhəbbətimin,***
***Qəbri nişanıdır bil ülfətimin.***
***Mənim o oğlana sədaqətimin***
***Gözü yolda qalıb sonası, Tanrım.***

***Nə müddət gözlədim tabutu gəldi,***
***Qəfilcə üstümə bir qutu gəldi.***
***Qəlbimə əbədi fəryadı gəldi,***
***Canımdı odlara yanası, Tanrım!***

Deyirlər o qız hamıdan küsüb qapanıb özünə. Hər gün ancaq özü ilə danışır. Kiminlə danışmalıdır ki, Könül? Aydını axtarır, gəzir hər yerdə. Kimdir ona soraq verən Aydından?

Könül gündəliyinə ağlaya-ağlaya belə bir cümlə yazdı: "Şəhid anası yuvası dağılmış quşa bənzəyir, quş yuvasını, şəhid anası da balasını axtarır! "Səngər soyuq olanda qəlbinin dərinliyində gizlətdiyi, pünhanladığı sevgisinin oduna qızınırdı Aydın".

Könül əbədi ayrılıqla hələ də mücadilə aparır. O, köksünə "Aydınlı və Aydınsız günlər" gündəliyini sıxıb acı-acı ağlayırdı. Könül zamanı dayandırmaq istəyirdi. Amma gücsüz idi təbii... Aydından ona bir cüt boks əlcəyi, bir də mübhəm, sirli duyğular üzərinə düzülən ağlar, güləyən, könül dağlayan xatirələr qalıb. Bu xatirələrdir Könülü yaşadan...

## *Aydın Abdullayevin ön cəbhədəki silahdaşlarının qəlbində qoyduğu silinməz izlər...*

Aydının vəfalı iti gecə səhərə kimi uladı. Hərbçi yoldaşları Aydının itinin aramsız ulamasından narahat oldular. Deyirlər it ulayanda sahibinin başına bəla gəlir. Aydın ilk dəfə olaraq itinin üstünə acıqlandı. İt quyruğunu qısaraq Aydının ayaqlarına sığınıb dili ilə sahibinin ayaqqabısını yaladı. Aydın itinin başını sığalladı:

– Niyə ulayırsan? Niyə düşməni duyuq salırsan?

Yumşaq səslə dediyi bu sözlər iti daha da hərəkətə gətirdi. O, Aydının ətrafında hərlənir, ayağı ilə yeri eşir, sahibini kənara itələyirdi.

Dan yeri sökülürdü. Arabir quşların da səsi eşidilirdi. Onsuz da düşmən fərağat durmurdu, gecədən səhərəcən atmışdılar yenə.

Aydının ürəyinə nəsə dammışdı. Elə bil bu gün həyatla əbədi vidalaşacağını hiss edirdi. İçində qəribə hisslər vardı, nə qədər baş sındırsa da, bu hissləri müəyyən edə bilmirdi. O, əsgərlərindən narahat idi, onların burnunun qanamasını belə istəmirdi. Ona görə də onlara tez-tez təlimatlar verirdi. Bilmirdi ki, həmin gün şəhidlik onun taleyinə yazılıb...

Kürəyini soyuq tər basmışdı bölük komandirinin. Aldığı qəfil xəbərdən bir anlıq sarsılmışdı.

– Komandir, gizir Abdullayevi vurdular...

Səngərdə səs bir-birinə qarışmışdı, sanki dünya qopurdu. Xəbərdən üzülən komandir:

– Nə vaxt? Sağdırmı? Aydının həyatını xilas edin, – deyə qeyri-ixtiyari olaraq qışqırdı.

– Gizir Aydın Abdullayev şəhid oldu, komandir, Vətən sağ olsun! – deyən əsgər hönkürdü.

Komandir Aydının meyitinə tərəf qaçdı. Snayper gülləsi alnından dəymişdi. Aydının başını qucaqlayıb qəzəblə dişlərini qıcadı:

– Hər damla qanına qan alacağıq, Aydın! Düşməni məhv edəcəyik. Sənin ruhuna and içirəm.

Gizirin şəhid olması xəbəri ildırım sürəti ilə bütün hərbi hissəyə yayıldı.

Komandir onsuz da bütün gecəni yatmamışdı. Mənfur düşmən hər an təxribata əl atır, işğal etdiyi torpaqlarımızdan biz tərəfi atəşə tuturdu. Gecə möhkəm atışma olmuşdu. Atışmada düşmən tərəf daha çox itki vermişdi.

Cəsur kəşfiyyatçı olan Aydının şəhid olması komandiri əməlli-başlı üşütdü. Heç vaxt soyuq səngərdə üşüməzdi o. Fiziki cəhətdən həddən artıq güclü idi. Soyuq, boran, tufan onu qorxuda bilmirdi. Düşmənlə nəfəs-nəfəsə dayanan qəhrəman oğullara başçılıq edirdi. Əsgərləri də, gizirləri də ürəkli idi, qorxu nədir bilməzdilər. Kəşfiyyatçılarımız fəal işləyirdi. Düşmənin hər bir hiyləsindən, məkrindən, qəfil həmləsindən, hücumlarından anındaca xəbər tutub ona qarşı müqavimət göstərməyə hazır olurdular.

Aydının şəhid olması onun səngər dostlarını elə sarsıtmışdı ki, onlar nə edəcəklərini bir anlığa kəsdirə bilmədilər. Müharibə dondurulsa da, düşmən təxribatından əl çəkmirdi. Aydın və hərbçi yoldaşları da həmişə bu təxribatın qarşısını alırdı.

Cəsur kəşfiyyatçının ermənilərin başına gətirdiyi oyunları komandir yaxşı bilirdi. Həmişə Aydına arxayın idi. Bilirdi ki, Aydın düşmənə qarşı sərt və barışmazdır. Dəfələrlə düşmən arxasına keçmişdi Aydın, ona görə də düşməni yaxşı tanıyır, onun nəyə qadir olduğunu bilirdi. Həmişə kəşfiyyatdan qayıdanda gördüklərini hərbçi yoldaşlarına danışırdı:

– Əslində, onların elə də gücü yoxdur. Erməni xalqı indiki Ermənistan rəhbərliyindən bezib, cana yığılıb. Onlar deyir ki, biz müharibə istəmirik, bizə başqasının torpağı lazım deyil, Qarabağ torpağı Azərbaycana qaytarılsın. Bilirsiniz, erməni əsgərlərinin anaları hökuməti tənqid edir, yarıtmaz siyasətinə qarşı çıxırlar. Onlarda bizdəki kimi deyil. Əsgər öləndə onun ölümünü aylarla ailəsindən gizlədirlər. Bizdə isə şəhid olan əsgəri, giziri, zabiti yüksək səviyyədə dəfn edirlər. Erməni ordusunda heç bir ruh yüksəkliyi yoxdur, fərarilik baş alıb gedir, onlar əsgərlə çox pis rəftar edirlər. Biz bütün cəhətlərdən onlardan

üstünük. Sadəcə, erməni ordusunu mafioz qruplar idarə etdiyindən, ermənilərin səsi çıxır. Özlərinə qalsa bizdən qorxurlar.

Aydının verdiyi xəbərlər əsgərlərimizin ürəyini açır, onları Vətənin müdafiəsinə daha ürəkdən bağlanmağa sövq edirdi.

Hərbi hissədə hər kəs Aydına gerçək bir qəhrəman kimi baxırdı. Torpaqlarımızı işğaldan azad etməyə günbəgün yaxınlaşdığımız zamanda Aydının şəhid olması onları yandırırdı.

Aydının tabutunu adına layiq şəkildə Azərbaycan bayrağına büküb böyük məhəbbət və ehtiramla Bakıya yola saldılar. Hər bir əsgər, zabit Aydının dəfn izdihamına qoşulmaq istəyirdi. Hamının ürəyindən bu qəhrəman Vətən oğluna son borcunu vermək istəyi keçirdi. Çünki Aydın çoxlarının həyatını xilas etmişdi.

Aydının xidmət etdiyi hərbi hissədə sakitlik idi. Əsgərlər, zabitlər bir yerə toplaşıb susurdular. Sükut davam edirdi. Onların ürəyində, yaddaşında Aydınla bağlı o qədər xatirələr vardı ki... Amma sükutu heç kəs pozmaq istəmirdi. Susurdular... Bir qədər sonra sükutu Şakir Vahabov pozdu:

– Allah Aydına rəhmət eləsin! Əziz dostlar, bu gün ordumuz çox güclüdür. Bizim hərbi hissəmiz hərtərəfli təmin olunub. Azərbaycan xalqı bizə güvənir. İnsanlarımız bizə arxayın olub öz həyat fəaliyyətlərini davam etdirir. Biz ön cəbhədəyik, düşmən bir addımlığımızdadır. Heç vaxt ayıq-sayıqlığımızı itirməməliyik. Aydın bizimlə çiyin-çiyinə döyüşüb, qəhrəmanlıq göstərib, onun xidmətləri çox böyükdür. Şərəfli bir gizir ömrü yaşadı. Aydın Vətənə canla-başla xidmət edib, komandirlərin verdiyi tapşırıqları yerinə yetirib, düşmən həmləsinin qarşısını alıb. O dəfələrlə düşmən hücumlarının qarşısının alınmasında fəal iştirak edib. O inanırdı ki, düşmənin torpaqlarımıza uzanan çirkli əllərini tezliklə kəsəcəyik, yurdlarımızı işğaldan azad edəcəyik. Ön cəbhədə xidmət etməyi Aydın özü üçün böyük şərəf sayırdı. Elə bizim üçün də şərəfdir. Biz həmişə gizir Aydın Abdullayevi öz xatirələrimizdə yaşadacağıq. Aydının şəhid olması bizim üçün çox ağır və böyük itkidir. Biz ilk növbədə öz silahdaşımızı, sıralarımızda həmişə mətin dayanmış dostumuzu, ən yaxşı gizirimizi itirmişik. Əziz dostlar, Aydın şəhid olandan sonra biz onun qanını düşməndən aldıq.

Düşmən böyük itkilər verdi. Bir Aydına görə 10-15 əsgərini itirdi xain düşmən. Ön xətdə Aydınla xidmət edən hər bir əsgər Aydının qisasını düşməndən almağa çalışdı. Heç zaman şəhidlərimizi yaddan çıxarmarıq. Allah onların hər birinə rəhmət eləsin! Aydının da yeri həmişə qəlbimizdədir. O, şəxsi heyətinin daim qayğısına qalan bir gizir, post başçısı olub.

Başlarını aşağı dikib sakitcə Şakirə qulaq asan əsgərlərdən biri – Kamran Məmmədov da Aydınla bağlı xatirələrini bölüşməyə can atırdı:

– Aydın həmişə nümunəvi xidmətinə görə komandanlığın rəğbətini qazanıb, onun xidmətləri yüksək qiymətləndirilib. Düşmənə ağır, sarsıdıcı zərbələr vurduğuna görə bir neçə dəfə komandanlıq ona təşəkkür elan edib, onu mükafatlandırıb. Onun bizdən üstünlüyü həm də odur ki, qibtə etdiyimiz şəhidlik zirvəsinə biz yox, o çatdı. Aydın haqqında danışmaq çətindir. Amma fəxr edirəm ki, onunla qardaş kimi olmuşuq, aramızda həmişə səmimi münasibət olub. Aydın burada xidmət etdiyi dövrdə hər kəsə nümunə olmağı bacarıb.

Hər kəs danışmaq istəyirdi. Çünki Aydın hamının qəlbində böyük bir xatirə qoyub getmişdi. Səngərdə çiyin-çiyinə düşmənə qarşı mövqe tutan Aydının əsgərləri də, zabitlər də onu unuda bilmirdi.

Aydınla tikəsini bölən hərbçi yoldaşlarından olan Emin Mövlanov ondan danışanda göz yaşlarını saxlaya bilmirdi. Aydının şəhid olması ona o qədər ağır təsir etmişdi ki, bunu dillə ifadə etmək çətin idi. Emin üzünü hərbçi dostlarına tutub Aydınla bağlı xatirələrini bölüşdü:

–Bilirsiniz ki, mənim xidmətim onunla birgə keçib, çox yaxın olmuşuq. Mən onu səmimi, mehriban, fiziki cəhətdən sağlam, vətənpərvər bir oğlan kimi yadımda saxlamışam. Aydınla əsgərlikdə tanış olmuşduq, sonra tale elə gətirdi ki, hərbi xidmətin davamında da eyni yerə düşdük. İkimiz də ön cəbhəni seçmişdik. Aydın mənim taqım komandirim olub, mən isə manqa komandiri olmuşam. Daim şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksəlməsində, döyüş hazırlığında dəstək olub. O həmçinin, düşmən haqqında kifayət qədər məlumatlı bir kəşfiyyatçı idi. Odur ki, biz ondan bu barədə çox informasiya alırdıq. Aydın həm fiziki, həm mənəvi, həm də taktiki cəhət-

dən öz üzərində işləyirdi. Onun döyüş ruhu çox yüksək idi. Aydının da, başqa şəhidlərimizin də ruhu şad olsun, onların qəhrəmanlığı Azərbaycan gəncləri üçün bir nümunədir. Elə bizim üçün də. Aydın sübut etdi ki, gözünü bir an qırpmadan belə Vətən uğrunda şəhid olmağı bacarır. Bizim ön cəbhədə Aydın kimi qorxmaz igidlər xidmət edir.

Aydın əsgərlərini çox istəyirdi. O dəfələrlə düşmənin canlı qüvvəsini məhv etmişdi. Təhlükə olanda özünü qabağa atırdı. Ürəyində qorxu yox idi. Bu adam heç nədən çəkinməzdi. Əsgərlərinə deyirdi ki, biz burada əsgər, gizir deyilik, qardaşıq. Həmişə birliyə çalışırdı. Düşmən Aydından çox çəkinir, qorxurdu. Aydın deyirdi ki, ayıq-sayıq olaq. Biz güclüyük, düşməni hər an məhv edə bilərik. Onun silahlar haqqında bilgisi çox yüksək idi. Əsgərləri postda olanda onlarla çox ciddi maraqlanırdı, geyimlərindən tutmuş, yeməyinə qədər diqqət yetirirdi. Hər şey öz qaydasında olmalı idi. Aydın, qardaşım, biz sənin də, digər şəhidlərimizin də qisasını qiyamətə qoymayacağıq.

Əsgər və zabitlər Aydından danışdıqca danışmaq istəyirdilər. Vaxtları az, xatirələri isə çox idi. Hər kəs öz xatirəsini danışsaydı, bəlkə də günlər bəs etməzdi. 23 yaşlı gizir özündən sonra bəlkə də neçə onilliklər danışılacaq xatirələr qoyub getmişdi.

Aydının xidmət etdiyi hərbi hissə, həmişə olduğu kimi, yenə də düşmən hücumuna qarşı ayıq-sayıq dayanmışdı. Onlar Aydından yadigar qalan göyərçinlərə, bir də onun vəfalı itinə qayğı göstərir, onları yemləyir, bəsləyirdilər.

Aydın Abdullayevin qısa, lakin mənalı ömrü xatirələrə hopub davam edir. O indi səngər yoldaşlarının xatirəsində yaşayır. Bu xatirələr isə əbədidir...

## *Aydının Cavad və Rozanın qəlbində yaşayan xatirələri...*

***Bir mələk doğulub***
***Başdan-başa nəğmədi.***
***Gözəlliyin məbədi –***
***Məhəbbətdi, sevgidi.***

Cavadın ilki Fatimə dünyaya gəlmişdi. İllərlə yolunu gözlədikləri körpənin doğulması ürəklərini qüssə bürüyən Abdullayevlər ailəsinə əməlli-başlı təsəlli oldu.

Abdullayevlər ailəsinin bir gözü ağlayır, bir gözü gülürdü. Kədərlə sevinc bir-birinə qarışmışdı. Fatimənin doğulması ailənin yaralı ürəyinə azacıq da olsa məlhəm olmuşdu. Çünki onun dünyaya gəlməsini Aydın hamıdan çox gözləyirdi. Gələcək körpəyə qurbanlar demişdi əmisi. Aydın tez-tez evə zəng vurur, intizarla soruşurdu:

– Roza bacı necədir? Həkimlər nə deyir, uşaq nə vaxt dünyaya gələcək?

Cavad qardaşının hər zəngində böyük sevgi, qayğı və intizar duyurdu. Odur ki, ona ümid verirdi:

– Gəlin bacın yaxşıdır, uşaq da normal inkişaf edir. Sağlıq olsun, sağ-salamat dünyaya gələcək. Sən muştuluğunu hazırla, – deyə Aydınla zarafat edirdi.

– Muştuluq gözüm üstə. Gör əmisi onun üçün nələr edəcək! Cavad, iki dənə qurbanlıq qoyun alıb burada saxlamağa vermişəm. Uşaq doğulan kimi xəbər et, göndərim. Qoyunun birini xəstəxananın həyətində kəsin, birini də öz həyətimizdə. Qurbanı camaata paylayın. Mən onun doğulduğu günə qurban demişəm.

– Çox sağ ol, əmisi, Allah nəzirini, qurbanını qəbul etsin! Uşaq anadan olan kimi xəbər edəcəyəm, qoyunları götürüb gələrsən, qurbanı da özün kəsdirərsən.

– O günə qurban olum, Cavad, bircə sənin övladın dünyaya sağ-salamat gəlsin.

Ancaq Fatimənin dünyaya gəldiyi günü görmək Aydına qismət olmadı. Körpənin doğulmasına bir neçə ay qalmış o şəhid oldu. Abdullayevlər ailəsi yasa batdı.

Cavad qardaşının dünyadan kam almadan köçməsini yanğı ilə qarşıladı. Ona elə gəldi ki, indən sonra nə baş versə də, onların yaslı ürəyinin pasını aça bilməz, heç nə göz yaşlarını qurutmağa qadir deyil.

Əmirsoltan kişi və Sevil ananın ikinci övladı olan Cavad 1986-cı il avqustun 24-də dünyaya gəlib. Günəşli qəsəbəsində yerləşən 278 saylı orta məktəbi bitirib. Azərbaycan Texniki Universitetinin "Elektronika

və energetika" fakültəsinin məzunu olub. O, mənzil-təsərrüfat kommunal sistemində çalışır.

Aydın şəhid olandan sonra Cavad evdə fikirli gəzib dolaşır, həmişə kefsiz olurdu. Əlbəttə, ailədə hamı Cavadla eyni vəziyyətdə idi. Amma ata və anası onun həmişə qəmgin olmasına dözə bilmirdi. İstəyirdilər ki, bütün dərdi özləri çəksin, təki Cavad və Nicat ağrıya qatlaşmasın, kədərə baş əyməsin. Aydından sonra iki oğulları qalmışdı, onlar övladlarının, nəvələrinin şad-xürrəm olmasını həmişə Tanrıdan iltimas edirdilər.

Bir gün Əmirsoltan kişi Cavadın qüssəsini dağıtmaq üçün ona üz tutub:

– Ay Cavad, ay oğul, sən Allah belə gəzmə, sənə baxıb bizim də olan-qalan canımız üzülür, ürəyimiz ağrıyır. Özünü ələ al, bala, bizə yazığın gəlsin. Sənin körpən dünyaya gəlib, elə bil ay parçasıdır, ona bax, ürəyin açılsın. Nicat da səndən betərdir. Ona da təsəlli verirəm, amma eşitmirsiniz sözümü.

– Ata, sənin hər sözün bizim üçün qanundur. Amma bu məsələdə sözünə əməl edə bilmirik, bağışla. 23 yaşında qardaşımızı torpağa tapşırmışıq. Dünən Tərtərdən bir kişi zəng vurmuşdu. Deyir ki, Aydının məndə əmanəti var, sabah göndərirəm, bir yerə çıxıb götürün.

– Görəsən nə əmanətdir, ay oğul?

– Aydın Fatiməyə qurban demişdi. Kişi qurbanlıq qoyunları göndərir.

Cavad bu sözü deyib ağladı. Atası da ona qoşuldu. Aydının qurbanlıq qoyunlarını necə gedib götürəydilər. Cavad hıçqıra-hıçqıra:

– Dedim dayı, çox sağ ol, sizə qalsın, halal xoşunuz, biz burada alıb kəsərik. Dedi ki, yox, ay oğul, bu, Aydının öz puluna alınıb, sizin halal malınızdır.

Tərtərdən gələn maşın Aydının Fatiməyə nəzir etdiyi qurbanlığı gətirdi. Əmirsoltan kişi qoyunları kəsdirib camaata payladı.

Axşam idi, küçədən əl-ayaq yenicə kəsilirdi. Cavad işdən gəlib körpəsini oynadırdı.

– Mənim gözəl qızım, nazlı qızım, əmin səni görə bilmədi. Sən gərək böyüyüb əminin arzuladığı kimi ağıllı qız olasan.

Atası danışdıqca körpə qığıldayır, totuq əlləri ilə atasının üzünü cırmaqlamaq istəyirdi. Fatimə elə şirin idi ki. Sevil ana oğlunu nəvəsi ilə oynayan görüb otağa gəldi:

– Şükür, ay Cavad, Fatimə üzünü güldürür, bala, ürəyini də güldürsün balan. Aydın şəhid oldu, Fatimə doğuldu. Bu mənə böyük təsəllidir. Nəvələrim Aydını əvəz etməsə də, hər biri mənim üçün bir aləmdir. Onlara baxıb fərəhlənirəm.

Cavad sakitcə anasını dinləyirdi. Qonaq otağına tərəf boylanıb həyat yoldaşını çağırdı:

– Roza, Aydının şəkillərini mənə gətir.

Roza siyirmədən Aydının bütün şəkillərini gətirib çarpayının üstünə qoydu. Cavad bir-bir şəkilləri götürüb Fatiməyə göstərirdi.

– Bax, əmin burada körpədir, bu şəkildə bağçaya gedir, burada məktəbə. Qızım, bu şəkil əminin kiçik toyunda çəkilib. Fatimə qığıldayır, arabir gülümsünürdü.

Roza qızının hələ darağa gəlməyən tellərini sığallayıb kövrəldi.

– Mən bu evə gəlin gələndə özümü heç yad saymadım. Hamı mənə istilik göstərdi. Aydın da həmçinin. Aydının oturuşu, duruşu, danışığı, ağır təbiəti, qayğıkeşliyi bir ayrı aləm idi. Hamı deyirdi ki, Bəhram babasına oxşayır Aydın. Ataların bir misalı var: "Nəvələr həmişə babaya oxşayır". Cavad, mən sizin rəhmətlik babanızı görməmişdim, amma hər gün Aydını müşahidə etdikcə, görürdüm ki, o qətiyyən indiki cavanlara bənzəmir, elə bil ki, illərin o tayından gəlib. O, sözübütöv, qayğıkeş, qürurlu, mərd bir oğlan idi. İlk gündən mənə doğma bacısı kimi yanaşdı və qayğımı çəkdi, hörmət etdi. Aydın Könülü görəndə ilk dəfə ürəyini mənə açdı: "Bacı, toyda bir qız görmüşəm, çox xoşuma gəlib, amma hələlik onun bilməyini istəmirəm", – dedi. Onun sevgisi də qəribə idi. Aydının görüb bəyəndiyi qız da Aydının vurğunu idi. O, Aydından diqqət umurdu, Aydın da o diqqəti qıza göstərirdi. Aydın başqa cür idi, diqqət göstərirdi, ancaq başqa gənclər kimi qıza eşq elan etsin, onunla romantik danışsın, belə xasiyyəti yox idi. Ağır təbiətli yaratmışdı Yaradan onu. Onda sərt hərbçi xasiyyəti də vardı. Əgər sevdiyi qız, sonra nişanlısı olan xanım ondan küssəydi, onun könlünü sözlə, şirin dillə ala bilmirdi. Aydın qeyri-adi oğlan idi, Cavad.

Sənə ayrı zəng edib mənim vəziyyətimi soruşurdu, mənə də ayrı zəng edirdi: "Bacı, necəsən, nəyə ehtiyacın var, birdən utanıb deməzsən, nə istəsən qardaşın qulluğunda hazırdır", – deyirdi. Aydını göz yaşı axıtmadan xatırlamaq olmur. Zərrə qədər də olsa ondan inciməmişəm.

Heç yadımdan çıxmaz, şəhid olmamışdan bir həftə əvvəl mənə zəng edib xeyli danışdı. Soruşdum ki, Aydın, nə vaxt gələcəksən? Gözləyənin var axı... Gülə-gülə cavab verdi ki, nə vaxt buraxsalar, icazə versələr. Aydınla danışıb sağollaşdım, mətbəxə keçdim ki, özümə çay süzüm, fincan qəfil əlimdən düşüb çilik-çilik oldu. Qanım elə qaraldı ki... Fikrimdə Aydının toyu idi, fincanın çiliklənməyi məni səksəndirdi, üşütdü.

Roza danışdıqca, yanağından yaş üzüaşağı süzülürdü. Şəkilləri sığallaya-sığallaya söhbətini davam etdirdi:

– Cavad, bilirsən ki, Aydın şəkil çəkdirməyi çox sevirdi. Yəqin ürəyinə dammışdı tez öləcəyi, ona görə də bu şəkilləri bizə təsəlli üçün yadigar qoydu. Həmişə televiziyada müharibə haqqında filmlər, hərbi verilişlər gedəndə əvvəldən axıra qədər televizorun qabağından durmurdu, maraqla baxırdı. Aydın kəmfürsət, şovinist, faşist ermənilərə nifrət bəsləyirdi. Xocalı ilə bağlı kadrları görəndə əli ilə başını tutub ağlayırdı. Aydını orta məktəbdən tanıyırdım, o vaxtdan vətənpərvər idi və hamı onu çox sevirdi. Allah Aydın qardaşıma rəhmət eləsin! Nə qədər sağam, onun adını qəlbimdə yaşadacağam.

Cavad həyat yoldaşının qardaşı haqqında dediyi səmimi, ürək göynədən sözləri dinlədikcə kədərlənirdi.

– Roza, Aydın bir an belə mənim də yadımdan çıxmır. Uşaqlıq, yeniyetməlik, ilk gənclik çağlarımın xatirələrinin çoxu onunla bağlıdır. Aydın məndən də, Nicatdan da ünsiyyətcil idi. Ata-anamın dərdinə şərik olur, evdə bir çətinlik olanda onu həll etməyə can atırdı. Zarafatca deyirdim ki, Aydın, sən hələ balacasan, səndən böyük biz varıq, özümüz həll edərik. Deyirdi ki, balaca niyə oluram, hamınızdan güclüyəm. Aydın belə deyəndə evdə hamımız gülüşürdük. Kiçik yaşlarından yaşıdlarından güclü, iradəli idi, amma heç kəsə sataşmazdı, yalan yerə dava salmazdı. Ürəyi çox təmiz idi. Haqsızlıq görəndə qəzəblənirdi, sərtləşib zəhmli görkəm alırdı. Dünya dağılsa da, haqq-

ədalətin zəfər çalmasına nail olurdu. Atam həmişə deyirdi ki, Aydın bu xasiyyətinə görə tayfamıza, babalarımıza çəkib. O bizdən həmişə öyrənmək istəyirdi, söhbətlərimizə diqqətlə qulaq asırdı. Bizim tayfada güləşə meyl çox güclü olub, bu bizə gendən keçib. Mən də, Nicat da kiçik yaşlarımızdan güləşə getmişik. Amma idmana maraq Aydında daha güclü idi və idmana daha çox bağlanmışdı. Dədə-babalarımız Şabranda, ətraf bölgələrdə güclü pəhləvanlar kimi tanınıb. Pəhləvanlıq Aydının boyuna biçilmişdi, müxtəlif idman növlərinə maraq göstərirdi, karate ilə də məşğul olurdu. Amma peşəkar güləşçi olmaq fikrində idi. Tez-tez onunla güləşir, qolumuzu güləşdirirdik, amma onun qolunu əyə bilmirdim. O çox qürurlu oğlan idi, məğlubiyyəti yaxına belə buraxmırdı. Hələ aşağı siniflərdə oxuyandan Suraxanıdakı "Neftçi" idman cəmiyyətinə gedir, yarışlara, məşqlərə baxmaqdan doymurdu. Onlardan öyrənmək, görüb götürmək istəyirdi. Sonra da "Neftçi" cəmiyyətinin "Pəhləvan" idman zalında məşğul olmağa başladı. "Zəfər" idman klubuna da gedirdi. Roza, evin sonbeşiyi olduğu üçün, ərköyünlüyündən də qalmırdı Aydın. Yadındadırmı, sentyabrın 29-da onun ad gününü qeyd etmək üçün Tərtərə getdik. Aydın hərbçi dostlarının hamısını başına topladı, təntənəli ad günü keçirdik. Təəssüf ki, bu onun sonuncu ad günü oldu. Həmin gün ömrümün sonuna qədər yadımdan çıxmaz. Biz qardaş olsaq da, həm də mehriban dost, sədaqətli sirdaş idik. İndi Fatimə dünyaya gəlib, biz danışırıq da, gülürük də, Fatimənin gülüşünə, qığıltısına sevinclə baxırıq, fərəhlənirik. Amma Aydın yarası sağalmaq bilmir. Bizim bir gözümüz gülür, o biri gözümüz ağlayır, çünki ürəyimizdəki sevincin Aydın adlı fərəhi, qanadı yoxdur. Elə bil qanadımızın biri qırılıb. Aydının həlak olması qəbir evinə qədər məni yandırıb yaxacaq.

Ər-arvad Aydının şəkillərini səliqə ilə yığıb yerinə qoydular. Şəkillər onlara böyük təsəlli idi. Aydının şəkillərində sevinc gizlənmişdi, Abdullayevlər ailəsinin əbədi itən sevinci.

## *Aydından atası Əmirsoltan Abdullayevə qalan xatirələr...*

Fatimə yuxudan səhər erkən oyanmışdı. Balaca canı evə sığışmırdı. Özünün tezdən oyandığı bəs deyildi, hələ səs-küy salıb evdəkiləri də oyatmışdı. Balaca qız sürətlə otaqdan-otağa qaçır, oynamaq istəyirdi. Gah ata-anasının, gah da baba-nənəsinin yanına gedirdi:

– Baba, dur məni həyətə apar.

Fatimə səhər-səhər həyətə getməyi çox sevirdi, üstəlik də babanı dartıb mağazaya aparır, könlü istəyəndən aldırırdı.

Baba çox əzgin idi, özünü elə də yaxşı hiss etmirdi. Dünən işdən evə gələndə yağışa düşüb əməllicə islanmışdı. Bazar günü olduğundan dincəlmək istəyirdi. Balaca nəvəsi isə ona aman vermək istəmirdi. O, nəvəsini birtəhər dilə tutmaq istəyirdi ki, gedib yatağına uzansın.

– Fatimə, ana, niyə tez oyanmısan, bayıra bax, hələ qaranlıqdır, indi çölə çıxmaq olmaz. Bir azdan mən səni oyadaram, bərabər gedərik.

Şirin-şıltaq Fatimə babasına sakitcə qulaq asır, arabir qaşqabaq sallayır, sonra isə üzü gün kimi açılırdı. Baba onu dilə tutub yatağına göndərdi. Amma özü heç cür yata bilmədi. Çox narahat idi. Ayağa durub işıqları söndürdü. Çünki balaca oyanan kimi bütün işıqları yandırmışdı. Sonra gəlib yenidən yerinə uzandı, sümükləri sızıldayırdı. Əmirsoltan kişi dünən yolla gələndə fikrində canlandırdığı bəzi hadisə və xatirələri yenidən içindən keçirməyə başladı. Yağış yağırdı. O, çətirsiz olduğu üçün evə tələsirdi. Yolun kənarında başına çətir tutmuş bir gənc də gedirdi. Hərbi geyimdə idi. Əmirsoltan kişi gəncin arxasınca xeyli baxdı, kişinin ürəyinin başı söküldü. Oğlan necə də Aydına bənzəyirdi. Ata az qala hərbi geyimli oğlanın ardınca qaçıb: "Dayan, ay oğul, bir ayaq saxla", – demək istədi. Amma oğlan mənzil başına tez çatmaq üçün şıdırğı yağan yağışın altı ilə iti addımlarla irəliləyirdi. Əmirsoltan kişi özünü tamam unutmuşdu. Oğlanın arxasınca baxdığı müddətdə tamamilə islanmışdı. Kişi kövrəldi. Göz yaşı yağış damlalarına qarışıb yanağı aşağı süzülürdü.

Kişi evə çatanda haldan düşmüşdü, tez əyin-başını dəyişib isti çay içdi. Çay içə-içə fikri hərbi geyimli oğlanın yanında idi. "O, Aydına necə də bənzəyirdi", – deyə dodaqaltı danışdı. Həyat yoldaşı ərini fikirli görüb soruşdu:

– Soltan, nə olub, niyə beləsən?

– Heç, – deyə kişi arvadının sözünü kəsdi.

Axı arvadına necə deyəydi ki, küçədə gördüyü oğlan Aydına bənzəyirdi. Deməyə tabı-taqəti yox idi. Bilirdi ki, gördüklərini dilə gətirsə, arvadı sızım-sızım sızıldayacaq.

– Sevil, dincəlmək istəyirəm, çox üşümüşəm.

Kişi yatmağa getdi. Bu, arvada belə gəlirdi. Əslində, əri xatirələri ilə baş-başa qalmaq üçün yataq otağına keçdi. Yuxusu gəlmirdi də, onun yuxumu gedərdi gözlərinə...

Aydın gözləri qarşısında canlandı, üzüağ, alnıaçıq. Atasının düz gözünün içinə baxırdı. Ata çalışırdı gözünü qırpmasın, ona elə gəlirdi ki, gözünü qırpsa, Aydının xəyalı ayna kimi çiliklənib yerə töküləcək. Ata ehtiyat edirdi.

Əmirsoltan kişi Aydını tam olaraq gözləri qarşısında canlandırarkən qulaqlarında da onun səsini duydu:

– Ata, mən babalarım kimi pəhləvan olacağam.

– Aydınım, sən hələ uşaqsan, nə bilirsən babaların kim olub?

– Bilirəm, niyə bilmirəm, sən danışmısan da onlar haqqında. Nənəm, bibilərim, əmilərim də danışıb. Odur ki, mən də Bəhram babam kimi pəhləvan olacağam.

– Əhsən! Aydın, demək sən artıq böyümüsən...

Əmirsoltan kişi Aydınla bağlı düşündükcə, ona elə gəlirdi ki, oğlu sağ-salamatdır. Çünki onu sağ-salamat yola salmışdı. O həmişə Aydının alnından öpərdi.

Ata Aydının hələ 20 yaşı olanda anlamışdı ki, oğlu artıq kişiləşib, Qarşısındakı əsl kişidir, çılğın gənc yox, bayrağa, torpağa, vətənə bağlı cəsur bir gənc.

Əmirsoltan kişi son vaxtlar Aydınla bağlı xatirələrini yazırdı ki, yadından çıxmasın. Elə həmin gecə də gündəliyinə gördüklərini, Aydınlı günlərindən bəzi xatirələri köçürməyə başladı: "Bugünkü oğlan məni

özümdən qopardı. Elə bildim gedən Aydındır. Nitqim qurumuşdu. Aydını hər yerdə görürəm, bir an belə gözlərim qarşısından çəkilmir. Onun mənalı gözlərində həmişə qürur gördüm. Uşaqlıqdan qürurlu idi balam. Hələ 20 yaşı olanda onun əsl xarakteri bulud altdan Günəş çıxan kimi üzə çıxdı. Onunla ciddi söhbətimiz oldu. Bu söhbət Aydının taleyini hərbiyə bağlamağı ilə əlaqədar idi. Onda bir az ciddi danışdıq və mən bir anlıq hiss etdim ki, qarşımdakı 20 yaşlı oğlan yox, mərdlik, cəsurluq nümunəsi olan bir gəncdir. Aydın qısa ömrünü çox mənalı yaşadı. Çünki uzun, mənasız ömürdənsə, qısa, mənalı ömür yaşamaq daha gözəldir. Mən oğlum Aydının qısa, lakin mənalı, neçə-neçə əsrlərə sığmayan ömrü ilə fəxr edir, qürur duyuram.

Aydınla həftəarası telefonla danışırdıq. Bir dəfə yenə zəng vurub hal-əhval tutdum, vəziyyətini soruşdum. Təxminən 2013-cü ilin iyun, ya iyul ayı olardı. Aydın mənə dedi ki, ata, xəbərin var, İrəvanda "bunt" yaratmışam. Düzü narahat oldum ki, o, İrəvana necə gedib, hansı yolla gedib...

– Sən İrəvana nə vaxt getdin ki?

– Mən ora getməmişəm, sadəcə, mənim vurduğum erməni dığası ailənin tək övladı olub. Ona görə də başqa əsgər valideynləri də o oğlanın valideynlərinə qoşulub İrəvanda Ermənistanın Müdafiə Nazirliyi qarşısında nümayiş keçirib. Onlar deyiblər ki, qaytarın azərbaycanlıların torpağını özlərinə, uşaqlarımızı öldürməyə son qoyun.

Aydınla telefonla danışdığım günün axşamı televizorda "Xəbərlər"ə baxırdım və gördüm ki, həqiqətən də əsgər ata-anaları İrəvanda piket keçirir.

Aydın bir dəfə məzuniyyətdən qayıdanda bayrağımızla yanaşı, özü ilə ulu öndər Heydər Əliyevin şəklini də apardı. Mən ondan soruşdum:

– Aydın, bunları səngərdə harada saxlayacaqsan ki, aparırsan? Bəyəm orada elə şərait var ki?

– Ata, mən onları ürəyimin üstündə saxlayacağam. Sağlıq olsun, torpaqlarımız alınanda bu bayrağı qələbə bayrağı kimi ilk alınan torpağımıza taxacağam.

O həmin bayraq idi ki, idman yarışlarına gedəndə özü ilə aparırdı.
Aydın şeiri çox sevirdi. Hətta özü də arada yazırdı:

***Ey mənim hər dəfə yanımdan keçən,***
***Mənə baxıb demə dərdin dağ olsun!***
***Mən özüm keçdim ki, şirin canımdan,***
***Mən sağ olmasam da, vətən sağ olsun!***

***Qəbrimin üstünə çöküb ağlama,***
***Ey şəhid böyüdən xalqın anası.***
***Sən də boynunu büküb dayanma,***
***Oğlunla fəxr elə, şəhid atası.***

Aydın şəhid olandan sonra özümə qapılmağa başlamışam. Fikrim dağınıqdır, elə hey xəyalımda, içimdə Aydınla danışıram, onunla görüşürəm. Heç real dünyaya qayıtmaq istəmirəm. Çünki xəyallardan ayılsam görürəm ki, Aydın yoxdur, amma xəyallarda Aydın sağ-salamatdır. Tənhalıq məni məngənə kimi sıxanda öz-özümə "görəsən yaşamağa dəyərmi?" – deyə sual verirəm. Sonra isə "dəyər" deyib özümə təsəlli verirəm. Çünki səmimi, mehriban ailəm var. Xalqına, vətəninə, el-obasına layiq övladlar böyütmüşəm. Gül-çiçək qoxulu, şirin-şəkər Leyli, Mehri, Fatimə, Nihad kimi nəvələrim böyüyür. Ən başlıcası, cəsur, qorxmaz, vətən bayrağını sevən şəhid gizir Aydın Abdullayevin atasıyam. Deməli, yaşamağa dəyər!

Çox vaxt indiki kimi gecələr rahat oluram. Baxmayaraq ailəm, balalarım ətrafımdadır, hər qayğıma qalırlar, amma yenə fikrim sonbeşiyimin ruhu ilə həmsöhbət olur. Hamını yuxuya verəndən sonra Aydınla həmsöhbət olmaq istəyirəm. Bəzən danışırıq, sözümüz tutur, ata-bala dərdləşirik. Bəzən də Aydın mənimlə danışmaq istəmir. O, suallarıma cavab vermir, nə soruşuram cavab əvəzinə susur. Bilmirəm niyə? Elə bil gözü yolda qoyduğu nişanlısı Könüllə də sözləşiblər, o da telefon zənglərimə cavab vermir. Belə olanda üzümü göylərə tutub alışıb yanan ulduzlardan kömək istəyirəm. Yadımdadır, uşaq vaxtı Mədinə nənəm mənə nağıl danışanda əlini göyə tuşlayıb ulduzları göstərib deyərdi:

– Ağıllı balam, göydə hərənin bir ulduzu var. Bax, ay bala, o ulduz sənindir.

Nənəm mütləq ulduzların içindən ən parlağını seçib mənə göstərərdi. Belə olanda sevincimdən nənəmi qucaqlayardım, nənəm də şirin sözlər deyib, nəvaziş göstərib saçıma sığal çəkər, məni əzizləyərdi. Mənim də gözümə yuxu gedərdi. Amma indi mən ulduzumun yerini itirmişəm. Nənəm də sağ deyil ki, ulduzumun yerini ondan soruşam. Uşaqlığıma qayıtmaq istəyirəm, könlümdən keçir ki, uşaq olub kəndə qayıdım, torpaq daxmada oturub, səmanı seyr edib göyün ənginliyində öz ulduzumla göz-gözə qalım.

Aydın şəhid olandan sonra hər gecə səmada onun ulduzunu axtarıram, tapa bilmirəm. Nənəm həmişə deyirdi ki, insan dünyadan köçəndə onun ulduzu axıb yerə düşür. Yəni ulduzu səmadan köç edir.

Bəzən gecələr yata bilmirəm, nə qədər çalışıram gözümə yuxu getmir ki, getmir. Onda da geyinib düşürəm aşağıya. Binamızın qarşısına Aydının xatirə lövhəsi vurulub, şəklin qarşısında dayanıb saatlarla onun gözlərinə baxıram. O öz baxışları ilə mənə təsəlli verir, "darıxma ata, hər şey yaxşı olacaq", – deyir".

Əmirsoltan kişi Aydına arabir şeirlər də yazırdı. Çünki oğlu şeiri çox sevirdi. Ona elə gəlirdi ki, hamı yatandan sonra Aydının ruhu evə qayıdır və o, atasının xatirələrini yazdığı dəftəri vərəqləyir. Hər gecə nə isə yazırdı ki, Aydının ruhu əliboş qayıtmasın:

***Dünyanın işini kim bilir, oğlum,***
***Erməni düşməndir, ustadı keşiş.***
***Sənin babaların pəhləvan olub,***
***Gör nələr söyləyir bizlərə keçmiş.***

***Şəhidim, cənnətdir məkanın indi,***
***Səninlə fəxr edir öz oban Şabran.***
***Aydınım, igidim, həm cəsur balam,***
***Qəbrinə dolanır öz doğma anan.***

***Bilmirsən içimdə hansı tufan var,***
***Ay oğul, ürəyim dağ-dağ olubdur.***

***İnan ki, ruhuna baş əyir hamı,***
***Ad-sanın ən gözəl soraq olubdur.***

O yatanda gözlərini elə bərk-bərk yumurdu ki, Aydın yuxusundan çıxıb getməsin. Amma oğlunu çox nadir hallarda yuxuda görürdü.

Əmirsoltan kişi bir dəfə yuxuda gördü ki, Aydın evə qayıdıb və divanda oturub telefonda meyxanaya qulaq asır. Rəşad Dağlını dinləyir. Sonra da deyir ki, ata, Rəşad Dağlı camaat içində özünü aparmağı bacarır, artıq-əskik danışmır, meyxanası da gözəldir, Nizami Rəmzinin yolu ilə gedir.

Səhər oyanandan xeyli sonra gecə gördüyü yuxu yadına düşdü. Ata öz-özünə düşündü ki, kaş Aydın yaralanaydı, lap bir ayağı, bir əli olmayaydı, amma sağ-salamat evə qayıdaydı. Sonra isə bu fikri özündən qovdu. Bilirdi ki, Aydın o vəziyyətdə qayıtsa idi, bu halı ilə barışmayacaqdı.

Atanın oğlu ilə bağlı xatirələri bitib tükənmirdi. Hər açılan sabah özü ilə yenidən Aydının xatirələrini gətirirdi. Aydının xatirəsi ata qəlbində solmaz və unudulmazdı. O xatirələr həmişə bahar ömrü yaşayır...

## *Qonşuların unutmadığı, həmişə xatırladığı şəhid Aydın...*

Aydın şəhid olandan sonra qonşuların Əmirsoltan kişinin ailəsinə diqqəti daha da artmışdı. İllər boyu mehriban qonşu kimi yaşadıqları Abdullayevlər ailəsinə hər kəs hörmətlə yanaşırdı. Çünki bu ailə hamının xeyir-şərinə yarıyır, sevincinə sevinir, kədərinə yanırdı. Əmirsoltan kişi və Sevil ananın üç oğlu məhəllədə adı hörmətlə, sevgi ilə çəkilən cavanlardan idi. Onlar kiçik yaşlarından hərəkətlərinə, davranışlarına fikir verir, qonşunun buyruğuna çatır, yaşlı insanlara kömək edirdilər.

Hansı yaşlı qadın əlində zənbil binanın həyətində görünərdisə, dərhal Nicat, Cavad, Aydın ona kömək edər, zənbilini evinə qaldırar, qulluğunda durardı. Hələ heç kəs bu üç qardaşdan hansısa bir nalayiq hərəkət görməmişdi. Çünki valideynləri onları elə tərbiyə etmişdi ki,

uşaqları böyükdən-kiçiyə hər kəsin yerini bilir, artıq hərəkətə yol vermirdilər. Əmirsoltan kişinin oğulları məhəllədə yaşayan digər yaşıdlarından çox fərqlənirdi. Aydın isə tamamilə başqa bir oğlan idi.

Cəbhənin Tərtər istiqamətində düşmənlə üzbəüz mövqedə torpaqlarımızı, qız-gəlinimizin qeyrətini qoruyan oğullar sırasında Aydının da olması qonşuları qürurlandırırdı. Kişilər həyətdə bir yerə yığışıb söhbət edəndə, istər-istəməz, məhəllə cavanları haqqında da danışırdılar. Belə olanda həmişə söhbəti hərləyib-fırlayıb Aydının üstünə gətirirdilər.

Həyətdəki yaşlı kişilərdən biri həmişə deyirdi:

– Əmirsoltanın kiçik oğlu Aydını Allah saxlasın. Nə yaşı var, amma gedib torpaqlarımızı qoruyur. Aydın da başqaları kimi əsgərlikdən qayıtdıqdan sonra çayxana açıb işlədərək gündəlik çörək pulunu qazanardı. Maşallah, bacarıqlı oğlandır, amma gördünüz, əsgərlikdən gələndən bir az sonra hərbiyə qayıtdı.

Söhbətə başqa bir kişi də qoşulur:

– Öz aramızdır, Əmirsoltanın özü də vətənpərvər adamdır. Yadınıza gəlir, o vaxt qaçqınlar Bakıya gələndə Əmirsoltan nə qədər adama kömək etdi. A kişi, evindən pal-paltar, yorğan-döşək aparıb camaatı yerləşdirirdi, öz cibinin puluna çörək alıb verirdi camaata. Pis vaxtlar idi onda. Ermənistandan soydaşlarımız deportasiya olunanda onların xeyli hissəsi Günəşliyə pənah gətirmişdi, Əmirsoltan onlara da dayaq oldu.

Laçın qaçqını olan bir kişi Əmirsoltan kişinin Günəşli Mənzil-İstismar İdarəsində mühəndis işlədiyi dövrdən danışdı:

– Biz o vaxt qaçqın kimi bura gəldik. Əşyalarımızı ortalığa tökmüşdük, uşaqlarımız aclıqdan, susuzluqdan, yuxusuzluqdan əziyyət çəkirdi. Mənim rəhmətlik oğlum polisdə işləyirdi, – deyən kişini qəhər boğdu.

Kişilər:

– Allah rəhmət eləsin, şəhidlər ölmür, – deyə kişiyə təsəlli verməyə çalışdılar.

Laçın qaçqınının oğlu sonradan şəhid olmuşdu. Odur ki, bu barədə danışanda kişi çox kədərlənirdi:

– Mənim polis oğlum Əmirsoltanın yanına gəlib kömək istəmişdi ki, böyük bir külfətlə küçədə qalmışıq. Onda Əmirsoltan kişi qoçaqlıq etdi, bizim ailəni və digər ailələri də boş mənzillərə yerləşdirdi.

Belə söhbətlər həyətdə tez-tez edilirdi. Aydın məzuniyyətə gələndə qonşular hamısı onun başına toplaşırdı. Həmişə onu sorğu-suala tutur, ön xətdəki vəziyyətlə maraqlanırdılar.

Aydın həyətə girəndə həmişə ilk olaraq yaşlı insanlarla görüşürdü. Onların xeyir-duasını almaq, nəsihətlərini eşitmək istəyirdi. Yaşlı insanlara xüsusi münasibəti var idi onun.

Aydının şəhid olması xəbəri qonşulara çatar-çatmaz, uşaqdan-böyüyə hamı həyətə qaçdı. Məhəlləni həyəcan bürümüşdü. Hər kəs igid Aydının şəhid olması xəbərini ürək yanğısı ilə qarşılayır, onun gənc yaşında torpağa getməsinə heyifsilənirdi. Aydının cənazəsini bütün Günəşli sakinləri qarşıladı. Hər kəs ata-ananın ağrısına dərman olmağa çalışırdı. Amma nə fayda, heç bir şirin söz oğul itkisinin açdığı dərin yaranı sarıya bilməzdi. Aydın dəfn olunandan sonra da qonşular tez-tez onlara baş çəkir, ailəsinə dayaq olmağa çalışırdılar. Hər kəsin bir arzusu var idi, Aydının adı əbədiləşdirilsin. Qonşular çox istəyirdi ki, Aydına büst qoyulsun, adına küçə, məktəb verilsin, binanın qarşısına xatirə lövhəsi vurulsun. İndi qonşular bir adama ünvan verəndə: “Vaxtilə Aydın Abdullayevin yaşadığı binada yaşayırıq”, – deyirdilər.

Aydının şərəfli adı binanın ünvanına çevrilmişdi.

Aydının xatirə lövhəsi binanın qarşısına vurulan gün qonşular hədsiz sevinirdi. Aydının xatirə lövhəsi vurulandan sonra qonşular hər gün blokdan çıxanda ayaq saxlayıb onunla "salamlaşır", gedəndə isə "sağollaşır"dılar.

Gənclər də Aydıngilin blokuna girəndə əvvəlcə özlərini düzəldir, papaqlarını başlarından çıxarıb şəhidin xatirə lövhəsi önündən keçirdilər. Bu, məhəllədə bir qayda olmuşdu.

Bir gün yazağzı idi. Hava xoş olduğundan, həyətin kişiləri yenə bir yerə yığışıb nərd, domino oynayır, şirin-şirin söhbət edirdilər.

Qonşu Mürvət Əsədov avtobusdan düşüb həyətə girdi, salam verib yuxarı qalxmaq istəyirdi ki, qonşular onu da söhbətə qoşmaq istədilər. Mürvət kişi onların əl çəkməyəcəyini görüb:

– İmkan verin əlimdəki zənbili evə qoyum, bir stəkan çay içib düşürəm. Yaman yorulmuşam. Bağda o qədər işim var idi ki...

Kişilər etiraz etmədilər. Mürvət kişi tələsik addımlarla yuxarıya qalxdı. Dediyi kimi, az sonra həyətə düşüb qonşulara qoşuldu. Bu vaxt Əmirsoltan kişi Aydının xatirə lövhəsinin qarşısında dayanıb şəkli silirdi. Ata bunu özünə adət etmişdi, bloka girəndə də, çıxanda da xatirə lövhəsini silirdi.

Mürvət kişi Əmirsoltan kişini səslədi:

– Ay Soltan, bir bəri gəlsənə.

– Gəlirəm, qadan alım, – deyən Əmirsoltan kişi onlara sarı gəldi. Altına bir kətil çəkib oturdu.

Mürvət kişi qonşusunun halının özündə olmadığını görüb ona təsəlli verdi:

– Ay Soltan, ay qardaş, dünyanın bir gözü ağlayır, bir gözü gülür. Özünü həlak etmə. Allah Aydına rəhmət eləsin, o belə tezliklə düşmənə can verəsi bala deyildi. Taleyin işidir. A kişi, sənin oğlun Vətən yolunda şəhid olub! Nicatın, Cavadın, nəvələrinin canı sağ olsun! Aydın onsuz da əbədi yaşayacaq. Bu həyətdə bizdən sonra yaşayanlar da Aydını unutmayacaq, onu əbədi olaraq yadda saxlayacaqlar. Aydın bizim gözümüzün qabağında böyüyüb, boya-başa çatıb. Ən yaxşı uşaqlardan biri idi. Heç kəs deyə bilməz ki, Aydından bir dənə xoşagəlməz hərəkət görmüşəm. O, hamıdan seçilirdi, heç qardaşlarına da bənzəmirdi. Onun özünəməxsus xasiyyəti vardı. Sakit təbiətli olsa da, mübariz oğlan idi. Uşaqlıqdan aydın zəkası, gözəl tərbiyəsi, özünə inamı ilə seçilirdi. Bəzən uşaqlara deyirdim ki, kim o ağacın başına çıxa bilər? Bəziləri tərəddüd edirdi, amma Aydın cəld irəli çıxıb: "Mürvət əmi, mən çıxa bilərəm. Qoyun mən çıxım", – deyirdi. Çox cəsarətli, hünərli uşaq idi. Aydın həmişə sadə idi. Kim bir iş dalınca buyursaydı, mütləq gedib yerinə yetirərdi. Bu oğlanda olan bütün yaxşı xasiyyətlərin hamısı nümunə idi. İdmanla məşğul olurdu. Bəzən idmandan gec gəlirdi, qarşısına çıxan qonşulara sakitcə salam verib keçirdi. Əsgərlikdə olanda da Soltandan soruşurdum onu.

Əmirsoltan kişi söhbətə qarışır:

– Çox sağ ol, Mürvət kişi, Aydın sizin hamınızın xətrini çox istəyirdi. Evə zəng vuranda mütləq qonşularla da maraqlanırdı. Hamınız sağ olun ki, oğluma belə böyük ehtiram göstərirsiniz.

Sakitcə onların söhbətinə qulaq asan digər qonşu Şükür İsgəndərov da söhbətə müdaxilə edir:

– Aydın elə bir gənc idi ki, onun kimilər indi o qədər də çox deyil. Mən özüm hərbçi olmuşam.Aydın haqqında elə maraqlı hadisələr bilirəm ki... Bilirsiniz ki, Heydər Əliyevin məlum müraciətindən sonra Suraxanı rayonu könüllülər batalyonunun şəxsi heyətlə iş üzrə batalyon komandirinin müavini kimi əvvəlcə Füzuli rayonunun 26 kəndinin işğaldan azad olunması uğrunda döyüşlərdə iştirak etmişəm, atəşkəs gününə bir gün qalmış Tərtər rayonunun Qapanlı kəndi ətrafında ağır döyüşlərdə yaralanmışam. Siz bir dünyanın işinə baxın ki, mən yaralandığım Qapanlıda Aydın şəhid oldu... O vaxt mən bir neçə dəfə evə hərbi geyimdə gəlmişəm. Aydın həmin vaxtlar uşaq idi. Mənim geyimimə çox maraqla, həvəslə baxırdı. Sonra iş elə gətirdi ki, mən onun idman müəllimi oldum. Asudə vaxtlarımızda Qarabağdan, döyüşlərdən, igidlərimizin qəhrəmanlığından danışırdım. Onun vətənpərvər gənc kimi yetişməsində mənim də əməyim olub. Odur ki, onunla həmişə fəxr edirəm. Aydın Tərtər camaatının da, bizim də qəlbimizdə böyük izlər qoyub. Həm tələbəm olub, həm də qonşum, mən onun ürəyinə, ruhuna bələd idim. O hər an şəhid olmağa hazır idi.

Şükür müəllim danışdıqca, hər kəs maraqla ona qulaq asırdı.

Söhbətin şirin yerində həyətə bir xanım daxil oldu. O, taksidən düşərdüşməz, kişilər ayağa durdular. Həmin xanım Abdullayevlər ailəsinin evini soruşdu. Əmirsoltan kişi irəli yeriyib:

– Mən Aydının atasıyam, buyurun, gedək evə, – dedi.

Xanım Əmirsoltan kişi ilə yuxarı qalxdı.

– Mən Aydına orta məktəbdə dərs demişəm. Həm də əvvəllər sizin qonşuluqda yaşamışam, sonra burdan köçüb getdik. Bu günlərdə məktəbə gəlmişdim, divarda Aydının şəklini görüb çox pis oldum. O mənim ən yaxşı şagirdlərimdən biri idi. Adım Kəmalədir.

Kəmalə xanımın gəlişi Sevil ananı bir qədər dirçəltdi:

– Çox sağ ol, qızım, bizi yada salmısan, Aydının şəhid olmağına indi yanmıram, çünki onu sizin kimi yada salan adamlar çoxdur. Elə bilirəm

ki, Aydın yaşayır, yenə cəbhə xəttindədir. Onsuz da son illər o, bizdən uzaqda olub.

– Çox sağ ol, ana, Aydını xatırlamaq borcumuzdur. Bir neçə şagirdim qəhrəmanlıqla şəhid olub. Mən onların hamısının anasının ağ saçlarından və ağ üzündən öpürəm.

Müəllimə danışdıqca kövrəlir, dəsmalla göz yaşlarını silirdi.

Qadınlar çay süfrəsi arxasında danışır, dərdləşir, kədərlərini bölüşürdülər. Divardan isə Aydının əzəmətli şəkli müəlliməsinə və anasına baxırdı. Onun gözlərində qətiyyət, duruşunda vüqar var idi.

- Sevil ana, Aydın elə uşaqlıqdan vüqarlı idi. Həmişə qamətini dik tutub yeriyirdi. Heç vaxt onu boynuburuq, özünəqapanan görməmişdim. Həmişə öndə idi. Nə yaxşı ki, belə bir oğlanın başına sığal çəkib vaxtında ona xoş sözlər demişəm. Aydın Vətən üçün doğulmuşdu. O bu gün hər bir ailənin oğludur, hər bir ocaqda onun sevimli ruhu dolaşır. Şəhidlər xalqındır axı, ona görə də hər ocağı ziyarət edirlər.

Müəllimə gəlişi ilə Abdullayevlər ailəsinə həqiqətən də bir yüngüllük gətirdi. Ata-ana ürəkləndi ki, Aydın hər könüldə, hər ürəkdə yaşayır. Şəhidi xalq, dövlət yaşadır.

## *Aydın əmisi oğlu Vüqarın xatirələrində...*

Zeyvənin lap yaxşı vaxtı idi. Dağlar qoynunda, yaşıl meşələrin ovcunda yerləşən Zeyvə kəndi Aydının dədə-baba kəndi idi. Deyirlər ki, insan da ağac kimidir, kökündən rişələnib qol-qanad açır, bar verir, ildırıma, tufana sinə gərir. Aydın uşaq vaxtı kəndə gələndə bura çox tez alışır, tay-tuşları ilə oynayırdı. Bu kəndin dünya görmüş qocaları Aydının gözündə qollu-qanadlı palıd ağacına bənzəyirdi, üzləri qırış-qırış, xatirələri şirin, nağılları bir aləm.

Aydının Zeyvədə qohumları, yaxınları yaşayırdı. Odur ki, atası onları həmişə kəndə gətirir, ayaqlarını torpaqda bir az da bərkitmələri üçün yurdu onlara sevdirirdi.

Vüqar Aydını düşündükcə, xəyallarında gah keçmişə gedir, gah da bu günün acı ayrılıq əzabı ilə üz-üzə gəlirdi. Əmisi oğlu nə yaşadı ki... Vüqar hər dəfə kəndə gedəndə gözləri hər yeri axtarırdı ki, bəlkə Ay-

dını gördü. Ümumiyyətlə, o, Aydının düşmənə can verməsini heç cür ağlına sığışdırmırdı. Çünki əmisi oğlu düşmənin ən zəif nöqtələrini əzbər bilirdi.

– Özünü niyə güllə qabağına atdı ki? Axı o, erməni hiyləsini, məkrini hamıdan yaxşı bilirdi. Özü deyirdi ki, qətiyyən ermənilərə etibar etmək olmaz. Çünki onlar goreşən kimi həmişə altdan-altdan işlərini görürlər.

Aydını ziyarətə gedərkən onun məzarı üstündə dəstə-dəstə güllər gördü Vüqar. Ona elə gəldi ki, güllər dilə gəlib danışacaq. Çünki hər gül bir rəng çalırdı. Vüqar aldığı qərənfilləri o biri güllərin üstünə qoydu. Sonra nə qədər boylandısa, molla gözə dəymədi ki, "Yasin" oxutsun. Duanı könlündən gələn sözlərlə özü oxudu. Məzarın önündə sükuta dalan Vüqarın qulağına səs gəldi. Arxaya dönəndə bir dəstə məktəblinin şəhidin məzarını ziyarət etməyə gəldiyini gördü. Ehtiram əlaməti olaraq gələnlərin qarşısına çıxdı. Müəllimə və şagirdlər əllərində gül dəstəsi Aydının məzarını ziyarət etdilər. Tarix müəlliməsi üzünü Vüqara tutaraq soruşdu:

– Yəqin hərbçi dostlarındansınız? Onlar Aydının məzarını ziyarət etmək üçün tez-tez gəlirlər. Hər dəfə də özləri ilə çoxlu gül və Azərbaycan bayrağı gətirirlər. Biz burada bir neçə dəfə olmuşuq, onun məzarının üstündə çox vaxt bayraq görürük. Aydın mənim şagirdim olub. Həmişə onu xatırlayıram. Şagirdlər onun döyüş yolunu əzbər bilir. Biz həftənin bazar gününü əsasən şəhidlərin məzarlarını ziyarət etməyə həsr edirik. Aydının qəbrini də ziyarət edirik. Buraya hər dəfə bir sinfin şagirdlərini gətirirəm. Uşaqlar şəhidin həyatını özlərinə bir nümunə sayır.

Müəlliməni dinləyən Vüqar dedi:

– Mən Aydının əmisi oğluyam. Hərbçi dostları da, siz də sağ olun ki, belə bir qəhrəmanı unutmursunuz. O çox gözəl qohum idi. Qeyrətli vətəndaş, ləyaqətli gənc kimi hərbi xidməti seçdi. Onun həyatı əsl nümunə, örnəkdir.

Şagirdlər bir ağızdan Vüqardan xahiş etdilər ki, Aydından danışsın. Vüqar çaşıb qaldı. Aydından necə danışsın ki, igidin həyatını, döyüş yolunu, qəhrəmanlığını tam təsvir edə bilsin. Aydın ancaq hərbçi deyildi, idmançı idi, qohumların sevimlisi idi.

– Uşaqlar, sizin istəyiniz mənim xəyallarımı lap uzaqlara apardı. O yerlərə apardı ki, orada Aydın sağdır, qayğısızdır. Uzun illərdir mənfur qonşularımız torpaqlarımızı işğal altında saxlayır. Düşmən həmişə çirkin oyun oynayır. Amma o dərk etmir ki, illərdir Azərbaycan xalqına qarşı etdikləri öz başlarında çatlayacaq. Onsuz da Azərbaycan xalqı intiqam hissi ilə yaşayır və öz torpaqlarını düşməndən azad etməyə hər an hazırdır. Biz qisasımızı qiyamətə qoymayacağıq. Qələbəyə köklənən Azərbaycan Ordusu öz canı, qanı bahasına işğal altındakı torpaqlarımızı düşməndən təmizləmək üçün himə bənddir. Uşaqlar, bu yolda şəhid olmaq hər bir zabit və əsgər üçün böyük şərəfdir. Müharibə başlayandan indiyə qədər Vətən torpağı uğrunda çox oğullar şəhid olub, onlardan biri də əmim oğlu Aydındır ki, siz onu tanıyırsınız. Aydın hərbi xidmətdə olanda hər dəfə atasına deyirdi ki, ata, sənin üç yox, on üç oğlun var. O hərbçi yoldaşlarını da özünə doğma qardaş bilirdi.

– Aydının uşaqlığından danışın. O da hamı kimi idi? – deyə uşaqlar Vüqardan soruşdu.

– Aydın qətiyyən heç kəsə bənzəmirdi. O fərqli idi. Bizim kimi düşünmürdü, arzuları da, dünyaya baxışı da başqa idi.

Uşaqlar diqqətlə Vüqara qulaq asır, onun ağzından çıxan hər kəlməni yaddaşlarına həkk edirdilər.

– Aydın haqqında danışmaq mənim üçün həm şərəfli, həm də məsuliyyətlidir. Çünki o elə bir yolun yolçusudur ki, bu barədə böyük Allah Qurani-Kərimdə özü söz açır. Allah-təala şəhidləri nəinki ölməz, hətta öz yanında ruziyə çatan siddiq bəndələrindən adlandırır. Doğrudan da Aydın kimi igidlər öz canları bahasına cəmiyyətdə ölümsüzlük irsi qoyub getdilər. Bu irsi öyrənmək və Aydın kimi igid oğulların qəhrəmanlıqlarını gələcək nəsillərə ötürmək bizim ən böyük vəzifəmizdir. Aydının uşaqlıq illəri, demək olar ki, mənimlə bir yerdə keçib. Hər yay tətilində mən və Aydın Şabranın Zeyvə kəndinə gedirdik. Bizim orada çox gözəl uşaqlıq illərimiz keçib. O illərdən qalan xatirələr mənim üçün çox əzizdir. Kənddə olanda Aydınla tez-tez meşəyə gedərdik, meşə alması, meşə armudu yığıb yeyərdik, təbiətə baxardıq, oynayardıq. Maraqlıdır ki, yığdığımız meyvələri evə gətirib qardaş malı kimi yarı bölərdik. Aydın həm də güclü idmançı idi. O,

hələ uşaqlıq illərindən güləşlə məşğul olurdu. Bizim babalarımız da kənddə pəhləvan kimi tanınmışdı. Əmimin də arzusu bu olmuşdu ki, Aydını pəhləvan kimi böyütsün, o, babalarımızın peşəsini davam etdirsin. Hər yay kəndimizdə toy olanda "Cəngi" havası ilə Aydını meydana çıxarırdılar, o da meydanda dövr edər, güləşməyə rəqib axtarardı. Özündən böyüklərin kürəyini yerə vurardu. O, meydanda nərə çəkər, daha güclü rəqib axtarardı. Kənddə yaşlı insanlar deyirdi ki, Aydın böyüyəndə güclü pəhləvan olacaq. O, bizim nəslin fəxridir. Bir əmioğlu kimi həmişə onunla qürur duyuram. Hər yerdə onun haqqında danışır, onun qeyrəti, igidliyi ilə öyünürəm.

Uşaqlar, mən Aydına bir şeir həsr etmişəm. O şeiri oxuyum, siz də qulaq asın.

– Oxuyun, – deyə uşaqlar Vüqardan xahiş etdilər.

***İgid Aydın, gizir Aydın***
***Kim deyir ki, sən ölmüsən,***
***Kim deyir ki, yox olmusan,***
***Bəlkə təzə doğulmusan.***
***Bu Vətənin dar günündə***
***Öz canınla, öz qanınla***
***Bu torpağa yoğrulmusan,***
***İgid Aydın, gizir Aydın.***
***İgidliklə, ərənliklə,***
***Cəsarətlə, şücaətlə***
***Aydınlığa çıxarmısan***
***Bu Vətəni, bu bəşəri.***
***Günaydın, gizir Aydın,***
***Bu millətə arxa oldun,***
***Fəqət, Tanrı səni seçdi,***
***El yolunda sınaq oldun,***
***Soyuq, qarlı səngərlərdə***
***Gecələri yatmayaraq***
***Oyaq oldun,***
***Çıraq oldun gözümüzə***
***Gözün aydın, gizir Aydın.***

*Uşaqlıqdan şirin-şirin*
*Xatirələr düşər yada,*
*Özün yoxsan bu dünyada,*
*Əmin oğlu Vüqar ilə*
*Alma, armud yığa-yığa*
*Dolaşırdın o bağçada,*
*Hər çiçəkdə, hər ağacda*
*İzin qalıb,*
*İzin Aydın, gizir Aydın!*

Şagirdlər şeiri dinləyib kövrəldilər. Onlar da, öz növbələrində, Aydının məzarı başında Vətənə və şəhidlərə aid şeirlər söylədilər.

Vüqar şagirdlərdən ayrılıb evə gəldi. Çox fikirli və dalğın idi. Gənc yaşında torpağa qovuşan Aydının vaxtsız vəfatı onu yandırırdı. Hər dəfə kəndə gedəndə elə bilirdi ki, hamı ondan Aydını soruşacaq. Zeyvəlilər Aydınla fəxr edirdilər. Bu kəndin igidləri çox idi. Tarixən zeyvəlilər öz qoçaqlığı, comərdliyi, düşmənə qarşı barışmazlığı ilə ad çıxarmışdılar. Zeyvə igidləri xalqın dar günündə silahlanıb həmişə öndə gedirdi. Azərbaycanda sovet hakimiyyəti qurulanda bu quruluşa qarşı çıxanlar arasında zeyvəlilər də vardı. Onlar qırmızı orduya qarşı vuruşmuşdular. Aydın da bu kənddən idi. Niyə deyirlər ki, alma budağından gen düşməz. Aydın da öz kəndinin adamları kimi qorxmaz və cəsur idi. Əlbəttə, Vüqar bütün bunları fikrindən keçirdikcə, keçən günlər bir-bir gözü qarşısından keçirdi. Aydının qədd-qaməti, hərəkətləri, səsi Vüqara o qədər doğma idi ki...

*Bir-bir düşər,*
*Atlanan bir-bir düşər.*
*Səninlə keçən günlər*
*Yadıma bir-bir düşər.*

Bu bayatını vaxtilə babaları söyləyərmiş. Bu bir parça nisgil çələngi Vüqarın yadına hardan düşdü, özü də bilmədi.

Vüqarın yadına Aydının kiçik toyu düşdü. Bütün uşaqlar Aydının başına toplaşmışdı. Hələ şəkilləri də vardı. O şəkillərdə Aydın uşaqlıqdan boylanırdı, elə Vüqar da.

– Ah gözəl uşaqlıq, nə ayrılıq dərdi çəkirdin, nə də ölüm, özümüz üçün şən-qayğısız yaşayırdıq.

Vüqar köks ötürdü. Aydının yarımçıq ömrü onun qəlbini yaralamışdı. Aydın həmişə ona arzularından danışırdı. Onun arzuları qəhrəmanlıqla, torpaqla bağlı idi. Hər dəfə Vüqarla görüşəndə deyirdi ki, əmioğlu, az qalıb, torpaqlarımızı düşməndən tezliklə azad edəcəyik.

Vüqar ağlından keçirdi ki, insan heç vaxt taleyindən qaça bilməz, çalışsa da bu mümkün deyil. Əslində, insan doğulduğu gündən haqqın dərgahına qovuşduğu günə qədər öz içindən kənara çıxa bilmir. Kimsə çıxa bilsə də, o mütləq çoxluğa bənzəməyən birisi olmalıdır ki, fədakarlıq göstərib fərqlənsin. O fikirləşirdi ki, gözünü belə qırpmadan canını Vətən yolunda qurban verən insanlar öz daxilindən çıxmağı bacaran insanlardır ki, onlar həmişə xatırlanır. "Belə insanlar Aydın kimi fədakarlardır", – deyə Vüqar pıçıldadı. Axşam düşmüşdü. Hər tərəf sakitlik idi. Vüqar çölə çıxdı. Hava qaralmışdı. “Nə yaman qaranlıq gecədir”, – deyə öz-özünə danışdı. İti addımlarla irəliyə tərəf getməyə başladı. Fikri əmisigilə getmək idi. Ürəyindən keçirdi ki, əmisi ilə diz-dizə oturub Aydından danışsınlar, Nicatla, Cavadla onu yada salsınlar. Vüqarın bütün günü Aydınla bağlı olmuşdu. Aydın Günəş şəfəqi ilə Vüqarın içinə axıb dolmuşdu. Ona elə gəlirdi ki, Aydının şəhid olması ilə dünyanın bir tərəfi boşalıb. Haqlı idi, hər insan özü bir dünyadı. Vüqarın dünyasında bir boşluq vardı. O boşluğu isə doldurmaq çətin idi. Vüqar həmişə Aydının səsini eşitmək istəyirdi. Telefonun yaddaşını axtarırdı ki, bəlkə Aydının səsini tapa bildi. Amma tapa bilmirdi. O, Aydını xatirəsi hopan şəkillərdə, bir də şəhidin uyuduğu məzarlıqda tapa bilirdi. Aydın əbədi yuxuya getmişdi.

“Deyirlər ki, Aydın kimi qəhrəmanlar dünyaya əsrlərdən sonra bir də qayıdır. Kaş Aydın bir də gələydi dünyaya”, – deyə Vüqar ürəyindən keçirdi... Vüqar qaranlıqda irəliləyirdi. Qəfildən gözü əmisigilin pəncərəsinə qonan işığa sataşdı. İçində Aydının bu dünyaya bir də qayıdacağına bir ümid göyərdi...

## *Oğulun ucaldığı şəhidlik zirvəsi anaya böyük təsəllidir...*

Elə bil milyon il idi ki, dünyada idi, hər şeydən doymuşdu. Bəzən fikirləşirdi ki, kaş bir kimsəsiz ada olaydı, canını götürüb ora sığınaydı. Ancaq o ada xəyallarında və yuxularında görünürdü. Hər səhər dan yeri ağarar-ağarmaz, pəncərənin pərdələrini qaldırıb göy üzündə son ulduz sönənə qədər səmadan gözünü çəkmirdi. Ürəyindən keçirirdi ki, ulduzlar xoşbəxtdir. Ona görə xoşbəxtdir ki, gecələr yenidən göylərin yaxasına düzülür. İnsan isə heç vaxt tam xoşbəxt ola bilmir.

Çünki itirdiyini sonradan qaytara bilmir. Ana da balasını itirmişdi. Balasını itirdiyi gündən sancı içində qovrulurdu. Sancmayan yeri yox idi. Elə bil ağrı iynə olub canı boyu gəzişirdi, arada bir də ürəyindən sancırdı. Sevil ananın içində bir sual vardı ki, hey onu incidirdi. Aydını hər gecə yuxuda görsə də, heç vaxt balasına toxuna bilmirdi. Sanki Aydınla onun arasında şəffaf bir şüşə vardı, onlar bir-birini şüşədən görürdü. Ana hər dəfə şəhid oğlunu röyasında görəndə ona toxunmaq istəyirdi, ancaq əlləri havadan asılı qalırdı. Şəhid anası qara geyib, qara bağlayar başına. Həmişə matəmdə olar şəhid anası, üzü gülməz, təbəssüm birdəfəlik onun çöhrəsini tərk edər. Ananın içində bir inilti vardı bu biçimdə. Dörd il idi ki, oğlu şəhid olmuşdu. Dörd il idi ki, hər gün oğlunu gözləyirdi, həmişə onun qayıdacağına inanırdı. Ananın şəhid oğlu ilə bağlı arzuları çox idi, lap çox. İstəyirdi ki, balasının adı əbədiləşdirilsin, ölümündən sonra ona ad verilsin, haqqında kitab yazılsın. Ana çox istəyirdi ki, Aydının qısa, lakin mənalı ömrü kitablaşsın. O inanırdı ki, oğlunun döyüş yolu, cəbhə həyatı, səngərdə keçirdiyi günlər qələmə alınsa, Aydını əbədi yaşayacaq. Həmişə həyat yoldaşına deyirdi:

– Soltan, mən onsuz da xəstəyəm, dərdimin çarəsi yoxdur. Birdən ölərəm Aydın haqqında kitab yazılmaz.

Əmirsoltan kişi arvadına təsəlli verirdi:

– Ay Sevil, ölümdən nə danışırsan... O kitabı yazan tapılacaq, narahat olma. Sən gözünlə görəcəksən o günü...

Əmirsoltan kişi xəstə arvadını min cür şirin dillə ovudurdu.

Aydın şəhid olduqdan sonra Əmirsoltan kişinin ürəyi lap nanə yarpağı kimi titrək olmuşdu, ən xırda bir söz də ona təsir edirdi.

– Soltan, Aydının səsi yadında qalıb?

Arvadının verdiyi qəfil sual kişini bir anlıq susmağa məcbur etdi. Gözündən yaş süzülən Əmirsoltan kişi dilləndi:

– De heç o səsi unutmuşam ki... Uşaqlıq səsi də qulağımdadır hələ.

– Soltan, Aydının səsini milyonlarla adamın arasından seçib tanıya bilərəm. Gözlərim kor olsa belə, ürəyimlə hiss edərəm balamı. Saçına sığal çəkərəm, boyunu sevib oxşayaram, üzündən öpərəm, bağrıma basaram, onun üçün nələr etmərəm, nələr...

Sevil ana danışdıqca həyəcanlanır, dərin sarsıntı keçirirdi.

Əri otaqdan çıxdıqdan sonra dərin fikrə daldı. Fikri elə dolaşıq idi ki... Boynundakı muncuğu oynada-oynada dolaşıq fikrinin düyünlərini açmağa çalışırdı. Ancaq nə illah edirdisə, fikrinin ilgəyi əlinə keçmirdi. O qədər hövsələsiz idi ki, nə edəcəyini bilmirdi, hirsini-hikkəsini muncuqdan çıxmaq istəyirdi elə bil. Başından qara yaylığını çıxarıb dizlərinin üstünə sərdi, pərişan saçlarını dəstələyib bağladı, sonra yaylığı başına çəkdi. Ana dörd il idi ki, ümidsizlik məngənəsində sıxılırdı. Fikir etməkdən canında can, ürəyində təpər qalmamışdı. Ananı rəncidə edən səbəb vardı. Oğlunun kiçik toyunun videokasetini heç yerdə tapa billmirdilər. Hara qoymuşdular, kimə vermişdilər, yaddan çıxmışdı. Ana hər yerdə oğlunun səsini gəzirdi. Oğlanlarına, gəlinlərinə deyirdi:

– Siz də evə baxın, görün Aydının kiçik toyunun kaseti sizdədirmi? Heç yerdən tapa bilmirəm. Kimin telefonunda balamın səsi var, diskə yazdırıb mənə versin, darıxıram onun səsi üçün. Bir daha balamın səsini eşitsəm, xəstə canım sağalar bəlkə də. Öz telefonunda da səsi vardı, başımız qarışdı, fikir vermədik, telefondan da səsi pozulub. Ay başınıza dönüm, hanı balamın səsi?

Sevil ana qüssəli-qüssəli danışır, suallarına cavab axtarırdı. Nəvəsinin köməkliyi ilə kreslodan ayağa qalxmağa çalışırdı ki, dolablara bir də baxsın, bəlkə Aydının kiçik toyunun kaseti oralardadır.

Uşaqlar anaya dedilər ki, gecə səhərəcən yatmayıb, gedib gözünün çimirini alsın. Yalvar-yaxar edib Sevil ananı yatmağa göndərdilər. Ana çox çətinliklə yuxuya getdi.

Hər tərəf işıq idi. İşıq adamın gözünü qamaşdırırdı. İşığın içində Aydının siması görünürdü. Ana əllərini irəli uzadıb balasına toxunmaq istəyirdi. Ancaq nə qədər edirdisə, əlləri ona çatmırdı. Bir addımlıqda dayanmışdı Aydın. Saçları pərişan idi ananın, qara yaylığı çiyinlərinə sürüşüb düşmüşdü. Həyəcandan nəfəsi tutulurdu. Oğlu yerindəcə donub qalmışdı. Ana yenə əllərini oğluna sarı uzatdı, yenə də əli çatmadı.

– Aydın, sənə niyə əlim çatmır, nə üçün sənə toxuna bilmirəm. Saçını sığallamaq, səni bağrıma basmaq istəyirəm. Amma əlim sənə çatmır ki, qucaqlayam boynunu.

Aydından səs çıxmırdı, ananın səsi isə qarşıdakı dağlarda əks-səda verirdi. Ana ilə oğul dağlar qoynunda görüşmüşdü. Dağlardan əsib gələn meh Aydının saçını dalğalandırırdı, bircə ananın əlləri çatmırdı ona. Ana oğluna tərəf baxıb ona yalvarırdı: "Qurban olum, bala, evimizə qayıt, burada tək-tənha nə edirsən? Ac-susuz bu çöllərdə nə işin var sənin?"

Aydın başını qaldırıb əvvəlcə anasına, sonra isə göyə baxdı. Sanki yavaş-yavaş ananın qarşısından uzaqlaşırdı Aydın. Hansısa bir qüvvə onu göylərə dartırdı. Ana yenə əllərini oğluna sarı uzatdı: "Getmə, oğlum, nə olar getmə...".

"Ana, mən artıq göylərdəyəm. Oradan hər gün sənə baxıram", – deyib Aydın qeybə çəkildi.

Ana qan-tər içində yuxudan ayıldı.

– Aydın niyə qaçır axı məndən? Bilmirmi ki, xəstənin könlü nar istəyən kimi, mənim də könlüm onu istəyir, – deyə arvad ağlamsındı.

Sevil ana nəvəsi Leylini səslədi:

– Qızım, gəl bura.

– Nə deyirsən, nənə?

– Qızım, şkafın siyirməsindən Aydın əminin dəftərini gətir bura.

– Yaxşı, nənə, indi gətirərəm.

Leyli Aydının əl boyda dəftərçəsini gətirib nənəsinə verdi. Sevil ana əlləri titrəyə-titrəyə dəftərçəni vərəqləməyə başladı... Hər gün şeiri təkrar edirdi.

– Ürəyinə qurban, Aydın, sən mənə nə qədər şeir yazıbsan, məni nə qədər çox istəyirmişsən. Ürəyim heydən düşüb artıq, bala, dözümüm qalmayıb heç.

Əmirsoltan kişi xeyli keçdikdən sonra əlində kitab evə qayıtdı. Aydın şəhid olandan sonra kişi yaman kövrək olmuşdu, harada şəhidlərə aid bir kitab, yaxud şeir görürdüsə, onu evə gətirib arvadına oxuyurdu. Budəfəki kitab Nəzakət xanımın Türkiyədə nəşr olunan şeirlər kitabı idi. O, kitabı arvadına göstərərək:

– Sevil, burada bir yaxşı şeir var, oxudum ürəyimin yarası yenidən qanadı. Elə bil ki, sənə yazılıb bu şeir...

– Oxu görüm...

– Nəzakət xanım yazır: "Əsl məhəbbətin dəyərini analar bilir. Ən böyük sevgi də anaların qəlbində yaranır. Heç bir sevgi ana məhəbbətini, ana şəfqətini əvəz edə bilməz. Yaranışın möcüzəsi, dünyanın əvəzsiz, bənzərsiz varlığıdır analar. Sevgisi də, hikməti də təmənnasız olan analar...

Analar bəşəriyyətin əxlaq zəmanətçiləri, ruh, mənəviyyat daşıyıcılarıdır. Ən güclü, ən dözümlü, dəyanətli varlıqdır analar. Bəlkə elə bu səbəbdən də torpaq uğrunda şəhid verdikləri övladlarının dərdinə tablaşır, onlardan ayrıla, üzülə bilmirlər. Bu yerdə Sokratın bir fikrini xatırlayıram: "Qırılması mümkün olmayan yeganə tel ana ilə övlad arasındakı teldir". Bu teli qırmaqda ölüm də gücsüzdür...

Övlad itkisi ən ağır dərd, bu dərdlərin ən şərəflisi də şəhid anası olmaqdır. Ancaq bu şərəfə, bu qürura söykənib dağdan ağır dərdi çəkə bilir analar. Çünki şəhidlik ən uca zirvədir.

Diz çöküb məğrur dözümün, səbrin, iradən qarşısında baş əyirəm, əhid anası!".

## Haqqa qovuşduran şəhid zirvəsi

***Göyləri titrədir ahı, naləsi,***
***Ana layla deyir qəbir daşına.***
***Hər gün qucaqlayıb soyuq məzarı,***
***Sanki gəlib keçir beşik başına,***
***Həzin layla çalır qəbir daşına.***

***Oğullar içində gəzir oğlunu,***
***Güc verir gözünün həsrət yaşına.***
***O qədər sözü var, kimə desin ki,***
***Dərdini söyləyir məzar daşına,***
***Ana sığal çəkir qəbir  daşına.***

***Gündə bir arzusun söyləyir ana:***
***Axı heç keçmədin bəy otağına.***
***Xonçanı tutmadım, xına yaxmadım***
***Gülüzlü gəlnimin əl-ayağına,***
***Ana gileylənir qəbir daşına.***

***Göylərə yalvarır məni də apar,***
***Sözümü deməyə çatım taxtına.***
***Göylərdən səs gəlir: Sənin oğlunun***
***Şəhid ucalığı düşüb bəxtinə.***
***Ana layla deyir şəhid oğluna.***

***Oğlunun qəbrinin üstünə gedən***
***Ananın harayı dərdin səsidir.***
***Tanrı dərgahında uca sayılan***
***Oğlunun yetdiyi şəhid zirvəsi***
***Ananın yeganə təsəllisidir."***

Hər ikisi şeirdən çox təsirlənmişdi. Əmirsoltan kişi həyat yoldaşına üzünü tutaraq:

– Sevil, elə bil bu şeir sənin üçün yazılıb. Sanki o bizim evdə oturub, müsibətimizi gözü ilə görüb. O qədər təsirli yazıb ki, şeiri...

Bu şeir oğlunun məzarı başında daş heykələ dönmüş, göz yaşı axıdan ana heykəlinə yazılıb. Daşlar ağlayarmı? Yox, bu ağlayan, sızlayan dərd daşıdır. Eləcə gecə-gündüz göz yaşı axıdacaq. Daşları yarıb çıxan bulaqlar da bəlkə elə anaların kəsilməyən göz yaşıdı.

– Soltan, bu şeiri çərçivəyə sal, qonaq otağından asaq. Hər gün oxumaq istəyirəm onu. Çünki bu şeirdə mən özümü görürəm.

Sevil ana gözlərini bir nöqtəyə dikib dayanmışdı. Gözü yol çəkirdi. Amma yaxşı bilirdi ki, gözlədiyi bir daha qapını açıb içəri girməyəcək. Ananın ümidləri də özü kimi yorğun idi. Çiyinlərində və ürəyində dörd ilin qüssə, həsrət yükü vardı ananın. Cəmi 23 bahar görmüş balasının ona yadigar qoyub getdiyi dərdi əbədi yaşamağa məhkum edilmişdi o.

Arvadını fikir qasırğasında görən Əmirsoltan kişi dünən səhər baş verən bir hadisə ilə Sevil ananı ovutmaq istədi:

– Başım elə qarışıb ki, sənə bir xəbəri çatdırmamışam. Dünən Aydının qəbri üstünə gedəndə onun məzarının üstündə yenə gül-çiçək gördüm. Kimsə tez-tez yada salır balamızı. Elə Aydının məzarına yenicə çatmışdım ki, Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Aydının məzarını ziyarət etməyə gəldi. Çox sağ olsun, oğlumuzun ruhuna böyük ehtiram göstərir. Böyük ürəyi var İlqar müəllimin. Heç bir şəhid ailəsini unutmur. Belə nəcib, xeyirxah, əsl ziyalı rəhbər işçilərə xalqımızın böyük ehtiyacı var. Bu hər bir şəhid ailəsinə böyük təsəllidi. Ümid edirəm ki, Aydının adının əbədiləşdirilməsi də tezliklə baş verəcək. Ölkə rəhbərliyi, şəxsən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev şəhid ailələrinə, şəhidlərin ruhuna böyük ehtiram göstərir.

Sevil ana da, Əmirsoltan kişi də prezident İlham Əliyevdən, Suraxanı Rayon İcra Hakimiyyəti rəhbərliyindən yerlə-göy qədər razıdırlar. Çünki onlar heç vaxt Aydının ailəsini unutmurlar.

Axşam tərəfi idi, qapının zəngi çalındı. Balaca Fatimə anasından əvvəl qapıya tərəf qaçdı.

– Kimdir?

– Fatimə, mənəm, Vəfa bibin.

Fatimənin anası Roza qapını açdı. Vəfa özü ilə evə bir dünya işıq, sevinc gətirdi. Vəfa sevimli bibisinin boynuna sarıldı.

Vəfa Aydının xalası qızı idi. Ona Aydın da, qardaşları da bacı deyirdi. Uşaqlıqdan Aydınla birgə böyümüşdü. Qardaş-bacı doğmalığı, məhəbbəti vardı aralarında. Hərdənbir onlara elə gəlirdi ki, heç xalaoğlu, xalaqızı deyillər, doğmaca qardaş-bacıdılar. Vəfa xalasının iztirab çəkdiyini, tez-tez xəstələndiyini, ağrılarla çarpışdığını yaxşı bilirdi.

– Xalam haradadır, – deyə Rozadan soruşdu.

– Qonaq otağında kresloda oturub.

Vəfa qonaq otağına keçdi, xalasını məyus görüb kövrəldi. Boynunu qucaqlayıb başını  köksünə söykədi.

– Qadan alım, ay xala, eşitdim yenə xəstələnibsən, indi necəsən?

– Sağ ol qızım, babatam indi.

Baş-başa verib xeyli dərdləşdilər, Aydından danışdılar. Vəfa gözləri dola-dola:

– Xala, hər gecə qaqaşımı yuxuda görürəm. Bu gecə gördüm ki, bizə gəlib, özü də uçan xalçada. Qəribə yuxu idi.

– Aydın bizim milli xalçalarımızı çox sevirdi, bala. Bilirsən ki, bizim Şabran qadınları tarixən xalçaçılıqla məşğul olub. Şabran xalçaları bu gün də öz gözəlliyi, çeşniləri ilə seçilir. Rəhmətlik qayınanam İşvə ana xalçaçı idi. O, saysız xalça toxuyub. Bu xalçaların hər biri bir dünyadır. Özü də ki, onun toxuduğu xalçalar indi də muzeyləri bəzəyir.

İşvə ana nəvələrinin hamısını çox istəyirdi, amma Aydına ayrı cür sevgisi vardı. Aydını görəndə arvadın gözlərinə işıq gəlirdi. Hər dəfə Zeyvəyə gedəndə görürdük ki, xalça toxuyur. Hey deyirdi ki, ən böyük arzum Aydının adına xalça toxumaqdır. Qayınanam deyirdi ki, Allah möhlət versin, balamın bəylik otağına bir xalça toxuyum. Amma ömür vəfa etmədi, qızım, qayınanam rəhmətə getdi. Yaxşı ki, o, Aydının müsibətini yaşamadı, qızım.

Vəfa gözlərini Aydının divardan asılan şəklinə dikmişdi.

– Xala, bayaq bloka girəndə Aydının xatirə lövhəsinə o qədər tamaşa elədim ki...

– Sağ olsun qonşumuz Fazil qardaş, o lövhəni ora o vurdurdu. Aydına əmi qədər hörmət etdi. Allah yaxşı qonşuların, xeyirxah insanların dadına yetsin. Aydın şəhid olandan sonra nə Fazil qardaş, nə də Dürrə xanım bizdən ayağını kəsmədi, qohum-əqrəba qədər bizə yandılar, qayğımıza qaldılar, dərdimizə şərik oldular. Biz onlardan o qədər qayğı, sevgi görmüşük ki, deməklə qurtarmaz. Atalar yaxşı deyib, uzaq qohumdan yaxın qonşu yaxşıdır.

– Xala, bütün yaxşı insanlar sağ olsun. Fazil dayı Aydının yas mərasimində əvvəldən axıra qədər iştirak etdi, bizə dayaq oldu. Dürrə xala da biz ağlayanda ağladı, biz kiriyəndə kiridi. Mənim qaqaşımı hamı çox istəyirdi, xala.

Bu il sentyabrın 29-da Aydının 27 yaşı tamam olacaq. Dörd ildir qardaşımın boyunu yox, məzar daşını qucaqlayırıq. Qaqaşım üçün elə darıxıram ki. Onun zarafatları, şirin söhbətləri heç yadımdan çıxmır. Hara gedirəmsə, orada qaqaşımın izini görürəm.

Zeyvədə də hamı qaqaşımı çox istəyirdi. Qaqaşım da zeyvəliləri çox istəyirdi. Yay gələn kimi deyirdi ki, bacı, kəndə gedək.

– Taleyin işidir, qızım, fələk yazanı biz poza bilmərik. 23 il yaşadı, ancaq elə yaşadı ki, hamının yadında qaldı. Balamın şəkli ilə hər gün danışıram, hər gün deyirəm ki, bala, gözlərinə qurban, nə vaxt qayıdacaqsan? Gözləri gözümə deyir ki, mən heç yerə getməmişəm, evimizdəyəm, xatirələrinizdəyəm, ürəyinizdəyəm, sənin gözlərinin yaşındayam, ana.

Mən çox bəxtəvər idim, qızım, Aydın məni bəxtəvərlik taxtımdan endirdi. İndi Aydının qara yaylıqlı, ürəyi qubarlı, boynubükük anasıyam... “Mən şəhidlik zirvəsinə ucalmışam, bu sənin üçün təsəlli deyilmi?” – deyir. Böyük təsəllidir, oğlum, şəhid adına, qəhrəman zirvənə qurban.

Ana hönkürdü, Vəfa da ona qoşuldu. Divardan Aydının şəkli boylanırdı. İki ürək parçasının naləsi şəhidin sükuta dalmış şəklini də ağladırdı. Analar, bacılar ağlamasın deyirdi Aydın. Amma özü ana və bacısını, xalasını, doğmalarını ağlar qoyub torpağa köçdü. Torpağa köçənlər geri qayıtmasa da, ruhları həmişə bizim yanımızda olur.

Şəhid Aydın, igid Aydın, Vətən torpağına baş qoyub elə yatırsan ki, sanki anan Sevilin dizlərinə baş qoymusan. Əbədi həyatın, uca şəhidliyin mübarək!

## MƏNİM ŞƏHİD BALAM, LAYLAY,
## MƏNİM UCA QALAM, LAYLAY

*Xalası Esmiranın Aydına ağısı*

Qırx gündür ki, ağlayıram,
Başa qara bağlayıram.
Mən sənə yas saxlayıram
Mənim cavan balam, laylay,
Şəhid olan balam, laylay.

Özün getdin adın qaldı,
Ağzımızda dadın qaldı,
Ağlar qardaşların qaldı
Mənim cavan balam, laylay.

Könül deyir yarım hanı?
O əhdim-ilqarım hanı?
Aydın vəfadarım hanı?
Qara arzularım laylay,
Körpə quzularım laylay.

Xalan deyir,  büzüşmüşəm,
Gör nə günlərə düşmüşəm.
Mən Aydınlardan küsmüşəm
Cavan Aydınlarım laylay,
Şəhid Aydınlarım laylay!

Gün tək çıxıb, Ay tək batdın,
Qara torpaqlarda yatdın.
Əmirsoltanı qocaltdın,
Mənim qönçə balam laylay,
Qəlbi incə balam laylay.

Qəlbimi qəm-qübar əzir,
Gözüm hey axtarır, gəzir,
Ürək dərdə necə dözür,
Mənim şəhid balam laylay,
Mənim uca qalam laylay.

Gələnlər ayrılar bir gün,
Baxaram  hey qəmgin-qəmgin.
Mənə qalan bircə şəklin
Mənim cavan balam laylay,
Şəhid olan balam laylay!

## ƏLVİDA, ƏLVİDA , EY ULU VƏTƏN

*Qəhrəman şəhid Aydın Abdullayevə ithaf edirəm*

A dostlar, anamı yetirin mənə,
Başımın üstündə bir az ağlasın.
Durmayıb, ürəyim hələ döyünür
“Bayatı Şiraz”ım asta çağlasın.

23 baharı təzəcə keçdim,
Dostu da tanıdım, düşmən də seçdim.
Ölüm badəsini belə tez içdim
Qoymayın Könülü qara bağlasın.

Halımdan deyiləm bilin naşükür,
Vətənin yolunda ölürəm, şükür.
Atama, anama edin təşəkkür,
Yurdumu, yuvamı Allah saxlasın!

Bir də unutmayın, düşmən kinlidi,
Çörək itirəndi, çox məkrlidi.
Bu ana torpağım toy-düyünlüdü
Cavanlar əhd edib peyman bağlasın.

Əlvida, əlvida, ey ulu Vətən,
Xiffət eləməsin millətim məndən.
İgidlər dünyaya gələr yenidən,
Şəhidin xətrini əziz saxlasın.

Son anda yalvardı basdırın burda,
Apara bilməzsiz bu vurhavurda.
Ora da, bura da Vətən bağıdı,
Ana qucağıdır, el torpağıdır.
Söyləyib gözünü yumdu əbədi,
Çəkdi nəfəsini daha gəlmədi.

## ŞƏHİD QARDAŞIM

*Tərtər bölgəsində şəhid olan*
*Aydın Əmirsoltan oğlu Abdullayevin*
*ruhuna ehtiramla...*

Xalqın kəsiləndə bəndi-bərəsi,
Ucaldı göylərə igid nərəsi,
Söylədin – canımdı yurdun dərəsi,
Dağı, daşı canım, – şəhid qardaşım!

Varıq bu həyatda, yalan deyilik,
Düşmən ərənində talan deyilik,
Biz ölüb gedirik, qalan deyilik, –
Qalıb yaşayanım – şəhid qardaşım!

Dözdük neçə ili, saydıq hər günü,
Tanıdıq bu yurdun, elin mərdini,
Torpaq həsrətini, vətən dərdini
Çəkib daşıyanım – şəhidim mənim!

Keçdin qayaları, qırdın qəfəsi,
Sənin nəfəsindi, xalqın nəfəsi,
Bu sonsuz istəyi, eşqi, həvəsi,
Axı, necə danım, şəhid qardaşım!

Gülsün arzuların, gülsün baharın,
Çoxdan əsəbimiz çəkilib tarım,
Sənsən bu dünyada arxam, vüqarım,
Mənim adım-sanım – şəhid qardaşım!

*10.04.2016*

## HAQQA QOVUŞDURAN ŞƏHİD ZİRVƏSİ

Göyləri titrədir ahı, naləsi,
Ana layla deyir qəbir daşına.
Hər gün qucaqlayıb soyuq məzarı,
Sanki gəlib keçir beşik başına,
Həzin layla çalır qəbir daşına.

Oğullar içində gəzir oğlunu,
Güc verir gözünün həsrət yaşına.
O qədər sözü var, kimə desin ki,
Dərdini söyləyir məzar daşına,
Ana sığal çəkir qəbir daşına.

Gündə bir arzusun söyləyir ana:
– Axı, heç keçmədin bəy otağına.
Xonçanı tutmadım, xına yaxmadım
Gülüzlü gəlnimin əl-ayağına.
Ana gileylənir qəbir daşına.

Göylərə yalvarır məni də apar,
Sözümü deməyə çatım taxtına.
Göylərdən səs gəlir: – Sənin oğlunun
Şəhid ucalığı düşüb bəxtinə.
Ana layla deyir şəhid oğluna.

Oğlunun qəbrinin üstünə gedən
Ananın harayı dərdin səsidir.
Tanrı dərgahında uca sayılan,
Oğlunun yetdiyi şəhid zirvəsi,
Ananın yeganə təsəllisidir.

## NİŞANLI AYDINIM, ŞƏHİD ƏSGƏRİM
*(Şabranlı balası şəhid Aydın Əmirsoltan oğlu Abdullayevə)*

Şabrandı, Zeyvədi ana diyarı,
Ürəkdən sevirdi elini Aydın.
Hamıya can deyib, can eşidərdi
Bilərdi quşun da dilini Aydın.

Yeni Günəşlidən çağrıldı əsgər,
Gəncədə ötüşdü həftələr, illər.
Qurtardı xidməti gəldi xoş xəbər,
Dostlar gəlib sıxdı əlini, Aydın.

Nə qədər ki, azad olmayıb Vətən,
Dedi: kəşfiyyatçı olacağam mən.
Zabit olub, məktub gəldi Tərtərdən
Qırdı düşmənlərin belini Aydın.

Sevillə Esmira qız axtardılar,
Könülü Aydına nişanladılar.
Nicat, Cavad, Vəfa qanadlandılar,
Kim bilir Yaradan biləni, Aydın?

Toyuna bir neçə gün qalan zaman,
Qəfil xəbər aldıq şəhid olmusan.
Qismətini belə yazdı Yaradan,
Gəlmədi evinə  gəlinin, Aydın.

Sevil, Vəfa, Könül saçını yoldu,
Nicatın, Cavadın gözləri doldu.
Şəhidlik zirvəsi qismətin oldu,
Əysə də atanın belini Aydın.

Əmirsoltan dedi, oldu xəbərim,
Haşımam dilimdə oldun əzbərim.
Nişanlı Aydınım, şəhid əsgərim
Seçdi əbədiyyət yolunu Aydın!

## VƏTƏN DEDİ, DOYMADI

Şabranda dünyaya göz açdı Aydın,
Ana dedi, Vətən dedi doymadı.
Yeni Günəşlidən xidmətə getdi,
Vətən eşqi onu sakit qoymadı.

Gəncədən xidmətə getdi Tərtərə,
Kəşfiyyatçı gizir gəzib dağ-dərə,
Düşmənləri diz çökdürdü yüz kərə
Bircə qarış torpağından qıymadı.

Əmirsoltan həmişə "can oğul" dedi.
Sevillə Esmira can qurban dedi.
Nicat qardaşına şir, aslan dedi,
Qartal kimi düşmənləri saymadı.

Bacı kimi o, sevərdi Vəfanı,
Nişanlısı Könül dildə dastanı.
Sevirdi ana tək Azərbaycanı,
Xəyalı bəy olacağı toydadı.

Əfsus qəfil güllə boyadı qana,
Son sözü "can qurban Azərbaycana"!
Haşım, bir tərif de şəhid balama,
Bəy tərifi aşıqlarda qaydadı.

*Şərafət DAĞISTANLI,*

## AYDIN

*(Şəhid Aydın Əmirsoltan oğluna)*

Vətən üçün doğulmuşdu,
Cəsarətdən yoğrulmuşdu.
Silahlanıb quş tək uçdu
Qarabağa elin oğlu.
Onu uzağa apardı
Od-alovlu döyüş yolu.

Vətənim canımdı deyib,
Əsgər paltarını geyib
Nadanlara əyilməyib
Aydın Əmirsoltan oğlu.
Düşmənlərə qan uddurub
Əsl Azərbaycan oğlu.

Qarabağ uğrunda gedən,
Döyüşə könüllü gedən
İşğalçıları məhv edən
Aydın Əmirsoltan oğlu.
Xalqın əsl qeyrət tacı,
Əsl Azərbaycan oğlu.

Cəbhədə vuruşan zaman
Düşməni izləyib hər an
Verməmişdir ona aman,
İgid Aydın elin oğlu
Səkkiz düşməni məhv edib,
O yol açıb haqqa doğru.

Yad girsə də min bir dona,
Aman verməmişdir ona.
Qoymayıb bayrağı sına

Aydın Əmirsoltan oğlu.
Çox güclü idmançı idi
Əsl Azərbaycan oğlu!

Qədim tarixlərin səsi,
Eltəkinlər törəməsi.
Hünərinə hər bir kəsi
Heyran edib xalqın oğlu.
Qəhrəmanın ad günündə
Qanlı yasa döndü toyu.

Xalqın ağrısını duyub,
Nişanlısın tənha qoyub
Gedib torpağı qoruyub
Aydın Əmirsoltan oğlu.
Mehdi kimi cəsarətli
Əsl Azərbaycan oğlu!

Barmaqda nişan üzüyü,
Yollarda qoyub gözünü.
Şəhid eləyib özünü
Aydın Əmirsoltan oğlu.
Dönüb zəfər naməsinə,
Nakam ömrün qısa yolu.

O Ali Baş Komandanlı
Cəsur əsgər, vətəncanlı.
Xalqın əsl qəhrəmanı
Aydın Əmirsoltan oğlu.
Şəhidliyin zirvəsinə
Qalxıb Azərbaycan oğlu.

Torpaqları ala-ala,
Həm də zəfər çala-çala.
Tarixə iz sala- sala,
Yadda qaldı elin oğlu.
O həyatdan nakam köçdü,
Qəlbi arzularla dolu.

18.04.2016

## VƏTƏN ÇAĞIRIR MƏNİ, DÖYÜŞMƏYƏ HAZIRAM

Mən Aydın Əmirsoltan oğluyam,
Hər sözümdə, hər işimdə doğruyam.
Vətən üçün doğuldum, elimə çox bağlıyam.
Mən gedirəm döyüşə, ağlamasın qoy anam,
Bu yolda şəhid olsam, fəxr eləsin qoy anam.

Oğul deyib boy-buxunum sevdiniz,
Nişanladız, “xoşbəxt olun!”– dediniz,
Neyləyim ki, tez qırıldı sevgimiz.
Mən gedirəm döyüşə, ağlamasın qoy anam,
Bu yolda şəhid olsam, fəxr eləsin qoy anam.

Bu həyatda həmişə başı uca gəzdiniz,
Atam-anam sağ olsun, – nə lazımdır etdiniz,
Deyirəm mən görmədim, xoşbəxt olsun nəvəniz.
Mən gedirəm döyüşə, ağlamasın qoy anam,
Bu yolda şəhid olsam, fəxr eləsin qoy anam.

Atam-anam hər zaman, həm gərəyim-köməyim,
Hərdən darıxanda mən çox  ağrıyır ürəyim,
Mənim qadir Allahdan var istəyim, diləyim:
Mən gedirəm döyüşə, ağlamasın qoy anam,
Bu yolda şəhid olsam, fəxr eləsin qoy anam.

Aydın deyir bu yaşda nələr çəkdi bu başım,
Xain düşmən kor olsun, silinməzdir yaddaşım,
Bu qanı yerdə qoymaz Cavad, Nicat qardaşım.
Mən gedirəm döyüşə, ağlamasın qoy anam,
Bu yolda şəhid olsam, fəxr eləsin qoy anam.

## ŞƏHİD OLMUŞAM Kİ..

*(eloğlum gizir Aydın Abdullayevin xatirəsinə)*

Məzarımın önündə
Ağ saçını yolanım,
Əli qoynunda gündə
Xəyallara dalanım,
Qardaş qəmiylə başa
Qara bağlayan bacım,
Qardaş qəmiylə beli
Ay bükülən qardaşım,
Şəhidi ağlamazlar,
Ona yas saxlamazlar.

Əgər vətən yolunda
Şəhid olmuşsa əsgər,
Məzarını tutarlar
Doğma yurda bərabər.
Şəhidlik ucalıqdır –
Hamı qalxmayan zirvə.
Zirvə qan bahasına
Fəth olunur hər dəfə.
Mən Vətənin yolunda
Şəhid olmuşam ana,
Analar ağlamasın
Gərək şəhid oğluna.
Şəhidi ağlamazlar,
Ona yas saxlamazlar.

Mən şəhid olmuşam ki,
Vətən mənlə öyünsün.
Mən şəhid olmuşam ki,

Ulu xalqın ürəyi
Hey fərəhlə döyünsün.
Mən şəhid olmuşam ki,
Bir də “Qardaş, vay”, – deyib
Bacılar ağlamasın.
Mən şəhid olmuşam ki,
Nənələr ağ saçına
Qaralar bağlamasın,
Analar ağlamasın,
Şəhidi ağlamazlar,
Ona yas saxlamazlar.

Mən şəhid olmuşam ki,
Başına gül-çiçəkdən
Bacım çələng toxusun
Mən şəhid olmuşam ki,
Adıma oğul deyib
Vətən rəhmət oxusun.
Mən şəhid olmuşam ki,
Yurdsuz-yuvasız kimi
Yağı xalqa gülməsin.
Mən şəhid olmuşam ki,
Dünya ucada görsün
Azərbaycan ölkəsin.
Şəhidi ağlamazlar,
Ona yas saxlamazlar.

Mən şəhid olmuşam ki,
Dəfn olunduğum torpaq
Güllü vətənə dönsün.
Mən şəhid olmuşam ki,
Azərbaycan adıyla
Bütün dünya öyünsün.
Mən şəhid olmuşam ki,

Od-alovlar ölkəsi
Daim, daim yaşasın.
Mən şəhid olmuşam ki,
Mərd ərənlər ölkəsi
Azərbaycan yaşasın.
Şəhidi ağlamazlar,
Ona yas saxlamazlar.

Mən şəhid olmuşam ki,
Bir də şəhidlik dağı
Qəlbləri dağlamasın.
Mən şəhid olmuşam ki,
Azadlıq binasının
Sütunu laxlamasın.
Mən şəhid olmuşam ki,
Qanımla suvarılan torpaq
Gül-çiçək olsun.
Mən şəhid olmuşam ki,
Azadlıq ölkəsində
Xoşbəxt gələcək olsun.
Şəhidi ağlamazlar,
Ona yas saxlamazlar.

Mən şəhid olmuşam ki,
Yandırılan azadlıq
İşıqları sönməsin.
Mən şəhid olmuşam ki,
Yüksələn bayrağımız
Daha bir də enməsin.
Şəhidi ağlamazlar,
Ona yas saxlamazlar.

3 noyabr 2015

## UNUTMAZ

*(Aydın Abdullayevin xatirəsinə)*

Sən vətənin yolunda fəda etdin özünü,
Çıxardıb yaddan heç vaxt Vətən səni unutmaz.
Şücaətin əbədi qalar səndən nümunə,
Gələn yeni nəsillər, illər səni unutmaz.

Keçər əyyam, keçər dövr, gedər qanlı zamanlar,
Gülər üzlər, ürəklər, qalmaz bu ah-amanlar.
Salar hörmətlə yada səni növrəs cavanlar,
Əlvan həna yaxılmış əllər səni unutmaz.

Etsən də tərk həyatı ömrün bahar çağında
Sevginin gəzməsən də xoş ətirli bağında
Baş qoymasan da bir yol tər bir gül qucağında
Əfsus deyib sızıldar, güllər səni unutmaz.

Sən olmasan da hər vaxt seyr etdiyin çəmənlər,
Tər lalələr, süsənlər, ətirli yasəmənlər,
Mahnı qoşar adına xoş səsli nəğməzənlər
Şırıl-şırıl bulaqlar, göllər səni unutmaz.

Şəhid oğlum, rahat yat behişt olsun məzarın,
Nur ilə dolsun hər gün qəbrində dörd kənarın.
Nəfəs aldıqca Əmirsoltan atadır qəmküsarın
Ağlar, tökər gözündən sellər, səni unutmaz.

# QƏHİJ OĞLUM AYDININ XATİRƏSİNƏ

Sən mənim ətirli baharım idin,
Varım, malım-mülküm, madarım idin.
Aydınım, ölümün belimi bükdü,
Sən mənim səbrimdin, qərarım idin,
Səbr-qərarımı apardı fələk.

Dərdin ürəyimi yandırıb-yaxır,
Göz yaşım qurumur, sel olub axır.
Dağ çəkir bağrıma yoxluğun, oğul,
Sən mənim xoş günüm, güzarım idin,
Xoş gün-güzarımı apardı fələk.

Dünyadan köçəndə ata-analar,
Onları məzara oğul aparar.
Səni ata qoydu məzara, əfsus,
Sən mənim qürurum, vüqarım idin,
Qürur-vüqarımı apardı fələk.

Kaş səni aparan məqamda əcəl
Məni aparaydı məzara əzəl.
Sən düşmən çəpəri-hasarım idin,
Əsdi qara yellər, acı bəxtinə
Söküb hasarımı apardı fələk.

Oğul, ayrılığın yamandır, yaman,
Bir Allah bilir ki, nə çəkir anan.
Deyir:-Sən tər gülüm, nübarım idin,
Ətrindən, tamından kama yetməmiş
Alıb nübarımı apardı fələk.

## OĞUL

Aydın, el qeyrətli, hünərli övlad,
Varlığım, həyatım, ürəyim oğul.
Aydın, ey qəhrəman şöhrətli övlad,
Ömrümün mənası, köməyim oğul.

Çəkdiyim zəhmətlər getmədi hədər,
Böyüdün sən oldun bir şanlı əsgər!
Düşməni məhv edib göstərdin hünər,
Fəxrim, sədaqətim, gərəyim oğul.

Vətənin yolunda keçdin canından,
Keçdin varlığından, qızıl qanından.
Keçdin şəhidliyin imtahanından,
Sənə halal olsun çörəyim, oğul!

Torpağın, millətin çəkdin qeyrətin,
Hifz etdin namusun, arın, ismətin,
İçdin şəhidliyin şirin şərbətin
Behişti qazandın, mələyim oğul!

## TALE YAZISI

Sən müqəddəs tutdun Vətəni, Aydın,
Şərəflə qorudun bayrağımızı.
Sən ata-ananın ucaltdın adın
Qanınla bəzədin torpağımızı.

Dözmək yoxluğuna çətin olsa da,
Səbr edib dözürük qürurla dərdə.
Qəlbimiz qəmindən qanla dolsa da,
Başımız ucadır hər bir nəzərdə.

Taleyin hər kəsə var bir yazısı,
Heç kəs poza bilməz bu yazılmışı.
Kiməsə qismətdi ömrün acısı,
Kiminsə eyşdən ayrılmır başı.

Kiməsə taleyi yaşadır hədsiz,
Kiməsə verməyir aman, aparır.
Kiməsə içirir zəhəri qəndsiz,
Qəfil bu dünyadan cavan aparır.

Bilmirəm fələyin nə idi qəsdi?
Arzumca, rəyimcə mədar etmədi.
Bilmirəm qara yel haradan əsdi?
Ömürün qışını bahar etmədi.

Naz ilə böyütdük, bəslədik səni,
İllərlə çox çəkdik əziyyətini.
Aqibət bir kafir, rəzil erməni
Əydi bir gülləyə düz qamətini.

Gözəl arzuların qəlbində qaldı,
Xəzan tez yetişdi çiçək açmadı.
Ölüm vaxtsız gəlib üstünü aldı
Arzun güllənmədi, ətir saçmadı.

Könlünü vermişdin Könül xanıma
O da varlığıyla sevirdi səni.
Deyirdi: ilahi, dəymə Aydına
Aydına dəyincə, gəl apar məni.

Əfsuslar olsun ki, nişan üzüyün
Qaldı göz dağı tək öz evimizdə.
Pozuldu taleyin, toyun, düyünün
Əbədi dərd oldu ürəyimizdə.

Sən mənim bal balam, şirin-şəkərim,
Gözümün işığı, çırağım idin.
Sən mənim həyatım, nurlu səhərim,
Ömrümün mənası, dayağı idin.

Sənsiz heç istisi yox ocağımın
Ürəyim qan ağlar, göynədər məni.
Sən idin bəhrəsi arzu bağımın
Hər an həsrət gözüm axtarır səni.

Anan xatirə tək danışıb ağlar
Qardaşın Cavadla güləşməyindən.
Nicatı aramsız öpüb qucaqlar
Deyirdin qalma heç nigaran məndən.

Mən sənə ayrı yol axtaran zaman
Şəhidlik yolunu seçib bəyəndin.
Mən sənə xaniman, ev quran zaman
Sən əbədi olan cənnətə endin.



**Ailə portreti**



**Xoş gördük, məktəb!**




**Aydın birinci sinfə qədəm qoyarkən**





**Xoşbəxt uşaqlıq**



Yeniyetməlik çağları




Dostlar sağ olsun



**Aydın qardaşı qızı balaca Leyliylə**



Doğmalar arasında



**Baxıb xatırlama, xatırlayıb bax**



**Hərbçi dostları ilə toy məclisində**



**Bir an da insan ömrüdü...**



**Döyüş səngərində**



**“Vətən mənə oğul desə nə dərdim...”**









**Aydın bu əlcəklərlə çox yarışların qalibi olmuşdu**







**Aydın Abdullayevin ata babası Bəh-**



**Aydın Təlim Tədris Mərkəzində atası Əmirsoltan və anası  Sevil xanımla görüşərkən**



Aydın əsgər dostları ilə



Sağlam bədəndə sağlam ruh
olar







**Aydın yaxınları ilə toy məclisində**



Aydının hərbi forması




Şəhid Aydın Abdullayevin döyüş yoluna həsr olunmuş fotostend



**Şəhidin ailə üzvləri**



**Sevil xanım bacıları**
**Tamilla, Esmira, Sənubərlə birlikdə**



**Dəfn zamanı yaşanan izdiham**




**Şəhidin məzarı hər zaman gül-çiçəklə doludur**



Dəfn mərasimində icra nümayəndəsi də iştirak edirdi



İgid ölər adı qalar. Aydının yas məclisində

# Vətən sağ olsun!
# Doğmaları şəhid Aydın Abdullayevin məzarı başında







ŞƏHİD
AYDIN
ƏMİRSOLTAN OĞLU
ABDULLAYEV
29.11.1990 – 16.1.2013


ŞƏHİD
AYDIN
ƏMİRSOLTAN OĞLU
ABDULLAYEV




Allah Rəhmət elesin!

# Aydının əlyazmaları

Bağışla ana.

Övlad dedi: nə imiş bilmirdim
Çünki o dərdi heç vaxt görməmişdim
Qədrini vaxtında bilə bilmədim.
Bağışla ay ana, bağışla məni.
Ayrılıq güllləsi yaralar məni
Səni bu dünyada sevərək məni
Tutub şaxtalara apardı məni

Yarımçıq məktub burdadır mənim
Bu ata sözləri yaddaşımda mənim
Harda yaşadığını bilmədim sonra
Bir başa iz tutdum mən gəldim ora
Bir vaxt mənim olan yarımı gördüm
Tanımaq üçün mən geri döndüm
Aydın deyə səslədi məni
Düşündüm yenə o sevir məni.

Cəsarət eləyib mən geri döndüm
Belə dəhşətli mənzərə gördüm.
Bütün yaşananlar, yaşanmış keçmiş
Çağırdığı Aydın [illegible] imiş.

Bir daha həyatda görüşüm olsa
Ah çəkib bağladım ömür kitabı.



Həyat maraqlıdır, çoxdur əzabı
Elə buradan yazır ömür kitabı
Açdım bir istəyə oxuyum bilim
Mövzu belədir xoşbəxt ol sevgilim.
2 aydır Vətənə xidmət edirəm
Yarımla yazılı söhbət edirəm.

Bağışla ay ana, bağışla məni,
Vətənin borcunu verib gələrəm.
İnşallah yanına qayıdacağam.
Öpüb əllərini, ayaqlarını
Ana laylasını dinləyəcəyəm

AnA.

Ananın qədrini bilməyən oğlan
Əsgərlik vaxtını çatanda bilər.
Ana əllərinin hərarətini
Soyuqda durub donanda bilər.
Uşaq vaxtı incitmişəm nə qədər səni
Yazdığım sözlə bağışla məni.

Açmaq istəsən bu bloknotu
Bil ki, burada bir türk yatır
Astaca çevir səhifələrini
Əsgərlik illərindən xatirə yatır.





Qardaş.

Sağ əlini çiynimə qoyan zamanda
Ürəyimi açırdın hamısın o anda
Düşünüb əzizimi saxlaram yada
Bax belə səndən ötrü darıxıram qardaş.
Qardaşım ürəyimdə əsas qanımda.
Atam sevinib ... o qaldı.

25 DEKABR



Ana.

Biz oğul böyütdü zəhmətlə ana
Bu yolda dərd düşdü ana sağına
Kainat heyrandır sənin laylana
Hörmətlə yaşayır ... anam...



... hissə

Qaqaş Nicat 070-734-17-83
Qaqaş Cavad 055-659-22-71
MN. MEHMAN 050-323-90-79
Behruz 070-277-36-03
Mərid 070-748-15-61
Tanış Qohum 055-615-07-11
Tanış Qohum 055-677-13-60
Tanış Qohum 050-590-56-28

1 il 6 ay

548 GÜN...
78 HƏFTƏ...
13158 Saat...

Qalıb...
395 gün
56 həftə
1185 çörək
56 hamam
1 mazut yat (palçına)
2 patinka
1 yay, 1 qış forma
24 ədəd corab.






19 FEVRAL Seyfəli Rəfiqənin

AKOPDA
LOMKAÇILIQ

Anadır Atadır həyatın dadı
Atasız Anasız yoxdur çiçəkli
Qardaşdı qardaşa yanan
Atadır oğula arxa dayanan

# Dost.

İnsanı insandan ayıran dünya
Məni də il yarım ayırdı sındın.
Həyatı hərbidə öyrəndim dünya
Dostluğu öyrətdi anlatdı sındım.

Dost sözünün mənasını tapıb öyrənsən.
Dostluq nə olduğunu yaxşı bilərsən.

Məzarda ölümdü dünyanın sonu
Mən ölsəm qəbrimə yazarsız bunu
18 yaşında bir cavan oğlan.
10 qram güllədən köçdü həyatdan.

# Etiraf.

Ağlama sevgilim islanır yaylıq.
Mən əsgər gedirəm 18 aylıq.
Əsgər unutmayıb gözləsin adını
Məndə unutmaram sevgilim adını

İl yarım səfərdən qayıdan zaman.
Ən yaxın dostu qaralar gördüm.
Dünyalar qədər sevdiyim qızın
Yanında köpəyin ağlayan gördüm.



Aydının dəftərindən.




2009
10
210
MİZ
LAQ


Əsgər vurulanda yox,
Unudulanda ölür.

AZƏRBAYCAN RESPUBLİKASI
SİLAHLI QÜVVƏLƏRİNİN
TƏLİM VƏ TƏDRİS MƏRKƏZİ

GİZİR HAZIRLIĞI KURSUNU
BİTİRMƏ HAQQINDA

# SERTİFİKAT

## GH № 708



| | |
|---|---|
| Rütbəsi | : Gizir |
| Soyadı | : Abdullayev |
| Adı | : Aydın |
| Atasının adı | : Əmirsoltan |
| Doğulduğu yer | : Bakı |
| Doğulduğu tarix | : 29.09.1990 |

| | |
|---|---|
| İxtisası | : Qoşun kəşfiyyatı |
| Bitirmə balı | : 61,02 |
| İxtisas dərəcəsi | : 10 / 33 |
| Ümumi dərəcəsi | : 123 / 309 |

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 20.09.2010-cu il tarixdən 05.03.2011-ci il tarixə kimi fəaliyyət göstərən *qoşun kəşfiyyat qrup komaniri üzrə* kursunu bitirmişdir.

Saleh KƏLƏNTƏROV
polkovnik
MƏRKƏZ RƏİSİNİN
TƏDRİS İŞLƏRİ ÜZRƏ
MÜAVİNİ-ŞÖBƏ RƏİSİ

Fikrət İBRAHİM-ZADƏ
polkovnik
MƏRKƏZ RƏİSİ




# DİPLOM

Abdullayev Afiq

(adı və soyadı)

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş **Aydın Soltan oğlu Abdullayevin** xatirəsinə həsr olunmuş "Yunan roma" güləşi üzrə turnirdə 26 kq. çəki dərəcəsində ______ yaş qrupunda, I yerə layiq görüldüyü üçün

**TƏLTİF OLUNUR**

Suraxanı Rayon Gənclər və İdman İdarəsinin rəisi
Amil Bağırov

"Zəfər" İdman Klubunun direktoru
Eldar Məmmədov

22 may 2016-cı il

# FƏXRİ FƏRMAN

*qizir Abdullayev Aydın Əmirsoltan oğlu*

**Döyüş və ictimai siyasi hazırlıqda əldə etdiyi yüksək nailiyyətlərə, eləcədə**

**"26 İYUN SİLAHLI QÜVVƏLƏRİN yaranmasının 95-ci ildönümü"**

**münasibəti ilə**

**TƏLTİF OLUNUR**

**703 saylı hərbi hissə komandiri**

**polkovnik-leytenant Şükür Həmidov**

**26.06.2013**

# FƏXRİ FƏRMAN

*gizir*

***ABDULLAYEV AYDIN ƏMİRSOLTAN oğlu***

***2013-cü ilin birinci tədris dövründə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə və 26 İyun-Silahlı Qüvvələrin Yaranması Günü münasibəti ilə***

***TƏLTİF OLUNUR***

***051 saylı hərbi hissənin komandiri***

***general-mayor*** ***Nizam OSMANOV***

*«26» iyun 2013-cü il*

# FƏXRİ FƏRMAN

**Gizir Abdullayev Aydın Əmirsultan oğlu**
**Döyüş və ictimai siyasi hazırlığında**
**əldə etdiyi yüksək nailiyyətlərə,**
**nümunəvi hərbi intizamına görə, eləcədə**
**"31 dekabr Dünya Azərbaycanlıların**
**Həmrəyliyi günü və yeni 2013-cü il"**
**münasibəti ilə**

## TƏLTİF OLUNUR

**Anar Tarverdiyev**
**p-k/l-nt**
**703 saylı Hərbi Hissə**
**Komandiri**

**31.12.2012**

**AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ**
**SURAXANI RAYON GƏNCLƏR VƏ İDMAN İDARƏSİ**



# DİPLOM

Əliyev Əmil B.
(adı və soyadı)

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş **Aydın Soltan oğlu Abdullayevin** xatirəsinə həsr olunmuş "Yunan roma" güləşi üzrə turnirdə 40 kq. çəki dərəcəsində 10 yaş qrupunda, I yerə layiq görüldüyü üçün

## TƏLTİF OLUNUR

Suraxanı rayon Gənclər və İdman İdarəsinin rəisi
Amil Bağırov

"Zəfər" İdman Klubunun direktoru
Eldar Məmmədov

BAKI şəhəri 04 oktyabr 2015-ci il

# TƏŞƏKKÜR MƏKTUBU

Hörmətli valideyn Abdullayev Əmirsoltan!

Oğlunuz Abdullayev Aydın Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşçüsü kimi öz borcunu dərindən dərk edir, Azərbaycan Respublikası Konstitusiyasının, Hərbi Nizamnamələrin, yuxarı komandanlığın, hərbi andın tələblərini layiqincə yerinə yetirir, hərbi və dövlət sirrini qorumağı bacarır.

Oğlunuz Abdullayev Aydın hərbi hissədə xidmət etdiyi ilk günlərdən özünü nümunəvi, vicdanlı və intizamlı bir əsgər kimi göstərmişdir. Vəzifə borclarının icrasına vicdanla yanaşır. İntizamlıdır, nalayiq hərəkətlər etmir və yoldaşlarını belə hərəkətlərdən çəkindirir. Ona həvalə edilmiş vəzifələrin öhdəsindən layiqincə gəlir, verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirir.

Kiçik çavuş Abdullayev Aydın ona inanılmış silahı və döyüş texnikasını bilir, həmişə saz, təmiz və döyüşə hazır vəziyyətdə saxlayır. Şəxsi və dövlət əmlakını qorumağı bacarır, digər əsgər yoldaşları üçün nümunədir.

Oğlunuz Abdullayev Aydını Vətənə layiqli bir övlad kimi yetişdirdiyinizə görə hərbi hissənin komandanlığı sizə öz minnətdarlığını bildirir, çox sağ olun deyirik.

HƏRBİ HİSSƏ 777

**Münasib BABAYEV**
**polkovnik-leytenant**
**777 SAYLI HƏRBİ HİSSƏ**
**KOMANDİRİ**

# DİPLOM



ƏZİZBƏYOV RAYON TƏHSİL ŞÖBƏSİ
RAYON UŞAQ GƏNCLƏR İDMAN MƏKTƏBİ

**YUNAN – ROMA GÜLƏŞİ ÜZRƏ
UŞAQLAR VƏ YENİYETMƏLƏR ARASINDA
ƏZİZBƏYOV RAYON AÇIQ BİRİNCİLİYİ**

Abdullayev Aydin – 65 kq

«10» aprel 2005 – ci il tarixdə
Bakı şəhəri Əzizbəyov rayonu Təhsil şöbəsinin təşkil etdiyi güləş turnirində III yerə layiq görülmüşdür.

UGİM-nin DİREKTORU: / [signature] / M.QULİYEV

Uşaq Gənclər İdman Məktəbi

2005

AZƏRBAYCAN RESPUBLİKASI
WKC "QOCYU-RYU" KARATE-DO
FEDERASİYASI

W.K.C. karate növləri

# DİPLOM

## II YER

HÖRMƏTLİ Aydın Abdullayev SİZ 11 APREL 2004-CÜ İL TARİXDƏ SAATLI RAYONUNDA WKC "QOCYU-RYU" KARATE-DO NÖVÜ ÜZRƏ KEÇİRİLƏN AÇIQ ZONA ÇEMPİONATINDA 50 KQ ÇƏKİ DƏRƏCƏSİNDƏ ikinci 14-15 yaş YER TUTMUSUNUZ.

SİZİ TƏBRİK EDİRİK!

"QOCYU-RYU" KARATE-DO FEDERASİYASININ PREZİDENTİ:

N.X.QULİYEV

"QOCYU-RYU" KARATE-DO FEDERASİYASININ REGİONAL PREZİDENTİ:

R.E.HÜSEYNOV



İgidlər işdə seçilər!

Üçüncü dərəcəli

Diplom

«Məhsul» kənd könüllü idman cəmiyyəti Azərbaycan Respublika şurası təltif edir:

Abdullayev Aydın (Pəhləvan)

Yeniyetmələr arasında "Məhsul" KKİC-nin Respublika Şurasının Yunan-roma güləşi üzrə açıq birinciliyində 63 kq.çəki dərəcəsində III yeri tutduğuna görə

Sədr A.MİRMƏMMƏDOV

Bakı şəhəri 5-7 may 2005 il



AZƏRBAYCAN RESPUBLİKASI
"QOCYU-RYU" KARATE-DO FEDERASİYASI

DIPLOM

Hörmətli Abdullayev Aydın Əmirsoltan oğlu 50 kq
26 oktyabr 2003-cü il WKC növləri
üzrə Qazax rayon Milli Dirçəliş gününə həsr olunmuş turnirdə
bacarıq göstərərək II (ikinci) yerə
Layiq görülürsünüz.

TƏBRİK EDİR, MÜVƏFFƏQİYYƏTLƏR ARZULAYIRIQ!

Azərbaycan Respublikası
Qocyu-Ryu Karate-Do
Federasiyasının Prezidenti
NÜRƏDDİN XANKİŞİ OĞLU
QULİYEV

Qazax 2003



Sarıyeva İradə Murad qızı (İradə (Kövrək) 1978-ci il sentyabrın 15-də Bolnisi rayonunun Dəllər (Muşevani) kəndində aşıq-sazbənd Sarıyev Murad Əli oğlunun (Murad Kövrək) ailəsində anadan olub. 2000-ci ildə Azərbaycan Beynəlxalq Universitetinin jurnalistika fakültəsini bitirib. Azərbaycan radiosunun «Xalq yaradıcılığı» redaksiyası ilə əməkdaşlığa başlayıb. Bu əməkdaşlıq tələbəlik illərində də davam edib. Yazıları müxtəlif qəzetlərdə nəşr edilib. 2003-cü ildə «Hürriyyət» qəzetində əmək fəaliyyətinə başlayıb. 2005-ci ildən «Bakı-Xəbər» qəzetinin müxbiridir. Ailəlidir. Bir oğlu var.

**Korrektorlar:** Kamilə DİLBAZİ
Aybəniz SADIQOVA

**Texniki redaktor:** Dilarə HÜSEYNOVA

**Dizayn:** Cəfər KƏRİMOV

*Yığılmağa verilmişdir 05.09.2017.*
*Çapa imzalanmışdır 27.10.2017.*
*Kağızın formatı 84x108 1/32.*
*Ofset çapı. Kağız № 1.*
*Sifariş №63*
*Tirajı: 500*